AZƏRBAYCAN DİLİ

DƏRSLİK

10

Azərbaycan Respublikasının Dövlət Himni

Musiqisi Üzeyir Hacıbəylinin,
sözləri Əhməd Cavadındır.

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

HEYDƏR ƏLİYEV

AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ

TOFİQ HACIYEV
SAMİRƏ BEKTAŞİ
YEGANƏ HÜSEYNOVA

AZƏRBAYCAN DİLİ
10

Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün
Azərbaycan dili (tədris dili) fənni üzrə

DƏRSLİK

Bu nəşrlə bağlı irad və təkliflərinizi
info@eastwest.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB
BAKI 2018

MÜNDƏRİCAT

Giriş 5

Layihə işi 7

1-ci bölmə

Dil və cəmiyyət

1. Dil 12
2. Cəmi 40 söz 16
3. Hər şey su ilə başladı 26
4. Bəşəriyyətin yaddaşı – yazı 34
5. Arzum jurnalist olmaq idi 42

2-ci bölmə

Təbiət və biz

1. Muğan 54
2. Şollar su kəməri 62
3. Xəzər dənizi 70
4. Çinarın şikayəti 80
5. Birlik 86
6. Şəhidlər 90

3-cü bölmə

Ailə və cəmiyyət

1. Sevgi ağacı 94
2. “Sən” dili əvəzinə, “mən” dili 102
3. Məndən ötdü, qardaşıma dəydi 110
4. Dua edən əllər 120
5. Mirzə Səfər 126

4-cü bölmə

Milli irsimiz

1. “Tarix və Mədəniyyət Abidələrinin Qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu 138
2. Vatikandan gələn var 144
3. Əsir ağacın hekayəti 154
4. Azərbaycan mədəniyyət inciləri Fransada 160
5. Bahar nəğmələri 170
6. İldırımlı yollarla 180
7. Azərbaycanın milli geyimləri 186

Lüğət 194

Dərslikdə ixtisarla verilmiş şəxs adları 205

İstifadə olunmuş ədəbiyyat 207

Şərti işarələr:

- – Dinləyib-anlama və danışma
- – Yazı
- – Nitqi zənginləşdirmə
- – Dil qaydaları
- – Qrammatik sual və tapşırıqlar

G İ R İ Ş

Əziz şagirdlər!

Siz indiyə qədər Azərbaycan dili haqqında müxtəlif məlumatlar almış, onun fonetik sistemi, leksik tərkibi, qrammatik quruluşu barədə əsas biliklərə yiyələnmişsiniz.

Hər bir azərbaycanlı dilimizin fonetik, leksik, qrammatik qaydalarını bilməli, onlardan düzgün, dəqiq və yerli-yerində istifadə etməyi bacarmalıdır. Bu, bir tələb kimi hamının qarşısında duran vəzifədir.

Lakin cəmiyyət bilik, bacarıq və ixtisasından asılı olaraq müxtəlif səviyyəli insanlardan ibarət olduğu kimi, onların hər birinin dildən istifadə imkan və bacarıqları, habelə tələbləri də fərqlidir.

Digər tərəfdən, müxtəlif ixtisas sahiblərinin peşə tələblərindən asılı olaraq, dilin bu və ya digər vasitələrindən istifadə imkanları da bir-birindən fərqlidir. Hər bir peşə, ixtisas sahibi bu özəllikləri bilməlidir ki, müvafiq sahədə fikirlərini daha dəqiq ifadə edə bilsin.

Sizə təqdim olunan yeni dərslik vasitəsilə ədəbi dilin norma və üslubi xüsusiyyətləri ilə bağlı ilkin məlumatları alacaq, əsas bacarıqlara yiyələnəcəksiniz.

Bu yolda sizə uğurlar diləyirik!

Əziz şagirdlər! Bu tədris ilində siz daha bir layihə üzərində işləyəcəksiniz: qəzet maketi hazırlamağı öyrənəcəksiniz.

Bu il sizə təqdim olunan layihə ilk baxışdan çətin görünsə də, düşünürük ki, bu işin öhdəsindən layiqincə gələcəksiniz.





LAYİHƏNİ HAZIRLAMAQ ÜÇÜN:

- İlk gündən qruplara bölünün.
- Hər qrupun vəzifələrini, görəcəyi işləri müəyyənləşdirin.
- Görəcəyiniz işlər:
  - Materialları toplamaq (ilboyu hazırlayacağınız mətnlər, hekayələr, məqalələr; məktəbinizdə keçiriləcək tədbirlər, sorğular və s.);
  - Mətnlərin orfoqrafik cəhətdən düzgünlüyünü yoxlamaq;
  - Cümlələrin ədəbi dil normalarına uyğunluğunu yoxlamaq;
  - Mövzuya uyğun şəkillər toplamaq;

  Siz maketi hazırlamaq üçün ***Microsoft publisher*** proqramından istifadə edə bilərsiniz.

  Qəzetdəki bölmələr, rubrikalar və s. haqqında sxem 192-193-cü səhifələrdə verilmişdir.

İl ərzində mətn üzərində iş aparmaq üçün bu sxemdən istifadə edəcəksiniz.




sözlərin publisistik üslubda funksiyası
sözlərin məişət üslubunda funksiyası
sözlərin rəsmi-işgüzar üslubda funksiyası
LÜĞƏT TƏRKİBİ
sözlərin bədii üslubda funksiyası
sözlərin elmi üslubda funksiyası
müxtəlif cümlə konstruksiya-larından istifadə
SİNTAKSİSİ
durğu işarələrindən istifadə
ədəbi normalar və onların tələblərinə əməl edilməsi

1-ci BÖLMƏ

DİL VƏ CƏMİYYƏT

- Dil
- Cəmi 40 söz
- Hər şey su ilə başladı
- Bəşəriyyətin yaddaşı – yazı
- Arzum jurnalist olmaq idi

Hər bir xalq öz dili ilə yaranır

Ümummilli lider Heydər Əliyev

Hər bir xalq öz dili ilə yaranır. Ancaq xalqın dilini yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur.

Heydər Əliyev
Ümummilli lider

- Bölmənin epiqrafına diqqət yetirin, yoldaşlarınızla aşağıdakı suallar ətrafında fikir mübadiləsi aparın.

  - Bölmə nə üçün “Dil və cəmiyyət” adlandırılıb?
  - Dilin formalaşmasında cəmiyyətin hansı rolu vardır?
  - “Dil cəmiyyətin məhsuludur” fikri ilə razısınızmı?
  - Dil cəmiyyəti formalaşdıra bilərmi?
  - Dil nə üçün ictimai hadisə hesab edilir?

1

1. Aşağıdakı kəlam və mətnləri düzgün tələffüz qaydalarına uyğun oxuyun.

Üzeyir Hacıbəyli

1

Hər bir millətin bütün milliyətilə bəqasına (*əbədiliyinə*) baş səbəb onun dilidir və dilinin tərəqqisidir. ... bir millətin də ki dili batdı, onda o millət özü də batar...

Nəriman Nərimanov

2

Ana dili! Bir dil ki mehriban bir vücud öz məhəbbətini sənə bu dildə bəyan edir. Bir dil ki sən hələ beşikdəykən bir layla şəklində öz ahəng və lətafətini sənə eşitdirib, ruhun ən dərin guşələrində nəqş bağlıyıbdır.

müdriklərin nəzərində

söz ustalarının nəzərində

dilçi alimin nəzərində

Afad Qurbanov

3

Dil dilçilik elmi tərəfindən öyrənilir. Dil ictimai əmək prosesində insanlar arasında ünsiyyət vasitəsi kimi meydana (*çıxmışdır, çıxmışdı*). Ünsiyyət müxtəlif vasitələrlə ola bilər. Lakin dil bu ünsiyyət vasitələrindən fərqlənərək onların ən (*başlıcasıdır, başlıcasıdı*). İnsanlaşma ilə bərabər formalaşmış dil cəmiyyətin həyatında böyük rol (*oynamışdır, oynamışdı*).

Dil insanların sosial tələblərini ödəmək qazanılmış naliyyətləri möhkəmləndirmək və başqalarına çatdırmaqda əvəzsiz (*vasitədir, vasitədi*). Dünyada iki növ dil mövcuddur təbii və süni dillər. Təbii dillər tarixən cəmiyyət kollektivləri tərəfindən yaranmış və tədricən (*formalaşmışdır, formalaşmışdı*). Təbii dil hər bir xalqın doğma və əsas dilidir. Süni dil isə köməkçi xarakterə malikdir. Hər bir süni dilin layihəsi ayrı-ayrı şəxslər tərəfindən irəli sürülür. Süni dil təbii dillər əsasında yaranır.

Xəlil Rza Ulutürk

4

İllər ötdü, yaşa doldum.
Anladım ki, ana dilim
Ürəyimdən çıxmaz mənim,
Doğransam da dilim-dilim.
Anladım ki, sinəmdəki sözlər deyil,
Babaların nəfəsidir.
Bu dildədir yüz abidə, min abidə!
Xilafəti parçalayan Babəkimin qəzəbi də!
Məhv olarsa bir gün bu dil;
Göygöl onda Göygöl deyil,
Qoşqar onda Qoşqar deyil,
Qız qalası qala deyil.
Öz dilini sən qala bil!
...Sağdır dilim,
Demək sağdır ləyaqətim şərafətim
Sağdır demək milyard yaşlı məmləkətim.
...Kim qorumur öz dilini,
İtsin mənim gözümdən qoy ilim-ilim!
O sahili bu sahilə birləşdirən,
Polad körpüm, qılıncımdır, günəşimdir
Mənim dilim!

Tofiq Bayram

5

Bu gün azad dilli Azərbaycanam!
O taylı, bu taylı vahid bir canam.
Baxır ögey kimi ağbirçək anam
Öz ana dilini bilməyənlərə!

Bu dil cəngi səsim, ana laylamdır.
Vətəndaş sözünü demək haramdır
Vətənin karına gəlməyənlərə.
Bu qanun ən ağır bir ittihamdır
Öz ana dilini bilməyənlərə!

Abbas Səhhət

6

Biz dünyanı dilimiz vasitəsi ilə öyrəndik, dilimiz vasitəsi ilə tərbiyə tapdıq.

Bəxtiyar Vahabzadə

7

Bu dil tanıtmış bizə bu dünyada hər şeyi,
Bu dil əçdadımızın bizə miras verdiyi
Qiymətti xəzinədir... Onu gözlərimiz tək
Qoruyub nəsillərə biz də hədiyyə verək.

...Bizim uca dağların sonsuz əzəmətindən,
Yatağına sığmayan çayların hiddətindən,
Bu torpaqdan, bu eldən,
Elin bağrından qopan yanıqlı nəğmələrdən,
Güllərin rənglərindən, çiçəklərin ətrindən,
Mil düzünün, Muğanın sonsuz genişliyindən,
Ağsaçlı babaların əqlindən, kamalından,
Düşmən üstünə cuman o Qıratın nalından
qopan səsdən yarandın.
Sən xalqımın aldığı ilk nəfəsdən yarandın.

2. Dil dedikdə nə başa düşürsünüz?
3. *Dil* sözü nə üçün *ana* sözü ilə yanaşı işlənir?
4. Nə üçün dil ünsiyyət vasitəsi hesab edilir? Daha hansı ünsiyyət vasitələrini tanıyırsınız?
5. Hər üç şairin şeirlərini müqayisə edin. Hansı nəticəyə gəldiniz? Müxtəlif illərdə və müxtəlif şəxslər tərəfindən yazılmasına baxmayaraq, bu şeirlərdə ümumi fikir nədən ibarətdir?
6. Ümummilli lider H.Əliyevin "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir" müdrik kəlamı hansı şairin fikirləri ilə daha çox səsləşir? Fikrinizi əsaslandırın. Eyni fikirlərin təqdimedilmə formalarına diqqət yetirin. Hansı fərqləri müşahidə edə bildiniz?
7. X.R.Ulutürk öz dilini qala hesab etməkdə haqlıdırmı? Fikirlərinizi əsaslandırın.
8. Bədii nümunələrdə dil müxtəlif obyektlərə bənzədilir. Onları seçib yazın. Hər 3 nümunədən seçilmiş bənzətmələrin işlənmə səbəbini izah edin.



✓ *Nə üçün 3-cü mətndə bənzətmələrdən istifadə olunmamışdır?*

9. 1-ci və 2-ci kəlamların hansında fikir daha çətin anlaşılır? Səbəbini izah etməyə çalışın. Məzmununu saxlamaqla həmin kəlamı sadələşdirin.
10. 12-ci və 13-cü səhifələrdə verilmiş mətnləri qarşılaşdırın. Onlar bir-birindən nə ilə fərqlənir? Mətnləri oxuduqdan sonra hansı nəticəyə gəldiniz?

ORFOQRAFİYA

Hansı səhv yazılmışdır?

- 1-ci nümunədə
- 2-ci mətnin ikinci cümləsində
- 3-cü mətnin ikinci abzasında
- 6-cı nümunədə
- 7-ci nümunənin birinci bəndində

ORFOEPİYA

- 1-ci və 5-ci nümunələrdə çərçivəyə alınmış sözlərin tələffüzünü yazın. Fərq müşahidə etdinizsə, səbəbini deyin.
- 4-cü bədii nümunədə çərçivəyə alınmış sözlərdən hansında *d* samiti fərqli tələffüz olunur? Səbəbini izah edin.
- 7-ci nümunədə tələffüz zamanı hansı sözlərdə samit qoşalığı yaranır?

11. Hansı fikir daha dəqiqdir?
    - Dil omonim sözdür.
    - Dil çoxmənalı sözdür.
    - Dil həm çoxmənalı, həm də omonim sözdür.

    ✓ *Seçəcəyiniz cavabı nümunələrlə əsaslandırın.*
12. *Ağır ittiham* birləşməsində hansı söz məcazi məna daşıyır? Həmin sözü həqiqi mənada da işlədin. *Ağır* sözünü işlətməkdə T.Bayramın məqsədi nədir?
13. 4-cü və 7-ci mətnlərdə tünd şriftlə verilmiş cümlələrdə hansı sözlər sinonimdir? Həmin sözün antonimini tapın.
14. *Vətənin karına gəlməyənlərə* birləşməsində *kar* sözünün ifadə etdiyi mənanı müəyyənləşdirin. Həmin sözü fərqli mənada cümlədə işlədin. Sözün omonim olub-olmadığını müzakirə edin.
15. Bədii nümunələrdə verilmiş omonim sözləri seçib mətndəki mənasını izah edin.

16. 3-cü mətndə mötərizədə verilmiş sözlərdən hansı işlənərsə, fikir daha düzgün olar? Fikrinizi əsaslandırın. Feillərin qrammatik formalarını fərqləndirin.
17. 3-cü və 4-cü mətnlərdə altından xətt çəkilmiş cümlələrdə durğu işarələrini bərpa edin.
18. 2-ci mətndə *ki* hissəciyindən sonra vergülün qoyulmasına ehtiyac varmı? Niyə?
19. X.R.Ulutürkün "Mənim dilim" şeirindən ixtisarla verilmiş nümunədə tabeli mürəkkəb cümlələri seçib durğu işarələrindən düzgün istifadə edildiyini əsaslandırın.
20. *Öz dilini sən qala bil!* cümləsindən sonra nida işarəsi işlənməsinin səbəbini izah edin.
21. *Kim qorumur öz dilini, İtsin mənim gözümdən qoy ilim-ilim!* tabeli mürəkkəb cümləsinin tərkib hissələri hansı vasitə ilə bağlanmışdır? Söz sırasını gözləməklə cümləni yazın. Hər iki cümləni müqayisə edin. Şeir dilində söz sırasının pozulma səbəbini izah etməyə çalışın.
22. 4-cü mətndə fərqləndirilmiş hissədə tələffüz zamanı hansı samit daha qabarıq səslənir?

23. Verilən mətnlər əsasında (səh. 12–13) fikirlərinizi ümumiləşdirib bir hissəsi verilmiş cümlələri tamamlamaqla kiçik mətn tərtib edin.

    Verilmiş nümunələrdən belə qənaətə gəldim ki, ...

    Qədim tarixi olan dilimiz ..... .

    Zaman-zaman mütəfəkkirlər, söz ustaları ..... , onu vəsf etmiş, ...

    ✓ *Həmin mətni hazırlayacağınız qəzet maketinin müvafiq bölmələrində yerləşdirin.*

2 CƏMİ 40 SÖZ

(*ixtisarla*)

1 1920-ci ildə bir dəstə hindli meşəlikdə yerləşən kəndləri səyahətə çıxmışdılar. Dəstədə olan hind (*psixoloqu, psixiatrı*) Rid Sinqh Qodamuri kəndində yerli sakinlərdən meşədə qəribə bir canlının yaşadığını eşidir. Sinqh yoldaşları ilə birlikdə bu canlının göründüyü (*sahəyə, əraziyə*) getmiş, onları müşahidə etmək üçün yer hazırlamışdır.

2 Aparılan müşahidələr zamanı Sinqh görmüşdür ki, əvvəlcə yaşlı canavarlar, sonra iki balası, daha sonra qəribə canlının böyük tayı və nəhayət, kiçiyi yuvadan çıxır. Bu qəribə (*vəhşilərin, yırtıcıların*) bədənləri insana, yerişləri heyvan yerişinə oxşayırdı. *Sinqh onların insan uşağı olduğunu yəqin etmiş, uşaqları diri tutmağı qarşıya məqsəd qoymuşdur*. O, ikinci gün gündüz çağı kənd əhalisi ilə birlikdə həmin yerə gəlib canavarın yuvasını dağıtmağa başlamışdır. Bu zaman erkək canavar çıxıb qaçmış, ana canavar isə balalarını müdafiə etməyə cəhd göstərmişdir. Ana canavar öldürüldükdən sonra yuvanın deşiklərindən birini genişləndirib içəri daxil olmuşlar. Yuvanın dibindən 2 canavar balaları və 2 uşaq tapıb çıxarmışlar. Bunlar qız uşaqları idi. Qızlar üçün kənd evlərindən birində qəfəs hazırlanmış və onlar bir müddət orada saxlanılmış, sonra uşaq



evinə aparılmışlar. Sinqh qızların birinə Kamala, digərinə Amala adı vermişdir. Kamalanın təxminən 8, Amalanın isə 2 yaşı (*vardı, olardı*). Kamala 9 il, Amala isə 1 ilə yaxın insanlarla yaşaya bilmişdir.

3 Rid Sinqh birinci gündən onlarla məşğul olmuş, müşahidələrini gündəliyə qeyd etmişdir. Həmin qeydlərdə qızların mühüm səciyyəvi cəhətləri əks olunmuşdur.

4 **Qızlar canavarlar arasında yaşadıqları üçün heyvan yerişinə uyğun olaraq əlləri və dizləri ilə 4 ayaqla (*gəzmişlər, gəzirmişlər*).** Lakin sürətlə gedəndə dizlərini qaldırıb əl və ayağın köməyi ilə (*qaçmışlar, qaçırmışlar*). Böyük qız xüsusi məşq əsasında ancaq 2 ildən sonra dik – şaquli durmağı öyrənə bilmiş və 6 ildən sonra iki ayaq üzərində gəzməyə alışmışdır.

5 Bu qızların, xüsusilə Kamalanın tərbiyəsi ilə məşğul olan Sinqh və onun arvadı qeyd etmişlər ki, 17 yaşlı Kamala qaçmalı olanda yenə də əvvəllərdə olduğu kimi, dördayaqlı kimi yüyürürmüş.

6 Şəraitlə əlaqədar olaraq qızlar da canavarlar kimi həmişə çiy ət (*yemək*). Uşaq evində saxlanarkən uzun zaman ət və digər şeyləri əldən (*almaq*), yerdən alıb (*çeynəmək*). Yemi və hətta suyu da ilk dəfə iyləmədən dillərinə (*vurmaq*). Suyu dilləri ilə (*içmək*). Qızlardan böyüyünün alt çənəsinin sümüyü və əzələləri çox (*inkişaf etmək*). Kamala iri ət parçasını əlinin köməyi olmadan ağzı ilə (*yemək*), sümüyünü (*gəmirmək*) və (*təmizləmək*). Qızlar yedikləri zaman onlara kimsə (*yaxınlaşmaq*), mırıltıya oxşar

səs (*çıxarmaq*). Sonralar Kamala əllə yeməyi (*öyrənmək*), stəkandan su (*içmək*) və müəyyən dərəcədə insana (*uyğunlaşa bilmək*).

7 **Qızlar müşahidə olunarkən diqqəti cəlb edən cəhətlərdən biri onların gecə həyatı keçirmələri idi.** Belə ki onlar işıqdan, günəşdən qaçırmışlar. Gündüzlər qaranlıq küncə çəkilib üzləri divara (*yatmışlar, yatırmışlar*). Yatanda da bir-birinə söykənirmişlər. **Axşamçağı fəallaşır, oynayır və yem aldıqları yerə gəlib başlarını yuxarı qaldıraraq havanı iyləyirmişlər.** Qızlarda iybilmə olduqca çox inkişaf edibmiş. İlk günlərdə onlar həmişə insandan gizlənməyə cəhd edirmişlər. Sinqhin qeydlərindən məlum olur ki, onlar yuyunmaq istəmirlərmiş. Hətta geyimi də sevmirlərmiş. Buna görə də yenicə geyindirilmiş paltarı həmin andaca cırıb atırmışlar. Hər şeyə biganəlik, heç nəyi öyrənməmək, maraq və həvəs göstərməmək onların səciyyəvi xüsusiyyətləri olmuşdur.

8 Heyvanlar arasında həyat keçirmiş bu qızlarda qətiyyən nitq olmamışdır. Müşahidəçilər qızlarda ancaq bircə səs siqnalı müəyyən etmişlər. Bu səs alçaqdan başlanıb ta zilə qədər (*ucaldılan, yüksələn, hündürləşən, qalxan*) siqnal idi. İlk günlərdə qızlar müntəzəm olaraq hər axşam saat 10-da, gecələr isə saat 1-də və 3-də bu cür siqnal (*vermişlər, verirmişlər*). Sinqh bunu valideyni – canavarları çağırmaq siqnalı kimi izah etmişdir.

9 Sinqh və onun arvadı qızlara nitq öyrətməyə ciddi səy göstərmişlər. Bu məqsədlə bir sıra üsullardan istifadə etmiş, çoxlu təcrübələr aparmışlar. Sinqhin arvadı müntəzəm olaraq qızların yanında danışmış və bu yolla qızları nitqə alışdırmağa çalışmışdır. Xanım Sinqh qızlara yemək verəndə Kamala və ya Amalaya müraciət edib gətirdiyi (*yemin, yoxsa yeməyin*) adını ucadan demiş və bunu təkrar etmişdir. Uşaq evinə müxtəlif növ meyvə, tərəvəz gətirmiş, hər birini ayrı-ayrı göstərərək bunların adlarını oradakı uşaqlara bir neçə dəfə təkrar etdirmişdir. Uşaqlar yemək istədikləri ərzağın adını ucadan tələffüz etmişlər. Xanım Sinqh də həmin şeyin adını təkrar deyərək onlara vermişdir. Bundan başqa, qızlara qısa suallar vermiş, onların cavabını özü söyləmişdir.

10 Qızlara nitq öyrətmək üçün başqa uşaqlarla əlaqə yaratmaq, onlarla oyunlar təşkil etmək təcrübəsindən də istifadə olunmuşdur. Bütün bunların nəticəsində də Kamala ancaq 3 ildən sonra ilk dəfə "bəli" və "xeyr" sözlərini tələffüz edə bilmişdir. O, 17 yaşa çatanda cəmi 40 söz öyrənmişdi. Sinqh göstərir ki, Kamala çox az hallarda bu sözləri demişdir. O bu və ya başqa şeyin adını ancaq təkiddən sonra tələffüz etmişdir. Adətən, sözü bütöv yox, onun ilk hecasını tələffüz edirmiş. Kamala ilk rabitəli cümləni 5 il keçəndən sonra deyə bilmişdi. O, xanım Sinqhə çox meyil etmiş və ona öyrəşmişdi. Bu qadın (*bir neçə vaxt, bir müddət*) uşaqlardan ayrılmışdı. O uşaq evinə gələndə Kamala onun qarşısına qaçmış sevinərək Anam gəldi demişdi. Bununla bərabər çoxlu qarışıq səslər də çıxarmışdır ki, xanım Sinqh onların heç birini başa düşməmişdir.

Ümumiyyətlə, 9 il insanlar arasında yaşamasına baxmayaraq, Kamalanın nitqi lazımi dərəcədə inkişaf etməmişdi.

Afad Qurbanov,
"Ümumi dilçilik" kitabından

1. Mətnə əsasən müəyyənləşdirin:
   - Kamala neçə yaşında dik durmağa başlamışdır?
   - Kamala neçə yaşında iki ayaq üzərində gəzməyə başlamışdır?
   - Kamala cəmi neçə il yaşamışdır?
   - Kamala *bəli* və *xeyr* sözlərini neçə yaşında deyə bilmişdir?
   - Kamala ilk rabitəli cümləni neçə yaşında deyə bilmişdir?
2. Sizcə, Amala insanlar arasında nə üçün cəmi bir il yaşaya bilmişdir?
3. Kamalanın nitqi nə üçün zəif inkişaf edir?
4. Tutaq ki, bu hindli qızlar kiçik yaşlarından meşəyə yox, azərbaycanlı və ya ingilis ailəsinə düşüblər. Onlar danışa biləcəkmi? Danışacaqlarsa, bu hansı dildə olacaq? Niyə?
5. Mətndə hansı ünsiyyət formalarına rast gəldiniz?
6. Aşağıdakı xüsusiyyətlərdən hansılar mətn üçün xarakterikdir?

   ✓ aydınlılıq – dolaşıqlıq ✓ dəqiq – qeyri-dəqiq ✓ sadə – mürəkkəb
   ✓ faktiki – emosional ✓ konkret – mücərrəd ✓ qısa – ətraflı
7. Aşağıdakılardan birini seçib fikrinizi əsaslandırın.
   - Mətn bədii mətndir, çünki _____ .
   - Mətn elmi mətndir, çünki _____ .
   - Mətn nə bədii, nə də elmi mətndir, çünki _____ .
8. Mətnin dili üzərində iş aparın. Qüsurlu cümlələri seçib qrammatik cəhətdən düzgün deyin.
9. "Mauqli" və ya "Tarzan" filmlərindən hər hansı birindən müəyyən hissəyə baxın. Müqayisələr aparıb fikirlərinizi ümumiləşdirin. Nitqinizi düzgün qurun.

10. Mətndə 1-ci, 2-ci və 10-cu abzaslarda mötərizədə verilmiş hansı sözlər cümlədə işlənsə, daha dəqiq olar?
11. Mətndə 4-cü və 7-ci abzasda mötərizədə verilmiş feillərdən hansının işlənməsi daha məqsədəuyğundur?
12. 6-cı abzasda mötərizədə verilmiş feilləri düzgün qrammatik formada işlədin.
13. Fərqləndirilmiş cümlədə *uşaq* sözlərindən hansı yerində işlədilməmişdir? Həmin sözü uyğun sinonimi ilə əvəz edin.
14. 8-ci abzasda mötərizədə olan feili sifətlərdən hansı işlədilsə, fikir dəqiq olar? Sinonimlər cərgəsində hansı söz artıqdır? Niyə?
15. Tünd şriftlə verilmiş cümlələrdə hansı söz və ya birləşmə çıxarılsa, məzmuna xələl gəlməz?
16. Çərçivədəki cümlədə (səh. 17) hansı sözlər bir-biri ilə sinonimdir?
17. Qırmızı rəngdə verilmiş cümlədə (səh. 18) mötərizədəki ifadələrdən hansı işlənsə, daha düzgün olar? Həmin sözlərin bir-birindən fərqi nədir?
18. *Təkid* sözünün leksik mənasını müəyyənləşdirin və sinonimini tapın.

Qızların fotoları 1920-ci ildə Sinqh tərəfindən çəkilmişdir.

1-ci və 3-cü sütundakı hər iki şəkli müqayisə edin, oxşar cəhətləri müəyyənləşdirin. Sizcə, bu oxşarlıq nə ilə bağlıdır?

Məntiqinizə əsaslanıb sual işarəsi qoyulmuş yerdə hansı şəklin olacağını düşünün. Fikirlərinizi əsaslandırın.

?

Canavarlar səs siqnallarından müxtəlif məqsədlərlə istifadə edirlər. Onlar bu səslərə reaksiya verir, nə etmək lazım gəldiyini dərhal müəyyənləşdirirlər. Başçı canavarın ulama səsi ilə verdiyi informasiyanı digərləri diqqətlə dinləyir və bu, dəstəyə ötürülür.

Bu ulaşma, adətən, zingiltili hürmə ilə bitir. Sürünün kollektiv səs "yaradıcılığı" birgə həyatın əlaməti sayılır.

İnsanı heyvandan ayıran ən əhəmiyyətli cəhət danışmaqdır. İnsanlar ilk mərhələdə əl hərəkətləri ilə, daha sonrakı mərhələlərdə qırıq-qırıq səslərlə əlaqə saxlamış və ehtiyaclarını qarşılaya bilmişlər. Səsi heca və sözlərə çevirən insanlar daha sonra danışmağı öyrənmişlər.

19. Şəkillər əsasında canlıların oxşar cəhətlərini müqayisə edin. Fərqli canlılar arasındakı oxşarlığın səbəbini nə ilə izah edərsiniz?

Ulu babalarımız tərəfindən yaradılan əkinçi nəğmələri əvvəlcə bir və iki səsdən ibarət olub, daim təkmilləşmə prosesi keçmişdir. İnsanın ilk "a"ları, "ha"ları, "hə"-ləri, "ho"ları xalq poeziyasının ilk rüşeymlərini təşkil etmişdir.

Bu səslər əsasında isə ilkin misralar – görülən işin ahənginə uyğun ritmlər, səslər sistemi formalaşmışdır. Zaman keçdikcə 1 hecalı nəğmələrdən 2-3 hecalı, 1 misralı əkinçi nəğmələrindən 2-4 misralı əmək nəğmələri yaranmışdır.

Azad Nəbiyev
filologiya elmləri doktoru, professor

20. Mətnləri (səh. 20–21) müqayisə edib fikirlərinizi ümumiləşdirin, sualları cavablandırmağa çalışın.

    Kamalanın insanlar arasına düşəndə 8, Amalanın 2 yaşı vardı. Kamala az da olsa, söz öyrənir. Bəs kiçik yaşlarından insanlar arasında olan Amala niyə heç nə öyrənə bilmir? Nə üçün Kamala sərbəst nitq vərdişlərinə yiyələnmir?

21. Sxemi şərh edin.

0–6 ay: Körpənin qığıldama dövrüdür. Bu dövrdə uşaq müəyyən səslər çıxarır və hecaları ifadə etməyə çalışır.

6–12 ay: Hecaları birləşdirməyə çalışır. Ətrafda eşitdiyi səsləri təqlid edir. Əsasən, ata, ana kimi ikihecalı sözləri deyə bilir.

12–18 ay: Sadə və ikisözlü cümlələr qurmağa çalışır.

18–24 ay: İkisözlü cümlələrin sayı artır. Söz sayı 50-yə yaxındır. Dediyi sözləri başa düşmək çətin deyil.

24–36 ay: Tərkibində ikidən çox söz olan cümlələr qurmağa başlayır. Sözlərdəki hecaların sayı artır.

3–5 yaş: "Mən"li cümlələr qurmağa başlayır. 5 və daha çox sözlü cümlələr qura bilir. Çoxlu suallar verir.



22. *Kamalanın 40 söz öyrənməsinə ... səbəb olmuşdur* cümləsində nöqtələrin yerinə hansı xanalar seçilsə, düzgün olar?

23. Verilmiş hökmlərdən istifadə edərək 2-3 cümlə ilə dilin hansı əhəmiyyətə malik olduğunu deyin.



Dilimiz Azərbaycan dilidir. 12 noyabr 1995-ci ildə qəbul edilmiş Konstitusiyada Azərbaycan dili dövlət dili kimi təsbit olunmuşdur.

Konstitusiyanın 21-ci maddəsində yazılır:

I. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir.

II. Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir.

Azərbaycan dili türk dilləri ailəsinin oğuz qrupuna aiddir.

Dil

insanın özünü ifadə etməsi üçün vasitədir.

insanların əldə etdiyi elmi, texniki və mədəni sərvətlərin bəşəriyyətə çatdırılmasında xüsusi rol oynayır.

elm və təcrübəni əbədiləşdirir, onun yaşamasına və inkişafına kömək edir.

Yer kürəsinin bütün insanlarının bir-biri ilə əlaqə saxlamasına, birinin digərinin elmi kəşfləri, bədii sənət sərvətləri ilə tanış olmasına şərait yaradır.

canlı varlıqlardan ancaq insana məxsusdur.

Zaman və məkanla əlaqədar dilin yazılı formasından daha geniş istifadə olunur.

Dil səs, söz və cümlələrdən ibarətdir.



Əsas ünsiyyət vasitələrindən biri olan dil insanların bir-birini başa düşməsi, əlaqə saxlaması üçün lazımdır. İnsan cəmiyyətində meydana gəldiyi üçün dil ictimai hadisə hesab edilir. Dil yalnız cəmiyyətdə formalaşa bilər.

Dilin yaranması üçün insan orqanizminin fizioloji cəhətdən müəyyən şəkildə formalaşması da vacib şərtlərdən biridir.

İnsan orqanizminin şaquli şəklə düşməsi ilə danışıq üzvləri, səs aparatı formalaşır, səslərin tələffüzü üçün ağ ciyər müntəzəm olaraq tənəffüsü təmin edir. Dil üçün çox vacib sayılan şüurun – təfəkkürün akkumulyatoru rolunu oynayan beyinin müəyyənləşməsi də bədənin şaquli quruluşu ilə bağlıdır. Beləliklə, insan bədəninin şaquli vəziyyətə düşməsi, insanın əməklə məşğul olmasının buna təsiri, eyni zamanda dilin və şüurun yaranması vahid bir ictimai prosesdir.

24. Mətndə (səh. 16) birinci abzasda hansı cümlədə uzlaşma pozulmuşdur? Fikrinizi sübuta yetirin.
25. 16-cı və 18-ci səhifələrdə altından xətt çəkilmiş cümlələri quruluşca eyni formada yazın. Cümlələri quruluş və məzmunca müqayisə edin. Nə müşahidə etdiniz?
26. Mətndə (səh. 18) göy rəngdə verilmiş cümlədə hansı şəkilçilər ixtisar olunmuşdur? İxtisarın səbəbini izah edin.
27. *O uşaq evinə gələndə Kamala onun qarşısına qaçmış sevinərək Anam gəldi demişdi* cümləsində durğu işarələrindən düzgün istifadə edin. Cümlənin sxemini qurun.
28. *Yuvanın dibindən 2 canavar balaları və 2 uşaq tapıb çıxarmışlar* cümləsində hansı qaydanın tələbi pozulmuşdur? Fikrinizi izah edin.
29. *Qızlar üçün kənd evlərindən birində qəfəs hazırlanmış və onlar bir müddət orada saxlanılmış, sonra uşaq evinə aparılmışlar* cümləsinin şəxsə görə növünü müəyyən edin. Onu şəxsli cümlə şəklində yazın. Hər iki cümləni sintaktik cəhətdən təhlil edin.
30. Mətnin (səh. 18) sonuncu cümləsində qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözün qrammatik mənasını müəyyən edin. Sözün cümlədə işlənmə səbəbini deyin.

31. Mətni oxuyun. Tələffüz formasında verilmiş sözləri düzgün yazın. Hansı sözün tələffüzü düzgün deyil?

Uzax keçmişdən başlamış əsrrər boyu müxdəlif ölkələrdə yüzlərlə süni dil layihəsi meydana çıxmışdır. Süni dil ideyası ümumdünya dili yaratmaxnan bağlıdır. Bu layihənin yaradıcılarına görə ümumi dil hamı üçün aydın və asan istifadə edilən bir dil olmalıdır. Volyəpük və esperanto dili ən geniş yayılmış süni dillərdən hesab olunur.

Digər süni dillərdən fərqli olaraq, esperanto dili bədii ədəbiyat üçün də yararlıdır. Bu dil geniş lüğət tərkibinə, zəngin ifadə və təsvir vasitələrinə malikdir. Hər bir dildən esperantoya bədiyi tərcümə etmək olur. Bu tərcümələr içərisində Ömər Xəyyamın rübailəri diqqəti cəlb edir. Esperanto dili elmi məclislərdə, konqres və simpoziumlarda geniş istifadə olunan ünsiyət vasitəsinə çevrilmişdir.

Esperanto dilinin qramatik sistemi türk dillərinə uyğun gəlir. Azərbaycan dilində işlənən beynəlxalq sözlərin çoxuna bu dilin leksikasında rast gəlmək olur. Onun yazısı da latın əlifbası əsasında qurulmuşdur.

(*Afad Qurbanov*)

✓ *Sizcə, bütün insanlar üçün ümumi ünsiyyət dilinin yaranması lazımdırmı? Bunun hansı müsbət və mənfi cəhətləri vardır? Sizcə, ümumtürk dili olmalıdırmı?*

✓ *"Gənclərimizin esperanto dilini öyrənməsi Azərbaycan üçün hansı əhəmiyyətə malikdir?" mövzusunda diskussiya keçirin.*

✓ ***Konqres** və **simpozium** sözlərinin leksik mənalarını müəyyənləşdirin.*

✓ ***Elmi** sözünü həm sifət, həm də isim kimi cümlədə işlədin. Hansı fərqi müşahidə etdiniz?*

✓ ***Beynəlxalq** sözünün son samiti hansı səsdir?*

[x] [q] [ğ] [k']

✓ *1-ci abzasda şəkilçi qəbul edərkən kökündə dəyişiklik baş vermiş sözü müəyyənləşdirin. Şəkilçi qəbul edərkən kökündə dəyişiklik baş verən daha hansı feilləri deyə bilərsiniz? Məs.: uzat – uzadır*

✓ *Faktlardan istifadə etməklə cümləni tamamlayın.*

Azərbaycan dili təbii dildir, çünki ... .

32. Mətn əsasında ("Cəmi 40 söz") kiçik hekayə yazın. Bunun üçün:

1) Əsərdəki obrazları danışdırın, onların təsvirinə və süjetin qurulmasına xüsusi diqqət yetirin.

2) Bədii təxəyyülünüzə əsasən hadisələrə fərqli tərzdə yanaşın, obrazlı ifadələrdən istifadə edin.

33. İmkan daxilində heyvanlar üzərində müşahidə aparıb onların ünsiyyət vasitələrini müəyyən edin. Mülahizələriniz əsasında elmi mətn tərtib edin. Hekayə ilə elmi mətni müqayisə edin. Hansı fərqi gördünüz?

3 HƏR ŞEY SU İLƏ BAŞLADI

(*ixtisarla*)

1. "Səssiz – sözsüz dil yoxdur" fikri ətrafında müzakirə aparın. Bu fikirlə razısınızmı? Niyə?

ORFOEPİYA

- addımlayır [.....]
- başlayır [.....]
- istəyir [.....]
- müxtəlif [.....]

"Bir xoşbəxtlik qapısı bağlananda digəri açılar. Ancaq biz bağlanan qapıya o qədər uzun-uzadı baxırıq ki, bizim üçün açılmış olan yeni qapını görmürük".

Helen Adams Keller

ORFOQRAFİYA

- Mətndə mötərizədə verilmiş sözlərdən hansının yazılışı düzgündür? Seçiminizi əsaslandırın.

Onun adı istər yaşadığı dövrdə, istərsə də ölümündən sonra milli mənsubiyyətindən asılı olmayaraq, müxtəlif təbəqələrdən olan insanlar tərəfindən daim xoş qarşılanmış, xüsusi ehtiramla yad edilmişdir. *Dünya şöhrətli yazıçı Mark Tven onu XIX əsrin iki ən böyük şəxsiyyətindən biri kimi təqdim etmişdir.* Pedaqogika tarixində özünəməxsus yeri olan bu şəxs Helen Adams Kellerdir.

1 Ailənin ilk qız övladı olan Helen maddi cəhətdən imkanlı bir ailədə dünyaya gəlmişdir. 1 yaş 7 aylıq olarkən Helen ağır xəstəlik keçirir bir neçə gün davam edən yüksək hərarət nəticəsində Helen görmə eşitmə və danışma bacarığını itirir. Bu hadisə onun ətraf aləmlə əlaqəsini tamamilə kəsir.

2 Buna görə də Helen tez-tez əsəbiləşir, əlinə keçən qabları qırır və bütün əşyaları dağıdırdı. Çünki gücü yalnız buna çatırdı. Belə vaxtlarda o, yanında olan hər kəsin üzərinə hücum edir, özündən uzaqlaşmaq(*-ır, -dı, -dır*).

Düşünə bildiyi, hiss etdiyi halda görməmək, eşitməmək, danışa bilməmək onu dəli kimi edirdi.

Helenlə ən yaxşı yola gedən şəxs isə ailə (*aşpazının, aşbazının*) kiçik qızı Marta Vaşinqton idi. **Helenin ən çox Martanı incitməsinə baxmayaraq, onlar çox yaxşı anlaşa bilirdilər.** Belə ki Helenin 7 yaşı olanda onlar artıq 60-dan çox işarələrlə ünsiyyət qurmağı bacarırdılar.

3 Həkimlər Helenin zehni xəstə olduğunu demiş və valideynlərinə təklif etmişdilər ki onu həmişəlik ruhi xəstəxanalardan birinə yerləşmək(*-sin, -lər, -dir*). Ancaq valideynlər həkimlərin heç biri ilə razı deyildilər. Onlar düşünürdülər ki, qızları ruhi deyil, sadəcə, fiziki xəstədir və bunun bir çarəsini tapmaq olar.

1886-cı ildə Helen atası ilə birlikdə doktor Çisolmun yanında olur. Doktor Çisolm Heleni müayinə etdikdən sonra onları telefon ixtiraçısı Aleksandr Qreyam Bell ilə görüşdürür. Heleni Boston korlar məktəbinə yerləşdirirlər. Məktəb direktoru 20 yaşlı Anna Sallivanı Helenə müəllim təyin edir. A.Sallivan 1887-ci ilin martında Helenin Alabamadakı evinə gəlir və beləliklə, onların arasında gələcək 49 illik münasibətin əsası qoyulur. Anna Sallivan ömrünün sonuna kimi Helen Kellerin yanından ayrılmır, onun qazandığı bütün uğurlarda birbaşa və ya dolayısı ilə iştirak edir...

4 Anna Sallivan Helenlə ünsiyyət qura bilmək üçün (*barmaqlarıyla, barmaqları ilə*) onun əlinə yazı yazmağa başlayır. O, Helen üçün gətirdiyi gəlinciyi onun bir əlinə verir, digər əlinin içinə isə barmaqları ilə "gəlincik" sözünü yazır. Helen müəlliminin barmaqlarını öz (*ovcunda, ovucunda*) hiss edir, onun yazdıqlarını duyur, ancaq əlinə yazılanların mənasını başa düşmək(*-mə, -ür, -dü*). Bu metod müxtəlif əşyalarla davam etdirilsə də, bir faydası olmurdu. Anna isə səbirlə öz təliminə davam edirdi...

Bir gün Anna Helenin əlini axar suyun altına tutur. Digər əlinin içinə isə "su" yazır. Helen, nəhayət ki, bir əlində hiss etdiyi sərin su ilə digər əlinə müəlliminin yazdığı sözü bir-biri ilə əlaqələndirə bilir. Bu hadisədən sonra Helendə möhtəşəm bir inkişaf başlayır. Bu balaca qızın qarşısında sanki yeni bir dünyaya qapılar açılır və o bu qapılardan içəri girərək (*sürətlə, sürət ilə*) addımlayır. Müəllimindən hər bir şeyi ona yazaraq öyrətməsini istəyir. Tədricən o, yazılı mətnləri də (*həvəslə, həvəs ilə*) öyrənir.

1890-cı ildə Anna öyrənir ki, Norveçdə Raqnilda Kaata adlı lal və kar bir qız "Tadoma" metodu ilə danışmağı və yazmağı öyrənib. O bu metodu Helenin də üzərində sınaqdan keçirmək qərarına gəlir. Bu zaman Helenin artıq 10 yaşı vardı. Tezliklə Helen insanın dodaqlarına toxunaraq onun nə dediyini anlamağa başlayır. Sallivan müxtəlif sözlərin (*hərflərini, həriflərini*) Helenin əlinin içində işarə etməkdə də davam edirdi. Nəticədə Helen əvvəl ingiliscə, sonra isə almanca və fransızca oxumağı öyrənir. Az sonra isə o(,) artıq "Brayl" metodu ilə yunanca da oxuya bilirdi…

1894-cü ildə Helen Nyu-Yorkdakı korlar məktəbinə daxil olur. "Redklif" kollecində oxumağa başlayanda o, alman və latın dillərini də bilirdi. Sonra isə rus dilini də öyrənməyə müvəffəq oldu.

Helen 1904-cü ildə – 24 yaşında ikən "Redklif"in pedaqogika fakültəsini əla qiymətlərlə bitirir. O, tarixə kar, kor və lal kimi ali təhsil alan ilk adam olaraq düşür.

Səbinə Vahidqızı,
"İşıq" jurnalından, 2013-cü il, №3

2. *Hələ kiçik yaşda olan bir uşağın danışıq qabiliyyətini itirməsi onun həyatının faciəsi idi və şübhəsiz ki, bu, uşağın inkişafına böyük əngəllər törədirdi. O yalnız qırıq-qırıq səslər çıxarır, öz fikrini ifadə edə bilmirdi* cümlələrini mətnin nömrələnmiş abzaslarının hansının əvvəlinə artırsanız, məzmununa xələl gəlməz?
3. Aşağıdakı faktlardan istifadə edərək mətnin ardını yazın. Üslubu qorumağa çalışın.



4. Mətnin giriş, əsas və nəticə hissələrini müəyyənləşdirib hər hissəni 1-2 cümlə ilə ifadə edin.
5. Hansı hikmətli kəlam mətnin məzmunu ilə səsləşir?
   ✓ *İnsanlığı yüksəldən adamların ülvi düşüncələri və onların iradələridir. (L.Vinçi)*
   ✓ *Xəzinə kəşf etmək istəsən əgər,*
   Hər bir çətinliyə tab et, sinə gər. (N.Gəncəvi)
   ✓ *Müəllim bir şama bənzər: özünü əridərək başqalarına işıq verər. (P.Ruffini)*
   ✓ *Məsləhətli don gen olar. (Atalar sözü)*
6. Mətn üçün xarakterikdir:
   ✓ bədiilik ✓ obrazlılıq ✓ aydınlılıq ✓ anlaşıqlılıq
7. Mətndəki hansı fakt H.Kellerin anadan olduğu ili müəyyənləşdirməyə əsas verər?
8. Heleni səciyyələndirərkən onu hansı bir sözlə xarakterizə edərdiniz?
9. Sizcə, Helenin həyatında və özünü təsdiqində kimin rolu daha böyükdür? Niyə belə hesab edirsiniz?



   ✓ *Hansı nəticəyə gəldiniz?*

10. Nik Vuyçiçi xatırlayın. Helenlə Niki birləşdirən əsas mənəvi keyfiyyət hansıdır?
11. Badisəba Köçərlinin pedaqoji fəaliyyəti haqqında məlumat toplayıb Anna Sallivanın fəaliyyəti ilə müqayisə edin.
12. Mülahizələriniz əsasında "Müəllim necə olmalıdır" mövzusu ətrafında fikir mübadiləsi aparın.

Bir əlilin, fiziki cəhətdən qüsurlu insanın özünü cəmiyyətin yararlı üzvü hesab etməsi üçün hər birimiz, az da olsa, nəsə edəriksə, onu cəmiyyətə lazımlı olduğuna inandırar və həyata qaytarmış olarıq.

Gəlin onlara mənəvi dəstək olaq!

13. *Pedaqogika, pedaqoji, pedaqoq* sözlərinin leksik mənalarını və vurğularını müəyyənləşdirin.
14. *Yol* sözünün mətndəki mənasının həqiqi və ya məcazi olduğunu deyin, həmin sözü müxtəlif mənalarda işlədin. *Yol* sözünü cümlədə elə işlədin ki, *dəfə* sözü ilə əvəzlənə bilsin. Bu dəfə həmin söz hansı funksiyanı yerinə yetirəcək?
15. Uyğunluğu müəyyənləşdirin.

üsul	həyat hadisələrini dərk və tədqiq etmə üsulu
tərz	üsul, qayda
metod	hər hansı bir işdə tətbiq edilən sistem, yol

16. *Adam, şəxs, insan* sözlərinin leksik mənalarını müəyyənləşdirin. Cümlədə işlətməklə onların sinonimliyini, bir-birini əvəz edib-etmədiyini izah edin.
17. *Möhtəşəm inkişaf* birləşməsində təyinedici sözün düzgün işlənib-işlənmədiyini müzakirə edin.
18. *Tutmaq* feilini aşağıdakı mənalarda cümlədə işlədin.



✓ *Hansı qənaətə gəldiniz?*

19. Mətnə istinad edərək daha hansı ünsiyyət vasitələrinin olduğunu müəyyənləşdirin.
20. Mətnə əsasən aşağıdakı fikirləri tamamlayın.
    - Dil yeganə ünsiyyət …… , çünki …… .
    - H.Kellerin valideynləri səsli dilə malikdirlər. Ağır xəstəlik nəticəsində Helen bundan məhrum olur.

      Sizcə, Helen ailə qursa idi, onun övladları → a) danışa biləcəkdilər. / → b) danışa bilməyəcəkdilər.

✓ *Seçdiyiniz cavabı əsaslandırmağa çalışın.*

Dil yeganə ünsiyyət vasitəsi deyil. Ünsiyyətin müxtəlif formaları var; əl-qol hərəkətləri, müxtəlif işarələr, yazı və s.

İnsan cəmiyyət xaricində düşdüyü şəraitə uyğun olaraq dəyişə bilir, ancaq onda nitq inkişaf edə bilmir. Deməli, dil irsi xüsusiyyətlərlə bağlı deyil.

Dil irqi xüsusiyyətlərlə də bağlı deyil. Yəni uşaq bioloji cəhətdən valideynlərinə bənzəsə də, onların danışdığı dildə danışmaya bilər.

21. Mətndə (səh. 26–27) altından xətt çəkilmiş cümlələrdə durğu işarələrini bərpa edin və səbəbini izah edin. Həmin cümlələrin quruluşunu müəyyənləşdirin və sxemini qurun. 1-ci cümlədə *Helen* sözünün təkrarı cümləyə ağırlıq gətirir. Həmin sözü hansı nitq hissəsi ilə əvəz etsəniz, bu, aradan qalxar? Cümlədən Helen sözü çıxarsa, quruluşda fərq yaranarmı?
22. Fərqləndirilmiş cümləni (səh. 26, I abzas) vasitəsiz nitq şəklində verilmiş sxemlərə uyğun şəkildə yazın. Durğu işarələrini bərpa edin. Sxemi şərh edin.

M V; V m; M V m

23. Mətndə (səh. 26) çərçivəyə alınmış cümləni məzmun baxımından daha düzgün yazın.
24. Mətndə (səh. 28) qırmızı rəngdə verilmiş cümlədə *o* əvəzliyindən sonra vergül işarəsinin qoyulub-qoyulmayacağını dəqiqləşdirin və səbəbini izah edin.
25. Mətndə (səh. 26) tünd şriftlə verilmiş cümləni tabeli mürəkkəb cümlə şəklində yazın. Hansı dəyişiklik baş verdi? Tabeli mürəkkəb cümlənin sxemini qurun.
26. Mətndə göy rəngdə verilmiş feillərdə şəkilçilərin düzgün ardıcıllığına riayət edin.
27. Aşağıdakı mətni oxuyun, tapşırıqları yerinə yetirin.
    - ✓ *Abzasları bərpa edin.*
    - ✓ *Mətndə hansı cümlə yerində deyil?*
    - ✓ *Çərçivəyə alınmış ifadələrin dırnaq işarəsi içərisində verilməsinin səbəbini izah edin.*
    - ✓ *Altından xətt çəkilmiş cümlələrdə durğu işarələrini bərpa edin.*
    - ✓ *Fərqləndirilmiş cümlələri düzgün qurun.*

Yapon yazıçısı Kenzaburo Oeni nüvə fəlakəti və şəxsi faciəsi ciddi narahat edirdi. Xirosima və Naqasakiyə atılmış atom bombalarının törətdiyi ağlasığmaz faciələrin acı nəticələrinin yapon cəmiyyətinə təsiri, həmin fəlakətin nəticəsi kimi Oenin ilk övladı Hikarinin fiziki qüsurla dünyaya gəlməsi yazıçının həyatında dərin iz buraxmışdı. *Bu iki ağrı daim yazıçını narahat etmiş, "Şəxsi təcrübə" romanı da həmin amansız ağrının təzahürü idi.* Hikari Yaponiyanın ən məşhur bəstəkarlarından olsa da yazıçı aldığı mənəvi zərbəni unuda bilmədi. K.Oe yazırdı: "Əqli çatışmazlığı olan oğlum Hikari quşların köməyi ilə Bax və Mosartın musiqisini qavramağa başladı, axırda da öz əsərlərini bəstələdi. Onun bəstələdiyi kiçik musiqi parçaları sevinc, təravət və nəşə ilə dolu idi. Hikarinin musiqisi yaşıl yarpağın üstündə bərq vuran şehi xatırladırdı. *Hikari kimi əqli çatışmazlığı olan adamlar üçün musiqi yaratmaqla nəticələnən gərgin səy sayəsində o,*

öz əsərlərini cilaladı, bəstəkarlıq texnikasını və musiqi anlayışını dərinləşdirdi. Onun musiqisinin dinləyiciləri sağaltdığı artıq təsdiq olunub. Bu da mənə incəsənətin müalicəvi gücünə inanmaq üçün əsas verir. "Xirosimadan qeydlər" adlı irihəcmli essesi də atom bombardmanlarının qurbanlarına həsr edilmiş kədərli rekviyemdir. Mən özümün sübut edilməmiş inamıma əsaslanaraq, XX əsrdə texnologiyanın ağlasığmaz inkişafının nəticəsi olan bütün eybəcərlikləri və qüsurları dinc surətdə aradan qaldırmaq istərdim".

✓ *Hikari ilə H.Kelleri şəxsi keyfiyyətləri baxımından müqayisə edin.*

✓ *R.Oppenheymerin atom bombasının acı nəticələrini gördükdən sonra yaşadığı hislərlə K.Oenin düşüncələrini müqayisə edib münasibət bildirin.*

✓ *Sizcə, K.Oe eybəcərlik və qüsur dedikdə nəyi nəzərdə tutur və nəyə etiraz edir?*

✓ *"21 Sentyabr Beynəlxalq Sülh Günüdür" mövzusunda təqdimatla çıxış edin.*

28. *"Fiziki qüsurlu insanlarda istedad"* mövzusunda inşa və ya esse yazın.

29. Tutaq ki, sizə yoldaşlarınızdan birinin inşa və ya esse yazısına münasibət bildirmək, ona rəy yazmaq tapşırılmışdır. Rəy yazmaq üçün aşağıdakı ardıcıllığa riayət etməlisiniz:

- Rəyin başlığı. Nəyə və kimə verilməsi göstərilir və səhifənin ortasında rəy sözü yazılır.
- Rəyin ümumi məzmunu. Bu və ya digər bir faktın həm müsbət, həm də mənfi cəhətləri təhlil olunur. Təhlil dəqiq müddəalarla göstərilir.
- Rəyin nəticəsi. Rəyçinin irəli sürdüyü təklif və tövsiyələr bir neçə cümlə ilə ifadə edilir.
- İmza. Bu hissədə rəyçi adını, atasının adını və soyadını göstərir, qarşısında isə imzasını qoyur.
- Tarix. Rəyçi imzasının altında bütöv şəkildə gün, ay və ili göstərir.

❑ Rəy işgüzar sənəd növüdür.

❑ "Rəy" ərəb sözü olub, bir şey haqqında fikir, mülahizə, söz mənasını verir.

❑ Rəy, əsasən, aşağıdakı mənalarda işlədilir:

1. Bir əsər, tamaşa, konsert, kinofilmi və s. təhlil və tənqid edən məqalə, yazı.
2. Fikir, mülahizə.

30. "Onu bağışlamaq olarmı?!" bədii filminə baxıb mülahizələriniz əsasında 33-cü səhifədəki nümunə əsasında rəy hazırlayın.

1 №-li məktəbin 10ª sinif şagirdi Ləman Şahbazlının
“Fiziki qüsurlu insanlarda istedad” mövzusunda
yazdığı inşaya

R Ə Y

L.Şahbazlının “Fiziki qüsurlu insanlarda istedad” mövzusunda yazdığı inşa məzmunu tam əhatə etmişdir. Müəllif mövzunu işləyərkən müxtəlif mənbələrə müraciət etmiş, fikirlərini faktlarla əsaslandırmağı bacarmışdır. Ləman həmçinin müqayisələr aparmaqla fiziki cəhətdən qüsurlu insanların heç də hamısının istedadlı olmaması məsələsinə də toxunmuşdur.

O, müqayisələr aparmış, istirahət mərkəzlərinin birində ayaqlarını itirən, lakin mübarizə apararaq öz yolunu müəyyənləşdirən, üzgüçülüklə məşğul olan və yarışlarda qalib gələn İmran Cəfərzadəni nümunə göstərmişdir.

Müsbət keyfiyyətlərlə yanaşı, inşada diqqət yetirilməsi lazım olan müəyyən məsələlər də vardır:

1. İnşa yazılarkən sitatlardan, atalar sözlərindən istifadə etmək məqsədəmüvafiq olardı.
2. Müəyyən durğu işarələri səhvlərinə yol verilmişdir.
3. İnşanın nəticə hissəsində ümumi ideya əsaslandırılmalıdır.

Fikrimcə, kiçik nöqsanlar aradan qaldırılmaqla L.Şahbazlının yazı işi müsabiqəyə təqdim edilə bilər.

İmza: **Nəzrin Eyyub qızı Vahabova**
30 oktyabr 2017-ci il

4 BƏŞƏRİYYƏTİN YADDAŞI – YAZI

1 E.ə. 1-ci minillikdə isə finikiyalı bir alim mixi yazısını yeni bir sistemlə əvəz etdi. Bu sistemə görə, hərflər həm də müəyyən səsləri ifadə edirdi. Bu sistem müasir əlifbaların əsasını qoydu. Finikiyalılar ticarətlə məşğul olan bir xalq idi. Alınıb-satılan malların hesabını aparmaq üçün onların sadə bir sistemə ehtiyacları var idi. O vaxt mövcud olan yazı sistemləri isə bütün bunları dəqiq ifadə etməyə imkan vermirdi. Beləliklə, yeni əlifba yaratmaq fikri meydana çıxdı. Əvvəlki yazı sistemləri ilə müqayisədə bu əlifba daha asan yadda qalırdı. Elə buna görə də Finikiya əlifbası qısa bir vaxtda bütün dünyaya yayıldı. Bu əlifba əsasında hər xalq öz dilinə uyğun əlifbasını yaratdı. Zaman keçdikcə Finikiya əlifbası unuduldu. Ancaq sonradan bu əlifba əsasında yaranan yunan və latın əlifbası bu gün də istifadə olunmaqdadır.

2 İlk vaxtlar yunanlar yazı yazarkən yalnız böyük hərflərdən istifadə edirdilər. Onlar sözləri ayırmır, axırda nöqtə də qoymurdular. İllər ötdükcə yunanlar sözləri ayrı yazmağa başladılar. Kiçik hərflərin yaranmasına səbəb isə kağız yerinə istifadə edilən perqamentin (heyvan dərisi) çox bahalı olması idi. Çünki böyük hərflər perqamenti tez doldurur və yazı yazmaq üçün daha çox perqament lazım gəlirdi. Qədimdə yazı yazmaq üçün müxtəlif materiallardan istifadə olunurdu. Məsələn, şumerlər yazı yazmaq üçün gildən, misirlilər isə papirusdan istifadə edirdilər. Təbii ki, daş, tunc, taxta, ağac qabığı, sümük, parça kimi materiallardan istifadə edənlər də az deyildi. Bu, əvvəllər ipəyin, sonralar isə kağızın kəşfinə qədər belə davam etdi. Yazı yazmaq üçün istifadə edilən alətlər də materiallardan o qədər fərqlənmirdi. Belə ki yazı yazmaq üçün daş, metal, sümük və taxta qələmlərlə yanaşı, lələk və fırçalardan da istifadə olunurdu.

3 İnsanın ən böyük kəşflərindən biri də yazıdır. İlk yazı nümunələri şumerlərlə bağlıdır. Hələ eramızdan 4000 il əvvəl şumerlər düşüncələrini, ətrafda gördüklərini lövhələrə köçürürdülər. Məsələn, günəş sözünü yazmaq üçün günəş şəkli çəkir, *quş* sözünü yazmaq üçün quş şəklindən istifadə edirdilər. Eyni zamanda istiliyi göstərmək üçün də günəş şəklindən, *uçmaq* sözünü bildirmək üçün quş şəklindən istifadə edirdilər. Zaman keçdikcə bu şəkillər yerini xətlər qrupundan ibarət hərflərə verdi. İlk baxışdan iş asanlaşmış olsa da, hərflərin sayı çoxalmış, təqribən 1000-ə çatmışdı. Sonradan mixi yazı təkmilləşdirildi. Artıq 600-dən çox işarədən ibarət olan bu yazıdan şumerlərlə (*əlaqəsi, rabitəsi*) olan başqa xalqlar da istifadə etməyə başladılar.

4 Qədim yazıya malik olan xalqlardan biri də çinlilərdir. Onlar e.ə. 2-ci minillikdə öz yazı sistemlərini yaratdılar. Çin yazısı vahid dövlətin yaranmasının nəticəsi idi. Heroqlif qrupuna aid olan bu yazıda da təqribən bir neçə min işarə var idi.

5 E.ə. 3-cü minillikdə qədim Misir xalqı öz yazı sistemini yaratdı. Sonralar yunanların heroqlif adlandırdıqları bu yazı, əsasən, heykəllər və sarkofaqlar üzərində həkk olunurdu. Bu yazıdakı işarələr təkcə sözləri yox, səsləri də ifadə edirdi. Şumer yazısından fərqli olaraq, Misir yazısı 750 hərfdən ibarət idi. Belə (*mürəkkəb, çətin, ağır*) yazını uşaqlıqdan öyrənmək lazım idi. Bu işin çətinliyi təkcə işarələri yadda saxlamaqda deyil, (*həm də, həmçinin*) hər sözü xüsusi qayda üzrə tərtib etməkdə idi. Ona görə də savadlı adamlar çox az idi. Yazmaq və oxumaq isə xüsusi (*peşə, sənət, ixtisas*) sayılırdı.

6 Şumerlərdən bizə qədər gəlib çatan yazı bizdən sonrakı nəsillərə də gedib çatacaq və üzərində yazılan materiallar dəyişsə də, bəşəriyyətin yaddaşı olmaqda davam edəcək.

"Ailəm" jurnalından, 2009-cu il, №42

1. Mətnin adına münasibət bildirin. Nə üçün yazı bəşəriyyətin yaddaşı hesab edilir?
2. Mətnin abzaslarının ardıcıllığını bərpa edin.
3. Sizcə, dil və yazı arasında hansı əlaqə vardır? Mətndəki hansı abzas yazının əhəmiyyətini göstərir?
4. Sizcə, mətnin hansı abzasında yazının növləri haqqında məlumat almaq olar?
5. "Cəmi 40 söz" mətninin qəhrəmanı Kamala nə üçün yazı yazmağı öyrənə bilmir?
6. Sizcə, Helen Keller yazının hansı növündən istifadə edir?

7. Mətndə mötərizədə verilmiş sözlərdən hansının işlədilməsi məqsədəuyğundur?
8. Mətndə altından xətt çəkilmiş söz və ifadələri hansılarla əvəz etsəniz, cümlənin məzmununa xələl gəlməz?
9. Mətndən terminləri seçin. Sizcə, nə üçün onlar termin hesab edilir?
10. Sxemi tamamlayın və şərh edin.



11. Mətndə frazeoloji birləşmələri müəyyənləşdirin, cümlədə müxtəlif sintaktik vəzifələrdə işlədin.

12. Aşağıdakı mətnlərin məzmunu ilə bağlı suallar tərtib edib müzakirələr təşkil edin.
13. Mətnlərin dili üzərində iş aparın. Mətnlərin dili üçün oxşar cəhət nədir? Niyə belə hesab edirsiniz? Mətnlərin bədii mətn olduğunu əsaslandırın. Hansı mətndə bədii təsvir vasitəsindən istifadə olunmuşdur?

1

Daşdəmir dedi:

– Padşah sağ olsun, mən sirr sahibindən icazə almamış sənə heç bir söz deyə bilmərəm. Məni azad elə, gedim, icazə alım, gəlim, deyim.

Padşah dedi:

– Yox, mən səni əlimlə buraxıb, sonra ayağımla axtara bilmərəm. Ya danış, ya da bu gün səni asdıracağam.

– İstəyirsiniz, bir dəfə yox, lap beş dəfə asdırın. Mən icazə almamış sizə heç bir söz deməyəcəyəm.

Padşah əmr elədi, meydanda dar ağacı quruldu. Şəhərdə car çəkdilər ki, Daşdəmir padşahdan sirr gizlətdiyinə görə dar ağacından asılacaq.

Camaat yığıldı. Daşdəmiri meydana gətirdilər. Padşah bir də soruşdu:

– Deyirsən, ya yox?

– Mən heç bir şey deməyəcəyəm.

Padşah cəlladlara işarə etdi. Elə ipi Daşdəmirin boynuna salanda haradansa bir atlı peyda oldu, dar ağacına çatanda yerə bir nar vurdu. Nar parçalandı, dənələri sapı qırılmış mirvari kimi ətrafa səpələndi. *Daşdəmir cəlladlara dedi*

Padşaha deyin ki mən danışmağa hazıram

Padşah ondan soruşdu

Niyə indiyə kimi demirdin indi razı oldun

Daşdəmir nar dənələrini ona göstərib dedi

Padşah sağ olsun sirr sahibi sirrin açılmasına icazə verdi

"Daşdəmirin nağılı"ndan, ixtisarla

2

Mən elə bilirdim ki, bizim uşaqlar özgə uşaqlar kimi o qədər də divar yazan deyillər; çünki çox nəsihət eləmişdim və onlar da mənə söz vermişdilər ki, divarları yazmayacaqlar. Amma axır vaxtlarda balkonun divarında qəribə yazılar görürdüm. Bunların hamısı karandaş ilə yazılıb, elə naşı kobud yazılıb ki, bunu uşaqdan savayı heç kəs yaza bilməz. Çağırdım uşaqları. Üçü də: "Mən yazmamışam", – deyib başlarını saldılar aşağı.

Mən acıqlanıb bunu dedim:

– Mən sizdən o qədər divarı yazmağınızdan ötrü incimirəm, nə qədər ki sizin danmağınıza inciyirəm; sizin qorxudan yalan danışmağınıza inciyirəm. Ona inciyirəm ki, söz yox, divarı yazan üçünüzdən birinizdi; amma üçünüz də and-aman eləyirsiniz ki, siz yazmamısınız. Pəs sizdən savayı bu evdə uşaq ki yoxdu.

...Bizim bir müştərimiz var. Onun adı Kəblə Əzimdir və yaşı qırx-qırx beş, uca boy, bir kasıb və fağır İran əhlidir. Dünən Kəblə Əzim yağ və yumurta gətirmişdi.

...Yağdan beş-altı manat, yumurtadan da genə bir qədər borcumuz qaldı. Kəblə Əzim şey-şüyünü götürdü və çıxdı dalana ki, getsin. Mən də çıxdım dalana və gördüm ki, kişi yağı və yumurtanı qoyub yerə keçib qapının dalına və bir güdək karandaşın ucunu ağzına soxub fikrə gedib. Divarda heyvana oxşar bir cızma-qara çəkilib, altından bir neçə əlif, yanında bir neçə girdə şey. Kəblə Əzim mən soruşmamış dedi:

– Molla əmi, doğrusu, mənim dərsimzadım yoxdu, bu bir yaddaşdı, yazdım ki, hesablar dolaşmasın.

Mən qəh-qəh çəkib güldüm. Kişi də bir az gülümsündü. Mən bircə bunu soruşdum ki, divara yazdığının mənası nədir?

Mənası bu imiş: ..... .

✓ *Sizcə, Kəblə Əzimin divarda çəkdiklərinin mənası nə imiş?*

Cəlil Məmmədquluzadə, "Saqqallı uşaq" hekayəsindən, ixtisarla

3

BALACA AĞILLI BİR UŞAQ...
(*Helen Elizabet Baklidən, ixtisarla*)

Bir zamanlar balaca bir uşaq məktəbə başlamış. Bir səhər müəllimi səslənmiş: "Bu gün bir gül rəsmi çəkəcəyik". Balaca çox sevinmiş. Şəkil çəkməyi çox sevirdi. Sulu boyalarını çıxartmış və gözəl güllər çəkməyə başlamış: çəhrayı, narıncı, mavi, rəngarəng çiçəklər... *Lakin müəllimi: "Gözləyin, hələ başlamayın!" – deyə qışqırmış.* "İndi... – demiş müəllimi, gül şəkli çəkəcəyik". Ancaq müəllimi: "Gözləyin, mən sizə necə edəcəyinizi göstərəcəm", – demiş. Lövhəyə bir gül şəkli çəkmiş. Budağı yaşıl, ləçəkləri qırmızı imiş. *"Bax belə. Yaxşı, indi başlaya bilərsiniz", – söyləmiş.*

Balaca müəlliminin çəkdiyi gülə baxmış, sonra da öz çəkdiyinə. Özünün çəkdiyi gülü daha çox sevmiş, lakin bunu müəllimə demədi. Kağızın digər üzünü çevirmiş və müəllimi çəkdiyi çiçəyə oxşar bir şəkil çəkmiş: yaşıl budaqlı, qırmızı rəngli bir gül...

Nəhayət, uşaq gözləməyi öyrənmiş, izləməyi də. Müəlliminkinə bənzər şeylər çəkməyi də. Çox keçmədən özünə xas nələrsə hazırlaya bilməyən hala gəlmiş.

Daha sonra balaca uşaq və ailəsi başqa bir şəhərdə yeni bir evə köçmüşlər. Və balaca başqa bir məktəbə getmək məcburiyyətində qalmış. Hələ ilk gün müəllimi: "Bugün şəkil çəkəcik", – demiş. Balaca çox sevinmiş. Müəlliminin mövzu verməsini gözləmiş. Amma müəllim heç bir şey söyləməmiş. Sadəcə sinfin içində, şagirdlərin arasında gəzişmiş. Balaca uşağın yanına gələndə: "Şəkil çəkmək istəmirsən?" – deyə soruşmuş. *"İstəyirəm", – demiş balaca, – "Nə çəkəcəyik?"* Müəllimi: "Buna sən qərar verəcəksən", – demiş. "Hansı rənglə boyayacayıq?" – deyincə müəllimi: "Hansı rənglə istəyirsənsə", – deyə cavab vermiş. **"Əgər hər kəs eyni şəkli çəkərsə, eyni rənglə rəngləyərsə, kimin nə çəkdiyini necə başa düşə bilərəm?"** – deyə soruşmuş müəllimi. "Bilmirəm" demiş balaca uşaq.

...Yeni məktəbini çox sevmiş. Çünki .....

Cümləni tamamlamaqla şagirdin yeni məktəbini sevməsi səbəbini əsaslandırın.

Tünd şriftlə verilmiş cümlədə, əslində, müəllimin demək istədiyi hansı fikir ifadə olunmuşdur?

Tərcümə edən: **Cəlalə Yəhyalı**

3-cü mətndəki hər iki müəllim obrazını müqayisə edin.
Bir müəllim: "Bu gün gül çəkəcəyik", – deyir, gül rəsminin çəkilmə yolunu göstərir. Digər müəllim: "Gül şəkli çəkin", – deyir, ancaq yol göstərmir, seçimi şagirdlərin ixtiyarına verir. Sizcə, hansı müəllimin yanaşması doğrudur?
Hansı müəllimə daha çox önəm verdiniz? Niyə?

14. Tərcümə əsərini C.Məmmədquluzadənin "Saqqallı uşaq" hekayəsinin dili ilə müqayisə edin. Mətnlərdən hansı danışıq dilinə yaxındır? Bunun səbəbi nədir?
15. Tərcümədə qüsurlu cəhətləri müəyyənləşdirin. Cümlələri Azərbaycan dilinin qrammatik quruluşuna uyğun yazın. Söz sırası pozulmuş cümlələri düzgün yazın. Mətni yenidən işləyin. Müxtəlif cümlə tiplərindən istifadə edin. Öz yazınızı tərcüməçinin mətni ilə tutuşdurun. Hansı fərqləri gördünüz?

4

Qədim dünyanın ən müqəddəs panteonlarından biri kimi məşhurlaşan Gəmiqaya dağında Azərbaycan xalqının ulu keçmişini, tarixi həqiqətlərini əks etdirən qayaüstü təsvirlər – piktoqrafik yazılar həkk olunmuşdur.

Üçüncü geoloji dövrdə Gəmiqaya zirvəsinin bir hissəsi təbii hadisələr və tektonik proseslər (zəlzələlər) nəticəsində dağılıb parçalanmışdır. Dəniz səviyyəsindən 3500–3700 m hündürlükdə həmin qaya parçalarının kütləvi şəkildə olduğu sahələrdə oval və yarımdairəvi plana malik qədim yurd yerləri, mövsümi yaşayış evlərinin qalıqları və minlərlə qayaüstü rəsmlər vardır. Qranit, bazalt və tuf qayalar üzərində adam, keçi, öküz, at, maral, it, canavar, bəbir, quş rəsmləri, ov və rəqs səhnələri, eləcə də müxtəlif piktoqrafik işarələr həkk edilmişdir.

Gəmiqaya təsvirləri içərisində heyvan və insan rəsmləri üstünlük təşkil edir. Bir qayda olaraq, heyvanlar tək-tək, qoşa və sürü halında təsvir edilmişdir. Onların böyük əksəriyyəti keçi və iri buynuzlu heyvan rəsmləridir.

Qayaüstü rəsmlər – petroqliflər qədim incəsənətin yaranması və təkamülü kimi mühüm elmi problem məsələlərin öyrənilməsi üçün əsas mənbələrdir.

Vəli Əliyev. “Gəmiqaya abidələri” kitabından

5

Dilin səslərini şərti işarələrlə əks etdirən yazıya fonoqrafik, yaxud səs yazısı deyilir. Yazının başqa tiplərindən fərqli olaraq, fonoqrafik yazıda dilin bu və ya digər səsi, əsasən, ayrı-ayrı qrafemlərlə, yəni hərflərlə (qrafik işarələrlə) ifadə olunur.

Hərfli yazı digər yazı tipləri ilə bağlı olmuşdur. Bu yazı tipi tədrici olaraq, əsasən, ideoqrafik yazıdan əmələ gəlmişdir. Belə ki ideoqrafik yazının işarələri get-gedə bütöv sözü deyil, sözün səslərini bildirmiş, bunun da nəticəsində hərfli yazı meydana çıxmışdır. Hərfli yazı çox mürəkkəb proses əsasında yaranmış və bir neçə əsr ərzində inkişaf edib formalaşmışdır.

Hərfli yazını dünyada ilk dəfə olaraq qarışıq şəkildə misirlilər işlətmişlər. Bunun təsiri nəticəsində sonralar digər xalqlar da hərfli yazıya keçməyə başlamışlar.

Hər bir səs yazısında işlədilən hərf və işarələrin sisteminə, bunların müəyyən düzülüşünə əlifba deyilir.

Afad Qurbanov. “Ümumi dilçilik” kitabından

16. Mətndə (səh. 34) altından xətt çəkilmiş cümləni sadə cümlə şəklində yazın.
17. 3-cü abzasda (səh. 34) ilk iki cümləni bir cümlə şəklində yazın və sintaktik cəhətdən təhlil edin.
18. 1-ci mətndə (səh. 36) fərqləndirilmiş hissədə durğu işarələrini bərpa edin.
19. 2-ci mətndə (səh. 36) altından xətt çəkilmiş cümlələrdə durğu işarələrinin düzgün qoyulduğunu əsaslandırın.
20. 2-ci mətndəki cümlələri müasir Azərbaycan dilinin qrammatik quruluşuna uyğun şəkildə yazın. Sonra hər iki mətni müqayisə edin. Öz yazınızı yoldaşlarınızın da yazısı ilə müqayisə edin. Fərq yarandımı? Həmin fərq özünü nədə göstərir?
21. 3-cü mətndə (səh. 37) altından xətt çəkilmiş cümlələrdə hansı sözlər səhv yazılmışdır?
22. 3-cü mətndə qoşa nöqtə və dırnaq işarələrinin düzgün qoyulduğunu əsaslandırın. Həmin mətndə fərqləndirilmiş cümlələrin sxemini qurun. Sizcə, cümlələrin sonunda və sözlər arasında durğu işarələrinin qoyulmasının hansı praktik əhəmiyyəti vardır?
23. 4-cü və 5-ci mətnlərin dili 1-ci və 3-cü mətnlərin dilindən nə ilə fərqlənir? Fikrinizi əsaslandırın.
24. 4-cü və 5-ci mətnlərdən (səh. 38) terminləri seçin. Onların nə üçün termin hesab edildiyini izah edin. Bədii mətnlərdə terminlərdən istifadə etmək mümkündürmü? Niyə?
25. 1-ci və 5-ci mətnlərə əsasən elmi və bədii mətnlərin xüsusiyyətlərini müəyyənləşdirin.

Bədii mətnlər üçün xarakterikdir	Elmi mətnlər üçün xarakterikdir
✓	✓
✓	✓
✓	✓
✓	✓
✓	✓

26. 3-cü və 4-cü mətnləri müqayisə edin. Mətnlərdən hansında çəkilən şəkillərə əsasən dövr haqqında müəyyən fikir yürütmək mümkündür?
27. 1, 2 və 4-cü mətnlərdə yazının elementləri vardır. Sizcə, onlar hansıdır? Cavablarınızı əsaslandırmaq üçün 34-cü səhifədəki mətndən istifadə edə bilərsiniz.
28. Verilən hökmlərin düzgünlüyünü əsaslandırın.
    - Dildən sonra yaranan yazı ən böyük ünsiyyət vasitələrindən biridir.
    - Bu və ya digər fikri başqasına, həm də uzaq məsafələrə çatdırmaq üçün yazıdan istifadə olunur.
    - Yazı işarələr sistemidir.

29. Uyğunluğu müəyyənləşdirin.

Fikir şəkillər vasitəsilə ifadə olunur.	1-ci mətn
Hərfi yazı vasitəsilə qavranılır.	2-ci mətn
Şəkil vasitəsilə təqdim edilsə də, fikir birbaşa ifadə edilmir.	3-cü mətn
Fikir əşyalar vasitəsilə ifadə olunub.	4-cü mətn
	5-ci mətn

Ən əhəmiyyətli və vacib ünsiyyət vasitələrindən biri *yazıdır*.

Yazı səsli dilin norma ilə qavrayışını təmin edən şərti işarələr sistemidir. Bugünkü yazıda, əsasən, hər səs bir işarə ilə (hərflə) ifadə olunur.

İnsanların ilk yazılı əlaqəsi əşyalar vasitəsilə mümkün olmuşdur. Əşyəvi yazıdan sonra şəkli (piktoqrafik) yazı meydana çıxmışdır. Bu yazı növündə hansı əşyanı yazmaq nəzərdə tutulursa, onun şəkli çəkilir. Daha sonra fikri (ideoqrafik) yazıdan istifadə edilmişdir. Şəkli və fikri yazı hərfi yazıya doğru əhəmiyyətli addımlar olmuşdur.

Nəhayət, yazının ən mükəmməl, ən çevik forması olan hərfi (fonoqrafik) yazı yarandı. Biz yazılı nitqimizi yazı vasitəsilə həyata keçiririk.

Beləliklə, yazının 4 tipi var:

1) əşyəvi yazı
2) şəkli (piktoqrafik) yazı
3) fikri (ideoqrafik) yazı
4) hərfi (fonoqrafik) yazı

30. İctimai yerlərdə, yol kənarlarında gördüyünüz, dərsliklərdə rast gəldiyiniz şərti işarələri, kimya, fizika, riyaziyyat dərslərində istifadə etdiyiniz düsturları ideoqrafik və ya piktoqrafik yazı olmaqla qruplaşdırın. Fikirlərinizi əsaslandırın.

Nümunə:

- *F = ma* (qüvvənin bərabər olduğu kəmiyyətləri ifadə edir.) (*ideoqrafik yazı*)
- Şirniyyat mağazasının üstündə çəkilmiş tort şəkli. (*piktoqrafik yazı*)

- ✓ Dörd qrupa bölünüb 31-ci və 32-ci tapşırıqları yerinə yetirin. I və II qruplar 31-ci, III və IV qruplar 32-ci tapşırığı icra etməklə mövzunu yekunlaşdırmış olarlar.
- ✓ Yazılarınızın və təqdimatlarınızın maraqlı və məzmun baxımından dolğun, fikirlərinizin yığcam olmasına çalışın. Cümlələrinizin düzgün qurulmasına riayət edin. Paralel siniflərdə oxuyan həmyaşıdlarınızı keçirəcəyiniz təqdimata dəvət edin.
- ✓ Təqdimatınız haqqında yığcam məlumat hazırlayın, sosial şəbəkələrdə və qəzetinizin müvafiq hissəsində yerləşdirin.

31. Mətnlərin (səh. 36–38) məzmunundan və əldə etdiyiniz biliklərdən çıxış edərək yazının əmələ gəlməsi və növləri haqqında elmi mətn tərtib edin. Aşağıdakı plandan istifadə edin.

PLAN

- ✔ Qədim insan qrupları arasında əlaqənin zəifliyi nəticəsində yazıya yaranan ehtiyac.
- ✔ İnsanların öz arzularını, düşüncələrini birbirinə çatdırmaq istəyi.
- ✔ Yazının əmələ gəlməsində kollektivin əməyi.
- ✔ Fikrin müxtəlif vasitələrlə ifadəsi.
- ✔ Fikrin şərti işarələr vasitəsilə ifadəsi.

32. Məktəbinizdə “İdeoqrafik yazıların həyatımızda rolu” mövzusunda sorğu keçirin.

SORĞU

- ✓ Suallar tərtib edin.
- ✓ Müxtəlif ideoqrafk və piktoqrafik nümunələr hazırlayıb müsahibə götürəcəyiniz şəxsə təqdim etməklə onların nə olduğunu və gündəlik həyatımızda hansı əhəmiyyətə malik olduğunu soruşun.
- ✓ Sorğunun nəticələrini ümumiləşdirin.
- ✓ Müsabiqə keçirib ən yaxşı yazını müəyyənləşdirin, qəzetinizin “Maraqlı məlumatlar” bölməsində yerləşdirin.

✓ *Hazırladığınız materialların və məlumatların orfoqrafik cəhətdən səhvsiz, qrammatik baxımdan düzgün olmasına riayət edin.*

5 ARZUM JURNALİST OLMAQ İDİ...

(*ixtisarla*)

ORFOEPİYA

- folklorşünas [falk'lorşünas]
- ixtisas [.....]
- mətbuat [.....]
- dəqiqliklə [.....]

ORFOQRAFİYA

Hansı düzgündür?

- magistratura magistıratura
- töhfə töhvə
- müxbir muxbir

Sizdən "Naşir" jurnalı üçün müsahibə götürmək istəyirəm, – dedim. Peşəsindən irəli gələn operativliklə: "Bu gün gələ bilərsiz", – deyə cavab verdi. Gənc yaşlarında uğura imza atması, böyük bir holdinqə rəhbərlik etməsi və Vüsalə Mahirqızı ilə söhbətimi təqdim edirəm...

– *Folklorşünas, filoloq Vüsalə Mahirqızını jurnalistikaya gətirən təsadüf oldu, yoxsa zərurət?*

– Müsahibələrimdə də bildirmişəm ki, orta məktəbi bitirəndə arzum jurnalist olmaq idi. Lakin anamın "yalnız yaxşı filoloq yaxşı jurnalist ola bilər" məsləhətinə əsasən ixtisas seçimi zamanı filologiyanı qeyd etdim. Düşünürdüm ki, mən universiteti bitirib müəllim kimi deyil, jurnalist olaraq fəaliyyət göstərəcəyəm. Filologiya mənim həmişə sevdiyim sahə olub. **Magistraturanı/magistıraturanı** bitirdikdən sonra jurnalist kimi o qədər qaynar və enerjili mühitdə fəaliyyət göstərdim ki, elmlə məşğul olmağa, elmi təhsilimi davam etdirməyə vaxtım olmadı. Lakin bir gün bu mühitdən qopsam, dönəcəyim yer filologiya, dil-ədəbiyyat olacaq. Jurnalistika ilə məşğul olsam da, ixtisasımla bağlı bütün yenilikləri izləyirəm.

– *Ədəbiyyatçı olmağınız, sizcə, jurnalistikaya* ***töhfə/töhvə*** *verdimi?*

– Əlbəttə. Rəhbərlik etdiyim on bir yaşlı APA holdinqə indiyədək çox təbriklər gəlib. Lakin APA-nın bir yaşını qeyd edəndə Sabir Rüstəmxanlının söylədiyi fikir mənə verilən ən böyük qiymətdir. O dedi ki, APA Azərbaycan xəbər agentlikləri sisteminə normal cümlə quruluşunda xəbər yazmaq mədəniyyəti gətirdi. Bu mənim üçün böyük qiymət, fəxr ediləsi təbrik oldu. Bu qiymətli fikrin məhz mənim filologiyanı bitirməyim, dilçi olmağımla çox ciddi əlaqəsi var. Qeyd edim ki, onlayn mediada operativlik xatirinə xəbər zamanı dilin üslubunu qorumaq bir qədər çətin olur. Bu səbəbdən dilin üslub qaydaları ciddi şəkildə pozulur. Bizdə bəzən bir xəbər mətninin başlığının hazırlanması 15 dəqiqə vaxtımızı alsa da, sonucda mütləq düzgün, ədəbi dilin normalarına riayət etməklə səlis cümlələr üzərində qurulmuş mətn təqdim etməyə çalışırıq. Hətta cümlə quruluşu ilə bağlı elə olur ki, müəllimlərimə telefonla zəng edir, məsləhət

alır, redaktorlarla ciddi mübahisələr edirik. Hesab edirəm ki, Azərbaycan dilinin qorunmasında medianın xüsusi rolu var. Media dilimizin qorunmasına diqqət yetirməlidir.

– Təkcə onlayn mediada deyil, ümumiyyətlə, mətbuatda tez-tez rast gəldiyimiz dil, üslub qüsurları çoxdur. Bunun qarşısını almaq üçün media rəhbəri kimi hansı şərtləri vacib hesab edirsiniz? Nə etmək lazımdır?

– İlk növbədə, dili yaxşı bilən redaktorla işləmək lazımdır. Onları işə götürərkən mütləq savadlı, dilin qrammatik, üslubi qaydalarını mükəmməl bilən redaktorlara üstünlük verilsə, bu problemi nisbətən aradan qaldırmaq olar. **Müxbir/muxbir** xəbəri hazırlayan zaman onun mətnində səhvlər ola bilər. Lakin redaktor mətnin düzgün, qrammatik qaydalara uyğun təqdim edilməsinə nəzarət etməlidir. Həmçinin hər bir media qurumunun qəbul etdiyi strateji planda operativlik, qərəzsizlik, dəqiqliklə yanaşı, mütləq dil və üslub qaydalarının qorunmasına diqqət yetirilməlidir. Ümumiyyətlə, Azərbaycan dilinin qorunmasına ciddi ehtiyac olduğunu söyləməkdən çəkinmək lazım deyil. Xüsusən yeni mediada buna ciddi nəzarət edilməlidir. Yeni mediada, əksər hallarda zaman media alətləri olan sosial şəbəkələrdə yazılan yazıda, yayımlanan xəbər mətnində nə qədər hərf, durğu işarələri səhvləri olur. Adi durğu işarələrinə əməl edilmədikdə belə cümlənin intonasiyası, mənası dəyişir, itir. Jurnalistlər və redaktorlar dilinin zəngin olması üçün mütləq çox ədəbiyyat oxumalıdırlar. Bəzən jurnalistlər fikirlərini belə əsaslandırırlar ki, Azərbaycan dilinin imkanları məhduddur. Lakin ümumişlək sözlərin mənasını belə bilməyən media nümayəndələri dil kasadlıqlarını bu cür ört-basdır etməyə çalışırlarsa, bu, sadəcə, gülüncdür.

Gülnar Maisqızı, "Naşir" jurnalından, 2011-ci il, №6

1. İlk abzasda cümlələrdə fikrin təqdim edilməsində yol verilmiş nöqsanları müəyyənləşdirin.
2. Nə üçün V.Mahirqızı Azərbaycan dilinin qorunmasında medianın roluna böyük önəm verir? Sizcə, media niyə dilin qorunmasında əsas rol oynayır? Müsahibədə sizi razı salan fikirləri müəyyənləşdirin. Fikirlərinizi konkret ifadə etməyə çalışın.
3. Mətnə əsasən, V.Mahirqızının şəxsi keyfiyyətlərini müəyyənləşdirin. Siz müxbir olsa idiniz, Vüsalə Mahirqızına hansı suallarla müraciət edərdiniz? İlk sualınız nə olardı?
4. Verilmiş mətnin hansı formada təqdim edildiyini deyin. Bu müsahibəni elmi və bədii mətnlərdən fərqləndirən və eyniləşdirən hansı xüsusiyyətlərdir?
   - ✓ açıq – şifrəli
   - ✓ dəqiqlik – qeyri-dəqiqlik
   - ✓ yığcamlıq – ətraflı
   - ✓ anlaşıqlılıq – dolaşıqlılıq
   - ✓ faktiki – emosional
   - ✓ obyektiv – subyektiv
   - ✓ bilavasitə – dolayı
   - ✓ konkret – mücərrəd
   - ✓ sadə – mürəkkəb
   - ✓ analiz – modallıq bildirən söz və ifadələrdən istifadə;
   - ✓ kütləvi xarakter daşıması – məhdud dairə üçün yazılması.
5. Jurnalist olsa idiniz, hansı mövzularda məqalə yazmağa üstünlük verərdiniz? Nə üçün? Necə düşünürsünüz, xəbərin məzmunu dolğun olmalıdır, yoxsa başlığı?

6. *Jurnalist* və *müxbir* sözlərini fərqləndirin.
7. *Müsahibə* və *mübahisə, müsahib* və *mühasib* sözlərinin leksik mənasını müəyyənləşdirin.
8. Mətndə işlənmiş neologizmləri (*dilə daxil olmuş yeni sözlər*) seçin. *Onlayn* və *media* sözlərinin dildə istifadə səbəbini izah edin.

9. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin çıxışını oxuyub münasibət bildirin.

Əsrlər boyu Azərbaycan xalqını bir xalq kimi qoruyan bizim mədəniyyətimiz, incəsənətimiz, musiqimiz, xalçaçılıq sənətimiz və digər ənənələrimiz olubdur. Bizim bu sahədəki bütün fəaliyyətimizin əsasında Azərbaycan dili dayanır. Azərbaycan dili bizi bir xalq, millət kimi qoruyub. Əsrlər boyu biz başqa ölkələrin, imperiyaların tərkibində yaşadığımız, müstəqil olmadığımız dövrdə milli dəyərlərimizi, ana dilimizi qoruya, saxlaya bilmişik. Azərbaycan dilinin saflığını qoruya bilmişik. Ona görə bu gün bəzi hallarda görəndə ki, dilimizə xaricdən müdaxilələr edilir və bəzi hallarda bu müdaxilələr Azərbaycanda da dəstək qazanır, bu məni, doğrudan da, çox narahat edir. Azərbaycan dili o qədər zəngindir ki, heç bir xarici kəlməyə ehtiyac yoxdur. Bir daha demək istəyirəm ki, biz əsrlər boyu dilimizi qorumuşuq. Bu gün də qorumalıyıq. Biz Azərbaycan dilinin saflığını təmin etməliyik. Əlbəttə, bizim vətəndaşlar, xüsusilə gənc nəsil nə qədər çox xarici dil bilsələr, o qədər yaxşıdır. Ancaq, ilk növbədə, öz ana dilini bilməlidirlər. Digər tərəfdən, imkan verməməlidirlər ki, ana dilimizə yad kəlmələr daxil olsun. Buna ehtiyac yoxdur. Ancaq biz bunu görürük. Bəzi ictimai xadimlərin, hökumət üzvlərinin çıxışlarında, bəzi televiziya verilişlərində, Milli Məclisdə eşidirəm ki, kənar kəlmələrdən istifadə edilir. Buna ehtiyac yoxdur. Əlbəttə, mən bu sahədə mütəxəssis deyiləm, ancaq bir vətəndaş kimi hesab edirəm ki, yeni kəlmələrin icad edilməsinə heç bir ehtiyac yoxdur. Lüğətimiz o qədər zəngindir ki, bunu qorusaq və gələcək nəsillərə əmanət kimi təhvil versək, bu bizim bu sahədəki ən böyük nailiyyətimiz olacaqdır.

İlham ƏLİYEV

Azərbaycan Respublikasının Prezidenti
(AMEA-nın 70 illik yubileyinə həsr olunmuş
ümumi yığıncaqdakı çıxışından)

1

10. Mütəxəssislərin fikirlərinə münasibət bildirin. Çıxışlar "Füyuzat" jurnalından götürülmüş və ixtisarla təqdim olunmuşdur.

Bu gün Azərbaycan dilinin ən çox inkişafda olan sahəsi publisistik üslubdur – kütləvi informasiya vasitələrinin dilidir. Azərbaycan cəmiyyətinin demokratikləşməsi, sonsuz bir maraqla dünyaya açılması, hər kəsin fikir söyləmək, söz demək hüquqlarının təmin olunması kütləvi informasiya vasitələrinin dilinə indiyə qədər görünməmiş bir zənginlik, canlılıq, enerji qatmışdır. Lakin ədəbi dil normalarının ən çox pozulduğu sahə də məhz qəzet, jurnal, radio, televiziya və sosial şəbəkələrin dilidir. Publisistik üslubda ən çox nəzərə çarpan qüsurlar aşağıdakılardan ibarətdir:

– yazılı nitqdə orfoqrafiya, şifahi nitqdə orfoepiya qaydalarının, yəni tamamilə aydın olan, hər kəsin bilməli olduğu normaların pozulması;

– fikrin dəqiq ifadə olunmaması, sözçülük və ya dildə təfəkkür sönüklüyü;

– alınma sözlərə aludəçilik, yaxud beynəlmiləl sözlərin düzgün işlədilməməsi;

– dilin qrammatik-üslubi imkanlarından lazımınca istifadə olunmaması;

– şifahi nitqdə dialektizmlərin, xüsusilə qrammatik dialektizmlərin çoxluğu (hətta ziyalıların nitqində belə);

– rus və ya ingilis aksenti və s.

Bütün bunlarla yanaşı, qeyd etməliyik ki, sayı 50 milyonu keçmiş bir xalqın dili olan Azərbaycan dili müstəqillik dövründə zənginləşmə – inkişaf baxımından kifayət qədər böyük uğurlar qazanmışdır.

Nizami Cəfərov, filologiya elmləri doktoru, professor
"Füyuzat" jurnalı, 2014, №5

2

Üslub dedikdə dil vahidlərindən məqsədyönlü istifadə nəzərdə tutulur. Azərbaycan ədəbi dilinin bir çox üslubları vardır: bədii üslub, elmi üslub, publisistik üslub, rəsmi-işgüzar üslub və s.

11. Beynəlmiləl sözlər nədir? Dildə beynəlmiləl sözlərə ehtiyac varmı?
12. *Aludəçilik* və *aksent* sözlərinin leksik mənalarını müəyyənləşdirin.
13. *İnformasiya* və *məlumat* sözlərinin leksik məna baxımından fərqi varmı? Cümlələrdə istifadə etməklə fikrinizi sübuta yetirin.
14. *Şəbəkə* sözünün omonimliyini əsaslandırın.

İstər radio və televiziyada, istərsə də gündəlik əlaqələrdə Azərbaycan dili qayda-qanunlarının ardıcıl olaraq pozulmasının şahidi oluruq. Xüsusilə də orfoepik normalara tam şəkildə riayət olunmur. Orfoqrafik və orfoepik normalara əməl etməyin vacibliyinin dilin qorunmasında mühüm vasitə olması hər kəsin şüurunda, qəlbində özünə yer etməlidir. Radio və televiziya işçilərinin danışıq orqanlarında heç bir çatışmazlıq olmamalıdır.

Küçə və meydan reklamları, afişalar dilin ən böyük təbliğat göstəriciləridir. Onlarda buraxılan hər bir səhv gələcək problemlərin əsasında durur. İstənilən hamar səthə yapışdırılan qeyri-rəsmi afişa və elanları tərtib edənlər onların təsir gücünü əvvəlcədən hiss etmir. Leksik və qrammatik qaydalara əməl edilməyən, mənası aydın olmayan belə afişa və elanları oxuyan məktəbli onu daha inandırıcı hesab edir və öz bildiklərini kənara qoyub onu "qəbul edir".

Yerli-yersiz böyük hərflərlə yazılış, sonda qoyulan müxtəlif durğu işarələri və bu kimi pozuntulardan yaxa qurtarmaq üçün mərkəzləşdirilmiş praktik bürolar yaratmağın, onlara mütəxəssislərin rəhbərliyini təmin etməyin də vaxtı çatmışdır. İnternet resurslarında və sosial şəbəkələrdə ədəbi dilin pozulması halları da istənilən qədərdir.

Hər bir millətin öz ana dilini inkişaf etdirib yaşatması onun şərəf işidir.





Fikrət Xalıqov, filologiya elmləri doktoru, professor
"Füyuzat" jurnalı, 2014, №5

3

15. *Qəlb, ürək, könül* sözlərinin bir-birini əvəz edib-etmədiyini nümunələrlə əsaslandırın. Elmi mətndə bu sözlərdən hansı istifadə oluna bilər? Bəs bədii mətndə?

Ədəbi tələffüz normaları bəzi ziyalıların, o cümlədən müğənni və aktyorların danışığında, hətta aparıcı və diktorların da nitqində pozulur.

Tələffüz səhvlərini dialekt tələffüzü və orfoqrafik tələffüz adı altında qruplaşdırmaq olar. Televiziya verilişlərində bəzi aktyorlar sözləri belə tələffüz edirlər: *"Qonşi, başun ağrıyur. Ə, yeri get öz işiə, dərdiə. Bilmirsən, sən bunnan sora nə yemələsən? Toyuğun özü yox ey, suyi..."* və b. Bir çox hallarda hətta diktorların da nitqində [ü] səsinin [i] kimi deyilməsinə [(gücli (güclü), nimunəvi (nümunəvi), imumi (ümumi)] təsadüf edirik.

Televiziya və radio verilişlərinin dilində sözlərin orfoqrafik tələffüzünü (yazıldığı kimi demək) də tez-tez eşidirik. Qaçmaq, oxumaq, yağacaq, tapşırıq və b. sözlərin sonundakı [q] səsləri səhvən yazıldığı kimi tələffüz olunur.

Televiziya və radio verilişlərinin maraqlı, məzmunlu, anlaşıqlı şəkildə çatdırılmasında sözlərin məna çalarını nəzərə almaq çox vacibdir. Verilişlərdə, danışıqda sözçülüyün yaranmasının səbəblərindən biri də dil vahidlərinin ölçülüb-biçilmədən işlənməsidir.

Efirdən və ekrandan tez-tez eşitdiyimiz, yerində işlənilməyən "onu da qeyd etmək lazımdır ki", "heç təsadüfi deyildir ki", "elə götürək", "təkcə bunu demək kifayətdir ki", "bütün bunları nəzərə alaraq", "məlum olduğu kimi", "bütün bunlarla bərabər", "yeri gəlmişkən deyim ki" və s. ifadələrin, cümlələrin nitqdə kök salmasının səbəbi söz üzərində az işləməyin, çıxışlara, söhbətlərə məsuliyyətsiz hazırlaşmağın nəticəsidir.

İsmayıl Məmmədli, filologiya elmləri doktoru, professor
"Füyuzat" jurnalı, 2014, №5

4

16. Nömrələnmiş oxlardan hansının istiqaməti düzgün göstərilmişdir?



✓ *Bu sözləri sinonim hesab etmək olarmı?*

17. N.Cəfərov, F.Xalıqov və İ.Məmmədlinin dedikləri müsahibə, yoxsa şərh hesab edilməlidir? Fikrinizi əsaslandırın.
18. Əgər siz gələcəkdə jurnalist, hər hansı bir proqramın aparıcısı, diktor olmaq istəsəniz, nitqinizi səlis və düzgün qurmaq üçün nədən başlayardınız?
19. Sizcə, dili mükəmməl bilmək və onun qrammatik quruluşuna düzgün riayət etmək üçün ancaq jurnalist və filoloq olmaq lazımdır? Dilin təmizliyini qorumaq üçün hansı təklifləri verərdiniz?
20. "Dilin qorunmasında məktəbin, xüsusən də dil-ədəbiyyat müəllimlərinin rolu" mövzusunda diskussiya aparın.
21. Apardığınız müşahidələr əsasında KİV-də orfoqrafik, yoxsa orfoepik normanın daha çox pozulduğunu müəyyənləşdirin. Səbəbini izah edin.
22. KİV-in bugünkü dili sizi qane edirmi? Mediada dilin hansı qanunlarının pozulmasını müşahidə edirsiniz? Fikrinizi faktlarla əsaslandırın.
23. Prezident İlham Əliyevin nitqində və professorların yazılarında qaldırılan problemlər hər birimizi eyni dərəcədə narahat etməlidir. Həmin nitqlərdə daha çox nəzərə çarpan məsələləri 6-7 cümlə ilə ifadə edin.
24. Nitq dedikdə nə başa düşürsünüz? Nitqin dil ilə bağlılığını necə izah edərsiniz?

25. İstənilən qəzet və ya jurnaldan ixtiyari bir mətn seçin. Mətnin dili üzərində iş aparın. Bunun üçün aşağıdakı ardıcıllığa riayət edin:

- Mətnin yazı formasını (bədii, elmi və s.) müəyyənləşdirin.
- Mətndə orfoqrafik səhvləri müəyyənləşdirin.
- Mətndə durğu işarələri və sözün sətirdən sətrə keçirilmə səhvlərini (əgər varsa) müəyyənləşdirin.
- Cümlələrdə təkrar işlənən söz və ifadələri (əgər varsa) seçin.
- Yerində düzgün işlədilməyən söz və ifadələri daha düzgün olanlarla əvəz edin.
- Mətnin oxunaqlılığına ağırlıq gətirən söz və ifadələri seçib uyğun bildiyiniz sözlərlə əvəz edin.
- Mübtəda ilə xəbərin uzlaşmasına, söz sırasına, sözlərin düzgün əlaqələnməsinə diqqət yetirin.

Dil və nitq bir-biri ilə üzvi şəkildə bağlıdır. Nitq ünsiyyət prosesi olub dilin ifadə imkanları əsasında meydana çıxır. Nitq dildən törəyir, dinləyib-anlama, danışma, oxu və yazı formalarında təzahür edir. Hər bir nitq ədəbi dilin fonetik, leksik, qrammatik qayda-qanunlarına tabe olmalıdır.

Nitq mədəniyyətinin ən mühüm, hamıdan tələb olunan şərti ədəbi dilin normalarına riayət etməkdir.



Ədəbi dilin normalarının tələblərinə hər birimiz əməl etməliyik.

Dilimizin saflığını və zənginliyini qorumaq hamımızın vətəndaşlıq borcudur.

26. Hansı cümlələrdə fonetik norma pozulmuşdur? Onları orfoqrafik və orfoepik normaların pozulması hallarına görə qruplaşdırın.

- Ağıllı o adamdır ki, başqasının müdrüklüyündən və təcrübəsindən öyrənir. (*F.Manuil*)
- Ağıl [köhnəlməyən] [geyimdi], [bilix́] [tükənmiyən] [mədən]. (*Qırğız atalar sözü*)
- Təhsil beyini inkişaf etdirməkdir, hafizəni doldurmaq yox. (*C.Rumi*)
- Bir elimi öyrənmək istədikdə sən
  Çalış ki, hər şeyi kamil biləsən. (*N.Gəncəvi*)
- General Əliağa Şıxlinski hərbiçi olmaqla yanaşı, bədiyi yaradıcılığla da məşqul olmuşdur. (*Ş.Nəzirli*)
- Bu elin adı nədi?
  Dosdu nə, yadı nədi?
  Qürbət eldə bilmədim
  Ağzımın dadı nədi?

✓ *Son nümunəyə əsasən, "orfoqrafik norma pozulsa da, orfoepik normanın tələbləri gözlənilmişdir" fikrini söyləmək olarmı? Şeirin janrını müəyyənləşdirib sözlərin tələffüz formasında verilməsinin səbəbini müəyyən edin.*

27. Hansı sözlərdə vurğu düzgün qoyulmamışdır?

- Kişi bir sənəti bilər xális
  Çoxuna meyil edən qalar náqis. (*S.Ə.Şirvani*)
- İnsanı şöhrətləndirən əməyidír. (*Azərbaycan atalar sözü*)
- Böyük sevinci yalnı́z zəhmətlə́ qazanmaq olar. (*İ.Höte*)
- Sevinmək báşqa, xoşbəxt olmaq başqádır. (*E.Senankur*)
- Səbrini basa bilməyə́ndən müdrik olmáz. (*Yapon atalar sözü*)
- İşləsə́n, xəzinəyə sahib olarsan, tənbəllik etsən, əlindəki xəzinəni də itirə bilərsən.
  (*Hind atalar sözü*)

28. Durğu işarələri səhvlərini düzəldin.

- Kimin ürəyi arzu və ümidlə doludursa, o, artıq gələcəkdə yaşayır. (*L.Şefer*)
- Nə qədər, yaşayırsan öyrən, gözləmə ki qocalıq sənə kamal gətirəcək. (*Solon*)
- Sən özün torpağa əyilməsən, o, sənə əyilməz. (*Başqırd atalar sözü*)
- Biliksiz bir şəxs döyüş təbilinə bənzər səsi çox içi boşdur. (*S.Şirazi*)
- Firudin bəy Azərbaycan şöbəsinə məxsus olan bütün əmlakı – mebel, kitabxana və başqa tədris ləvazimatını vaqona doldurtdurub öz xərci ilə Ağdama aparırdı. (*Ş.Nəzirli*)
- Təcrübə tələbkar müəllim kimidir, əvvəlcə sınağa çəkir sonra öyrətməyə başlayır.
  (*U.Verner*)

29. Hansı cümlələrdə leksik norma pozulub?

- İnişil anam xəstə yatanda o uşağın atası bizə dəyməyə gəlmişdi. (*Anar*)
- Valideynləri ev-eşiklərini zəhmli, tünd-mixəyi rəngli mebellərlə doldurmuş, bufetin üstünə mürəbbəqabıları, ağır güldanlar yığılmışdı. (*Anar*)
- Paltarlar səliqə ilə şkafdakı rəflərə düzülmüşdü. (*Anar*)

30. Cümlələrdə hansı sözlər artıqdır?

- Balaca körpələr beşikdə yanaşı uzanıb səs-səsə verərək qığıldayır, sanki mahnı oxuyurdular.
- Kiçik dalğalar sahilə çırpılır, yenidən geri qayıdıb ağ bəyaz köpük yaradırdı.
- "Xəzər gəncləri" qəzetində Paşa müəllimin məktubu dərc olunandan təxminən iki həftə sonra günortaçağı gündüz redaksiyanın qarşısında bir maşın durdu.
- Çənəsi də yarıya qədər torpağın qumuna bulaşmışdı.

31. Qrammatik normanın pozulduğu halları müəyyənləşdirin, onları aşağıdakı cədvələ uyğun qruplaşdırın.

- Kim ki insanı sevər, aşiqi-hürriyyət olur
  Bəli, hürriyyət olan yerdə də insanlıq olur. (*M.Ə.Sabir*)
- Bilik öyrənməyi ar bilən hər kəs
  Dünyada mərifət qazana bilməz. (*N.Gəncəvi*)
- Keçmişdir onlara qəzəbin niyə?
  Düşmüşlərdir səndən aralı, Göygöl! (*Ə.Cavad*)
- Böyük bir şəhərin ən qaranlıq və tənha küçələrindən birində olan kiçik, beşmərtəbəli evdə iki qardaş, bir bacı yaşayırdılar. (*C.Cabbarlı*)

Söz sırası pozulanlar	*Mübtəda ilə xəbər arasında uzlaşması pozulanlar*	*Şəkilçilərin ardıcıllığı pozulanlar*

✓ *Özünüz də bədii ədəbiyyatdan belə nümunələr seçin.*

32. İstədiyiniz bir verilişin rejissoruna və ya aparıcısına onun danışıq tərzi, verilişi idarəetmə səviyyəsi, dili, verilişin gedişi haqqında məktub hazırlayın.
Məktub yazmaq üçün:
✓ Məktubu nə üçün yazacağınızı düşünün;
✓ Hansı məsələlər sizi maraqlandırır;
✓ Verilişin müsbət, mənfi cəhətləri;
✓ Aparıcının danışıq tərzi, tələffüzü, müsahibinə verdiyi sualların səviyyəsi, geyim tərzi, çəkiliş məkanının tərtibatı, müzakirə ediləcək mövzuya uyğunluğu;
✓ Təkliflərniz.



2-ci BÖLMƏ

TƏBİƏT VƏ BİZ

- Muğan
- Şollar su kəməri
- Xəzər dənizi
- Çinarın şikayəti
- Birlik
- Şəhidlər

Təbiət ilhama çağırır məni

Səməd Vurğun

İnsanın yaxşı həyatını təmin edən amillərdən biri də ekoloji vəziyyət, sağlamlıq və təbiətin, ətraf mühitin qorunmasıdır. İnsanların sağlamlığına, ekoloji vəziyyətə, udduğumuz havaya, içdiyimiz suya, bütün bunlara biz çox böyük diqqət göstərməliyik.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

- Bölmənin epiqrafına diqqət yetirin. Sonra prezidentin nitqindən götürülmüş sitata diqqət yetirin. Bu fikirlər arasında hansı əlaqəni görürsünüz?

  Bölmədəki materiallarla tanış olarkən aşağıdakı suallara cavab axtarın:

  - Bizim sağlamlığımız bizi əhatə edən təbiətdən nə dərəcədə asılıdır və bu asılılığı təmin edən amillər hansılardır?
  - Cəmiyyətimizdə təbiətin qorunması sahəsində hansı işlər görülür və siz bu proseslərdə necə iştirak edirsiniz?

1 MUĞAN

(poemadan ixtisarla)

1. Şeiri intonasiya ilə oxuyun. Səs tonunun azalıb yüksəlməsinə diqqət yetirin.

Şeirdə altından xətt çəkilmiş sözlərin tələffüz formalarından hansı düzgündür?

ORFOEPİYA

➤ [buluddar]	[bulutdar]
➤ [təmtərax]	[təmtərağ]
➤ [torpax]	[torpağ]

"Yazıçı yalnız qələmlə yazmır, eyni zamanda sözlə şəkil çəkir".

Maksim Qorki

Axşamdır... Günəşin rəngi qırmızı,
Buludlar çəhrayı, üfüqlər laldır.
Yerlə vidalaşır o göylər qızı
Səyyar buludların rəngi xal-xaldır.

Sükuta qərq olmuş sonsuz yamaclar
Şəhərlər uzaqdır, kəndlər də seyrək.
Arxların üstündə tək-tək ağaclar
Yalqızlıq içində sıxılır ürək.

Atını dördnala çapdırır külək,
Qopur kötüyündən tikanlı kollar.
Gah sağa, gah sola üz döndərərək
Bizi çox çaşdırır dolaşıq yollar.

Bu lal səhralara səs salır hərdən
Uzaqdan qışqıran bir qatar səsi.
Bir xoş arzu kimi keçir qəlbimdən
Qaynar şəhərlərin isti nəfəsi...

Bu zaman xəyala gedirəm bir an:
Sağımda, solumda işıqlar yanır.
Şəfəqlər içində sayrışır Muğan,
Səhralar al-əlvan rəngə boyanır.

Gülür yolçuların üzünə, budur,
Hər addım başında kiçik bir şəhər...
Tənhalıq dərdini çöllər unudur,
Dənizə bənzəyir yaşıl zəmilər.

Göydə motor səsi, yerdə təmtaraq
İnsanlar qaynaşır bir ümman kimi.
Baxıb cəlalına sevinir torpaq
Xəstəlikdən durmuş bir insan kimi...

Bir qızıl qan olub axar sular da,
Can verir torpağın damarlarına.
Günəş salam verir bu arzularda
Muğan torpağının hər baharına.

Səməd Vurğun

✓ *Sizcə, şeirdə əsas obraz hansıdır? Fikrinizi şeirdən çıxış edərək əsaslandırın.*

✓ *8-ci sinifdə oxuduğunuz "Muğan" əfsanəsini xatırlayın, poema ilə əfsanənin məzmununu müqayisə edin.*

✓ *M.Qorkidən verilmiş epiqraf S.Vurğunun əsərində öz təsdiqini tapırmı?*

2. Şairin arzuları nə ilə bağlıdır?
3. Nə üçün şair yamacların sonsuz, kəndlərin seyrək, səhraların lal olduğuna işarə edir?
4. Suyun qızıl qana bənzədilməsinin səbəbi nədir?
5. Şeirdə bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin. Şairin bu vasitələrə müraciət etməkdə məqsədi nədir? Hansı bənddə fikrin məcazi şəkildə verilmişdir?
6. Şəkillə şeirin məzmunu arasındakı bağlılığı müəyyənləşdirin. Sxemi tamamlayın və şərh edin.



7. *Sözün də su kimi lətafəti var,*
Hər sözü az demək daha xoş olar.
Bir inci saflığı varsa da suda,
Artıq içiləndə dərd verir su da misralarının məzmununu izah edin. Nə üçün N.Gəncəvi dəyərli sözü məhz su ilə müqayisə edir?
8. Siz yazıçı olsa idiniz, hansı obrazı qəhrəman seçib hekayə yazardınız? Həmin hekayəni yazmağa çalışın. Hekayəni hazırladığınız qəzet maketinin müvafiq bölməsində yerləşdirib oxucuların müzakirəsinə təqdim edin.

9. Şeirdə *lal* sözündən iki yerdə istifadə olunmuşdur. Bu söz hansı mənalarda işlədilmişdir? Həmin sözü cümlədə həqiqi mənada işlədin.
10. 4-cü bəndin neçənci misrasında sinonim sözlər işlənmişdir? Eyni anlayışın müxtəlif vahidlərlə ifadəsi nəyə xidmət edir? Həmin sözlərin antonimini tapın.
11. Fərqləndirilmiş cümlələrdə hansı sözlər bir-biri ilə sinonimdir?
12. Nöqtələrin yerinə çərçivədə verilmiş sözlərin hər birini işlədin. Yaranmış məna fərqlərini izah edin.

✦ Yerlə .... o göylər qızı

vidalaşır
sağollaşır
xudahafizləşir

✦ Gülür yolçuların ...., budur

üzünə
simasına
çöhrəsinə

✓ *Sözlər bir-birini əvəz edə bildimi? Bəs nə üçün şair şeirdə məhz* ***üzünə*** *və* ***xudahafizləşir*** *sözündən istifadə etmişdir? Şeirdən özünüz də belə nümunələr seçib fikrinizi ümumiləşdirin.*

13. Şeirdə frazeoloji birləşmələri seçib onların ifadə etdiyi mənanı deyin.

14. **MÜZAKİRƏ**

Hökmlərdən birini seçib düzgünlüyünü əsaslandırın.

✦ *Şeirin bir çox misralarında "üfüqlər laldır", "qışqırır qatar", "torpağın damarları" kimi ifadələrin işlənməsi leksik normanın pozulmasına səbəb olmuşdur.*

✦ *Bu ifadələrin işlənməsi leksik normanın pozulması deyil, şeirdə bədiilik, emosionallıq yaratmaq üçün istifadə edilmişdir.*

15. Şeirdə hansı misralarda qrammatik norma pozulmuşdur? Səbəbini izah edin.
16. Siz bədii əsərlər üzərində iş aparmaqla onların xüsusiyyətlərini müəyyənləşdirməyi öyrənmişsiniz. Artıq bilirsiniz ki, bədii mətnlər ... (cümləni əsaslandırılmış müxtəlif hökmlərlə tamamlayın):

• dili sadə olur; • ..... . • ..... .
• fikir ..... . • ..... . • ..... .

17.

Bütün bədii mətnlərin dili bədii üsluba aid edilir. S.Vurğunun "Muğan" poemasından götürülmüş bu hissənin də dili bədii üslubdadır.

Sizcə, bəs bədii üslubun xüsusiyyətləri nə ola bilər? S.Vurğundan götürülmüş bu parçada bədii üsluba məxsus hansı xüsusiyyətlər var?

Hökmlərdən düzgün olanı seçməklə bədii üslubun xüsusiyyətlərini müəyyənləşdirin.

- Əsərin dili aydın və sadədir.
- Elmilik müşahidə olunur.
- Əsərdə bədiilik yaradan söz və ifadələr vardır.
- Şeirdə bir neçə yerdə terminlərdən istifadə olunmuşdur.
- Sözlərin məcazi mənasından istifadə olunmuşdur.
- Söz sırasının pozulması şeirin təsir gücünü artırır.

Bədii üslüb aparıcı üslublardan biridir. Obrazlı nitq forması olan bədii üslub nəsr və nəzm şəklində təzahür edir. Bu üslubda sözün məcazi mənasından, bədii təsvir və ifadə vasitələrindən, ritorik suallardan, xitablardan, bədii nidalardan, obrazın nitqini fərdiləşdirmək üçün sitatlardan, epiqraflardan geniş istifadə olunur. Məsələn:

Dəmiri aynatək parladan insan
Pası silməlidir öz vicdanından. (*N.Gəncəvi*)

Qəlbimdən gələn səs mənə çox zadlar öyrədir. Haman səs pak və təmiz insafımın səsidir ki, hamıda o insaf var. Hər kəs huş-guş ilə onun buyurduğuna qulaq asıb, əmrinə əməl etsə, çox sirlərdən agah olub, çox şeylər bilər. (*C.Məmmədquluzadənin "Danabaş kəndinin əhvalatları" əsərinin əvvəlində Sokratdan verilmiş epiqraf*)

Oğlumuz, ay Xansənəm, bir yekə pəlvan imiş!
Bəxtəvər olsun başım, bəxtimiz oğlan imiş! (*M.Ə.Sabir*)

R e y h a n. Gələcəyi kim bilir?!
İ l d ı r ı m A t a y e v. "Kim bilir"i əkiblər, bitməyib. Bil ki, iradə istedadın anasıdır (*İ.Əfəndiyev, "Atayevlər ailəsi"ndən*)

Bədii üslub xalq danışıq dilinə daha yaxındır. Sənətkar xalq dilindən götürdüyü sözləri bədii əsərdə işlədərkən onlara müxtəlif məqamlarda müxtəlif mənalar verməklə fikri qüvvətləndirir. Məsələn:

Şahbikə nəzərlərini təndir dibində get-gedə soluxan közdən ayırıb təndirin divarlarında getdikcə daha çox qızaran iri xəmir parçalarına dikdi. (*S.Dağlı*)

Çün on səkiz min aləmin cudü vücudu xud mənəm,
Cümlə cahan təndir mana, mən bu cahanın canıyam. (*İ.Nəsimi*)

Nənəsi çörək yapmaq üçün təndiri qaladı.

18. Qayda daxilində verilmiş son üç cümlədə *təndir* sözünün işlənmə məqamlarına diqqət yetirin və müqayisə edin. İ.Nəsiminin *təndir* sözünü işlətməsinin səbəbini izah etməyə çalışın.

19. S.Vurğunun "Muğan" poemasından götürülmüş ixtiyari bəndləri, C.Cabbarlı və M.İbrahimovun əsərlərindən götürülmüş mətnləri məzmun və dil baxımından müqayisə edin. Oxşar və fərqli cəhətləri müəyyən edib cədvəli (səh. 55) tamamlayın.

1 N ü s r ə t. Yaxşı, Yaşar, indi bizi yaxşı-yaxşı başa sal görək bu necə işdir?

Y a ş a r. Bilirsiniz, yoldaşlar, kəndimizin qabağından keçən bu çayı ki, özünüz bilirsiniz, hər il bu çay daşır, torpağı suvarır, yenə də çəkilir. Ona görə kəndimizin torpağı məhsuldardır, ancaq daşqından bataq əmələ gəlir. *Odur ki, kəndimiz bütün ölkəmiz üçün qızdırma yuvasıdı.*

İ m a m y a r. Doğrudur, atam, doğrudur. Kənd başdan-başa qızdırmalıdır.

Y a ş a r. Əlbəttə, suvarma işlərini düzgünləşdirməklə qızdırmanı aradan qaldırmaq olar. Traktor da salarsan, əmək azalar və məhsul çoxalar. **Ancaq traktor da gəlsə, yalnız bu kəndin ətrafındakı yerlər işlənə bilər.** Biz təsərrüfatı maşınlaşdırmaqla təbiətin əlində olan bütün sərvəti hamının ixtiyarına verməliyik. Bizdən üç kənd aşağıda, Alakəndin solundan geniş bir duzlaq başlanır. Min verstlərlə bu geniş düzən otsuz-ələfsiz, faydasız yatıb qalmışdır.

İ m a m y a r. Var, var, elədir, Şordüzən... Şordüzən... nə ucu var, nə bucağı...

Y a ş a r. Bu gəlişdən bizim məqsədimiz o yaramaz düzü işə salmaqdır.

N i y a z. O duzlaqda heç nə əmələ gəlməz ki...

Y a ş a r. Əmələ gələr, yoldaşlar. Dövlət laboratoriyası kimyəvi bir tərkib ixtira edibdir ki, duzu bitərəfləşdirir. Mən bu saat sizə yazı ilə başa salım (*taxtada yazır*). Baxın, bu natri xlor – NaCI, deməli, duz tərkibi belədir: $NaCI + H_2O + N_2SO_4$, deməli, duz, artır üstünə haş iki o. Başa düşdünüz, yoldaşlar?

Ə m i r q u l u. Aşı başa düşdük, ancaq "o"yi başa düşmədik.

Y a ş a r. Aş yox, yoldaşlar, haş, haş... hidrogen... başa düşdüz?

T o ğ r u l. Hidrogen, yəni su qazı.

Ə m i r q u l u. Bəs o, "o" nədir?

Y a ş a r. *"O", yəni, kislorod, oksigen.* Yəni turşulu qaz. Başa düşdünüz?

T o ğ r u l. Dayan, dayan, Yaşar, mən sənin sözlərini bunlara tərcümə eləyim. Yoldaşlar, Yaşar yoldaş bir dərman tapıb ki, duza qatışanda duzu əridir, eləyir torpaq. Başa düşdünüz?

H a m ı. Başa düşdük, başa düşdük...

Y a ş a r. Demək, o dərmanı gübrə kimi duzlara səpmək, duzu yox eləmək lazımdır. Bunun üçün Alakənddə bir kimya zavodu, bir də elektrik stansiyası açılmalıdır. Çay barı içərisinə alınmalı, su elektrostansiyaya, oradan da dediyimiz geniş çöllərə buraxılmalıdır. Beləliklə, bir az keçmədən Şordüzən zəngin bir pambıq tarlasına çevrilmiş olar.

(Cəfər Cabbarlının "Yaşar" pyesindən)

✓ *Niyə hamı Yaşarın deyil, Toğrulun dediyini başa düşür?*

✓ *Pyesdə fərqləndirilmiş cümlələrdə hansı norma pozulmuşdur? Həmin cümlələrdə durğu işarələrinin işlənməsində yol verilmiş səhvi müəyyənləşdirin.*

✓ *Tünd şriftlə verilmiş cümlədə* ***ancaq*** *və* ***yalnız*** *sözlərinin yerini dəyişmək olarmı? Niyə?*

✓ *Mətndə işlənmiş varvarizmləri, terminləri müəyyən edin. Sizcə, belə sözlərin bədii əsərlərdə işlənməsinin səbəbi nədir?*

2 Ah, Muğanın yazı, Muğanın səhərləri! Sizin gözəlliyinizə dalmaq, ürəkdə oyatdığınız incə duyğularla məst olaraq yaşamaq nə qədər şirindir! Bayıra çıxırsan, bəzən çənə-dumana bürünmüş, bəzən ilıq günəş şüaları altında xumarlanan çöllərin sərin və ətirli nəfəsi səni çalır. Sinən qeyri-adi bir yüngüllüklə qalxıb-enir. Kür və Araz boyu seyrək ağaclar və kolluqlar arasına düşmüş boz kənd evlərinin ocaqları tüstüləyir, saclarda və təndirlərdə bişən çörəyin iyi sərin havaya qarışaraq sənin ciyərlərinə dolub müqəddəs duyğular oyadır... **Bu zaman hər şey sənin üzünə gülür sanki səni salamlayıb Sabahın xeyir əziz dost deyə yeni açılan səhərini təbrik edir.** Yastı-yapalaq evlər, odu sönməyən ocaqlar, palçığı yapışqan kimi ayağa suvaşan torpaq sənə yüz qat əziz görünür. "Mənim ana yurdum! Mənim müqəddəs ocağım!" – deyə pıçıldayırsan.

Açılan səhərin gözəlliyi xəyallarını oynatdıqca, sabaha çəkib apardıqca Şirzad düşünürdü: "Kəndin küçələrini düzəltmək, palçığı təmizləmək olar. Bir adam yoxdur ki, bu palçıq üst-başına suvaşmasın, bir ev yoxdur ki, astanasını bozardıb ağartmasın. Yaxşı səkilər salmaq olar, tərtəmiz səkilər uzanıb qapılara çatanda bütün evlərin döşəməsi ayna kimi parıldayacaq. Hələ kəndlər! Muğanın sinəsində pəncərəli-eyvanlı evləri adama ləzzət verən kəndlər tikib, hər tərəfdə bağ-bağat salmaq! İndinin özündə belə gözəl binalar var. Planla tikilib qatarlanmış evlər, insanın könlünü açan kəndlər də meydana gəlir. Lakin bunlar hələ çox azdır. Hələ də kəndlərin çoxu plansız, əyri-üyrü küçələrdən, yastı-yapalaq boz evlərdən ibarətdir. Su səhənglərlə daşınır".

(Mirzə İbrahimovun "Böyük dayaq" romanından)

✓ ***Çalır*** *sözünün mətndə ifadə etdiyi mənanı izah edin. Bu sözü hansı sözlə əvəz etsəniz, məzmuna xələl gəlməz? Həmin sözün işlənməsini leksik normanın pozulması halı hesab etmək olarmı?*

✓ *Tünd şriftlə verilmiş cümlədə durğu işarələrini bərpa edin.*

✓ *Mətndə bədii üsluba xas olan hansı cəhət özünü qabarıq göstərir?*

	şeirdə	**pyesdə**	**nəsr əsərində**
Fərqli cəhətləri			
Oxşar cəhətləri			

Bədii üslub şeir, nəsr və dramaturgiya dili formasında təzahür edir. Bədii əsərlərdə obrazın dilində xalq təfəkkürünün məhsulu olan söz və ifadələr, dialekt sözlər, terminlər, arxaik sözlər, varvarizmlər, vulqar sözlər işlədilə bilər. Bu sözlərin işlədilməsi obrazın danışığı, həyat tərzi, mədəniyyəti, mühiti, başqalarına münasibəti və s. haqqında dolğun təsəvvür yaradır. Məsələn:

Ş ə r i f. Hamısını, əlbəttə ki, **subutalni, dakumentalni** yazarıq. Bura bax, siz bir **spakoys** olun. Bunu mən yazmışam. (*C.Cabbarlı*)

Bu sözləri deyə-deyə oğlan ulağın başını çubuqnan qaytarırdı qatsın genə həyətə. Bu **heyndə** Xudayar **katda** oğlanın dal tərəfindən yeriyib, oğlanın kiirəyindən bir ağac vurdu.

– Biri bir **axmaq** söz dedi, gərək bunlar da oturub ona **axmaq-axmaq** gülələr. (*Ə.Haqverdiyev*)

Sarıtel yerindən qalxdı:

– İndi həkimlər gələcək. **Konsilium** olacaq. Müalicə təyin edərlər. (*Ə.Babayeva*)

Müəllifin dilində isə bu sözlərin işlədilməsinə, adətən, yol verilmir.

20. 54-cü, 58-ci və 59-cu səhifələrdə verilmiş mətnlər əsasında aşağıdakı sxemi tamamlayıb fikirlərinizi ümumiləşdirin.

✓ *Verilən cavabların qısa və lakonik olmasına çalışın.*

✓ *Qurduğunuz cümlədə sözlərin düzgün əlaqələnməsinə, durğu işarələrinin düzgün istifadə edilməsinə riayət edin.*



✓ *Quruluşuna görə cümlələrin hansı növündən daha çox istifadə etdiniz?*

21. Mətnin dili üzərində iş aparın.

✓ *Müəllifin dili ilə obrazların dilini fərqləndirin.*

✓ *Fonetik, leksik, qrammatik normaların pozulduğu cümlələri müəyyənləşdirib səhvləri düzəldin.*

✓ *Ləhcəyə uyğunlaşdırılmış rus mənşəli sözləri milli qarşılığı ilə əvəz edin.*

– Mən raboçilik eliyəcəm. Dəmirçi Əbdül əmi ilə danışmışam. Bayramdan sonra məni gəmi karxanasına aparacaq: onun yanında şagird işləyəcəm, – deyə üçüncü qardaş da öz fikrini bildirdi; sonra əlavə etdi: – Ancaq mən Cəfərin dərsi buraxıb işləməyinə razı döyüləm. Hələlik bizim qazancımızla birtəhər dolanarıq.

– Bu, yaxşı sözdür, – Hüseynqulu Əjdərin fikrini bəyəndi. Cəfər gərək oxusun.

– Dəlidən doğru xəbər. Barakallah babi! – Heydər yenə Əjdərin peysərinə bir şapalaq vurdu.

Əjdərin fikrinə razılıq verməyən qardaşların lap kiçiyi, Cəfər özü oldu:

– Yox, mən daha mollaxanaya getməyəcəyəm. Mən də sizin kimi işləyəcəyəm.

Hüseynqulu mülayimcəsinə ona dedi:

– Axı, sən balacasan, Cəfər; hələ oxu, böyüyəndə işlərsən.

– Yox, mən daha mollaxanaya getməyəcəyəm!

– Nə olar, istəmir, qoy getməsin, – deyə Əjdər yenə dilləndi. Mən bilirəm ki, uşağın mollaxanadan xoşu gəlmir. Bəsdir, iki il ömrünü orda çürütdü. Gəlin, qərdeşimizi uşqollaya qoyaq, yaxşı-yaxşı dərs oxusun, elm öyrənsin, ağıllı-başlı adam olsun.

– Hə, uşqullaya?! – deyə böyük qardaşlarının hər ikisi birdən Əjdərin üstünə qışqırdı. – Nə danışırsan, adə? Uşaq gedib xaçpərəst olsun? Öz əlimizlə qərdeşimizi saldatlığa verək?

– Adə, istəyirsən ki, Cəfəri də özün kimi babi eyləyəsən?

Əjdər güldü:

– Nə babi, nə saldat, ay qərdeşlər? İnanmayın mollaların bu yalan sözlərinə! Uşqullanın nə din ilə işi var, nə də saldat hazırlayır. Təzə məktəb yaxşıdır, tərtəmizdir; çubuğu yox, fələqqəsi yox. Orda uşaqlara əsil dərs vərillər, elm öyrədillər, Qoyaq Cəfəri ora, oxuyub doxdurdan, incinardan, müəllimdən olsun, el-oba üçün bir gün ağlasın! – O kiçik qardaşına baxdı: – Düz demirəm, Cəfər?

Cəfərin gözləri parıldadı:

– Düz deyirsən, Əjdər. Ancaq mən həm işləyərəm, həm də məktəbdə oxuyaram. Vallah, ikisinin də öhdəsindən gələrəm.

(Seyfəddin Dağlının "Bahar oğlu" əsərindən, ixtisarla)

22. Sxemdən (səh. 60) istifadə edərək 150 sözdən ibarət kiçik mətn tərtib edin.

- Yazacağınız mətnin müəyyən bir ideya ifadə etməsinə çalışın. Məsələn: "Vətən onu sevənlərindir".
- Mətn üçün epiqraf seçin.
- Fikirlərinizi sitatlarla əsaslandırın.
- Yazdığınız mətnin yazı qaydalarına uyğun olmasını yoxlayın.

✓ *Özünüz istədiyiniz şəxsləri əsərinizin qəhrəmanı seçə bilərsiniz.*

2 ŞOLLAR SU KƏMƏRİ

(ixtisarla)

ORFOQRAFİYA

➤ Mətndə mötərizədə verilmiş sözlərdən hansının yazılışı düzgündür?

ORFOEPİYA

Hansı düzgündür?

➤ [gealoji] [giyaloji]
➤ [geadeziya] [giyadeziya]
➤ [baḱterialoji] [baḱteriyaloji]

1859-cu ildə Şamaxı zəlzələsindən sonra qəza mərkəzinin Bakıya köçürülməsi ilə şəhər sürətlə inkişaf etməyə başladı. Neft sənayesinin inkişafı ilə əlaqədar olaraq XX əsrin əvvəllərində Bakının əhalisi artıq 200 min nəfərə çatmışdı. Əhalinin artması ilə Bakıda içməli su qıtlığı artıq kəskin şəkildə özünü göstərirdi. O dövrdə Bakıda mövcud "xan su kəməri" sisteminin ovdanları və dərinliyi 64 metrdən az olmayan həyət quyuları şəbəkəsi əhalinin tələbatını ödəmək (*iḱtidarında, iqtidarında*) deyildilər.

İçməli suyun miqdarını artırmaq üçün yeni quyuların qazılması, köhnə su hövzələrinin tutumunun artırılması və yenilərinin tikilməsi üçün tədbirlər görülməyə başlandı. Bakı üçün içməli su axtarışları Abşeron yarımadası da daxil olmaqla Zuğulba su kəhrizlərinə, şimalda Dübrar dağlarına və qərbdə Kür çayına kimi geniş bir ərazini əhatə edirdi.

1879-cu ildə neft milyonçusu, Şəhər Dumasının üzvü Hacı Zeynalabdin Tağıyevin təklifi ilə su kəmərləri komissiyası yaradıldı. Mütəxəssis və mühəndis-hidravliklərin axtarışları nəticəsində məlum oldu ki, Bakı ətrafında kifayət qədər içməli su ehtiyatı yoxdur. Avropa ölkələrinə səfərlərində Almaniya və Fransanın su və kanalizasiya qurğuları sistemi ilə yaxından tanış olan H.Z.Tağıyev Avropanın ən yaxşı hidravlik-mühəndisi sayılan ser Vilyam Harleyn Lindleyin Bakıya dəvət olunmasını təklif etdi.

Ser Lindley 1899-cu ilin payızında Bakıya gəldi.

Lindley Bakıya gələn kimi vaxt itirmədən (*geoloq, geoloḱ*) və mühəndislərin tədqiqat işlərinin nəticələri ilə tanış oldu, (*müfaviq, müvafiq*) layihələrin işlənməsi məqsədilə təklif olunan məntəqələrə, yəni Kür çayına yola düşdü. Lakin Lindleyin diqqətini Şahdağ, Qusar yaylası və Qusarçayın yatağı cəlb etdi. Şübhəsiz, Qusarçay əbədi buzlaqlarla örtülmüş geniş dağlıq ərazidə olduqca etibarlı su (*mənbəsi, mənbəyi*) rolunu oynaya bilərdi. Uzun müşahidələrdən sonra Lindleyin gəldiyi qənaət belə idi:

"Qafqaz dağlarının şimal yamaclarının sel suları ilə yuyulması və çoxlu xırda çay deltalarının olması nəticəsində geniş bir düzənlik mövcuddur. Onların yaratdığı qatlar

dənizə tərəf meyilli olmaqla yanaşı, əsasən, sukeçirici qum və kiçik daşlardan ibarətdir. Bu qatların arasını gil pərdəsi tutur. Bütün bunlar bir yataqda, yaxud da ayrı-ayrı təbəqələr şəklində dağlardan dənizə doğru hərəkət edən güclü bir yeraltı axının olduğundan

xəbər verir. Şahdağ dağ massivi üzəri güclü (*tabaşir, təbaşir*) çöküntüsü ilə örtülmüş Yura dövrünə aiddir. Yay mövsümündə suyun əksər hissəsini verən Şahdağın şimal yamacı Samur çayını, həmçinin ətrafdakı bir çox kiçik çay və bulaqları su ilə təmin edir".

Lindleyin ilk dəfə "Şollar" sözündən istifadə etməsi Bakı Dumasında qızğın müzakirələrə səbəb oldu. O, bulaq suları ilə zəngin olan və su hövzəsi kimi müəyyənləşdirdiyi ərazini Şollar adlandırırdı. Şollar bulaq sularının nəhəng bir şəhəri su ilə təmin edə biləcəyinə az adam inanırdı.

Lindley opponentləri öz seçiminin düzgünlüyünə inandırmaq üçün Şollar ərazisində hidroloji ekspertiza aparılmasını təklif etdi. Lakin Şəhər Duması vəsait çatışmazlığını bəhanə gətirərək bu təklifi rədd etdi. Bu zaman Hacı Zeynalabdin Tağıyev lazımi işlərin görülməsi üçün, onun təbirincə desək, "kasıb şəhər idarəsi"nə 25.000 rubl təklif etdi. Hacının bu təklifi Bakının gələcək su təminatında həlledici rol oynadı.

Mühəndis Şoll Şahdağın ətəklərində yerləşən geniş Qusar yaylasının işlənməsi üçün yaradılan geoloji ekspedisiyanın rəisi təyin olundu. Şollun rəhbərlik etdiyi ekspedisiya ağıryüklü at arabaları ilə nəzərdə tutulmuş bölgəyə gələrək işə başladı. Geodeziya və hidrogeoloji cihazların köməyi ilə Şahdağda və ona bitişik Qusar yaylasında kəşfiyyat işləri aparıldı. Şollun hesabatından məlum oldu ki, dənizkənarı boyunca içməli su quyuları, Xudatdan şimal-şərqə doğru isə meşədə olduqca şəffaf, sərin bulaq suyu aşkar edilib.

Su nümunələri Tağıyevin Qızlar məktəbinin zirzəmisində yaradılmış laboratoriyada kimyəvi-bakterioloji analiz olundu. Şollun ekspedisiyası suyun yeri, miqdarı və keyfiyyəti barədə Lindleyin verdiyi proqnozları təsdiq etdi. Duma, nəhayət ki, Şollar–Bakı su kəmərinin çəkilişi barədə çoxdan gözlənilən qərarı qəbul etdi. Qərarda deyilirdi ki, Bakının və ətrafının yeni su kəmərinin müfəssəl layihələndirmə və inşa işlərinə ümumi rəhbərlik və nəzarət baş mühəndis Vilyam Lindleyə tapşırılsın. 1914-cü ilin yayında, tikinti işlərinin qızğın çağında I Dünya müharibəsinin başlanması işlərə böyük ziyan vurdu. Müharibə getməsinə baxmayaraq, su kəmərinin çəkilişi tam sürətlə davam edirdi. Ser Lindley Bakıdan heç yana getmir, tikintiyə şəxsən rəhbərlik edirdi. 1917-ci il yanvarın 22-də ser Vilyam əlində saat Şollar suyunun ilk şırnağının şəhərə gəlişini gözləyirdi. Su düz müəyyən olunmuş vaxtda – 63 saata 187 kilometrlik məsafəni qət edərək Bakıya daxil oldu. Su kəmərinin kranını açmaq Hacı Zeynalabdinə həvalə edildi. Çənlərin dolması, yuyulması bir aydan artıq vaxt apardı və 1917-ci il martın 1-dən Şollar–Bakı su kəmərinin istismarına başlandı.

Füzuli Sabiroğlu, "Füyuzat" jurnalından, 2011-ci il, №5

1. *1910-cu ilin iyulundan oktyabr ayına kimi Şollar–Bakı su kəməri üzrə son hesablamalar başa çatdırıldı. Bütün ölçmələr, hesablamalar və çertyoj işləri 1911-ci il martın 1-də, kəmərin sahələr üzrə iş bölgüsü isə may ayında tamamlandı* cümlələrini mətnin hansı abzasından sonra yerləşdirsəniz, ardıcıllıq pozulmaz?
2. H.Z.Tağıyevin vətəndaşlıq mövqeyini dəyərləndirin.
3. V.H.Lindleyin öz qərarında qəti olmasının səbəbi nə idi?
4. Hansı fikir mətndə öz əksini tapmayıb?
   A) I Dünya müharibəsinin başlanması Bakıya su kəmərinin çəkilməsi işində fasilə yaratdı.
   B) Geoloq və mühəndis-hidravliklərin Bakı ətrafında içməli su ehtiyatı axtarışı səmərəsiz qalmışdı.
   C) Ser Lindley Bakıya Hacı Zeynalabdin Tağıyevin təklifi ilə gəlmişdi.
   D) Su kəmərinə seçilən ad Bakı Dumasında qızğın mübahisələrə gətirib çıxardı.
   E) Şollar suyunun Bakıya daxil olması 2 sutkadan artıq müddətə başa gəlirdi.
5. Mətnin bədii üslubda yazıldığını demək olarmı? Niyə? Mətndə müəyyən terminlərin olması onun elmi üslubda olduğunu sübut edirmi?
6. Mətnin son hissəsini (səh. 64) abzaslara ayırın.
7. Sizcə, Lindley hesabat yazsa idi, onu kimin adına yazardı və orada hansı məlumatları əks etdirərdi? Həmin hesabatı hazırlayın.
8. Mətnin qısa məzmununu danışın (66–67-ci səhifələrdəki nümunədən istifadə edin). Bunun üçün:
   ✓ *Hər abzasdan əsas faktları seçin və bir-biri ilə əlaqələndirin.*
   ✓ *Fikirlərinizin dolğun və əlaqəli olmasına çalışın.*

9. *Ovdan, kəhriz, hövzə, quyu* sözlərinin leksik mənalarını müəyyənləşdirin.
10. *Şəbəkə* sözünün mətndə işlənmiş mənasını deyin. *Şəbəkə* sözünü ayrı-ayrı cümlələrdə elə işlədin ki, onlardan birini bədii, digərini elmi mətndə istifadə etmək mümkün olsun.
11. *Yayla, yaylaq* sözlərinin leksik mənalarını düzgün müəyyənləşdirin.

Yayla ? Dağlıqda olan düzən yerləri

Yayla ? Sərinliyinə görə yay istirahəti üçün əlverişli olan dağ yeri

Yaylaq ? Dağlıqda olan düzən yerləri

Yaylaq ? Sərinliyinə görə yay istirahəti üçün əlverişli olan dağ yeri

12. Mətndə qırmızı rəngdə verilmiş sözlərin leksik mənasını aşağıdakı izahlarla düzgün uyğunlaşdırın.
    - bir hadisənin necə inkişaf edəcəyini və nə ilə nəticələnəcəyini əldə olan əsaslara görə əvvəlcədən xəbər vermə
    - müəyyən məqsəd üçün qrup halında edilən səfər
13. Mətndə çərçivəyə alınmış ifadəni (səh. 64) hansı köməkçi nitq hissəsi ilə əvəz etsəniz, məzmun dəyişməz? Hər iki ifadəni müqayisə edin.
14. Mətndə altından xətt çəkilmiş sözləri elə sinonimləri ilə əvəz edin ki, məzmuna xələl gəlməsin.
15. *İstismar* sözünün hansı mənası mətndəkinə uyğundur?

1. Hər hansı bir əməli məqsəd üçün sistematik istifadə etmə
2. İşlənməyə və ya istifadəyə başlamaq
3. İstehsal vasitələri üzərində xüsusi mülkiyyət sayəsində insanların bir qisminin başqalarının əmək məhsulunu mənimsəməsi, amansızcasına özü üçün işlətməsi

16. Mətndə (səh. 63) altından xətt çəkilmiş cümlələrdə hansı sözlər dil paralelinə (*eyni anlayışın mənşəcə fərqli sözlərlə verilməsi*) nümunədir? Özünüz də belə nümunələr tapın.

Nümunə:

Azərbaycanın bütün çayları Xəzər dənizi hövzəsinə aiddir və 3 qrupa bölünür: Kür hövzəsi çayları, Araz hövzəsi çayları və Xəzər dənizinə tökülən çaylar.

Respublika ərazisindəki 8359 çayın böyük əksəriyyətini (7800) uzunluğu 10 km-dən az olan kiçik çaylardır. Çay şəbəkəsi respublika ərazisi üzrə qeyri-bərabər paylanmışdır. Çay şəbəkəsinin ən yüksək sıxlığı Lənkəran fiziki-coğrafi vilayəti, ən aşağı kəmiyyəti Qobustan-Abşeron üçün səciyyəvidir.

Kür çayı nəinki Azərbaycanda, hətta bütün Cənubi Qafqazda ən böyük çaydır. O, başlanğıcını Türkiyə ərazisindən götürür, uzunluğu 1515 km olmaqla 900 km-dən çox hissəsi Azərbaycandan keçir. Kür respublikamıza Xrami çayı hövzəsindən daxil olur və Xəzər dənizinə tökülən mənsəbində 15 km enliyində delta formalaşdırır. Şəmkirçay mənsəbinə qədər Kür kifayət qədər böyük meyilliyə və düzxətli yatağa malikdir ki, bu da axın sürətinin böyük olmasını şərtləndirir. Aşağı axınlara doğru çayın öz məcrasını yuması ilə yanaşı, Şirvan çaylarının və ara çayların Kürə tökülməsi səbəbindən çayda bulanıqlıq yenidən artmağa başlayır. Mingəçevir su anbarından sonra çay Kür-Araz ovalığına daxil olur ki, burada onun yatağı ətraf ərazilərə nisbətən yüksəkdə yerləşir. Kürün ən böyük qolu olan Araz çayının uzunluğu 1072 km-dir. Bu çayın hövzəsi Kür çayının ümumi hövzəsinin 54,2 faizini təşkil etsə də, sululuğu 2 dəfə azdır. Araz çayı 580 km məsafədə İranla Azərbaycan arasında dövlət sərhədi təşkil edir.

Azərbaycanda bütün çaylardan suvarma məqsədilə istifadə olunur. Axının məkan və zaman ərzində qeyri-bərabər paylanması çoxillik və fəsli tənzimləmə məqsədilə su anbarlarının tikintisini tələb edir. Bu məqsədlə respublika ərazisində 140-a qədər su anbarı tikilmişdir.

Son 50 il ərzində Kür çayının illik su axını 35-40 faiz azalmışdır. Yay aylarında çayların təbii axını kəskin azaldığına və sugötürmələr artdığına görə onların mühafizəsinə daha çox diqqət yetirilir. Bunun səmərəli yollarından biri də çaylarda ekoloji axın kəmiyyətinin təmin olunmasıdır.

“Azərbaycan Respublikasının Milli Atlası”ndan, ixtisarla

Kürlə Arazın birləşdiyi yer necə adlanır? Azərbaycanın hansı rayonu bu iki çayın birləşmə məkanıdır?

1-ci addım

Ən diqqətçəkən faktların seçilməsi

- Xəzər dənizi hövzəsinə tökülən çayların 3 qrupa bölünməsi;
- Respublika ərazisindəki 8389 çayın qeyri-bərabər paylanması;
- 1515 km uzunluğa malik, başlanğıcını Xrami hövzəsindən götürən Kür çayının respublika ərazisində dövranı;
- Suvarmada istifadə olunan çayların bərabər şəkildə paylanması məqsədilə su anbarlarının tikilməsi;
- Çaylarda illik su axınının faizini artırmaq üçün ekoloji axın kəmiyyətinin təmin edilməsi.

2-ci addım

Faktların ümumiləşdirilməsi

- Məqalədə Xəzər dənizinə tökülən çaylar, onların respublika ərazisində qeyri-bərabər şəkildə paylanılması, xüsusilə Kür və Araz çayları haqqında ətraflı məlumat verilir. Başlanğıcını Xrami hövzəsindən götürən Kürün "hərəkət"i, bulanıqlığının artması səbəbləri göstərilir. Həmçinin su anbarlarının tikilmə səbəbi, sayı, mühafizəsi, ekoloji axın kəmiyyətinin təmin edilməsi problemlərinə diqqət yönəldilir.

3-cü addım

Mətnin yazı qaydalarına uyğun olmasının yoxlanılması

Bir əsərin, nitqin və s. qısaca məzmununu, nəticəsini, mahiyyətini əks etdirən hissə xülasə adlanır.

Xülasə yazmaq üçün təqdim olunan əsəri diqqətlə oxumaq, əsas müddəaları seçmək, onları düzgün sistemləşdirmək lazımdır.

Xülasə, adətən, elmi əsərlərə yazılır.

17. Göy rəngdə verilmiş hissəni (səh. 63) dialoq şəklində yazın. Durğu işarələrinin düzgün işlənməsinə diqqət edin.
18. ... *layihələrin işlənməsi məqsədilə təklif olunan məntəqələrə, yəni Kür çayına yola düşdü* cümləsində vergülü hansı durğu işarəsi ilə əvəz etmək olar? Bu zaman hansı dəyişiklik baş verəcək? Dəyişikliyin səbəbini izah edin.
19. Kursivlə verilmiş cümlədə (səh. 62) altından xətt çəkilmiş sözü aşağıdakılardan hansı ilə əvəz etsəniz, daha düzgün olar?

• məqsədilə • səbəbilə • ötrü

20. Çərçivədə (səh. 63) verilmiş cümlələri bir cümlə şəklində ifadə edin. İlk cümlənin əvvəlini ~~~~ ——— sxeminə uyğun qurub davam etdirin.
21. *Düz* sözünün qrammatik mənasını müəyyənləşdirib fərqli mənada cümlədə işlədin.
22. Birinci abzasda (səh. 62) hansı cümlədə qrammatik norma pozulmuşdur? Həmin abzasda feillərin işlənməsinə diqqət yetirin.
23. Mətndə çərçivədə verilmiş (səh. 62) abzasda hansı cümlələr arasında rabitə pozulmuşdur? Həmin rabitəni yaratmaq üçün hansı cümləni təklif edərdiniz?
24. *Lakin Şəhər Duması vəsait çatışmamazlığını bəhanə gətirərək bu təklifi rədd etdi* cümləsində hansı sözdə qrammatik norma pozulmuşdur? Bu tipli sözləri dəftərinizə yazın.
25. 3-cü abzasın 2-ci cümləsində (səh. 62) baş və budaq cümlənin yerini müəyyənləşdirib sxemini qurun. Həmin abzasın sonuncu cümləsinin sintaktik sxemini qurun.

✓ *Sizcə, bu sxemlər yazı hesab edilirmi? Əgər yazıdırsa, yazının hansı tipidir?*

26. Cümləni tamamlayın: "Azərbaycan Respublikasının Milli Atlası"ndan götürülmüş mətn (səh. 66) elmi mətndir, çünki ..... .

✓ *Mətnin dilini "Şollar su kəməri" mətninin dili ilə müqayisə edin. Hansı fərqi gördünüz?*

27. Mətni tələffüz qaydalarına əsasən düzgün oxuyub dili üzərində iş aparın.

Müharibə illərində (1941–1945-ci illər) partlayıcı və alışdırıcı maddələrin, sürtkü yağlarının tədqiqi ilə məşğul olan qrup yaradılır. Kimya elmləri doktoru, professor, akademik Əli Quliyev qrupa rəhbər təyin olunur. O zaman Zığ kəndində metanın xlorlaşdırılması üçün zavod inşa edilmişdi. Əsas məqsəd dörd xlorlu karbon (CCL_4 və metilxloridin (CH_3CL) əldə olunması idi. Bunlardan təbabətdə və aviasiyada istifadə edilirdi. Bu işə rəhbərlik Ə.Quliyevə tapşırılmışdı.

Onun ən əhəmiyyətli nailiyyətlərindən biri tank əleyhinə butulkaların – alışdırıcı qarışığın yaradılması oldu. **Bu ixtiranın mahiyyəti ondan ibarət idi ki, şüşəüfürücü ustaların əvvəlcədən isidərək yan tərəfdən içəri basılmış hala salınan adi şüşə butulka benzin ilə doldurulurdu.** Şiddətlənmək üçün isə içinə güclü oksidləşdirici-xromillə dolu şüşə ampula bərkidilirdi. Düşmən tankına atılan şüşə və butulka (*sınır, dağılır*) benzin və xromilin qarışması nəticəsində dəhşətli yanğın əmələ gəlir, tankı və onun hərbi heyətini məhv edirdi.

...Xüsusi texnika da sürtkü yağlar ehtiyac vardır. Belə yağlar digərlərindən fərqli olmalı, yüksək effektliyi ilə seçilməlidir. Daxili yanma mühərrikləri (*işləyərkən, hərəkətə gələrkən*) havaya qazların tərkibində çoxlu zəhərli maddələr buraxılır. *Atmosfer çirklənir, adamlar, canlılar və bitkilər zəhərlənir və bu, nəticə etibarilə onların məhvinə gətirib çıxarır.* Bu fəlakətin qarşısını almaq üçün Əli müəllim tüstüyə qarşı aşqar yaradılmasına diqqət yetirdi. Axtarışlar səmərəli nəticə verdi.

(Rəsul Rəxşanlının "Akademik Əli Quliyev" kitabından)

- Mətnin aşağıdakı meyarlardan hansına uyğun olduğunu göstərin:
  - ✓ Sadə – mürəkkəb
  - ✓ Asan anlaşılan – çətin anlaşılan
  - ✓ Dəqiqlik – qeyri-dəqiqlik
  - ✓ Faktiki – emosional
- Tünd şriftlə verilmiş cümlədə hansı dəyişiklik edilsə, düzgünlük olar?
- Fərqləndirilmiş cümlədə fikrin daha dəqiq ifadə edilməsi üçün hansı düzəlişə ehtiyac var?
- Altından xətt çəkilmiş cümlədə *effektliyi,* yoxsa *effektivliyi* sözü işlənsə, düzgün olar?
- Mötərizədəki sözlərdən hansının işlənməsi normanı pozmur?
- Qırmızı rəngdə verilmiş sözlərə elə şəkilçilər artırın ki, onlar arasında əlaqə yaransın. Alınan ifadə haqqında fikir yürüdün.
- Mətndən istifadə edərək cədvəli doldurun:

Terminlər	Ümumişlək sözlər	Həm termin, həm də ümumişlək sözlər kimi işlənənlər

✓ *Bu gün məişətdə tez-tez "Xlor var, xlor" deyə səslənən çağırışlar eşidirik. Necə düşünürsünüz, xlor termin, yoxsa ümumişlək sözdür?*

28. Qəzet, jurnal və ya İnternet səhifələrindən hər hansı bir hekayə və mətn seçin. Onun üzərində iş aparın.



- Məzmunun əsərin adına uyğunluğunu yoxlayın.
- Əsərin məzmununa və ideyasına diqqət yetirin.
- Əsərin dili üzərində iş aparın:
  - Əgər hər hansı bir söz, cümlə çatmırsa, əlavə edin.
  - Fikirlər natamamdırsa, tamamlayın.
  - Lazımsız sözlərin, cümlələrin altından xətt çəkin, onları uyğun bildiyiniz söz və cümlələrlə əvəz edin.
  - Mətnin yazı qaydalarına uyğun olmasını yoxlayın.
- Əsərin 4-5 cümlə ilə xülasəsini verin.

3 XƏZƏR DƏNİZİ

(ixtisarla)

1. Mətni oxuyarkən orfoqrafiya və orfoepiya ilə bağlı tapşırıqları yerinə yetirin.

ORFOQRAFİYA

Hansı səhv yazılmışdır?

- 1-ci abzasda
- 2-ci abzasın birinci cümləsində
- 5-ci abzasın birinci cümləsində
- 6-cı abzasın üçüncü cümləsində

ORFOEPİYA

- axırıncı cümləni tələffüz qaydalarına uyğun yazın.

Xəzər dənizi dünyanın ən iri gölüdür, onun sahəsi 400 000 km^2, maksimal dərinliyi 1025 m, suyunun ümumi həcmi isə 77 min km^3-ə yaxındır. Xəzər dənizinin suları Azərbaycan, Rusiya, Qazaxstan, Türkmənstan və İran sahillərini (*yumaq*). Dənizin sahil xəttinin ümumi uzunluğu 6725 km-dir, bunun 750 km-i (adalarsız) təxminən Azərbaycan ərazisinin (*payına düşmək*). Xəzər dənizi bu dövlətlərin iqtisadi inkişafında çox mühüm (*rol oynamaq*).

Xəzər dənizi nadir və zəngin təbiyi ehtiyyatları olan daxili su hövzəsidir, o, dünyanın iki mühüm hissəsinin ? Avropa və Asiyanın sərhədində yerləşir.

Dərinliyinə görə Xəzər dənizi dünyanın iki dərin gölündən ? Baykaldan (1620 m) və Tanqanikadan (1435 m) geridədir. Xəzər dənizi şelfinin orta dərinliyi 100 m-dir.

Xəzər dənizinə 150-dən artıq çay tökülür, onlardan ən iriləri Volqa, Ural, Kür, Terek və Samur çaylarıdır. Xəzər dənizi coğrafi vəziyyətinə görə Yer planetinin "iqlim indikatoru"dur.

Xəzər dənizini şimaldan geniş Xəzər yanı ovalıq, qəbrdən Kür-Araz ovalığı əhatə edir. Cənubda dağ silsilələri dəniz sahilinə çox yaxınlaşır. Şərq sahilləri boyu qumlu-balıqqulağılı təpəliklər uzanır. Bu təpəliklərin arxasında keçmiş dəniz dayazlıqları olmuş şoranlıqlar (*yayılmaq*).

Xəzər dənizinin ekoloji vəziyyəti dünyəvi əhəmiyyət kəsb edir. Xəzər dənizinin əsas çirklənmə mənbələri sahil ölkələrindəki neft və qaz hasilatı, Xəzər hövzəsinə tökülən çirkli su axınlarıdır. Volqa, Kür, Ural və Terek santariya-gigiyenik baxımdan ən gərgin vəziyyətdə olan çaylardır. Neftlə çirklənmə nəinki dənizin flora və faunasına, həmçinin dib çöküntülərinə də təsir göstərir.

Təmizləyici qurğuların quraşdırılması və Xəzərə axıdılan sənaye, məişət tullantılarına nəzarət ətraf mühiti mühafizə proqramının başlıca istiqamətlərindən biridir.

Dəniz ekosistemində zəhərli və ziyanlı maddələrin toplanması ekoloji fəlakətə aparan yoldur.

***Şelf** materikin su altında 200 metrə qədər dərinlikdə olan davamı, hissəsidir.*

"Azərbaycan Respublikasının Milli Atlası"ndan

Bu gözəlliyi tərənnüm edən elə cümlələr yazın ki, Xəzər dənizi haqqında yazacağınız hər hansı bir məqaləyə (inşaya, esseyə, hekayəyə) epiqraf, keçirəcəyiniz konfransa şüar ola bilsin.

2. Mətni oxuyub münasibət bildirin.

Yazılı qaynaqlarda Xəzər dənizinin adı ilk dəfə eramızdan əvvəl VI–V əsrlərdə məşhur coğrafiyaşünas Milletli Hekateyn tərəfindən Hirkan (indiki Gürkan) adı ilə verilmişdir. Bundan sonra tarixi qaynaqlarda Xəzərin yüzə qədər adına rast gəlmək mümkündür. Bu adların yaranması müəyyən tarixi şəraitlə bağlıdır. *Dəniz əksər hallarda onun sahillərində yaşayan xalqların – Kaspi, Xəzər, Alban, Quz (oğuz), Türkmən və habelə qonşuluqdakı ölkə, vilayət və başqa yaşayış məntəqələrinin adları ilə – Şirvan, Dərbənd, Təbəristan, Bakı və başqa adlarla adlandırılmışdır. Lakin bu adlardan daha çox Kaspi və Xəzər adları işlədilirdi.* Kaspi taponimi özündə Qafqaz Albaniyasında yaşamış Kaspi tayfasının adını əks etdirirdi. Xəzər sözü isə orta əsirlərdə Şimali Qafqazın şərqində və Volqa çayının aşağı axırında yaşamış qüdrətli Xəzər xaqanlığı yaratmış Xəzər tayfasının adından alınmışdı. Xəzərlər 9 başqa türkdilli tayfalarnan birlikdə Azərbaycan xalqının etnagenezində mühüm rol oynamışdır. Xəzərin bir adı da Quzğundur.

Qılman İlkin, "Köhnə Bakını tanıyırsanmı" kitabından

3. Xəzər göl olduğu halda, niyə dəniz adlanır?
4. Ekoloji fəlakət dedikdə nə nəzərdə tutulur?
5. Mətndə hansı suala cavab vardır?
   - Xəzər dənizi nə üçün dünyəvi əhəmiyyət kəsb edir?
   - Xəzər niyə dəniz adlandırılır?
   - Xəzər dənizi dünyanın hansı hissəsində yerləşir?
   - Xəzər dənizinin hansı iqtisadi əhəmiyyəti vardır?

Üslubu pozmadan bu suala cavab yazıb mətnə əlavə edin.

6. Xəzərlə sərhəd olan dövlətlərin həmyaşıdınız olan şagirdlərinə məktub hazırlayın. Həmin məktubda Xəzər dənizinin çirklənməsinin qarşısını almaq istiqamətində təkliflər verin.
7. Bu parçanı mətnin hansı abzasına yerləşdirsəniz, ardıcıllıq pozulmaz?

   Xəzər dənizinin şelf zonası və dibi neft və qaz yataqları ilə zəngindir. Xəzər dənizinin sularında, xüsusən ona tökülən çayların mənsəbində çoxlu qiymətli balıq növləri var. Su-gəmi nəqliyyatı dənizin sahillərindəki müxtəlif liman şəhərlərini birləşdirir. Xəzər dənizi yükdaşıma dövriyyəsinə görə dünya dövlətləri arasında lider yerlərdən birini tutur.
8. Mətnlərin (səh. 70–71) xülasəsini verin. 1-ci mətnin xülasəsinin 4, 2-ci mətnin xülasəsinin 2 cümlə ilə təqdim olunmasına çalışın.
9. Mətnlərin (səh. 70–71) elmiliyini nə ilə sübut edərsiniz? Aşağıdakı fikirləri tamamlayın və davam etdirin.
   - Mətndə konkret ..... var.
   - ..... çox istifadə olunmuşdur.

Elmi üslub da aparıcı üslublardan biridir. Bu üslub üçün şərh etmək, izah etmək, müəyyən bir məsələ haqqında fikir söyləmək, nəticə çıxarmaq xarakterikdir.

Elmi üslubun əsas göstəricisi terminlərdir. Hər elm sahəsinin özünəməxsus terminləri vardır.

Elmi əsərlərin mətninin ancaq terminlərdən ibarət olduğunu söyləmək doğru olmaz. Terminləri yan-yana düzmək mətnin elmiliyini göstərmir. Elmi mətni yazmaq üçün dilin qrammatik quruluşunu bilmək, terminləri digər sözlərlə düzgün əlaqələndirmək, ədəbi dilin normalarına uyğun cümlələr formalaşdırmaq lazımdır. Məsələn:

Söz birləşməsi iki və daha artıq sözün məna və qrammatik cəhətdən birləşməsindən əmələ gəlir.

Dilimizdə elə terminlər var ki, onlar müxtəlif elm sahələrində fərqli mənalarda işlənir. Verilmiş nümunədən istifadə etməklə növbəti sxemi tamamlayın və özünüz də bir neçə belə termin deyin.

Nümunə:

morfologiya → dilçilikdə → nitq hissələrini öyrənən elm sahəsi

morfologiya → biologiyada → bitkilərin quruluşu

kök → dilçilikdə → ?

kök → biologiyada → ?

kök → riyaziyyatda → ?

10. Termin nədir? Mətndə sırf termin kimi işlənən sözləri seçin. Mətndə işlədilən hansı sözlər ümumişlək olsa da, burada termin kimi işlənmişdir?
11. *Göl, çay, dəniz, okean, ovalıq* sözlərinin leksik mənalarını müəyyənləşdirin.
12. Mətndə təkrarlanan *Xəzər* sözünü elə sözlərlə əvəz edin ki, məzmuna təsir etməsin. Sizcə, bu sözü hansı cümlələrdə əvəz etmək lazımdır?
13. Uyğunluğu müəyyənləşdirin.

a su yığıb saxlamaq üçün daşdan və s.-dən düzəldilmiş sututar	1 hövzə	*c* mədən süxurları yatağı olan yer
b böyük süni sututar, dəryaçə	2 hovuz	*d* qolları ilə birlikdə çayın əhatə etdiyi sahə, dənizə, gölə yapışıq ərazi

sonradan istifadə etmək üçün su toplanılan yer

1 _____ 2 _____

14. Mətndə (səh. 70) mötərizədə verilmiş feilləri hansı zamanda işlətsəniz, məqsədəmüvafiq olar? Altından xətt şəkilmiş feilləri gələcək və ya keçmiş zamanda işlətmək mümkündürmü? Niyə?
15. Kvadrat işarəsi qoyulmuş yerlərdə hansı durğu işarələrindən istifadə olunmalıdır? Niyə?
16. Q.İlkindən götürülmüş mətndə fərqləndirilmiş cümlədə hansı durğu işarəsi düzgün işlədilməmişdir? Həmin mətndə 3 dəfə *və* sözündən istifadə edilmişdir. Cümləni elə dəyişin ki, həmin sözdən bir dəfə istifadə olunsun.
17. Mətndə (səh. 71) altından xətt çəkilmiş sözü rəqəmlə ifadə edin. Şəkilçinin yazılışına diqqət yetirin. Altından xətt çəkilmiş cümlələrdə hansı sözlərdə orfoqrafik norma pozulmuşdur?

18. Aşağıdakı mətnləri oxuyun. Onların elmi mətn olduğunu sübut edən cəhətləri göstərin.

► Qoşulma konstruksiyalar əsas cümlə ilə möhkəm semantik əlaqədə olduğu kimi, struktur cəhətdən də bağlı olur – əsas cümləyə xüsusi intonasiya ilə bağlanır: əsas cümlənin sonunda ton alçalır, birləşdirici fasilə ilə parselyat özündən əvvəlki cümləyə qoşulur. Yazıda qoşulma cümlələr əsas cümlədən müxtəlif durğu işarələri ilə: nöqtə, vergül, nöqtəli vergül, üç nöqtə və ya tire ilə ayrılır. Məs.:

Mən bunu Tereza üçün edirəm. Terezanın öz-özünə xəyanət etməməsi üçün. (Elçin) *Görəsən, Bakıdan görünən də həmin bu göy idimi, yoxsa Bakının öz göyü vardı?.. Maya, mehribanım, elə yavaş-yavaş, xırda-xırda baxıram ki, mütəxəssis kadrlarımız əmələ gəlməkdədir. Mama həkimləri, akuşerkalar, tibb bacıları, tibb qardaşları.*

Əsas hissə ilə parsel arasında qoyulan nöqtə, vergül, tire eyni hüquqludur. İntonasiya və fasilə ilə yanaşı, qoşulma konstruksiyaların əsas cümləyə bağlanmasında bir sıra başqa qrammatik vasitələrin də rolu vardır.

Q.Kazımov, "Müasir Azərbaycan dili" kitabından

► Fərz edək ki, f(x) və F(x) hər hansı [a, b] parçasında təyin olunmuş funksiyalardır. [a, b] parçasının bütün nöqtələrində F(x) = f(x) bərabərliyi ödənilirsə, onda F(x) funksiyasına f(x)-in [a, b] parçasında ibtidai funksiyası deyilir.

Aydındır ki, F(x) funksiyası f(x)-in ibtidai funksiyasıdırsa, onda C ixtiyari sabit ədəd olduqda, F(x) + C funksiyası da həmin f(x) funksiyasının ibtidai funksiyası olar.

F.Lətifov, M.Əliyev, Riyaziyyat: metodik vəsaitdən

Elmi üslubda yazılan əsərlərin dili çətin olur, burada qrafiklərdən, düsturlardan, mürəkkəb cümlə tiplərindən, ara sözlərdən çox istifadə olunur. Bu üslubda sözlərin çoxmənalılığına yol verilmir.

Elmi üslubun xüsusiyyətlərindən biri də danışıqda işlənən sözlərin terminləşməsidir. *İrinləmək, ağrı, qarın* cərrahlıqda; *dəniz, çay, boğaz* coğrafiyada; *səs, ahəng, kök* dilçilikdə termin kimi işlədilir. Məsələn:

Cərrahi infeksiyaların inkişafını və gedişini müəyyən edən amillərdən biri də makroorqanizmin immunobioloji vəziyyətidir (*"Cərrahi infeksiyalar" kitabından*).

Xəbər cümlənin baş üzvlərindən biridir.

Asiyanı Avropadan ayıran Dardanel boğazı dünya okeanına bağlandığına görə beynəlxalq əhəmiyyətə malikdir.

Ölçü vahidləri bədii üslubda bütöv verildiyi halda, elmi üslubda ixtisarla verilir. Məsələn:

Hər hektardan səksən sentner məhsul götürülməlidir (*Ə.Vəliyev*).

✓ *"Xəzər dənizi" mətninin 1-ci abzasındakı ixtisarlara diqqət yetirib müqayisə aparın.*

19. Qanunlarla tanış olun, dövlətin ətraf mühitin və Xəzərin mühafizəsi ilə bağlı reallaşdırdığı tədbirlərdən siz də qoşulun. (*Qanunlar ixtisarla verilmişdir, materialları tam şəkildə İnternetdən əldə edə bilərsiniz.*) Qanunların üslubunu elmi üslubun xüsusiyyətləri ilə müqayisə edin. Fərqi gördünüzmü?

"Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının

QANUNU

Bu Qanun ətraf mühitin mühafizəsinin hüquqi, iqtisadi və sosial əsaslarını müəyyən edir. Qanunun məqsədi ətraf mühitin ekoloji tarazlığının mühafizəsi sahəsində ekoloji təhlükəsizliyin təmin edilməsindən, təbii ekoloji sistemlərə təsərrüfat və başqa fəaliyyətin zərərli təsirinin qarşısının alınmasından, bioloji müxtəlifliyin qorunub saxlanılmasından və təbiətdən istifadənin səmərəli təşkilindən ibarətdir.

Bu Qanun ətraf mühitin keyfiyyətinin yaxşılaşdırılması, təbii ehtiyatların səmərəli istifadəsi və bərpası, ətraf mühitin mühafizəsi sahəsində qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi məqsədilə cəmiyyətlə təbiətin qarşılıqlı əlaqəsini tənzimləyir.

I FƏSİL. Ümumi müddəalar

Maddə 1. Əsas terminlər və anlayışlar

Bu Qanunda aşağıdakı əsas termin və anlayışlardan istifadə edilir:

- **ətraf mühit** – insan fəaliyyətindən asılı olmayaraq onu əhatə edən canlı və cansız təbiətin məcmusu;
- **ekologiya** – ətraf mühitin tarazlığını və bu tarazlığın pozulmasına təsir edən təbii amillər və antropogen (insan fəaliyyəti) və fiziki prosesləri öyrənən elm;
- **təbii resurslar (ehtiyatlar)** – insanların ehtiyaclarını ödəmək üçün ətraf mühitdə mövcud olan torpaq, faydalı qazıntılar, bitki örtüyü, flora, fauna, su və enerji mənbələri;
- **ətraf mühitin mühafizəsi** – ətraf mühitdə təbii mövcud olan maddi varlıqların ilkin kəmiyyət və keyfiyyətcə dəyişmələrinə yol verilməməsi, qorunub saxlanması;
- **təbiətdən istifadə** – gələcək nəsillərin ehtiyacını nəzərə almaqla, cəmiyyətin sosial-iqtisadi tələblərini ödəmək məqsədilə ətraf mühitin ekoloji tarazlığının pozulmasına yol verilmədən təbii resurslardan səmərəli və qənaətlə istifadə edilməsi;
- **ətraf mühitin monitorinqi** – təbii və antropogen təsirlər nəticəsində ətraf mühitə yayılan zərərli qaz, maye və bərk haldakı tullantılara kəmiyyət və keyfiyyət cəhətdən nəzarətin elmi əsaslarla həyata keçirilməsi;
- **ekoloji sistem** – qarşılıqlı təsirdə olan ətraf mühitin tərkib hissəsini təşkil edən bitki örtüyü, flora, heyvanlar aləmi, fauna, torpaq, su hövzələri və çaylar, mineral sərvətlər, hava və enerji mənbələrinin vəhdətidir;
- **ətraf mühitin ekoloji tarazlığının normallaşdırılması** – insan yaşayışı üçün ətraf mühitin yararlı olmasını müəyyən edən və bioloji müxtəlifliyin qorunub saxlanmasının, ekoloji sistemlərin sabit istifadəsini təmin edən ətraf mühitin keyfiyyət göstəricilərinin müəyyən edilməsi;
- **ətraf mühitə zərərli təsir** – ekoloji sistemin ayrı-ayrı komponentlərinin kəmiyyət və keyfiyyətcə dəyişməsinə, ekoloji tarazlığın pozulmasına səbəb olan kimyəvi və bioloji, zərərli fiziki, texniki, dağ-mədən işlərində texnologiyanın pozulması, təbii resurslardan israfçılıqla istifadə edilməsi ilə müşayiət olunan fəaliyyət;

Maddə 3. Ətraf mühitin mühafizəsinin əsas prinsipləri

Ətraf mühitin mühafizəsi aşağıdakı prinsiplərə əsaslanır:

- sosial-iqtisadi, mənəvi-estetik problemlərin qarşılıqlı həlli;
- ərazilərdə ekoloji tarazlığın təmin edilməsi və pozulmuş təbii ekoloji sistemlərin bərpası;
- təbii ehtiyatların səmərəli istifadə olunması və bərpası, təbiətdən istifadənin və ətraf mühitin mühafizəsinin iqtisadi stimullaşdırılmasının tətbiq edilməsi;
- ətraf mühitin bioloji müxtəlifliyinin qorunmasının təmin edilməsi;
- dövlət nəzarəti, ətraf mühitin mühafizəsi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət;
- ətraf mühitə zərər vurulmasının qarşısının alınması və vurulan zərərin qiymətləndirilməsi;
- ətraf mühitin mühafizəsi sahəsində əhalinin və ictimai birliklərin iştirakı;
- ətraf mühitin mühafizəsi sahəsində beynəlxalq əməkdaşlıq.

Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti, 8 iyun 1999-cu il

"Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi haqqında" Çərçivə Konvensiyasının təsdiq edilməsi barədə Azərbaycan Respublikasının

QANUNU

Bundan sonra "Razılığa gələn Tərəflər" adlandırılacaq Xəzəryanı dövlətlər:

Azərbaycan Respublikası İran İslam Respublikası

Qazaxıstan Respublikası Rusiya Federasiyası

Türkmənistan

Xəzər dənizinin dəniz ətraf mühitinin vəziyyətinin insan fəaliyyəti nəticəsində həm dənizdə, həm də quruda yerləşən mənbələrdən zərərli, təhlükəli maddələrin, tullantıların və digər çirkləndiricilərin axıdılması, atılması və yerləşdirilməsi nəticəsində pisləşməsini qeyd edərək;

Xəzər dənizinin bioloji ehtiyatlarını indiki və gələcək nəsillər üçün qorumaqda qətiyyətli olduqlarını göstərərək;

quruda həyata keçirilən fəaliyyətin Xəzər dənizinin dəniz ətraf mühitinə ziyan vurmamasının təmin edilməsi zərurətini etiraf edərək;

Xəzər dənizinin səviyyəsinin dəyişməsi probleminin dəniz ətraf mühiti və onun səciyyəvi hidroqrafik və ekoloji xüsusiyyətləri üçün təhlükə törətdiyini dərk edərək;

Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsinin əhəmiyyətini bir daha təsdiq edərək;

Xəzər dənizinin dəniz ətraf mühitinin qorunması və mühafizəsi məqsədilə Razılığa gələn Tərəflərin öz aralarında və müvafiq beynəlxalq təşkilatlarla əməkdaşlığının əhəmiyyətini etiraf edərək;

aşağıdakılar barədə razılığa gəldilər:

I. Ümumi müddəalar

Maddə 1. Terminlərdən istifadə

Bu Konvensiyanın məqsədləri üçün aşağıdakı terminlərdən istifadə ediləcəkdir:

- **tullantı** – dəniz ətraf mühitinə Xəzər dənizindəki gəmilərdən, uçan aparatlardan, platformalardan, yaxud digər süni qurğulardan tullantı və ya digər materialların qəs-

dən atılması və yaxud gəmilərin, uçan aparatların, platformaların və digər süni qurğuların Xəzər dənizində qəsdən batırılması;

- **təhlükəli maddə** – xüsusilə dayanıqlı olduqda toksik, kanserogen, mutagen, teratogen, yaxud bioakkumulyativ maddə;
- **çirklənmə** – bioloji ehtiyatların və dəniz canlılarının həyatı, insan sağlamlığı üçün təhlükə törədən və ya törədə biləcək və Xəzər dənizinin hüquqauyğun istifadəsinə maneə yaradan və ya yarada biləcək maddələrin, yaxud enerjinin insan tərəfindən birbaşa və ya dolayı yolla dəniz ətraf mühitinə daxil edilməsi;
- **quruda yerləşən mənbələrdən çirklənmə** – quruda yerləşən bütün nöqtəvi və səpələnmiş mənbələrdən su və ya hava vasitəsilə dənizin çirklənməsi, yaxud bilavasitə sahildən və qurudan tunel, boru kəməri, yaxud başqa bir yolla çirkləndirici maddələrin istənilən yolla dəniz ətraf mühitinə atılması;
- **fövqəladə ekoloji vəziyyət** – elə bir vəziyyətdir ki, həmin şəraitdə təbii fəlakət və ya antropogen qəzalar nəticəsində Xəzər dənizinin dəniz ətraf mühitinə zərər dəyir və yaxud real çirklənmə və digər zərər təhlükəsi yaranır;
- **sənaye qəzası** – sənaye müəssisələrində zərərli və təhlükəli maddələrlə bağlı hər hansı fəaliyyətin gedişatında nəzarət edilə bilməyən dəyişikliklər nəticəsində baş vermiş hadisələr, məsələn, həmin maddələrin istehsalı, istifadəsi, saxlanması, yerdəyişməsi, zərərsizləşdirilməsi və ya nəql edilməsi zamanı baş verən hadisələr;

Maddə 2. Məqsəd

Bu Konvensiyanın məqsədi Xəzər dənizinin dəniz ətraf mühitinin çirklənmədən qorunması, o cümlədən Xəzər dənizinin bioloji ehtiyatlarının qorunması, mühafizəsi, bərpası, davamlı və səmərəli istifadə edilməsindən ibarətdir.

Maddə 3. Tətbiq sahəsi

Bu Konvensiya Xəzər dənizinin səviyyəsinin dəyişməsi və quruda yerləşən mənbələrdən çirklənmə nəzərə alınmaqla onun dəniz ətraf mühitinə tətbiq edilir.

I. Ümumi öhdəliklər

Maddə 4. Ümumi öhdəliklər

Razılığa gələn Tərəflər:

a) Xəzər dənizinin çirklənməsinin qarşısını almaq, azaltmaq və ona nəzarət etmək üçün fərdi və ya birgə bütün zəruri tədbirləri görürlər;

b) Xəzər dənizinin dəniz ətraf mühitinin mühafizəsi, saxlanması və bərpası üçün fərdi və ya birgə zəruri tədbirlər görürlər;

c) Xəzər dənizinin ehtiyatlarından onun dəniz ətraf mühitinə xələl gətirmədən istifadə edirlər;

d) bu Konvensiyanın məqsədinə nail olmaq üçün öz aralarında və səlahiyyətli beynəlxalq təşkilatlarla əməkdaşlıq edirlər.

İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti

4 aprel 2006-cı il

Azərbaycan Respublikasının qanunlarının müddəaları ilə tanış olmaq və onları icra etmək hər birimizin vətəndaşlıq borcudur.

20. Şəkillər əsasında şifahi şəkildə mətn qurun. Sizin danışığınız hansı üsluba aid ediləcək?

Dənizkənarı bulvar Xəzər dənizinin sahili boyunca uzanır. İnsan əli burada xariqələr yaratmış, istər yerli, istər xarici vətəndaşların istirahəti və əyləncəsi üçün hər cür şərait təşkil edilmişdir.

Bəzən kükrəyib-coşan, bəzən də ləngər vura-vura sahilə doğru can atan, sanki onu seyr edənlərlə ünsiyyətə can atan, yayın istisində sərinlənib dincəlmək istəyənləri qoynuna alan, sahili qızıl qumlu, mavi dalğalı coşqun Xəzər təbiətin bizə ən böyük hədiyyəsidir.

Bəs mavigözlü Xəzəri qorumaq üçün biz nə edirik?

Bir yandan tullantılarla çirklənən Xəzəri digər tərəfdən də özümüz çirkləndiririk.

Etik normalara əməl etmədən su içdiyimiz boş plastik butulkaları, yediyimiz peçenyelərin, dondurmaların və s. kağızlarını dənizə atırıq.

Bu azmış kimi, çimərliklərdə bəzən qida qalıqlarını sahilə atır, onu yığışdırmağı düşünmürük.

Əziz şagirdlər, gəlin Xəzərimizi, onun sularını çirklənməkdən qoruyaq! Çünki su .....

Bu çağırışı hansı cümlə ilə tamamlasanız, məqsədəuyğun olar?

“Xəzərimizi qoruyaq”

Yaxın məktəblərlə birlikdə “Xəzərimizi qoruyaq” adlı konfrans keçirin. Konfransda təqdimatlarla çıxış edin, müzakirələr aparın. Problemin həlli yollarını araşdırın və konkret təkliflər irəli sürün.

Konfransın elanını və protokolunu yazın. Keçirdiyiniz tədbir haqqında qəzet materialı hazırlayın.

Bölgələrdə yaşayan şagirdlər!

Siz də bu tədbirlərdən geri qalmayın. Yaşadığınız ərazidə hər hansı bir su mənbəyinin çirklənməsinin qarşısını almaq üçün səfərbər olun.

Həm də yaşadığınız ərazidə göl, çay, mineral sular, bulaqlar haqqında maraqlı məlumatlar toplayıb təqdimatlar hazırlayın, kiçik mətnlər şəklində sosial şəbəkələrdə yerləşdirin.

Marağı olanlar şeir və hekayələr də yaza bilərlər!

Yazılarınızın orfoqrafik və qrammatik cəhətdən düzgün olmasına diqqət yetirin.

4 ÇİNARIN ŞİKAYƏTİ

(ixtisarla)

Dindi yol üstündə qoca bir çinar:
"Şairim, sənə bir şikayətim var:
Bu qoca dünyanın şahidiyəm mən...
Kölgəmdə dincəlir hər gəlib-gedən.
Bağçalar gül açır yaş torpağımda.
Quşların adı var hər yarpağımda.
Mən bu yer üzünə gələndən bəri
Olmuş budaqlarım hava səngəri.
Kötüyüm dünyanın sirrilə dolu,
Bax ayrılmamışam öz kötüyümdən!..
Qəhrəman bir elin timsalıyam mən...
İnsana yaxşılıq gəlmiş əlimdən...

Sonra dinləmişəm can dəftərini.
Ağır səfərlərə çıxan hər nəfər
Tükənmək bilməyən uzun gecələr
Sığınmış qoynuma sözü var kimi.
Örtmüşəm üstünü çadırlar kimi;
Başına yağmamış nə yağış, nə qar,
Tarix yaxşılığı yaxşı salamlar!
Bəzən də bir sərin axşama yaxın
Ətəkli çöllərdən hey axın-axın
Qalxan dolaşalar qaqqıldaşaraq,
Dərələr keçərək, dağlar aşaraq,
Başımın üstündə dövrələr vurur.
Bir yerə sıxlaşıb, məclislər qurur.
Bu doğma quşların simfoniyasından
Zövq alır dünyanın şöhrəti insan.
Bəzən də canlanır gündüzün səsi –
Yığışır kölgəmə uşaq dəstəsi,
Azad yurdumuzun şərqilərindən
İxtiyar yaşımda zövq alıram mən...
Fəqət deyirlər ki, yoldaş mühəndis
Məni bir arxasız, yurdsuz, kimsəsiz
Zənn edib, plana almışdır ki, mən
İndi çıxmalıyam öz kötüyümdən...
Demək, qalmayacaq məndən yadigar.
Ancaq mühəndisə bir sualım var:
"Ömründə bir şitil, bir budaq belə,
Mühəndis əkmişmi barı əlilə
Ki, məni – bu boyda çinarı birdən
Qoparmaq istəyir durduğu yerdən?"
Mən bu şikayəti duyduqca dərin,
Dedim ki, haqlısan, qocaman çinar!
Bizdə təbiətə zülm edənlərin
Nə insan duyğusu, nə də haqqı var!

Səməd Vurğun

!

►Məzmun və lüğət üzərində iş aparmaq üçün suallar tərtib edib onları cavablandırın.
►Şeiri təhlil edin. Bu təhlil bədii, yoxsa elmi üsluba aid ediləcək?

2. Xəritə ilə bağlı aşağıdakı tapşırıqları qrup şəklində icra edin.

MEŞƏLƏRİN EKOLOJİ VƏZİYYƏTİ



Sizcə, xəritə yazının hansı tipinə aiddir?

- Adına əsasən xəritədə nədən danışılacağı barədə fikir yürüdün.
- Səh. 83-də verilmiş şərti işarələrdən istifadə edərək meşələrin ekoloji vəziyyəti barədə müzakirə təşkil edin.
- Sizcə, meşəsiz ərazilərdə ağac əkmək olarmı? Əgər “Meşəsiz ərazilərdə meşəsalma” aksiyası keçirsə idiniz, hansı ağacların əkilməsinə daha çox üstünlük verərdiniz? Nə üçün?
- Necə düşünürsünüz, meşələrin qırılmasının qarşısını necə almaq olar? Bu problemin həlli üçün hansı təklifləri verərdiniz?
- S.Vurğunun “Muğan” poemasında lirik qəhrəmanın susuz yerlərlə bağlı arzularını xatırlayın. Həmin arzular Çinarın arzuları, istəkləri ilə üst-üstə düşürmü?

3. Şərq çinarı haqqında məlumat toplayın. 84-cü səhifədəki materialları oxuyun, fikirlərinizi ümumiləşdirin.

ŞƏRTİ İŞARƏLƏR

1 Yaxşı	Əlçatmaz dağlıq və xüsusi mühafizə olunan təbiət ərazilərində yerləşən meşələr əhəmiyyət kəsb etməyən pozuntulara (təbii fəlakətlər) məruz qalsalar da, təbii bərpa qabiliyyətinə malikdir.
2 Orta	Ağacların kəsilməsi, mal-qara otarılması müşahidə olunan təbii meşə əraziləri pozuntulara az məruz qalaraq təbii bərpa qabiliyyətinə malikdir.
3 Gərgin	Ağacların kəsilməsi nəticəsində seyrəkləşmiş, qismən təbii bərpa olunan meşələr
4 Çox gərgin	Güclü antropogen təsirə məruz qalmış meşələr. İntensiv mal-qara otarılması, meşələrin kütləvi kəsilməsi müşahidə olunur. Meşələr seyrəlir, qismən təbii bərpa qabiliyyətinə malikdir.
5 Fəlakətli	Əkin sahələri arasında, sənaye zavodlarında, yaşayış məntəqələrinin və yolların ətrafında yerləşən, təbii bərpa olunmayan meşələr
6 Meşəsiz ərazilər	

"Azərbaycan Respublikasının Milli Atlası"ndan

Debat

- "Meşələri məhv etmək olmaz".
- "Meşənin məhvi labüddür".

Su və meşə həyatın mövcudluğu deməkdir. Ancaq birinin yaşaması digərinin varlığından asılıdır.

Su, hava və torpağın vəhdəti insanın sağlam yaşaması üçün vacib şərtdir. Gəlin həyat mənbələrimizi qoruyaq.

Bioloji müxtəlifliyi və Yer kürəsinin ekoloji sistemlərini qorumaq üçün hansı təklifləri verə bilərsiniz?

1 ZƏNGİLAN ÇİNAR MEŞƏSİ

Avropada yeganə təbii çinar meşəsi Kiçik Qafqazın qərb hissəsində – Zəngilan rayonundadır. Bu meşə Bəsitçay vadisində 117 hektar sahəni əhatə edir. Onun 107 hektarı Bəsitçay qoruğuna məxsusdur. Qoruq 1974-cü ildə akademik Həsən Əliyevin təşəbbüsü ilə yaradılmışdır.

Çinarın əhəmiyyəti ondan ibarətdir ki, güclü budaqlanır, ətrafda sərinlik yaradır. Toz, tüstü, zəhərli maddələri özünə çəkərək havanı təmizləyir. Bu ağacın yaratdığı mikroiqlim 15-20 saniyə ərzində vərəm çöplərini məhv edir. Yaradılmış Dövlət Təbiət Qoruğu xüsusi əhəmiyyətli nadir çinar meşələrinin xüsusi rejimlə qorunmasına xidmət edirdi.

Təəssüf ki, belə bir çinar meşəsi 1993-cü ildən erməni işğalçılarının əlindədir. Əsrlərin yadigarı olan çinar ağacları ermənilər tərəfindən qırılır və məhv edilir. Bu isə ekoloji terrordan başqa bir şey deyildir.

Zəngilanda baş vermiş məlum hadisələr və Çinar meşəsinin taleyi barədə məlumat toplayıb təqdimat hazırlayın.

2

Tanınmış ziyalı, BDU-nun müəllimi Tofiq Vəliyev 1974–1975-ci illərdə Leninqrad Dövlət Arxivində işlədiyi zaman Azərbaycan zadəganlarının girov qoyduqları və yaxud satmaq istədikləri mülklər haqqında maraqlı materiallara rast gəlir. Həmin materiallarda göstərilir ki, o zaman bu işlə, əsasən, "Kəndli Torpaq Bankı" və "Zadəgan Torpaq Bankı" məşğul olurmuş.

XIX əsrin ikinci yarısında bu banklar hər bir mülk haqqında müvafiq quberniyaların qubernatorları tərəfindən banka təqdim olunmuş dəqiq arayışları aldıqdan sonra məsələnin müzakirəsinə başlayırmış. Belə məsələlərlə bağlı müvafiq arayışlardan biri də Yelizavetpol (Gəncə) – Zəngəzur qəzası tərəfindən mülk haqqında olan arayış və bu mülkün sahibi general Həsən Ağalarovla bağlı idi. Bank tərəfindən general Ağalarova Çinar meşəsi də daxil olmaqla, torpaq sahəsinin satılması ilə bağlı müraciət edilir. General Ağalarov sorğuya cavab olaraq mülkünü övladları arasında bölüşdürdüyünü, Çinar meşəsinin isə onun qızına məxsus olduğunu deyir, torpaq mülkünün və Çinar meşəsinin satılmasına rədd cavabı verir. Sonradan generala Çinar meşəsinin bir hissəsinin parket və çəllək düzəldilməsi üçün qırılmasına icazə verilməsi barədə yenidən müraciət edilir. Ağalarov qızının buna razı olmadığını bildirir. Hətta qızı razılıq versəydi də, çinarlardan birinin belə kəsilməsindən söhbət gedə bilməzdi.

Zəkurə Quliyeva, "Azərbaycan" jurnalı, 2009-cu il

✓ *Sonuncu cümləni elə dəyişin ki,* ***M: "V", – m*** *sxeminə uyğun olsun.*

Hekayə yazın

Hekayənin qəhrəmanı:



- *susuzluqdan cadar-cadar olmuş, yaşıl örtüyünü itirmiş çöl, çəmən, düzənlik*

  və ya

- *bir hissəsi qırılmış, hələ də qırılmaqda davam edən meşə*

Hekayənin süjet xətti:

- *Susuz çöl və ya qırılmış meşə sənətkara (istənilən peşə adamını seçməkdə sərbəstsiniz) müraciət edərək kömək istəyir.*
- *Çölün (və ya meşənin) harayı sözlərə, cümlələrə çevrilib insanlara çatır.*
- *Çağırış cavabsız qalmır, insanların səfərbərliyi və birliyi çölün (və ya meşənin) arzularını çiçəkləndirir.*

Hekayənin ideyası:

- *Su və meşə insanın yaşam mənbəyidir.*

İstiqamət:

- *məqsəd və intonasiyaya görə cümlənin bütün növlərindən;*
- *vasitəsiz nitqin formalarından;*
- *aydınlaşdırma, ardıcıllıq, səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələrdən;*
- *-sa[2] şərt şəkilçisinin köməyi ilə əmələ gələn cümlələrdən;*
- *sual ədatlarından;*
- ***bir sözlə** ara sözündən;*
- *təsdiq bildirən modal sözlərdən istifadə etməyə çalışın.*

Yazınızda epiqraf və sitatlardan istifadə edə bilərsiniz.

5 BİRLİK

1. Sxemi şərh edin, öz fikirlərinizi “Birlik” şeirindəki lirik qəhrəmanın arzu və istəkləri ilə müqayisə edin.

“Qar dənələri çox incədir, ancaq birləşəndə görün nələr edə bilirlər...”

Birləşək! Dünyada güclər birləşib,
Qalalar birləşib, bürclər birləşib.
Birləşib dünyada dili ayrılar,
Torpağı ayrılar, eli ayrılar.
Alıblar dünyadan öz haqlarını
Behişt eləyiblər torpaqlarını.

Birləşsin bizim də məskənlərimiz!
Qalaya çevrilsin ürəklərimiz!
Birləşsin ən güclü qollar, qələmlər!
İrəli atılan dəmir qədəmlər!
Birləşsin birləşib qala bilənlər,
Birləşsin birlikdə ola bilənlər!

Çaylar birləşəndə dənizə dönür!
Dənizlər düşmənə qorxunc görünür!
Dənizi içməklə qurtarmaq olmaz,
Dənizi ölümlə qorxutmaq olmaz!
Birləşmək hər yerdə iti silahdır,
Bütün haqlılara böyük pənahdır.
Birlik günəş dolu dirilik yolu,
Xalqın haqq yoludur bu birlik yolu!

Söhrab Tahir

2. Şair hansı məskənlərin birləşməsini arzu edir? Bu, əslində, hansı tarixi hadisəyə işarədir?
3. Hansı hikmətli fikir şairin fikirləri ilə üst-üstə düşür?
   - Xalqın, vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir. (*Heydər Əliyev*)
   - Həyatda hədəflərə nail olmaq üçün daim güclü olmalıyıq. (*Maksim Qorki*)
   - Mübarizə bizi məqsədə yaxınlaşdırır və cəmiyyətdə yerimiz olduğunu göstərir. (*Ernest Heminquey*)
   - Bir olsa yoldaşın, dostun əməli,
     Daşdan su çıxardar onların əli.
     Nifaq olan yerdə fəlakət də var,
     Səadət günəşi birlikdən doğar. (*Nizami Gəncəvi*)
     ✓ *Şeirin epiqrafına münasibət bildirin. O, əsərin ideyası ilə səsləşirmi?*
4. *Çaylar birləşəndə dənizə dönür!*
   Dənizlər düşmənə qorxunc görünür misralarında şair dəniz dedikdə nəyi nəzərdə tutur?
5. *Dənizi içməklə qurtarmaq olmaz*
   Dənizi ölümlə qorxutmaq olmaz misralarında hansı fikir ifadə olunmuşdur?
   - Dənizlərin sahəsinin həddən artıq böyüklüyü;
   - Azərbaycanın mərd oğul və qızlarının qəhrəmanlığı;
   - Dənizin suyunun müxtəlif tullantılarla çirkləndirilməsi;
   - Azərbaycan ordusunun qüvvəti və yenilməzliyi;
   - Azərbaycan xalqının əzəli və əbədi olması.

6. Şeirdə müxtəlif misralarda işlənmiş *qala* sözünün omonim olub-olmadığını müəyyənləşdirin və fikrinizi əsaslandırın.
7. Uyğunluğu müəyyənlşdirin.

a	b	c	d
Minarə	Bürc	Qala	Qüllə

1. Azan vermək üçün məscidlərin yanında və ya üstündə ucalan qüllə.
2. Qədim şəhər hasarının üzərində müşahidə və müdafiə qülləsi; qala çıxıntısı.
3. Göydə Günəş dairəsinin bölündüyü 12 qisimdən hər biri.
4. Uzun müddət içində qapanıb düşmənə müqavimət göstərmək üçün möhkəm müdafiə tikililəri və vasitələri olan istehkam.
5. Həbsxana, dustaqxana, qazamat.
6. Sütunşəkilli uca tikili, bina.

a _____ *c* _____
b _____ *d* _____

8 Azərbaycanın paytaxtı Bakı şəhərində tez-tez müxtəlif tədbirlər və festivallar keçirilir.

2010-cu ildən Heydər Əliyev Fondunun təşəbbüsü ilə Müasir İncəsənət Muzeyi, Qız qalası Rəsm Qalereyası və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi tərəfindən təşkil olunan ənənəvi "Qız qalası" Beynəlxalq İncəsənət Festivalı keçirilir.

UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmiş və paytaxtımızın rəmzi hesab olunan Qız qalası Azərbaycan memarlığının incisi və xalqımızın qədim tarixinin, zəngin mədəniyyətinin nümunəsidir. Artıq ənənə halını almış festivallar xarici rəssamları Azərbaycan mədəniyyəti və incəsənəti ilə yaxından tanış etməklə yanaşı, Qız qalasının dünyada təbliğ edilməsinə və populyarlaşdırılmasına öz töhfəsini verir.

Hər il iştirak edən rəssamların müxtəlif ölkələri təmsil etməsi festivalın əhatə dairəsini genişləndirərək mədəniyyətlərarası dialoqu möhkəmləndirir. Sonda rəssamlar Qız qalası maketlərini bir-birinə bənzəməyən sənət əsərlərinə çevirirlər. Sonra bu maketlər müxtəlif ölkələrdə sərgilənir, ölkəmizi, onun tarixini və mədəniyyətini təmsil edir. Ötən festivalların Qız qalası maketləri Paris və Roma kimi şəhərlərdə nümayiş etdirilmiş və şəhər sakinləri tərəfindən böyük maraqla qarşılanmışdır.

2015-ci ildə festivalın təşkilatçıları diqqəti həm də ətraf mühitin mühafizəsi məsələsinə cəlb etməyə qərar vermiş, nəsli kəsilməkdə olan "Qafqaz beşliyi"nin simvolu kimi seçilmiş ceyran maketləri hazırlamışlar.

Azərbaycanda daha hansı festivallar keçirilir? Sizcə, bu festivalların əhəmiyyəti nədir?

9. 31 dekabr ... → Ardını yazıb cümləni tamamlayın.

↓

Cümlə əsasında esse yazın.

Mürəkkəb adın yazılışında hansı səhvə yol verilmişdir?

10. Şeirin epiqrafında mübtəda ilə xəbərin uzlaşmasında hansı qayda pozulmuşdur?
11. Şeirdə fərqləndirilmiş cümlələrdə durğu işarələrinin düzgün qoyulub-qoyulmadığını müəyyənləşdirin.
12. Altından xətt çəkilmiş cümlələrdə hansı sözdə qrammatik norma pozulmuşdur? Niyə?
13. 3-cü bənddə 1, 2 və 4-cü misralardan sonra nida işarəsi qoyulmasının səbəbini izah edin.
14. Şeirin 3-4-cü misralarındakı *ayrılar* sözünün qrammatik mənasını müəyyənləşdirin. Onu fərqli qrammatik mənada cümlədə işlədin. Hər iki qrammatik formanı tərkibinə görə təhlil edin.
15. Bölmədə öyrəndiklərinizə əsasında bədii və elmi üslubun oxşar və fərqli cəhətlərini müəyyənləşdirin.

	Bədii üslub	**Elmi üslub**
Fərqli cəhətləri		
Oxşar cəhətləri		

16. Mətni oxuyub məzmununa münasibət bildirin.

Vətən torpaq, Vətən eldir, Vətən sən!!!
(ixtisarla)

Görəsən, haradan başlanır Vətən?! Yaşadığımız evdənmi, məhəllədənmi, şəhərdənmi?! Yoxsa ilk dəfə ayaq açıb qədəm qoyduğumuz torpaqdanmı?! Bəlkə də, elə əcdadlarımızın uyuduğu torpaqdan başlanır Vətən. Bəlkə, ona görə bu qədər əzizdir torpaq?!

Vətəni, torpağı sevərək qorumaq hər birimizin müqəddəs borcudur. Bu sevgi atanın sümüyündən, ananın südündən süzülüb övladın canına hopur. Vətənin dar günündə, çətin məqamında hamını bir amal birləşdirir: Torpağı, Vətəni yadlardan qorumaq!

Yaxşı ki, illər, qərinələr, əsrlər keçsə də, bu amal, bu məram dəyişmədi. Torpaq uğrunda, elin namusu yolunda Azərbaycanın mərd oğulları bir oldu, ayağa qalxdı, ölümün gözünə dik baxdı. Şəhid olan Vətən övladlarının son kəlməsi isə bu oldu: "Təki Vətən yaşasın!"

Əgər bu gün Azərbaycanın yüzlərcə qəhrəman, igid oğlu varsa, demək, bu Vətən basılmaz qaladır!

Bu Qalanın şərəfini qorumaq mənim, sənin, hər birimizin borcumuzdur!

(Gülarə Munis, "Füyuzat" jurnalından, 2011-ci il)

✓ *Son iki cümlədə sözlərdə vurğunun yerini müəyyənləşdirin.*
✓ ***Vətən, torpaq, qala*** *sözlərinin böyük hərflə yazılmasının səbəbini nə ilə izah edərdiniz?*
✓ *Mətnin bədii üslubda olduğunu demək olarmı? Niyə?*

6

ŞƏHİDLƏR

Şəhidlər ölməzlərdir, ölməzi ağlamazlar!
Şəhidlər şərəf-qeyrət, ucalıq zirvəsidir,
Şəhidlər azadlığın od-şimşək zərrəsidir,
Şəhidlər tarixləşən istiqlal türbəsidir.
Şəhidlər şimşək kimi, buludlar saxlamazlar.
Şəhidlər ölməzlərdir, ölməzi ağlamazlar!

Şəhidlər Vətən daşı, yurdun vətəndaşıdır,
Şəhidlər azadlığın uca heykəl daşıdır,
Şəhidlər məmləkətin, xalqın qan yaddaşıdır.
Şəhidlər unudulmaz, ölməz, can dağlamazlar,
Şəhidlər ölməzlərdir, ölməzi ağlamazlar!

Şəhidlər doğulan gün əbədiyyət başlayır,
Şəhidlər imamlartək ürəklərdə yaşayır,
Şəhidlər karvanını əbədiyyət daşıyır.
Şəhidlər cənnət əhli, matəm, yas saxlamazlar,
Şəhidlər ölməzlərdir, ölməzi ağlamazlar!

Şəhidlər xiyabanı müqəddəs pirimizdir,
Şəhidlər xiyabanı ziyarət yerimizdir,
Şəhidlər qürur rəmzi, özünü dərkimizdir.
Şəhidlər qeyrət qanı, axmasa, çağlamazlar,
Şəhidlər ölməzlərdir, ölməzi ağlamazlar!

Şəhidlər Ana yurdu tutdular candan baha,
Şəhidlər yollar açdı, qaranlıqdan sabaha,
Şəhidlər ölməz ruhla, gedir üzü Allaha.
Şəhidlər gedən yolu tufanlar bağlamazlar,
Şəhidlər ölməzlərdir, ölməzi ağlamazlar!

Oqtay Zəngilanlı

• Şəhidlər xiyabanına gedirsinizmi?
Şəhidlərin məzarı önündə nə düşünürsünüz?

Hesab edin ki, jurnalistsiniz.

Sizə 20 Yanvar hadisələri ilə bağlı material hazırlamaq tapşırılıb.

- Tapşırılan yazının oxunaqlı və düşündürücü olması üçün nə edərdiniz?
- Həmin tarixi faciəni necə təqdim edərdiniz?
- 20 Yanvar hadisələrini dünya tarixində baş vermiş hansı faciələrlə müqayisə edərdiniz?
- Problemə hansı rakursdan yanaşardınız – qırılan fərdi talelər, yoxsa millətin taleyi? Sizin məqalənizdə bunlardan hansı öndə olar?

- Sizcə, məhz bu mövzuda yazılan məqalənin planı necə qurulmalıdır? Planı qurun.
- Müəyyən edin: hazırladığınız məqalə informasiya verməyə, yoxsa ideoloji təsirə xidmət edəcək?

3-cü BÖLMƏ

AİLƏ VƏ CƏMİYYƏT

- Sevgi ağacı
- “Sən” dili əvəzinə, “mən” dili
- Məndən ötdü, qardaşıma dəydi
- Dua edən əllər
- Mirzə Səfər

İnsanları sevsən, sevilərsən

Deyl Karnegi

Bir evin gözəlliyi rahatlıqdır. Bir evin sevinci sevgidir. Bir evin zənginliyi uşaqdır. Bir evin qanunu xidmətdir. Bir evin rifahı məmnun olan könüllərdir.

Henri Teylor

- Bölmə ilə tanış olarkən aşağıdakı suallara cavab tapmağa çalışın.

  - Nə üçün ailə kiçik dövlət hesab edilir?
  - Sizcə, cəmiyyətin formalaşmasında ailənin rolu varmı?
  - Bəs cəmiyyət ailənin inkişafına hansı təsirləri göstərir?
  - “Ailə və cəmiyyət bir-biri ilə qarşılıqlı əlaqədədir” fikri ilə razısınızmı?
  - Bölmənin epiqrafında ifadə olunan fikir hər birimizin şüarı olarsa, Yer kürəsinin bütün insanları bu çağırışa səs verərlərsə, sizcə, nəyə nail olmuş olarıq?

1 SEVGİ AĞACI

(ixtisarla)

Biz bu torpağa sevgidən başqa heç bir toxum əkmərik!..

Cəlaləddin Rumi

MOTİVASİYA

Qapı döyüldü. Qapını açan qadın həyətdə üç qocanın dayandığını gördü. Qocalar qadından həyat yoldaşının evdə olub-olmadığını soruşdular. "Xeyr" cavabını eşidən qocalar: "Elə isə biz sizin evinizə girə bilmərik, onu burada gözləyərik", – dedilər.

Axşam həyat yoldaşı evə gələndə qapıda onu gözləyən qocaları evə dəvət etdi. Ancaq qocalardan biri: "Biz bir yerə dəvət ediləndə hamımız getmirik", – dedi. Onun təəccübləndiyini görən qoca: "Biz üç yoldaşıq. Birimizin adı Var-dövlət, birimizinki Müvəffəqiyyət, o birimizinki Sevgidir. Məsləhətləşin, hansımızı istəyirsiniz, evinizə dəvət edin", – dedi.

Ailə məşvərətə yığışdı. Ər: "Var-dövləti dəvət edək, qoy evimizdə bolluq olsun", – dedi. Qadın: "Bəlkə, Müvəffəqiyyəti dəvət edək?" – deyə təklif etdi. Onları dinləyən qızı: "Sevgini dəvət etsək, daha yaxşı olar. Onda evimiz sevgi ilə dolar", – dedi. Kişi: "Məncə, qızımızın fikri daha yaxşıdır", – deyərək Sevgini evə dəvət etdi.

Sevgi qalxdı. Evə yaxınlaşanda o biri dostları da onun arxasınca gəlməyə başladılar. Qadın təəccüblə: "Axı biz ancaq Sevgini dəvət etdik", – dedi. Sevgi cavabında: "Əgər siz Var-dövləti və ya Müvəffəqiyyəti dəvət etsə idiniz, onda ikimiz gəlməyəcəkdik. Ancaq siz məni dəvət etdiniz. Unutmayın ki, harada Sevgi varsa, orada Var-dövlət də, Müvəffəqiyyət də var..."

Sizcə, bu mətn üçün açar söz nə ola bilər?

Həmin söz haqqında fikir mübadiləsi aparın.

Ailə qorunmağa möhtac sevgi qalası, diqqət tələb edən, dözümlülük, səbir və ehtiramla bəslənən müqəddəs birlik, millətin mənəvi təlim ocağıdır. Bu ocağı qorumaq hər bir ailə üzvünün vəzifəsidir. Ancaq bəzən gənc ailələr bu vəzifənin ciddiliyinin fərqinə varmayıb tələskənlik edir, elə başlanğıcda: "Yox, biz keçinə bilmirik, artıq səbrimiz tükənib", – deyir, boşanma yoluna üz tuturlar. Onlar çox vaxt incə bir məsələni unudurlar. Bu da, hər şeydən əvvəl, ailənin bütünlüyünü qorumağa (*çalışmaq, əlləşmək*), fərdiləşməmək, "mən haqlıyam" düşüncəsindən uzaqlaşıb, (*ailəmin, evimin*) dağılmaması üçün nə edə bilərəm?" – deyə düşünmək, bir-birinə qarşı səbirlə davranmaq, fədakarlıq etmək, beləliklə də, sevgi işığını söndürməməkdir...



Bir-birini sevən iki gənc (*yenicə, indicə*) ailə qurmuşdu. Evliliyin ilk aylarında çox gözəl keçinir, xoşbəxt bir ailə həyatı yaşayırdılar. Amma bir müddət keçdikdən sonra aralarında bəzi anlaşılmazlıqlar yaranmağa başladı. Bəzən (*kiçik, balaca*) bir söz, xırda bir hadisə bir-birindən küsməyə, hətta dava-dalaşa səbəb olurdu.

Ailənin get-gedə uçuruma doğru üz tutduğunu görən gənclər bir gün qərara gəldilər ki, münasibətlərini bir daha gözdən keçirsin. Əslində, onların heç biri ayrılmaq istəmir, yaşanan problemi həll etməyə çalışırdı.

Bir gün gənc qadın həyat yoldaşına belə bir təklif etdi: "Gəl bağçada bir ağac əkək və üç ay gözləyək. Əgər ağac bu müddət ərzində quruyarsa, o zaman ayrılarıq. Yox, əgər qurumazsa, əksinə, boy atıb böyüyərsə, bir də heç vaxt boşanmaq haqqında (*düşünmərik, fikirləşmərik*). Ailəmizin bütünlüyü üçün səbir edək və bir-birimizə ehtiram göstərək".

Həyat yoldaşı da xanımının bu maraqlı təklifi ilə razılaşır səhəri gün o, bir meyvə ağacı alır və birlikdə bu ağacı evlərinin bağçasında əkirlər. Aradan bir ay keçir

Bir gecə qaranlıqda onlar gözlənilmədən qəflətən evlərinin bağçasında qarşılaşırlar və heyrətdən donub-qalırlar.

Sizcə, onların heyrətinə nə səbəb oldu?

1 Bağçadakı ağac elə yarpaqlamışdı ki, ağırlıqdan budaqlar əyilirdi. Hər gün sulanan ağac göstərilən qayğıdan sanki xoşhal olur, gənclərin ayrılmaması üçün qol-budaq atırdı.

2 Bağçadakı ağac qupquru qurumuş, yarpaqları büzüşmüşdü. Gənclərin soyuq münasibəti ona da sirayət etmişdi.

3 Hər ikisinin əlində bir qab su var idi. O ağacın qurumaması, onun son ümid işığı olduğu üçün gecələr bir-birindən xəbərsiz ağacı sulayırdılar.

Artıq deməyə söz qalmamışdı:

25 6 30 9 14 17 1 18 14 2 9 7 18 19 14 26 5 14.

Əlifbada hərflərin sıralanma nömrəsindən istifadə etməklə cümləni oxuyun.

Bütün ötəri hislər, lüzumsuz səbəblər zülmət gecə kimi sevgi günəşinin işığı qarşısında əriyib yox olmağa məhkumdurlar.

Bəşər övladına bəxş edilən ən böyük hədiyyə, şübhəsiz ki, sevgidir. Sevgi olarsa, ehtiram, fədakarlıq, səbir, xoşbəxtlik üçün çalışmaq və insanlıq adına var olan bütün dəyərlər, keçmişimizdə, dünənimizdə, adətlərimizdə mövcud olan digər əxlaqi gözəlliklər yaşanar.

Nərgiz Ələkbərqızı, “İşıq” jurnalından, 2012-ci il, №1

Müəllifin bu mövzuda mətn yazmaqda məqsədi nədir? Sizcə, o hansı insani keyfiyyətləri təbliğ edir? Yazıçı olsa idiniz, bu mövzuda yazacağınız hekayənin süjet xəttini necə qurardınız?

❖ Sizcə, mətndə istifadə edilən ağac anlayışının hər hansı bir məcazi anlamı ola bilərmi? Olarsa, nədir?

❖ Rəssam Mərziyə Tağıyevanın "Sevgi ağacı" mətninə çəkdiyi illüstrasiyaya münasibət bildirin. Əgər siz rəssam olsa idiniz, "Sevgi ağacı" mətninə necə şəkil çəkərdiniz? Hansı obraz (və ya obrazlar) sizin əsərin qəhrəmanı olardı? Nə üçün?

❖ Şəkil haqqında kiçik esse yazıb hazırlayacağınız qəzet maketinin müvafiq bölməsində yerləşdirin.

1. Mətnin adı haqqında düşünün. N.Ələkbərqızı onu nə üçün belə adlandırıb? Bu adla razısınızmı? Mətnin adı ilə ideya arasında bağlılıq varmı? Siz mətnə hansı adı verərdiniz? Əsərə hansı atalar sözünü başlıq seçərdiniz?
2. Bölmənin epiqrafını mətnin epiqrafı ilə əlaqələndirin, fikirlərinizi əsaslandırın.
3. *Ailə nədir?* sualına siz necə cavab verərdiniz? Ailənizdə olan, çox bəyəndiyiniz hansı dəyəri yoldaşlarınızla bölüşmək istəyərdiniz?
4. *Ailədə vəzifə və hüquqlar* mövzusunda söhbət aparın.
5. Sevgi hissi yalnız ailədəmi olmalıdır? Bu hissin qorunması üçün siz nə edirsiniz? Siz sevgini hansı təbiət ünsürü ilə birləşdirərdiniz?
6. *Təbiət insanı xilas edir* mövzusunda söhbət aparın. S.Vurğunun Çinarını xatırlayın.
7. Mətnin giriş, əsas və nəticə hissələrini müəyyənləşdirin.
8. Sxemi tamamlayın. Fikirlərinizi sübuta yetirin.

Mətn → bədii üslubdadır, / bədii üslubda deyil, → ona görə ki.....

9. Mətndə (səh. 95) mötərizədə verilmiş sözlərdən hansı işlənərsə, leksik normanın tələblərinə əməl edilmiş olar? Uyğun bilmədiyiniz sözləri cümlələrdə işlədin, məna fərqlərinə diqqət yetirin.
10. Mətndə (səh. 96) tünd şriftlə verilmiş cümlədə düzgünlüyü bərpa edin.
11. *Vəzifə* sözünü müxtəlif mənalarda cümlədə işlədin. *Vəzifə* və *hüquq* sözlərinin leksik mənalarını müəyyənləşdirin.
12. *Məhəbbət, eşq, sevgi* sözlərini uyğun cümlələrə yerləşdirib məna fərqlərini izah edin.

• ..... mehrabı uca göylərin
....., ey dünya, nədir dəyərin?! (*N.Gəncəvi*)

• ..... yaşayan donuq bir insan
İçini qurd yemiş ağac kimidir.
Əsrlər dolanır, dəyişir zaman
..... əbədi bir ehtiyacdır. (*S.Vurğun*)

• ..... və şəfqət insanlığın məhək daşıdır. (*C.Rumi*)

✓ *"Sevgi" və "məhəbbət" sözlərinin sinonim olduğunu əsaslandırın. Bu sözlər həmişə bir-birini əvəz edə bilirmi? Fikrinizi misallarla şərh edin.*

13. Mətndə bir neçə yerdə "ailənin bütünlüyü" ifadəsi işlənmişdir. Necə bilirsiniz, bu ifadə "ailənin bütövlüyü" şəklində işlənərsə, düzgün olarmı?

14. Mətndə (səh. 95) fərqləndirilmiş cümləni sadə cümlə şəklində yazın. Həmin cümlədə hansı normanın tələbi pozulmuşdur?
15. Mətndə altından xətt çəkilmiş cümlələrdə hansı durğu işarələrindən istifadə olunmalıdır?
    A) tire, üç nöqtə
    B) qoşa nöqtə, üç nöqtə
    C) vergül, nöqtə
    D) qoşa nöqtə, nöqtə
16. Qırmızı rəngdə verilmiş cümlələri elə dəyişin ki, bir tərəfin digər tərəfi aydınlaşdırdığı tabesiz mürəkkəb cümlə yaransın.
17. Mətndə hansı cümlələrdə qrammatik norma pozulmuşdur?
18. Göy rəngdə verilmiş cümlədə (səh. 96) sadalanan sözlər arasında hansı bağlayıcılardan istifadə olunsa, fikir daha düzgün olar?
    ✓ *Həmin bağlayıcıları **həm, həm də** bağlayıcıları ilə əvəz edin.*
    ✓ *Həmin cümlədə:*
    a) ***habelə, həmçinin, hətta** bağlayıcılarından biri işlənərsə;*
    b) ***nə, nə də** bağlayıcılarından biri işlənərsə;*
    c) ***və** bağlayıcısı işlənərsə, hansı dəyişiklik baş verəcək?*
    ✓ *Hansı bağlayıcılardan istifadə mətnin sonluğunu gücləndirmək üçün daha uyğundur?*

19. Mətni oxuyun. Tərcümə işini araşdırın. Ədəbi dilin normalarının pozulması hallarını müəyyənləşdirərək onları aşağıdakı kimi qruplaşdırıb düzəlişlər edin. Abzasları bərpa edin.

Fonetik norma	Leksik norma	Qrammatik norma

Müəllimə uşaqlarla bir oyun oynamaq istəyirdi. Müəllim uşaqlara içində bir neçə dənə kartof olan plastik torba gətirmələrini dedi. Hər kartofun üzərinə xoşunuz gəlməyən insanın adını yazın. Beləliklə uşaqların torbası xoşları gəlməyən insanların adları ilə dolu olacaqdı. Beləliklə bir neçə gün keçdi. Uşaqlar xoşları gəlməyən insanların adları olan kartof torbasını gətirdilər. Bəzilərinin 2, bəzilərinin 3 kartofu vardı. Müəllim onlara hara gedirlərsə getsinlər bu torbanı da bir həftə içində özləri ilə aparmağı dedi. Günlər keçdikcə uşaqlar çürümüş kartoflardan gələn qoxudan şikayətlənməyə başladılar. Həmçinin də bu kartoflar onlara ağırlıq da verirdi. 1 həftə sonra uşaqlar bundan azad oldular, çünki artıq vaxt bitmişdi. Müəllimə soruşdu: "Özünüzü necə hiss edirdiz bu bir həftədə bu torbanı daşıyanda?" Uşaqların əsəbi halda şikayətlənməyə başladılar ki, onlar hara gedir getsin bu çürümüş və ağır torbanı özləri ilə daşımaq məcburiyyətində qalırdılar. Müəllimə onlara bu oyunun arxasında gizlənən sirri danışdı. Müəllimə dedi: "Bu sizin ürəyinizdə kiməsə olan nifrəti daşımaqla eynidir. Nifrətin qoxusu sizin ürəyinizi də çürüdür və siz hara getsəniz onu özünüzlə daşıyacaqsınız. Əgər siz bir həftə çürümüş kartofun qoxusuna dözə bilmirsinizsə, onda təsəvvür edə bilirsiz nifrət qoxusunu bir ömürboyu ürəyinizdə daşımaq nə kimi şeydir". Nəticə: Ürəyinizdən kiməsə qarşı olan nifrət hissini atın bununla siz bir ömür boyu ürəyinizdə ağır yük daşımaq məcburiyyətində olmayacaqsız. Digərlərini bağışlamaq ən yaxşı hərəkətdir. Kiminsə barədə olan mənfi fikirlər sizin beyninizi heç vaxt sakit saxlamayacaq. Onun barədə daha yaxşı şeylər fikirləşin və nifrəti kənara atın.

İngilis dilindən tərcümə etdi: ***Ülviyyə Salahova***

✓ *Düzəlişlərdən sonra tərcümə işi haqqında aşağıdakı formadan istifadə etməklə rəy yazın.*

Ülviyyə Salahovanın tərcümə işinə

_____

Ü.Salahovanın _____ mətnin məzmunu tərbiyəvi əhəmiyyətə malikdir. Belə ki _____
_____ .

Ancaq mətnin dili _____
_____ .

Mətn üslubi cəhətdən _____ .
_____ .

Tərcüməçiyə tövsiyə edərdim ki, _____ .

İmza: Tarix:

Oğluma

İnsanın şərəfi, bəzəyi, məncə,
Deyildir nə ipək, nə tirmə, oğlum!
Yaxşıdan yaxşı ol ellər içində,
Dostuna bir ziyan yetirmə, oğlum!

Yersiz gülümsəmə, yersiz ağlama,
Bir könül də qırma, sinə dağlama,
Sirrini ellərdən gizli saxlama,
Dilinə yalan söz gətirmə, oğlum!

Yel qanadlı illər ömürdən gedir,
İnsan zəhmətilə kamala yetir,
Bağında nərgizlər, lalələr bitir,
Tikanlar, qanqallar bitirmə, oğlum!

Ürəyim arzuyla doludur, dolu,
Hünər meydanıdır bu həyat yolu,
Bilmədiyin işi gözüyumulu,
Söz verib öhdənə götürmə, oğlum!

Oxu öyüdümü sən sətir-sətir,
Qoy yağsın hər zaman dilindən ətir,
Qazancını itir, malını itir,
Ancaq duz-çörəyi itirmə, oğlum.

Süleyman Rüstəm

- Nə üçün ailə millətin mənəvi təlim ocağı hesab edilir?
- *Ailə və məktəb şəxsiyyətin formalaşmasında birgə məsuliyyət daşıyır* fikrinə münasibət bildirin.

MƏNƏVİ TƏRBİYƏ OCAĞIDIR

Qızıma

Dinlə sözlərimi, yaxşı qulaq as
İnsan bu dünyada qonaqdır, qızım.
Şan-şöhrət, var-dövlət, bəzək-düzəklər
Bu gün var, sabah yox, sınaqdır, qızım.

Ətrafa boylanıb bir göz gəzdirsən,
Nə qədər hikmətlər, sirlər görərsən.
Toxum səp, meyvəsin mütləq dərərsən
Zəhmətin bəhrəsi dadlıdır, qızım.

Sadə ol, sadəlik ucaldar səni,
Gözəl duyğularla bəslə qəlbini,
Bir xoş söz dost edər qəddar düşməni.
Yaxşı dost insana arxadır, qızım.

Danışmaq istəsən, əvvəl düşün sən,
Yalan söz çıxmasın heç vaxt dilindən.
Uzaq ol böhtandan, şərdən, hiylədən,
Yaxşılıq qapısı açıqdır, qızım.

Söz verib sözünü tutanlardan ol,
Məzluma köməyə qaçanlardan ol.
Oxumaq həzzini duyanlardan ol,
Vaxtın boş keçməsin, amandır, qızım.

Vüqar Adilov

- Hər iki müəllifin tərbiyə haqqında irəli sürdüyü fikirlərə münasibət bildirin.
- Hər iki şeirdən istifadə edərək öz fikirlərinizi əlavə etməklə “Tərbiyənin kökü ailədə qoyulur” adlı məqalə hazırlayın.

2 “SƏN” DİLİ ƏVƏZİNƏ, “MƏN” DİLİ...
(*ixtisarla*)

1. Mətnin üzərində iş aparın:
   - Mətnin dilində yol verilmiş üslubi xətaları müəyyənləşdirin.
   - Mətndə işlədilmiş dırnaq və vergül işarələrinin düzgün qoyulub-qoyulmadığını araşdırın.
   - Səhv yazılmış sözləri müəyyənləşdirib düzgün yazın.

Cəmiyyətdə ən çox şikayət etdiyimiz məsələlərdən biri bir-birimizi başa düşməmək və ya səhf başa düşməkdir. Təbii ki, bu təkcə cəmiyyət üçün yox, ailə üçün də belədir. Digər tərəfdən, “təhlükə səviyyəsi” ailədə cəmiyyətlə müqayisədə daha yüksəkdir. Ona görə də bu cür problemlərin baş verməməsi üçün, ilk növbədə, tərəflər özlərini düzgün ifadə etməyi bacarmalıdırlar. Əgər məsələyə valideyn-uşaq pirizmasından yanaşsaq, yenə də eyni mənzərənin şahidi olarıq. Belə ki valideyn fikirlərini düzgün ifadə edə bilmirsə, deməli, uşaq necə hərəkət edəcəyini bilmir, ya da yanlış hərəkət etmək “məcburiyyətində qalır”. Bu isə nəticədə, valideyn-uşaq münasibətlərinin “pozulmasına” səbəb olur. Buna görə də, valideyn fikirlərini düzgün ifadə etməli və bunun üçün “sən” dilindən yox, “mən” dilindən istifadə etməlidir. Bu nə deməkdir?

“Sən” dilinin ən böyük problemi itdihamedici dil olmasıdır. Başqa sözlə, “sən” dili məsələnin “asanlaşdırılmasına” yox, “çətinləşdirilməsinə” xidmət edir. Digər tərəfdən, “sən” dilindən istifadə edən tərəf üzərinə heç bir məsuliyyət götürmür, əksinə bütün məsuliyyəti qarşı tərəfin üzərinə qoymağa çalışır. Məsələn, *“Sən heç özünü apara bilmirsən”, “Sən uşaq kimi hərəkət edirsən”, “Sən həmişə evə gec gəlirsən”* və s. Göründüyü kimi, burada əsas hədəf qarşı tərəfdir. Başqa sözlə, bu cümlələr qarşı tərəfi məsələyə “yaxınlaşdırmaq” üçündür. Nəticədə, məsələ həll olunmaq əvəzinə, daha da dərinləşir. Ən təhlükəlisi isə, valideyn bu cür cümlələrlə ya uşağı “passivləşdirir”, yəni uşağın özünəinamının itməsinə səbəb olur, ya da “aktivləşdirir”, yəni uşağın aqresivləşməsinə səbəb olur.

“Sən” dilinin əksinə “mən” dili ittihamedici dil deyil. “Mən” dilindən istifadə edən tərəf məsuliyyəti qarşı tərəfin üzərinə qoymur, əksinə bütün məsuliyyəti öz üzərinə götürməyə çalışır. Həmçinin valideynindən bu cür münasibət görən uşağın “passivləşmək” və ya “aktivləşmək” qorxusu da yoxdur.

Unutmayın ki, “sən” dilindən istifadə etməklə qurduğunuz hər cümləni “mən” dili ilə də qurmaq olar. Məsələn, *“Mən sənə özünü belə aparmağı məsləhət görmürəm”, “Mən uşaq kimi hərəkət etməyi sənə layiq görmürəm”, “Mən sən evə gec gələndə çox narahat oluram”, “Mən sənin tökdüklərini yığışdıranda çox yoruluram...”*

Beləliklə, özünü “mən” dili ilə ifadə etməyə çalışan valideyn bu cümlələrlə uşağını məsələdən “uzaqlaşdırmaqdan” çox, “yaxınlaşdırır”. Digər tərəfdən, valideyn bu cümlələrlə uşağı ilə “gələcək danışıqları” üçün də zəmin hazırlayır.

Yeri gəlmişkən, valideyn “mən” dilindən istifadə edərkən səs tonuna, həmçinin bədən dilinə (*bədən dili haqqında məlumatı 106-cı səhifədə oxuyun*), xüsusi diqqət yetirməlidir. Əks halda, “mən” dilinin heç bir mənası qalmaz.

“Ailəm” jurnalından, 2009-cu il, №45

2. Aşağıdakı fikirləri və polyak pedaqoqu Y.Korçakın valideyn-övlad münasibətləri haqqında yazdıqlarını (səh. 104–105) oxuyun. S.Rüstəmin “Oğluma” , V.Adilovun “Qızıma” şeirində övlada verilən nəsihətləri xatırlayın. Müqayisələr aparıb aşağıdakı sxem əsasında şifahi nitqinizi düzgün qurun. Sizcə, hansı üslubun tələblərinə uyğun danışacaqsınız?

VALİDEYN OLMAQ:

- ailə qayğısı çəkmək, yuxusuz gecələr keçirmək, övladın acı və şirin hərəkətlərinə dözmək, bu hərəkətləri düzgün yola istiqamətləndirmək, övlada nümunə olmaq, övladdan nümunəvi olmağı tələb etməkdir.
- dostluq, məhəbbət, sevgi, şəfqət, hörmət, sədaqət, inam və etibar kimi gözəl əxlaqi keyfiyyətlərin kiçik yaşlardan övladında tərbiyə etməkdir.
- Vətənimiz üçün, xalqımız üçün hər cəhətdən ləyaqətli vətəndaşlar tərbiyə etmək deməkdir.

Bədən dili davranışla idarə olunan ünsiyyət növüdür. Bədən dili ilə yaranan ünsiyyətə bədənin hərəkətləri, jestlər, üz ifadələri, göz hərəkətləri, başın hərəkəti, oturuş forması və s. daxildir.

Davranışlarımızı, jest və mimikalarımızı yerində və düzgün istifadə etsək, insanlara təsir gücümüz artar. Həddindən artıq əl-qol hərəkətləri, mimikaların çoxluğu dinləyənin diqqətini azaldaraq nitqinin təsirini zəiflədir. Məsələn, əli belində və ya əlləri arxada birləşmiş halda olan duruş insanları bezdirə və uzaqlaşdıra bilər. Süni üz ifadəsini qarşı tərəf hiss edəcəkdir, çünki şüurda mənfi düşüncələr varsa, simada müsbət ifadə yarana bilməz. Biri ilə söhbət edən zaman "bədən dili"mizi düzgün istifadə edə bilməyimiz üçün, hər şeydən əvvəl, diqqətimizi o adama və mövzuya yönəltməliyik.

Diqqətli müşahidə bacarığı insanları oxumaq və hərəkətlərin mənasını düzgün müəyyən etmək üçün çox vacib və əhəmiyyətli bacarıqdır.

3. Mətni oxuyub təhsildə bədən dilinin əhəmiyyəti haqqında söhbət aparın.

"Bədən dili" təhsil prosesində əhəmiyyətli dərəcədə böyük rola malikdir. Tədris zamanı müəllimlər "bədən dili" vasitəsilə şagirdlərinə öz fikirlərini daha dəqiq, aydın çatdırırlar: *"Siz mənim üçün vacibsiniz", "Sizin dərslərinizin öhdəsindən gələcəyinizə inanıram", "Sizə güvənirəm", "Sizin uğurlarınıza inanıram", "Sizinlə birlikdəyəm və yanınızdayam"* və yaxud *"Sizdən heç nə çıxmayacaq", "İstər öyrənin, istər öyrənməyin, məni maraqlandırmır", "İmtahanda mən sizə göstərərəm"*. 🙂

Müəllim də şagirdlərin "bədən dili" vasitəsilə çatdırmaq istədiklərini düzgün anlamalıdır. İzah edilənlərə şagirdlərin maraq göstərib-göstərmədiklərini, dərsi anlayıb-anlamadıqlarını, sinfin motivasiyasını, dərsdə sıxılıb-sıxılmadıqlarını anlamalı, vəziyyəti düzgün qiymətləndirməlidir. Sinfi diqqətlə müşahidə edən müəllim üçün bu, asan olmalıdır.

4. Mətnin məzmununa (səh. 102) münasibət bildirin.
5. Aşağıda verilənləri müqayisə edib fikirlərinizi ümumiləşdirin:

"SƏN" DİLİ	"MƏN" DİLİ
▸ *Sən heç özünü apara bilmirsən.*	▸ *Mən sənə özünü belə aparmağı məsləhət görmürəm.*
▸ *Sən uşaq kimi hərəkət edirsən.*	▸ *Mən uşaq kimi hərəkət etməyi sənə layiq görmürəm.*
▸ *Sən həmişə evə gec gəlirsən.*	▸ *Mən sən evə gec gələndə çox narahat oluram.*
▸ *Sən tökdüklərini yığışdırmırsan.*	▸ *Mən sənin tökdüklərini yığışdıranda çox yoruluram.*

✓ *Necə düşünürsünüz, "mən" sözünün bütün hallarda eyni mənada istifadəsi mümkündürmü?*

6. Müşahidə aparın. Yoldaşlarınızla, valideynlərinizlə, müəllimlərinizlə ünsiyyət zamanı "bədən dili"ndən necə istifadə edirsiniz? Bu dil sizə ətrafdakıları başa düşməkdə nə dərəcədə kömək edir?
7. Sizcə, ailədə valideynlə övlad arasında səmimi münasibət hansı əhəmiyyətə malikdir? "Cəmi 40 söz" mətnindəki hind qızı Kamalanı xatırlayın. Müqayisələr aparıb fikirlərinizi ümumiləşdirin.
8. Ailədə valideynlərinizlə olan hər hansı bir dialoqu yazın. Həmin dialoqu iki formada canlandırın:
   - Danışıqlarınızı jest və mimika olmadan nümayiş etdirin;
   - Danışıqlarınızı müxtəlif bədən hərəkətləri ilə müşayiət edin.

   ✓ *Bu zaman intonasiyaya, səs tonunun azalıb-artmasına diqqət yetirin. Sizcə, hansı danışıq tərzi daha təsirli oldu?*
9. Mətnin (səh. 102) dili üçün xarakterikdir:
   - obrazlılıq
   - elmilik
   - aydınlılıq
   - kütləvilik

10. Mətndə (səh. 102) *prizma* sözünün hansı mənası işlənmişdir?
    ✓ İki üzü bərabər və uyğun tərəfləri paralel çoxbucaqlı
    ✓ Mürəkkəb işığı spektrlərə ayırmaq, işıq şüalarının istiqamətini dəyişdirmək
    ✓ Baxış bucağı
11. *Aqressiya* sözünün leksik mənasını müəyyənləşdirin.
12. *Səhv* sözünün birinci abzasda (səh. 102) işlənmiş sinonimini tapın.
13. Sözlərin sinonim olub-olmadığını nümunələr əsasında müəyyənləşdirin. Hansı söz artıqdır? Həmin sözü hansı xüsusiyyətinə görə artıq hesab edirsiniz?

    səhv → yanlış → nöqsan → günahsız → xəta → qüsur → qələt

Azərbaycan ədəbi dilinin üslublarından biri publisistik üslubdur. Publisistik üslubun əsasını hamı üçün eyni dərəcədə anlaşılan, mənası aydın olan söz və ifadələr təşkil edir. Bu üslub xalq dilinə çox yaxındır.

Aydın və anlaşıqlı dil publisistik üslubun əsas xüsusiyyətidir.

Publisistik üslubun 2 forması var.



Azərbaycanda publisistik üslubun əsası XIX əsrdə "Əkinçi" qəzeti ilə qoyulmuşdur.

14. *Göz* sözünün əmələ gətirdiyi frazeoloji birləşmələri bir söz ilə ifadə etməyə çalışın. Məna baxımından eyni olan birləşmələri qruplaşdırın. Bir neçəsini cümlədə işlədin.

Göz ağartmaq, göz altından baxmaq, göz atmaq, göz aça bilməmək, göz açmaq, göz açmamaq, göz verib işıq verməmək, göz vurmaq, göz qabağına gətirmək, göz qoymaq, göz dağı olmaq, göz dəymək, gözü doymamaq, göz işlədikcə, göz dolandırmaq, göz yetirmək, gözü görməmək, gözünün acısını almaq, göz oxşamaq, göz üstə, gözdən qaçmaq, gözdən düşmək, gözdən itmək, gözdən pərdə asmaq, gözə kül üfürmək, gözdən salmaq, gözdən tük çəkmək, gözə girmək, gözə sataşmaq, gözləri çuxura düşmək, gözləri parıldamaq, gözü kəlləsinə çıxmaq, gözündən cin yağmaq, gözündən yuxu tökülmək, gözünün qabağı qaralmaq, gözlərini dörd açmaq, gözünün qarasını sıxmaq, gözü ayağının altını görməmək, gözü açılmaq, gözü ac olmaq, gözü qalmaq, gözü düşmək, gözü ilə yemək, (arzusu) gözündə qalmaq, gözündən tökmək, gözünün kökü saralmaq, gözünə işıq gəlmək, gözünə su vermək...

✓ *Frazeoloji birləşmə kimi verilən hansı ifadə həqiqi mənada da işlənə bilər?*

✓ *Frazeoloji birləşmələrdən bir neçəsini cümlədə elə işlədin ki, bədii və publisistik üsluba aid edilə bilsin.* Məsələn:

- **Bədii üslubda** – Sən bir bu ənginliyə bax, – Qasım əsnəyərək əli ilə *göz işlədikcə* uzanan düzənliyi göstərdi, – ucu-bucağı yoxdur! Burada hamıya yer çatar, ancaq biz... (*Hüseyn İbrahimov*)
- **Publisistik üslubda** – Ağdərənin qarlı meşələrinin içindən keçib səngərlərdə torpaqlarımızı qoruyan oğulların yanına tələsirdik. *Göz işlədikcə* uzanan bu gözəl əraziləri erməni işğalçılarından azad etdiklərinə görə döyüşçülərimizi səmimiyyətlə bağrımıza basdıq. Əsgərlərimizin hücumları qarşısında duruş gətirə bilməyən ermənilər addım-addım geri çəkilirdilər. Hər gün yeni ərazilərimiz düşməndən azad olunurdu. Torpaqlarımız rahat-rahat nəfəs alıb köks ötürürdü. (*Vahid Məhərrəmov*)

✓ *Sizcə, bu birləşmələrdən elmi üslubda istifadə oluna bilərmi? Niyə?*

15. Qəzet və ya jurnaldan publisistik üslubda olan mətn seçib tədqiq edin.

✓ *Tədqiqatınız əsasında (15-ci tapşırıq) qısa rəy yazın.*

16. Mətnləri müqayisə edib onların bədii və ya publisistik üslubda olduğunu müəyyənləşdirin.

1 Sahilə bir neçə metr qalırdı... Bir neçə metr!.. Başqa vaxt olsaydı, gözəl üzmək bacaran Nadir bu kiçik məsafəni bir göz qırpımında qət edərdi. İndi... İndi isə elə əldən düşmüşdü ki, bir neçə metr ona Bakıdan Qum adasına üzməkdən daha çətin gəlirdi.

Göyə qalxan qəzəbli dalğalar yemək üçün bir-birini təqib eləyən ac canavarlar kimi sahilə cumurdular. Qolları taqətdən düşmüş Nadir qaynar dalğaların içində saman çöpünə bənzəyirdi. Onun ürəyi elə yeyin-yeyin döyünürdü ki, az qalırdı, partlasın. Elə bil ciyərləri də balacalanmışdı, köks dolusu hava uda bilmirdi. Qarnı bədəninə ağırlıq eləyirdi. Sanki belindən neçə putluq daş asılmışdı. Şor su içməkdən Nadirin qarnı tuluğa dönmüşdü. O, dalğaların arasında çapalayır, sahilə çıxmağa çalışırdı. Nə qədər əl-qol atırdısa, işin tərsliyindən yenə bir neçə metri qət eləyib quruya çıxa bilmirdi ki, bilmirdi.

Sahilə yaxınlaşdıqca dalğalar daha da güclənib qəzəblənir, əziyyətlə üzüb, qabağa gəldiyi yerdən onu geri atırdı. Nadir çaşqınlıq içində düşünürdü: "Bu qədər yolu birtəhər üzüb gəldim, mənə heç bir şey olmadı. Amma bu lənətə gəlmiş bir neçə metri üzüb sahilə çıxmağa heyim qalmayıb. Fırtına da öz gücünü elə gərək bu gün göstərəydi..."

(H.Abbaszadənin "Qaradağ əhvalatı" əsərindən)

✓ *Mətndən ○ + sa, → □ sxeminə uyğun cümləni tapın, onu sintaktik cəhətdən təhlil edin.*

2 Görkəmli ədəbiyyatşünas-alim, maarifçilik tariximizdə misilsiz xidmətləri olan, XIX əsrin sonu, XX əsrin əvvəllərində müəllimlər müəllimi kimi çox böyük nüfuz qazanan Firidun bəy Köçərlinin həyat yoldaşı Badisəba xanım Vəkilova 1881-ci il martın 2-də Qazaxda anadan olmuşdur. Firidun bəy Qoridə müəllim işləyəndə Badisəba xanımın təhsili ilə məşğul olmuş və onun maarifçi qadın kimi yetişməsində böyük zəhmət çəkmişdir. Badisəba xanım öz xərci ilə 1918-ci ildə Qazaxda "Yetim və qaçqın uşaqlar evi" açmışdır. 1920-ci ilin iyun ayında bolşevik-daşnaklar tərəfindən Gəncədə güllələnən Firidun bəydən sonra Badisəba xanım onun maarifçilik fəaliyyətinin davamçısı olmuşdur.

1925-ci il mayın 1-də Maarif Komissarlığının əmri ilə Badisəba xanım Köçərli Zaqatalaya göndərilmiş və orada ilk dəfə Pedaqoji Texnikum təşkil etmişdir. 1929-cu ildə isə Quba Pedaqoji Texnikumunun yaradıcısı olan bu fədakar qadın 1930-cu ildə Şəkidə 2 saylı uşaq evinin də yaradıcısı və direktoru olmuşdur.

...Şəkiyə yollandım. Uşaq evini tapdım.

...Mavi rəng çəkilmiş taxta qapıdan içəri keçdim. Daş pilləkənləri qalxıb geniş, səliqəli bir həyətə girdim. Həyətdə sakitlik hökm sürürdü. Evin alt mərtəbəsindən yaşlı bir qadın çıxdı, yuxarını göstərib: "Direktor yuxarıdadır, uşaqlar da dərsdədirlər", – dedi.

Sərt dikdirli taxta pilləkənlə ikinci mərtəbəyə çıxdım. Sol tərəfdəki qapını açıb içəriyə boylandım. Zövqlə təmir olunmuş otaqda düzülmüş gül və çiçəklər göz oxşayırdı. Otağın baş tərəfində rəngli bir portret asılmışdı. Bu, Badisəba xanım Köçərlinin yağlı boya ilə işlənmiş əksidir. Şəklin altında heç bir yazı-filan olmasa da, vaxtilə yüzlərlə kimsəsizin anası olmuş ağbirçəyi dərhal tanıdım.

(Ş.Nəzirlinin "Qoridən gələn qatar" kitabından)

✓ *Mətnləri hansı xüsusiyyətlərinə görə fərqləndirə bildiniz?*
✓ *Mətnlər əsasında bədii üslubla publisistik üslubun oxşar və fərqli cəhətlərini müəyyənləşdirib cədvəli doldurun.*

	Bədii üslub	Publisistik üslub
Fərqli cəhətləri		
Oxşar cəhətləri		

Bədii üslubdan fərqli olaraq, publisistik üslubda, adətən, terminlərdən, dialekt və loru sözlərdən istifadəyə yol verilmir.

17. Tutaq ki, sizə "Ailədə valideynin və övladın vəzifə və hüquqları" mövzusunda televiziya verilişi hazırlamaq tapşırılıb. Həmin verilişə kimləri dəvət edəcəyinizi düşünün. Uyğun suallar tərtib edin. Nümunə kimi verilmiş sxemdən istifadə edə bilərsiniz. Nöqtələrin yerinə lazım və uyğun bildiyiniz ifadə və cümlələri artırın.

Verilişimizə xoş gəlmişsiniz, hörmətli	Dəvətinizə görə təşəkkür edirəm.
Sizi dəvət etməkdə	.....
.....	Maraqlı sualdır. Düşünürəm ki, ...
Necə düşünürsünüz, insan və onun mənəviyyatının formalaşmasında musiqinin (rəssamlığın) rolu varmı?	Bilirsiniz, ...
.....	Böyük məmnuniyyətlə, ...
.....	.....
Dəvətimizi qəbul edib	.....

✓ *Nitqinizin aydın və anlaşılan olmasına çalışın.*
✓ *Tədbiriniz haqqında məlumat xarakterli mətn yazıb qəzetinizdə yerləşdirin.*

3 MƏNDƏN ÖTDÜ, QARDAŞIMA DƏYDİ...

(*ixtisarla*)

ORFOQRAFİYA

Hansı səhv yazılmışdır?

- 15-ci misrada
- altından xətt çəkilmiş misralarda
- göy rəngdə verilmiş sözlərdə *-mı* sual ədatı
- qırmızı rəngdə verilmiş cümlələrdə

ORFOEPİYA

- 7 və 8-ci misralarda saiti fərqli tələffüz olunan sözlər
- 9-cu misrada saiti uzun tələffüz olunan söz
- 5, 6 və sonuncu dörd misrada samit qoşalığı yaranan sözlər
- *torpaqlaşan, uzaqlaşan* sözlərinin tələffüzündə eynilik

"Daşlaşan ulu babam" ifadəsi ilə şair nəyə işarə edir?

Ey daşlaşan, torpaqlaşan
ulu babam!
Bu günümdən dünənimə uzaqlaşan
ulu babam!
Küləkləşən, dumanlaşan ruhunla sən
Ayağa dur, sənin ləyəm!
Səs getməyən,
əl yetməyən
Qədim tarix dərəsindən
Səs ver mənim səsimə sən:
Sənə gələn, səndən ötən
nəydi belə? –
Səndən ötüb qardaşına dəydi belə?
Bununla mı neçə dəfə
Ata-oğul, qardaş hisi haçalandı,
Bir şəhərin
Beş qardaşın xanlığına parçalandı?
O zaman mı bitdi bizim
dilimizin
"sənin", "mənim" qəbəri də?
O zaman mı bitdi bizim
dilimizin
"haralısan" damarı da?!

Şair hislərin haçalanması dedikdə nəyi nəzərdə tutur?

Şair niyə "sən" və "mən" sözlərini qabar hesab edir?

Sənin ləyəm, ulu babam!
Bu məsəli kimdi yazan?
Məndən ötdü!..
Qulağımdan getmir bu səs,
Zərbələri qardaşına,
Sirdaşına ötürən kəs
Elə bil ki bax bu gecə
Qulağımın dibindəcə
Xətainin suqutuna
qəh-qəh çəkdi.
Azərbaycan torpağında
Araz boyda şırım açdı.
Məndən ötdü...
Bunu dedi Şəki xanı.
Bunu dedi Bakı xanı,
Bunu dedi İbrahim xan,
Fətəli xan, Kəlbəli xan...
Qəza ötsün məndən, – dedi,
Ötən kimi "mən-mən" dedi:
"Mən-mən" dedi bir ölkədə
nə qədər xan.
Onlar "mən-mən" deyən yerdə
Sən olmadın, Azərbaycan!
Ey daşlaşan, torpaqlaşan
ulu babam!
Bu günümdən dünənimə uzaqlaşan
ulu babam!
Ayağa dur!
Dəfn etdiyim məsələnin
Baş daşına
Bir təəssüf xatirəsi yazıb, yondur:
Səndən ötən mənə dəydi,
Məndən ötən sənə dəydi.
Səndən, məndən ötən zərbə
Vətən, vətən, sənə dəydi...

Şair nə üçün laqeydliyi vətənə dəyən zərbə hesab edir?

Məmməd Araz

1. Şeirin adına münasibət bildirin. Şair onu nə üçün belə adlandırmışdır?
2. Şair Vətən oğlunu nə barədə düşündürür? O, millətin dərdini və niyyətini necə təqdim edir?
3. Şairin "mən", "mənim", "sən", "sənin", "haralısan" sözlərinə mənfi münasibəti nə ilə bağlıdır? Nə üçün lirik qəhrəmanı "mən" sözünün tələffüzü bu qədər həyəcanlandırır, onda qəzəb hissi doğurur?
4. Siz necə düşünürsünüz, hansı halda *mən* demək olar, hansında demək olmaz? Bəlkə, *biz* sözü daha yaxşıdır?
5. *"Sən" dili əvəzinə, "mən" dili* mətnində valideynə mən dili ilə danışmaq tövsiyə edilir. M.Araz insanları *mən* deməkdən çəkindirir. Nə üçün? Hər iki mətndəki "sən"ləri və "mən"ləri müqayisə aparmaqla təhlil edin.

Necə düşünürsünüz, "mən" sözündən uzaqlaşıb "biz" demək meşələrin qırılmasının, Xəzər dənizinin çirklənməsinin, çinar meşələrinin məhvinin qarşısını alarmı?

Nə zamansa "mən" deyənlər olmasa idi, 20 Yanvar faciəsi, Xocalı faciəsi, Qarabağ faciəsi baş verərdimi? Necə bilirsiniz, baş verən faciələr bizə "biz" olmağı öyrədə bildimi?

Bir olmağa, "biz" olmağa çalışın.
Biz olun ki, sizə əmanət olunan vətənə zərbə dəyməsin.

S.Tahirin birliyə çağırışını xatırlayın.

Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə xalqı bir olmağa çağıran, biz olmağa çağıran çıxışı haqqında məlumat toplayıb fikirlərinizi ümumiləşdirib danışın.

6. *Mən* sözünün ifadə etdiyi məna çalarlarını müəyyənləşdirin.
7. *Qabar* sözünün hansı mənası mətndə işlənən mənaya uyğun gəlir?

- Bədəndə dərinin altında əmələ gələn sulu qabarcıq ?
- Çox sürtünməkdən qalınlaşmış, sərtləşmiş ət təbəqəsi ?
- Su üzündə yağış damcılarından əmələ gələn şişkinlik ?

Sual işarələrinin yerinə aşağıdakı sözlərdən uyğun olanını yazın.

köpük, suluq, döyənək ← Bu sözləri sinonim hesab etmək olarmı?

8. *Dəymək* feilinin mətndəki mənasının həqiqi və ya məcazi olduğunu deyin. Həmin feili aşağıda təklif olunan mənalarda cümlələrdə işlədin. Onların məcazi, yoxsa həqiqi mənada olduğunu əsaslandırın.

toxunmaq _____	xəstələnmək _____
yetişmək _____	qarışmaq _____
görünmək _____	baş çəkmək _____
yıxılmaq _____	qəlbini incitmək _____
eşitmək _____	

faydası olmaq – *Vaxtilə ona böyük köməyi dəymişdi.*

9. *Onlar "mən-mən" deyən yerdə*
Sən olmadın, Azərbaycan! cümləsinin təhlili hansı sxemə uyğundur?
   a) mübtəda, yer zərfliyi, xəbər
   b) yer zərfliyi, mübtəda, xəbər
   c) zaman zərfliyi, mübtəda, xəbər,
   ✓ *Fikrinizi əsaslandırın.*
10. Söz sırası pozulmuş cümlələri seçib düzgün yazın. Cümlələri müqayisə edin. Hansı cümlələrdə fikir daha qüvvətli səslənir?
11. Sizcə, şeirdə ədəbi dil normalarının pozulduğu məqam varmı? Şəhriyarın "Heydərbabaya salam" poemasından tələffüz formasında verilmiş misraları seçib müqayisə aparın. Şeir dilində bu, yol verilə bilən hal hesab olunurmu?
12. Oxuyun. Fonetik, leksik və qrammatik normaların pozulduğu məqamları müəyyənləşdirin.
   1. Qışın soyuq, məşəqqətli bir gecəsi idi. Nə bir işıq görünümür, nə də bir səs eşidilmirdi. (*C.Cabbarlı*)
   2. Qulplu qazanlar həyətdə yan-yana sövkənmişdilər: başı araxçınlı, qolu çırmaxlı məşhur aşbaz usta Rəsul qazanları suynan doldurub, altından od vurub qaynamasını gözləyirdi. (*Ə.Haqverdiyev*)
   3. Mirzə gözlərini açdı:
      – Balalarım yavuğa gəlin, əlinizi mənə verin.
      Oğlanlarının əlini aldı əllərinə.
      – Balalarım, dünyada mən çox ömür etmişəm. Cəmi ömrümü işimdə təmiz olmuşam. (*Ə.Haqverdiyev*)
   4. Ey mənim müsəlman qardaşlarım! Əgər bilmək istəsəniz ki kimin üstünə gülürsünüz, o vaxt qoyunuz qabağınıza aynanı və diqqət ilə baxın camalınıza. (*C.Məmmədquluzadə*)

5. Azərbaycanda qış fəsilini üç hissələrə bölürlər: birincisi dekabrın iyirmi ikisindən yanvarın axrına qədər qırx gün uzanan "böyük çillə" adlanır ki, qışın körpə dövrü sayılan həmin müddətdə soyuq küləklərlə ilk, sulu qar yağır. Sora fevralın iyirmi ikisinədək çəkən "kiçik çillə" gəlir və qışın ən şiddətti, şaxtalı dövrü, yerli ibarə ilə desək "oğlan çağı" hesab olunur. Nəhayət, martın iyirmi iksinə, yəni Novruz bayramına qədər çəkən bir ailıq "alaçarpa" – qışın qoca vaxtı bulutdu-günəşli, küləkli günlərdən ibarət bir növ həftbecarı..." (*S.Dağlı*)
6. Təbrizdən xəbər verildiyinə görə Filadelfiya şəhərindən bir neçə nəfər adam gəlmişlər. (*"Molla Nəsrəddin" jurnalından, 2 iyun, 1906-cı il*)
7. Məlum oldu ki, biz doqquz ayın müddətində otuz doqquz nömrə Molla Nəsrəddin jurnalları yazmışıq və bu otuz doqquz nömrələrin içində min doqquz yüz doxsan doqquz məşədi və kərbəlayıları çəkmişik. (*"Molla Nəsrəddin" jurnalından, 6 yanvar, 1907-ci il*)
8. Bağdakı meyvələrdən doyunca yemək fikrinə düşmüş tülkü xəlifənin adından bir fərman yazıb boğazına taxır. (*"Rəvayətli ifadələr" kitabından*)
9. Lakin it ağacı dişi ilə onun əlindən alıb bir kənara qaçır və orada ağacı yerə tullayıb yenidən qonağın üstünə yüyürür. (*"Rəvayətli ifadələr" kitabından*)

✓ *1-ci cümlənin (12-ci tapşırıq) şəxsə görə növünü müəyyənləşdirin.*

✓ *8-ci və 9-cu cümlələri (12-ci tapşırıq) sintaktik təhlil edin.*

13. Oxuyun. Üslubi səhvləri, orfoqrafik və durğu işarələri səhvlərini düzəldin.

Qədim zamanlarda qoca bir hindu nəvəsinə ibrətli bir həyət hekayəsi danışır.

– Hər bir insanın daxilində iki qurdun döyüşünə bənzər bir mübarizə gedir.

Onlardan biri şəri, paxıllığı, qısqanclığı, eqoizmi, ambisyaları, yalanı və müharibəni, digəri xeyri, sülhü, məhəbbəti, ümüdü, həqiqəti, xeyirxahlığı və sədaqəti təmsil edirlər.

Bu sözlərdən qəlbinin dərinliyinə qədər təsirlənən balaca hindu bir an fikrə daldıqdan sonra babasından soruşur.

– Bəs axırda hansı qurd qalib gəlir?

Qoca hindu güclə hiss olunan təbəssümlə cavab verir.

– Bu mübarizədə hər zaman sənin bəslədiyin qurd qalib gəlir.

✓ *Mətndəki **qurd** sözünün həqiqi və ya məcazi mənada işləndiyini izah edin.*

✓ *Təmsil sözünün daha hansı mənası vardır?*

✓ *Qocanın cavabını necə izah edərdiniz? Bu fikirlə razısınızmı?*

Qəlb kor olduqdan sonra gözün görməsindən nə fayda?

Həzrət Əli

Əgər qəlbdə mərhəmət yoxdursa, insanlara məhəbbət, hörmət, qayğı yoxdursa, bu, qəlbin korluğu deyilmi?!

Əgər insan yalan danışırsa, qarşısındakına və ətrafındakılara paxıllıq edirsə, ziyan vurursa, şər işlər görürsə, bu, qəlbin korluğu deyilmi?!

Çirkin fikirlərlə dolu qəlblər xalqlar arasında əmin-amanlığı pozaraq müharibələri qızışdırıb faciələr törədirsə, törətdiyi əməllərdən utanmayıb tökdüyü qanların çoxluğu ilə "qürur" duyursa, bu, qəlbin korluğu deyilmi?!

Əgər qəlbləri kor olmasa idi, ac gözləri "doydum" desə idi, ermənilər Xocalı faciəsi törədərdilərmi?

Əgər qəlbləri kor olmasa idi, onlara havadar çıxanlar, dəstək olanlar faciələrin, qırğınların, müharibələrin, insan tələfatının qarşısını alardılar.

Əgər qəlbləri kor olmasa idi, mənasız yerə ərazi iddiası ilə çıxış etməz, uşaqlarını saf niyyətlə böyüdər, həqiqəti deyər, onların qəlbində də sevgi toxumu cücərdərdilər.

Əziz yeniyetmələr!

Saf qəlbinizi pisliklərdən uzaq tutun, içinizdə sevgi, mərhəmət, xeyirxahlıq toxumları cücərdin.

Vətəninizi sevin! Torpağınızı sevin! İnsanları sevin!

XOCALI

DÜNYA MƏTBUATINDA

Xocalı soyqırımı amansızlıq və qəddarlıqla, heç bir beynəlxalq hüquq normalarına sığmayan tərzdə, dünya ictimaiyyətinin gözünün önündə törədilmişdi. Faciədən az sonra xarici kütləvi informasiya vasitələrinin nümayəndələri hadisələri gözləri ilə görmək üçün bölgəyə gəldilər, gördüklərindən heyrətləndilər. Onlar Xocalıda törədilən soyqırımı faktını təsdiqləməklə bərabər, ölkələrinin mətbuatında da çıxış etdilər. Dünya dövri mətbuatı isə öz müxbirlərinin Xocalı soyqırımından yazdıqları dəhşətli xəbərləri dərc etməkdə davam edirdi.

The Washington Post

"...Həlak olanların yeddisinin cəsədini bu gün bizə göstərdilər: ikisi uşaq, ikisi isə qadın idi. 120 nəfər Ağdam hospitalındadır. Çoxlarının bədənində şişuclu silah yaraları var idi".

The New York Times

"Erməni əsgərlər yüzlərcə ailəni qırıb-çatdılar. Sağ qalanlar deyirlər ki, ermənilər 450-dən artıq azərbaycanlını güllələmişlər: onların da çoxu qadın və uşaqdır. Yüzlərcə, bəlkə də, minlərcə adam itkin düşmüşdür..."

Le Monde

"Ağdamda olan xarici jurnalistlər Xocalıda qətlə yetirilmiş qadın və uşaqlar arasında başının dərisi soyulmuş, dırnaqları çıxarılmış üç meyit görmüşlər. Bu, azərbaycanlıların təbliğatı deyil, reallıqdır".

14 mart 1992-ci il

ИЗВЕСТИЯ

"Mayor Leonid Kravets: "Mən şəxsən təpədə 100-ə yaxın meyit gördüm: bir oğlanın başı yox idi; hər tərəfdə xüsusi qəddarlıqla öldürülmüş qadın, uşaq, qocalar görünürdü".

13 mart 1992-ci il

FT FINANCIAL TIMES

"General Polyakov bildirdi ki, 366-cı alaydan olan 103 erməni hərbi qulluqçusu Dağlıq Qarabağda qalmışdır".

14 mart 1992-ci il

VALEURS ACTUELLES

"Bu "muxtar region"da erməni hərbi birləşmələri Yaxın Şərqdən gələn ən müasir hərbi texnikaya, o cümlədən vertolyotlara malikdirlər. Ermənilər Qarabağ azərbaycanlılarını qətlə yetirmiş, 100-dən çox müsəlman kəndində qırğın törətmişlər".

14 mart 1992-ci il

İngiltərənin "Frant men nyus" teleşirkətinin jurnalisti (hadisə yerində olmuşdur):

"Xocalıdakı vəhşiliklərə dünya ictimaiyyətinin gözündə heç nə ilə haqq qazandırmaq olmaz".

Bakı, Ankara, İzmir, İzmit, Berlin, Meksika və Hollandiyada Xocalı soyqırımı qurbanlarına abidə qoyulmuşdur.

Ermənistanı işğalçı dövlət kimi tanıyan İslam Konfransı Təşkilatının Uqandada keçirdiyi toplantıda Xocalı faciəsi barədə xüsusi sənəd qəbul etməsi Azərbaycan həqiqətlərinin beynəlxalq aləmdə tanınması baxımından əhəmiyyətlidir. Bu tarixi sənəd beynəlxalq təşkilatlar tərəfindən Xocalıda törədilmiş faciənin dinc əhalinin kütləvi qətliamı, insanlığa qarşı cinayəti kimi tanınmasında ilk addımdır.

İslam Konfransı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş koordinatoru Leyla Əliyeva haqq işimizi müdafiə etmək və işğal olunmuş torpaqlarımızı azad etmək istiqamətində hamılıqla mübarizəyə qoşulmağı vacib sayır:

– Biz davamlı olaraq dünyanın bütün aparıcı dövlətləri ilə bu istiqamətdə iş aparmalıyıq. İlk növbədə, Avropa Birliyinə inteqrasiyanı gücləndirməliyik. Unutmamalıyıq ki, bugünkü dünyada əsas aparıcı güc və təsir mərkəzi məhz Qərbdədir. Ona görə də kompleks iş görməyə ehtiyac var...

Qarabağ həqiqətlərinin, əsasən, Qərb ölkələrində tanınması bizim üçün daha vacibdir.

❖ *Verilmiş materiallardan və soyqırımı haqqında topladığınız məlumatlardan istifadə etməklə Xocalı faciəsi ilə bağlı müzakirə keçirin, təqdimatlarla çıxış edin.*

“Gəncliyin mənəvi tərbiyəsində KİV-in rolu” mövzusunda publisistik məqalə hazırlayın. Bunun üçün:

1-ci addım

Mövzu ilə bağlı material toplanmalıdır.

- Bir həftə ərzində:
  - Hər hansı bir kanalın verilişləri
    və ya
  - gündəlik mətbuat (seçim sərbəstdir) izlənilir.
- Müəyyən qeydlər aparılır:
  - Verilişin və ya mətbu orqanının bu sahədə müsbət və mənfi cəhətləri müəyyənləşdirilir.
- Müəyyənləşdirilən cəhətlər qruplaşdırılır.

2-ci addım

Ümumi təəssürat əsasında ümumiləşdirmə aparılır.

- Faktlar və nəticələr ümumiləşdirilir.
- Sorğu keçirilibsə, onların nəticələri ümumiləşdirilir.

3-cü addım

Tərbiyə haqqında ümumi fikirlər, məqalələr, yazınızda sitat kimi istifadə etmək üçün hikmətli fikirlər, aforizmlər toplanır. Mövzu ilə bağlı Azərbaycan mətbuatının tarixinə də müraciət etmək olar. (Məsələn, “Molla Nəsrəddin” jurnalı)

4-cü addım

Məqalə yazmazdan əvvəl plan tutulur.

PLAN

Giriş hissə

Mövzu ilə əlaqədar bir-iki cümlə ilə tərbiyə, onun formalaşdırılması haqqında ümumi məlumat verilir.

Tərbiyədə əsas amillərdən biri kimi KİV haqqında qısa məlumat verilir.

Əsas hissə

- Toplanılan materialların konkretləşdirilməsi.
- Qruplaşdırılan xüsusiyyətlərin sistemli şəkildə təhlili və təqdimi:
  - *Hər hansı bir televiziya verilişinin bu sahədə müsbət / mənfi cəhəti.*
  - *Mən nəyi çox bəyəndim?*
  - *Mən nəyi görmədim?*
  - *Mən nəyi görmək istərdim?*
  - *Hər hansı bir qəzet və jurnalın bu sahədə müsbət / mənfi cəhəti.*
  - *Mən nəyi çox bəyəndim?*
  - *Mən nəyi görmədim?*
  - *Mən nəyi görmək istərdim?*

Yekun hissə

- Ümumi qənaət.
- İzlədiyim veriliş, kanal, qəzet, jurnal əsasında bu qənaətə gəldim ki, ...
  - *Azərbaycan mətbuatı / televiziyası gəncliyin tərbiyəsində əhəmiyyətli rol oynayır.*
  - *Azərbaycan mətbuatı / televiziyası gəncliyin tərbiyəsində müsbət rol oynayır.*
  - *Azərbaycan mətbuatı / televiziyası gəncliyin tərbiyəsində mənfi rol oynayır.*
  - *Azərbaycan mətbuatının / televiziyasının gəncliyin tərbiyəsində rolu zəifdir.*
- Fikrin əsaslandırılması.

4 DUA EDƏN ƏLLƏR

ORFOQRAFİYA

➤ Mətndə 5-ci abzasdakı mürəkkəb sözləri seçib düzgün yazın.

Bu rəsmin müəllifi 1471–1528-ci illər arasında yaşamış məşhur rəssam Albrext Durerdir...

ORFOEPİYA

➤ Şəkilçiləri orfoepik dəyişikliyə ən çox məruz qalan abzası müəyyənləşdirin.

Rəssamlığa meyli olan Albrext kasıb bir ailədə dünyaya gəlmişdir. Qardaşı Albert də onun kimi rəssamlığa böyük maraq göstərirdi.

Hər ikisi sənət məktəbinə getmək, məşhur rəssam olmaq istəyirdilər. Ancaq kasıb bir ailədə doğulduqları üçün bu, mümkün deyildi. Atasının mədəndə qazandığı pul isə onları güclə dolandırırdı...

Nəhayət iki qardaş püşk atmağı qərara aldılar kim qalib gəlsə oxumağa birinci o gedəcək ikinci qardaş isə mədəndə işləyib onun məktəbdə oxumağına kömək edəcəkdi. Birinci qardaş məktəbi bitirdikdən sonra növbə ikinci qardaşa çatacaqdı.

Qardaşlar püşk atdılar və qalib gələn Albrext oldu. Danışdıqları kimi, Albrext sənət məktəbinə getdi, qardaşı Albert isə mədəndə qalıb işləməyə başladı.

Qısa bir vaxtda Albrext hamının sevgisini qazandı. İndi onu təkcə öz məktəblərində yox, başqa məktəblərdə də yaxşı tanıyırdılar. Nəhayət, Albrext məktəbi birinciliklə bitirib evlərinə qayıtdı. Ailəsi onun gəlişi münasibətilə bütün qonum qonşuları evə dəvət etdi. Hamı ağız dolusu onun uğurlarından danışırdı. Nəhayət, sözü Albrextə verdilər.

O, əvvəlcə ona bu uğurları qazanmaqda kömək edən qardaşına təşəkkür etdi. *Sonra da İndi nöbvə qardaşımındır qoy indi o gedib oxusun Mən isə danışdığımız kimi mədəndə qalıb işləyəcəyəm dedi*

Bu gözəl çıxışdan sonra qardaşı Albert söz aldı və: "Mən sənin sözlərinin səmimiliyinə inanıram. Ancaq, təəssüf ki, artıq bu, mümkün deyil. Çünki mədəndə işlədiyim illərdə əllərim neçə yerdən sınıb".

Aşağıdakı cümlələrdən düzgün hesab etdiyinizi seçib mətnə yerləşdirin:

- İndi bu əllər nəinki şəkil çəkməyə, hətta fırça tutmağa da qadir deyil", – dedi.
- İndi bu əllər nəinki fırça tutmağa, hətta şəkil çəkməyə də qadir deyil", – dedi.

Albrext qardaşının bu sözlərindən çox mütəəssir oldu və ona dünyanın ən məşhur rəssamı olmaqda kömək edən bu əllərin şəklini çəkməyi qərara aldı.

İndi sizin şəkildə gördüyünüz bu əllər, əslində, çoxlarının bildiyi kimi, "Dua edən əllər" yox, rəssam Albrext Durerin qardaşının əlləridir.

Yeri gəlmişkən qeyd edək ki, Albrext Durer özü bu şəkli "Əllər" adlandırmışdı.

"Ailəm" jurnalından, 2009-cu il, №6

1. İki qardaşın bir-birinə olan münasibətinə görə onların ailəsi və ailə dəyərləri haqqında fikir yürüdün.
2. Necə düşünürsünüz, Durerlərin ailəsində "mən", yoxsa "sən" dili hökm sürürdü? Fikirlərinizi mətnə əsasən sübuta yetirin.
3. Hansı qardaşa daha çox üstünlük verdiniz? Niyə?
4. Qardaşların mənəvi keyfiyyətləri barədə nə deyə bilərsiniz? Belə vətəndaşları olan cəmiyyət haqqında nə demək olar?
5. "Dua edən əllər" rəsmini rəssamın daxili aləmi ilə ünsiyyət vasitəsi kimi qəbul etmək olarmı? Niyə?
6. Həyatda uyğun hadisə ilə rastlaşmısınızmı? Əgər məlumatınız varsa, bu barədə kiçik mətn yazıb (üslubu özünüz seçin) qəzetinizdə çap edin.

7. Hansı hikmətli fikir mətnin məzmununa daha çox uyğundur?
   - Sevmək feilindən sonra dünyanın ən gözəl feili yardım etməkdir. (*Berta Sutner*)
   - Kiçiklərin yardımı olmadan böyüklərin müvəffəqiyyəti olmaz. (*Cəmil Səna*)
   - Yaxşı valideynin verdiyi tərbiyəni heç bir məktəb verə bilməz. (*Corc Herbert*)

   ✓ *Əgər hər üç hikmətli fikri seçsə idiniz, hansı məqama görə məzmuna uyğunlaşdırardınız?*
8. Uilyam Balterin "Ailə cəmiyyətin əsasıdır, onu qoruyun: ailənin dağılmasına səbəb olan hər şey cəmiyyətin də dağılmasına gətirib çıxarar" fikrinə münasibət bildirin. Bu hikmətli kəlamı "Sevgi ağacı" mətninin müəllifi N.Ələkbərqızının "Ailə millətin mənəvi tərbiyə ocağıdır" fikri ilə müqayisə edin. Müqayisələrinizi "Dua edən əllər" mətnindəki hadisələrlə əlaqələndirin.

9. Mətndə altından xətt çəkilmiş sözü hansı söz ilə əvəz etsəniz, düzgün olar?
10. *Mütəəssir oldu* mürəkkəb feilini hansı düzəltmə feillə əvəz etsəniz, məzmun dəyişməz?
11. Frazeoloji birləşmələri seçib mənalarını izah edin.
12. *Məşhur* sözü *tanınmış* sözü ilə sinonim ola bilərmi? Fikirlərinizi əsaslandırın.
13. Birinci cümlənin xəbərini əvvəlcə mürəkkəb, sonra düzəltmə feillə əvəz edin. Məna dəyişdimi? Hər üç sözü sinonim hesab etmək olarmı?

14. 1-ci və 2-ci abzasda (səh. 120) hansı cümlədə qrammatik norma pozulub?
15. Fərqləndirilmiş (səh. 120-121) cümlələrdə durğu işarələrini bərpa edin.
16. Mətndəki mürəkkəb cümlələri seçin, onların tabeli və ya tabesiz mürəkkəb cümlə olduğunu deyin. Həmin cümlə tiplərinə uyğun cümlələr yazın.
17. Mətndə çərçivəyə alınmış cümlələri (səh. 120) bir cümlə şəklində elə yazın ki, aşağıdakı sxemə tabe olsun.



✓ *Özünüz də ixtiyari sxem çəkib mətndən həmin sxemə uyğun cümlə tapın.*

18. Mətni oxuyun, tapşırıqları yerinə yetirin.

Stenford Universitetinin əsası dəmiryol maqnatı və ABŞ-ın senatı Leland Stenford və arvadı Ceyn Stenford tərəfindən qoyulmuşdur və onların 1884-cü ildə 16 yaşına çatmamış vəfat edən övladlarının şərəfinə adlandırılmışdır. Universitet tikilib istifadəyə veriləndən sonra Ceyn həyat yoldaşına belə deyir: "Kaliforniyanın uşaqları bizim uşaqlarımız olacaq..."

Ər və arvad Stenfordlar məsləhət almaq üçün Harvarda, prezident Eliotun yanına gedirdilər.

Çox sadə və bəzək-düzəksiz paltar geyinmiş qadın, adi kostyumda olan ər Boston vağzalında qatardan düşdülər və Harvard universitetinin prezidentinin ofisinə yollandılar.

Katib onları başdan-ayağa diqqətlə süzdükdən sonra başa düşdü ki, bu əyalət adamlarının Harvardla bağlı heç bir işi ola bilməz:

– O bütün günü məşğul olacaq.

– Eybi yoxdur, biz gözlərik.

Bir neçə saat ərzində katib onların qəbula düşmək istəyini nəzərə almamış və onların usanaraq çıxıb gedəcəyini gözləyirdi. Ancaq cütlüyün çıxıb getməyəcəyinə əmin olduqdan sonra istəməsə də, məcburiyyət qarşısında qalıb prezidenti narahat etməli oldu:

– Bəlkə, siz onları bir neçə dəqiqəlik qəbul edəsiniz?

Qadınla kişi kabinetə daxil olduqda prezident sərt və özündənrazı görkəm aldı. İlk olaraq qadın ona müraciət etdi:

– Bizim oğlumuz sizin universitetdə cəmi bir il oxudu. O, buranı çox sevir və özünü xoşbəxt hiss edirdi. Təəssüflər olsun ki, bir il bundan əvvəl o, xəstəlikdən vəfat etdi. Biz universitet ərazisində onun adını əbədiləşdirmək istəyərdik.

Prezident qaşbaqağını tökərək acıqlı şəkildə:

– Xanım, – deyə dilləndi, – biz Harvardda təhsil alan və ölən tələbələrə universitet həyətində heykəl qoymağa hazırlaşmırıq. Biz belə etsə idik, həyətdə böyük bir qəbiristanlıq yaranardı.

– Cənab, siz bizi başa düşmədiniz, – qadın kobud münasibətə etiraz etdi. *Biz abidə yox, Harvard üçün yeni korpus tikmək istəyirik.*

Prezident ər-arvadın öz aləmində kasıb hesab etdiyi geyimlərinə baxdı və heyrətlə dilləndi:

– Korpus?! Siz, ümumiyyətlə, belə bir korpusun tikintisi üçün nə qədər pul lazım gələcəyini təsəvvür edirsinizmi? Harvardın bütün binalarının dəyəri 7 milyondan artıqdır!

Qadın bir dəqiqə susdu. Sonra ərinə tərəf çevrilib sakit səslə dedi:

– Məgər universitet tikmək üçün bu qədər az pul lazımdır?! *Bəs onda biz niyə öz universitetimizi tikmirik?*

Kişi təsdiqedici tərzdə başını yellədi. Prezidentin təəccübdən gözləri kəlləsinə çıxmışdı.

Cənab və xanım Stenfordlar sakitcə kabinetdən çıxdılar. *Palo-Altoda, Kaliforniya ştatında onlar oğullarının xatirəsini əbədiləşdirən universitet binası ucaltdılar.*

(Sergey Morev)

✓ *Mətnə ad qoyun.*

✓ *Sözlərin leksik mənalarını fərqləndirib uyğun feillərlə əlaqələndirin.*

abidə →	.....	büst →	.....
barelyef →	.....	heykəl →	.....

✓ *Universitetin prezidentinin jest və mimikalarını nümayiş etdirməyə çalışın. Bu jestlər onun daxili aləmini ifadə edə bilirmi?*

✓ *Mətndə üslubi cəhətdən səhv olan cümlələri müəyyən edib düzgün yazın.*

✓ *Altından xətt çəkilmiş sözləri hansı sözlərlə əvəz etsəniz, etik cəhətdən düzgün olar?*

✓ *Mətndə hansı üsluba aid xüsusiyyətlər özünü göstərir?*

✓ *Fərqləndirilmiş cümlələrdə hansı normanın tələbləri pozulmuşdur? Yerində işlədilməyən sözləri düzgün olanlarla əvəz edin.*

✓ *Mətnin qısa xülasəsini yazın.*

✓ *Vasitəsiz nitqli cümlələri vasitəli nitqə çevirin. Mətndə hansı dəyişiklik baş verəcək?*

✓ *Hansı mürəkkəb adın yazılışında səhvə yol verilmişdir?*

✓ *"Üstümü unlu görüb adımı dəyirmançı qoyma", "Adamı geyimə görə qəbul edib, ağlına görə yola salarlar"* ibrətamiz fikirlərinə münasibət bildirin. Onları mətnin məzmunu ilə əlaqələndirin.

✓ *Mətnin məzmununda dəyişiklik edin. Onun görüşünə gələnləri nəzakətlə qəbul edib yola salan rəhbər obrazı yaradın.*

✓ *Bakıda oğlunun xatirəsini əbədiləşdirmək üçün kim hansı binanı tikdirmişdir?*

19. Oxuyun. Bədii ədəbiyyatda mimika və jestlərin müxtəlif növlərinin söz vasitəsilə təsvirinə diqqət yetirin, onları qruplaşdırın.

✓ *Şifahi nitqinizdə onlardan bir neçəsini əks etdirməyə çalışın.*

1. Vasili ayağa qalxdı və kətili havaya qaldırıb, dəhşət içində baxan növbətçilərdən gözlərini çəkməyərək, güləşməyə hazırlaşan pəhləvan kimi ayağının birini irəli, birini geri qoyub yanakı dayandı (*M.Hüseyn*). 2. Hirsindən burun pərələri qalxıb-enən Mehdi koxa toza batmış papağını çırpıb başına qoydu (*F.Eyvazlı*). 3. Gözlərini yayındırıb heç bir şey görməməyə çalışsalar da, hökmdarın oğlunun sinəsinə əzrayıltək çökdüyünü və vəliəhdin göyərdiyini də görürdülər. Hökmdar tez-tez əlinə güc verdikcə vəliəhdin dişlərini xırçıldatdığını, ağzını açıb, qaraqançır dilini əsdirə-əsdirə xırıldadığını da eşidirdilər (*İ.Hü-*

seynov). 4. Məhəmmədin yaşlı arvadları Fatma xalanın qoluna girmişdilər, amma Fatma xala imkan tapan kimi əlini başına atıb pırpızlaşmış saçını yolurdu, əlini üzünə atıb sifətini cırırdı və ağlamaqdan, vay-şivəndən batmış səsiylə zarıyırdı (*Elçin*). 5. Əlini yelləyə-yelləyə gələn professor başını dik tutmuşdu (*Ə.Hacızadə*). 6. Qocanın qalın çal qaşları düyünlənmişdi, qırışlı sifətindən hiss edirdi ki, nə üçünsə narahatdır (*H.Abbaszadə*). 7. Danışdıqca Qulamın qaşları çatılır, bayaqdan sönmüş kimi görünən xəstə gözləri parlayırdı (*S.Rəhman*). 8. Rafiq əl-qolunu oynada-oynada nədənsə söhbət edirdi (*Ə.Kərim*). 9. Eyvanda arvadını görcək kəlmə kəsmədi, başını yellədi, Sadıflının ayaqqabılarını göstərib sahibinə işarə ilə şəhadət barmağını xirtdəyinə qoydu (*Ə.Məmmədxanlı*). 10. Mustafa qızın tünd-şabalıdı qaşlarının azacıq dartıldığını, uzunsov sifətinin tezcə ciddiləşdiyini gördü (*G.Hüseynoğlu*). 11. Qadının dodaqlarında acı bir təbəssüm duyulurdu (*İ.Hüseynov*). 12. Kərbəlayı Cəfər qırmızı sifətini ovuşdurub hiyləgər gözlərini qıydı (*C.Bərgüşad*).

Mimikanın söz vasitəsilə ifadəsi	Jestin söz vasitəsilə ifadəsi
Qadının dodaqlarında acı bir təbəssüm duyulurdu.	*Rafiq əl-qolunu oynada-oynada nədənsə söhbət edirdi.* .....

✓ *3-cü, 4-cü, 6-cı və 7-ci cümlələrin tabeli və ya tabesiz mürəkkəb cümlə olduğunu müəyyənləşdirib sxemini qurun. "Tabeli və tabesiz mürəkkəb cümlələr bədii, elmi və publisistik üslubda" mövzusunda söhbət aparın.*

20. Azərbaycanın Xalq rəssamı Maral Rəhmanzadə haqqında məlumat toplayın, bir abzası verilmiş aşağıdakı mətni davam etdirin.

Maral hələ kiçik yaşlarından anası Xədicə, atası Yusif və nənəsi tərəfindən ona və bacı-qardaşlarına göstərilən böyük nəvaziş, sevgi əhatəsində böyümüşdü. Millilik isə onun təfəkkürünə təkcə aldığı tərbiyə ilə deyil, həmçinin yaşadığı mühitdən – nənəsinin hanada toxuduğu xalçaları bəzəyən naxışların sehrindən keçmişdi. Bu xalçalardakı kompozisiya quruluşu, naxışların forma və rəng vəhdətinin ecazkar təsir qüvvəsi sonralar Maral Rəhmanzadə yaradıcılığında əbədi olaraq öz izini qoymuşdur.

✓ *Sizcə, yazacağınız mətn hansı üslubda olacaq?*

✓ *Həmin üslubun xüsusiyyətlərini qorumağa çalışın.*

5 MİRZƏ SƏFƏR

(ixtisarla)

ORFOQRAFİYA

Hansı yazılış düzgündür?

- Mətndə çərçivəyə alınmış sözlər (səh. 128)
- Tünd şriftlə verilmiş sözlərdə

ORFOEPİYA

Hansı tələffüz düzgündür?

- [qucaqlıyıb] – [qucaxlıyıb]
- [məda:xilini] – [mə:da:xilini]
- [qardaşlıx] – [qardaşdıx]

1. Mətni oxuyarkən mötərizədə verilmiş sözlərdən uyğun olanını seçib cümlələri tamamlayın.

...Mirzə iştahasız nahar edib yatmaq istədi, hərçi çalışdı, yuxusu gəlmədi. Durub libasını geyinib getdi usta Zeynalın dükanına.

Həmişə sifətindən şad, dili şeirli daxil olan Mirzə Səfər bu dəfə məyus girib, salam verib əyləşdi. Usta Zeynal xəbər aldı:

– A Mirzə, gözümə bikef dəyirsən, nə olub, xeyir ola?

– Xeyir olmamış, nə var. Elə bir qədər bu gün ovqatım təlx olub.

– Söylə görək.

– Nə söyləyim? Həsən ağanın evi başına uçsun, gedib məktəbdə deyib ki, **filankəsin / flankəsin** pulu aşıb-daşır, uşaqlarını öz xərci ilə oxuda bilər. İndi uşaqları göndəriblər üstümə və xəbər veriblər ki, ayın **on beşinədək / on beşinə dək** 40 manat verməsəm, ikisini də məktəbdən xaric edəcəklər. Mənim mədaxilimi bilirsən. Çox çətinliklə onların kitablarını, libaslarını düzəldirəm. Hər yarım ildə 40 manat, ildə 80 manat eləyir. Mən bunu haradan düzəldim? Uşaqlar məktəbdən çıxarılsa, mən vərəmləyib öləcəyəm.

Usta Zeynal Mirzə Səfərə Həsən ağanın yanına getməyi məsləhət (*gördü, bildi*).

Mirzə Səfər neçə dəqiqə usta Zeynalın üzünə baxıb birdən ayağa qalxıb dedi:

– Usta Zeynal, bu nə təklifdir, mənə edirsən? Mən Mirzə Səfər gedib Həsən ağanın ayağına yıxılım? Mən acından ölməyə razı olaram, oğlanlarımın ikisinin də başını kəsərəm, amma gedib Həsən ağa kimi adama yalvarmaram. Qoy uşaqları qovsunlar.

Usta Zeynal bunu eşitdikdə dəzgahın dalından qalxıb gəlib Mirzənin boynunu qucaqlayıb üzündən öpdü.

– Mirzə, mən səni (*sınayırdım, yoxlayırdım*). İndi səndə olan istiqaməti-məcazi aydın görürəm. İndi görürəm ki, sən ağır günündə də gedib heç kəsin ayağına yıxılmazsan. Afərin sənə, Mirzə Səfər! Bu gündən sonra mən malımı, canımı sənin kimi

- Sizcə, şəkil mətnin hansı abzasına daha uyğundur?
- Rəsm işi uyğun bildiyiniz abzası tam əks etdirirmi?
- Şəkildə daha hansı uyğunsuzluq vardır?
- Siz rəssam olsa idiniz, əsərdəki hansı dialoqa uyğun rəsm çəkərdiniz?

dostun yolunda qoyaram. İndi gəl biz bir iş görək. Sənin məişətin ağır keçir, indi bir az da ağırlaşacaq. Mən də ki saatsazlığımla səndən çox qazanmıram. Gəl sənin uşaqlarının oxumasına şərik olaq. Oğlunun birinin xərcini sən çək, o birisininkini də mən çəkim. İldə həştad manat sənin üçün ağır yükdür. Amma qırx manat döy-sındır düzəldərsən. Mənim də gücüm çatar.

Mirzə Səfər usta Zeynalın boynunu qucaqlayıb, başladı üzündən öpməyə. Bir də usta Zeynal baxıb gördü ki, Mirzə Səfərin gözlərindən yaş axır.

– Ağlamaq lazım deyil. Mirzə, sən indiyədək heç kəsdən minnət götürməyibsən. Amma mən sənlə iyirmi ildən artıqdır ki, dostam. Bu mənim qardaşlıq borcumdur. Əmi qardaşı oğluna töhfə verəndə nə olar ki?

...Ayın on beşində Mirzənin oğlanları qırx manat aparıb məktəb haqqı verdilər.

* * *

Mirzə Səfərin oğlanları ikisi də bir ildə məktəbi tamam etdilər. Bu münasibətlə Mirzə bir plov verdi. Məlum ki, qonaqlarının əzizi usta Zeynal idi.

Uşaqlar bir neçə gün dincəldikdən sonra bir axşam Mirzə usta Zeynalı şama dəvət etdi. Çörək yedikdən sonra Mirzə üzünü usta Zeynala tutub:

– Usta Zeynal, bu uşaqlar qurtarıblar, bunları belə qoymaq olmaz, yarımçıqlıqdan fayda olmaz. Mənim bunları ali məktəbdə oxutmağa qüvvəm çatmaz. Sən də indiyədək mənə bəqədri məqdur kömək edibsən. İndi bir tədbir lazımdır.

Usta Zeynal fikrə getdi. Bu halda Mirzənin kiçik oğlu atasına üzünü tutub dedi:

– Ata, ayda on beş manat qardaşıma göndərə bilərsən?

– Yox, oğul, gücüm çatmaz. On manat, bəlkə... Bəs sən?

– Mən bir belə fikir eləmişəm, qardaşım getsin, oxumağa. Mən də burada başlayım dövlətlilərin uşaqlarına dərs verməyə. Qazandığım pulu göndərim qardaşıma. O qurtarıb gələndən sonra da mən gedərəm, o mənə pul göndərər. Bəlkə, mən dərs verməkdən o qədər pul qazandım ki, heç sənin on manatına ehtiyac (*olmadı, qalmadı*).

Bu məsləhəti hamı (*xoşladı, bəyəndi*).

Bir gün Mirzə Səfər Rastbazardan ötərkən qulağına səs gəldi:

– Mirzə Səfər, Mirzə Səfər!

Dönüb gördü ki, onu səsləyən Həsən ağadır, tacir Hacı Qulunun dükanında oturub oradan əl edir.

Mirzə Həsən ağaya tərəf getdi.
– Ağa, nə buyurursan, Hacı Qulu salaməleyküm!

Həsən ağa dedi:

– Mən səni gözaydınlığı verməyə çağırdım, eşitdim, uşaqların məktəbi qurtarıblar, gözün aydın! Şükürlər olsun, gəldikcə ziyalılarımızın sayı artır, onları bir göndər yanıma gəlsinlər, bir söhbət edək.

– Nə üçün gəlsinlər, ağa?

– Necə nə üçün? Məktəb qurtarıblar, ağsaqqala gərəkdirmi bir vizit versinlər. Baxım görüm, nəyə ləyaqətləri var, bir əməlli qulluğa qoyum işləsinlər, sən də bir qədər istirahət elə.

– Ağa, qulluğa qoymaq fikrim yoxdur, istəyirəm, uşaqlarımı ali təhsil almış görüb, gözlərimi yumum... Uşaqların gələcəyinin fikrini mənim özümə vagüzar ediniz...

Mirzə Səfər getdi. Həsən Ağa Hacı Quluya:

– Görürsən, Hacı, xalq nə iayədə qudurub?! Hər qor-qoduq, özünü adam cərgəsinə qoşur. Buna deyən gərək; "Ay qoturun biri, sən neyləyirsən, ali təhsil görmüş oğulu? İki oğlun məktəbi tamam ediblər, çox gözəl, hərəsini bir işə qoy, səni dolandırsınlar". Camaat gəldikcə qudurur. Verdiyi cavaba bax!

Həsən ağa ovqatı təlx qalxıb getdi evinə.

Əbdürrəhim bəy Haqverdiyev

Mirzə Səfərin uşaqlarına verdiyi tərbiyə oğlanlarının bir-birinə olan münasibətində özünü göstərdi. Şübhəsiz ki, oğlanları da öz övladlarını düzgün tərbiyə edəcək və bu, davam edəcək. Onların düzgün davranışı nəinki özlərinə, cəmiyyətə də müsbət təsir göstərəcək. Y.Korçak demişkən, "Övladlarınızın başqasına verəcəyi həyat ən böyük minnətdarlıq qanunu olacaq".

Yaxşılıq, səmimilik, sədaqət, etibar, inam və s. insani keyfiyyətlər də belədir: valideyndən övlada, övladından övladına və beləliklə, cəmiyyətə ötürülür.

Həmçinin pislik də, kobud münasibət də, yaramazlıq da, özündən razılıq da, paxıllıq, riyakarlıq və rəzillik də beləcə özünə kök salır.

Gəlin bütün mənfilikləri rədd edək! Müsbət keyfiyyətlərə hər yerdə qapı açaq. Onda cəmiyyət də, dövlət də var olar. Onların varlığı hər birimizin var olması deməkdir.

Fikrə münasibət bildirin.

Ot öz kökü üstə bitər atalar sözü ətrafında müzakirə aparıb təqdim olunan yazı ilə əlaqələndirin.

2. Dürer qardaşları ilə Mirzə Səfərin oğlanlarını müqayisə edin.
3. Həsən ağanın daxili aləmi hansı obraza münasibətdə və hansı abzasda daha qabarıq açılır?
4. *Yaxşı dost qardaşdan irəlidir* fikrinə münasibət bildirin və izah üçün mətnə müraciət edin.
5. Hekayədə bədən dilinin elementlərinə rast gəldinizmi? Hansı səhnələrdə?
6. Mətnin ikinci hissəsində işlənmiş atalar sözünü tapın, onu eyni mənalı məsəl ilə əvəz edin. Atalar sözü və məsəllərin oxşar və fərqli cəhətlərini deyin.
7. Mətnin 1-ci hissəsində hansı nitq etiketi işlənmişdir? Həmin etiketin antonimini müəyyənləşdirin. Sizcə, Mirzə Səfərin Həsən ağanın ünvanına işlətdiyi ifadə nəyin göstəricisidir: Mirzə Səfərin kobud danışıq tərzinin, yoxsa Həsən ağanın xarakterinin?
8. Əsərdəki obrazların danışıq tərzini cədvələ əsasən doldurun.

obrazlar	**danışıq tərzi**
Mirzə Səfər	*dili sadədir, xalq danışıq dilindədir, bəzən kobud ifadələrdən istifadə edir, ...*
Usta Zeynal	
Həsən ağa	

9. Müəllifin dili ilə obrazların dili arasındakı fərqli xüsusiyyətlərə diqqət yetirin.

10. M.Ə.Sabirin ixtisarla verilmiş “Oxutmuram, əl çəkin” satirasını oxuyun. Sabirin şeirindəki tipi – Ata obrazı ilə Mirzə Səfəri müqayisə edin. Sizcə, onları hansı baxımdan müqayisə etmək lazım gələcək?

Oğul mənimdir əgər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

Gərçi bu bədbəxt özü elmə həvəskardır,
Kəsbi-kamal etməyə səyi dəxi vardır,
Məncə, bu işlər bütün şiveyi-küffardır,
Dinə zərərdir, zərər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

Bəs ki, uşaqdır hələ, yaxşı-yaman sanmayır,
Elmin əbəs olduğun anlamayır, qanmayır,
Sair uşaq kimi hər sözə aldanmayır,
Eyləyir ömrün hədər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

Eyləmərəm rəhm onun gözdən axan yaşına,
Baxsın özündən böyük öz qoçu qardaşına,
Ölsə də, verməm riza şapqa qoya başına,
Kafir ola bir nəfər, oxutmuram, əl çəkin!
Eyləməyin dəngəsər, oxutmuram, əl çəkin!

✓ *Milli ideologiyaya xidmət edən sənətkarların yaratdığı Ata obrazlarının eyni dövrdə yaşamasına baxmayaraq, təhsilə fərqli münasibətləri nə ilə bağlı idi?*

Ata obrazı

M.Ə.Sabirdə	Ə.Haqverdiyevdə
1.	1.
2.	2.
3.	3.

11. Müqayisə əsasında XX əsrin əvvəllərində təhsil, məktəb məsələlərinə olan fərqli münasibətləri müəyyənləşdirin.

12. *Mədaxil* sözünün antonimini tapın.
13. Məzmunu saxlamaqla cümlələrdə altından xətt çəkilmiş sözləri uyğun olanlarla əvəz edin.
    - Mirzə iştahasız nahar edib yatmaq istədi, hərçi çalışdı, yuxusu gəlmədi.
    - İndi səndə olan istiqaməti-məcazi aydın görürəm.
    - – Görürsən, Hacı, xalq nə iayədə qudurub?!
14. *Ovqatım təlx olubdur* frazeoloji birləşməsinin mənasını izah edin.
15. Mətndə (səh. 128) altından xətt çəkilmiş sözü hansı mürəkkəb feillə əvəz etsəniz, daha düzgün və dəqiq olar?

16. Mətndə (səh. 128) altından xətt çəkilmiş cümlələrin hər ikisində müasir dilimiz üçün eyni səhvi müəyyənləşdirin. Səbəbini izah edin.
17. Mətndə (səh. 126) fərqləndirilmiş cümlələri düzgün yazın.
18. Mətndən müəllif nitqini seçib qrammatik normanın tələblərinə uyğun yazın. Sonra cümlələri müqayisə edin. Nə müşahidə etdiniz?
19. "Mən Mirzə Səfər..." cümləsində (səh. 126) *mən* sözündən sonra vergül işarəsinə ehtiyac varmı? Fikirlərinizi əsas gətirməklə sübut edin.
20. Mətndə (səh. 128) çərçivəyə alınmış hissədə durğu işarələrinin işlənməsində hansı səhvə yol verilib?
21. Göy rəngdə verilmiş cümlələrdə hansı bədii ifadə vasitəsi vardır və bu nəyə xidmət edir?
22. Çərçivəyə alınmış *ki*-dən sonra vergülün qoyulub-qoyulmayacağını müəyyənləşdirin.
23. Mətndə çərçivəyə alınmış hissədə (səh. 126) hansı cümlələrdə bədii üsluba məxsus cəhətlərdə səhvə yol verilmişdir?
24. Hekayənin bədii üslubda olduğunu əsaslandırın.
25. Hekayədə quruluşuna görə cümlənin hansı növlərindən daha çox istifadə olunmuşdur?
26. "Dua edən əllər" mətni ilə "Mirzə Səfər" hekayəsinin dilini müqayisə edin, aşağıdakı hökmlərdən birini seçib müzakirə aparın, fikirlərinizi əsaslandırmaqla hökmü təsdiq və ya inkar edin:
    - Hər iki mətnin dili sadə, aydın və anlaşıqlıdır.
    - "Mirzə Səfər" hekayəsində söz sırasının və ədəbi normaların tələblərinin qismən pozulması halları müşahidə olunur. Bu da təbiidir, çünki hekayənin dili xalq danışıq dilinə əsaslanır.
    - "Dua edən əllər" mətni dilinin axıcılığı və sadəliyinə görə "Mirzə Səfər" hekayəsindən əsaslı fərqlənir.

27. “Mirzə Səfər” hekayəsindən istifadə etməklə:
   • elmi üslubda; • publisistik üslubda mətn tərtib etmək olarmı? Əgər olarsa, bunun üçün nə etmək lazımdır?
28. Mətndə qırmızı rəngdə verilmiş cümlələrdə üç nöqtə işarəsinin işlənməsinə diqqət yetirin. Səbəbini izah edin.

Üç nöqtə durğu işarəsidir. Ondan aşağıdakı hallarda istifadə olunur.

Fikrin bitmədiyini bildirmək məqsədilə cümlənin sonunda üç nöqtə qoyulur.

Cümlənin əvvəlində qoyulan üç nöqtə mətnin müəyyən hissəsinin ixtisar edildiyini bildirir.

Yüksək hiss-həyəcanla deyilən nəqli cümlələrdən sonra üç nöqtə qoyulur:

On manat, bəlkə... (*Ə.Haqverdiyev*)

Sitatlar da ixtisarla verildikdə onlardan əvvəl və sonra üç nöqtə qoyulur.

29. Cümlələri oxuyub durğu işarələrinin işlənməsinə diqqət yetirin.
   • Bu fikir başqasını çəkib gətirdi: quyu başındakı söhbəti, Muradın əbəs təşəkkürünü, öz xəcalətini... (*“Ulduz” jurnalı*)
   • Uşaqlarının çörək pulunu Nəcəf bəyə uduzan Qəhrəman bəyin arvadı Nazlı xanıma o belə cavab verir: “...İstər sənin uşaqlarının gözlərindən yaş tökülməyə, qan tökülə, yenə məndən sənə pul yoxdur”. (*Ə.Haqverdiyev*)
   • Ə.Haqverdiyev teatrla ilk tanışlığı haqqında yazır: “1884-cü ildə, 14 yaşında ikən bir dəfə teatra getdim. Mirzə Fətəlinin “Xırs quldurbasan” pyesini oynayırdılar... Bir də baxdım ki, müəllimim Yusif bəy əynində çuxa... əlində tüfəng səhnədə dayanıb, igidlikdən dəm vurur”. (*Seçilmiş əsərləri*)
   • A... Doğrudanmı? Təbrik edirəm, Sədəf! (*İ.Əfəndiyev*)
   • Ah... Kaş həmişə yay ayı bizə belə xoş xəbərlərlə gələydi!.. (*S.Qədirzadə*)
   • Hə... Belə de... Yaxşı, bəs sən niyə belə əl-ayağa düşmüsən? (*İ.Əfəndiyev*)
   • – Ay qız, nə tapmısan bu kitabdan, ayrıla bilmirsən?
     – ...
     – Safura, səninlə deyiləm, çayını bayaqdan iki dəfə dəyişmişəm. (*Həbibə*)
   ✓ *Sizcə, sonuncudan əvvəlki cümlədə üç nöqtə işarəsi nə üçün işlənmişdir?*
   ✓ *Verilmiş cümlələrdən istifadə etməklə üç nöqtə işarəsindən daha hansı hallarda istifadə etmək lazım gəldiyini müəyyənləşdirib qayda qrafasına əlavə edin.*
30. Mətni diqqətlə oxuyun. İlk baxışdan adi görünən bir mətndə hansı hikmətlərin gizləndiyini aydınlaşdırın və müzakirə təşkil edin. İtirilən hər durğu işarəsi insanın hansı mənəvi keyfiyyətlərinin göstəricisi ola bilər?

Bir gün insan vergülü itirdi. O zaman fikirləri bir-birinə qarışdı, mürəkkəb cümlələr qurmaqdan qorxdu. Bəsit cümlələr yarandı. Cümlələr bəsitləşdikcə fikirlər də bəsitləşdi.

Sonra o, nöqtəni itirdi. Fikirləri uzandıqca uzandı. İfadə edə bilmədi özünü insan...

Başqa bir gün nidanı itirən insan səs tonunu dəyişdirmədən danışmağa başladı, monotonlaşdı. Ətrafda baş verən heç bir şey onda kiçik həyəcan belə doğura bilmədi. Sevincini, qəzəbini – bütün duyğularını itirdi.

Sual işarəsini itirdiyi andan sual verməyi unutdu. Hər şeyi olduğu kimi qəbul etmək məcburiyyətində qaldı: nə dünya, nə insanlar, nə də həyat onu maraqlandırmadı.

Daha sonra insan iki nöqtəni itirdi və heç nəyi aydınlaşdırmağa ehtiyac duymadı.

Ömrünün sonunda əlində ancaq dırnaq işarəsi qalmışdı onun da içində başqalarının fikirləri

✓ *Son cümlədə hansı durğu işarəsi qoyulmalıdır? Niyə?*

✓ *Mətndən çıxış edərək durğu işarələrinin yazılı və şifahi nitqdə əhəmiyyəti haqqında danışın. Şifahi nitqdə durğu işarələrini nə əvəz edir?*

✓ *Mətnin üslubunu müəyyənləşdirin.*

✓ ***İtirilən hər durğu işarəsi insanın hansı mənəvi keyfiyyətlərinin göstəricisi ola bilər?*** *sualına cavabınız hansı üslubda olacaq?*

✓ *Bəs durğu işarələri haqqında elmi üslubda mətn yazmaq üçün nə etməlisiniz?*

31. Mətni oxuyun. Danışıq dili ünsürlərini və nitq etiketlərini göstərin.

Müharibə başlamazdan əvvəl arvadlar ona görə hamıdan çox bizim evə yığışıb bişir-düşür edirdilər ki, atam çox zaman səfərdə olurdu, evdə kişi xeylağı yox idi, heç kimdən çəkinmədən geninə-boluna nə qədər söhbət eləmək istəyirdilər, eləyirdilər.

Səfurə xala oxlov ilə kündəni yaya-yaya deyirdi:

– Eh, elə yerlər var dünyada ki, oralarda elə dağlar var ki, day nə deyim? Eynulla deyir ki, o dağlarda buz kimi bulaqlar var e, ağəz, bir parç götürüb içirsən, adamın bütün dərdini-sərini yuyub aparır...

Həmişə işin yüngülündən yapışan Məşədixanım xala tavada qızarmış qutabları üst-üstə boşqaba yığa-yığa deyirdi:

– Mənə lazımdı e, bir parç su, çəkim başıma, bəlkə, mən də bir gün görüm!

Firuzə xala düşbərələri bükə-bükə deyirdi:

– Var elə yerlər, əlbəttə, var, nöşün yoxdu? Hayıf deyil ki, Moskvada evləri indi elə tikirlər ki, day pilləkənləri piyada qalxmırsan. Minirsən maşına, səni qaldırır yuxarı. Özü də pulsuz e, ağəz!..

Nisə xala qutab üçün yayılmış xəmirləri nəlbəki boyu girdə-girdə kəsə-kəsə deyirdi:

– Eh, hər şey asılıdı ondan ki, harda səninçün yaxşı keçir. Harda yaxşı keçir sənin-çün, ora da yaxşı yerdi!..

Nöyüt piltəsinin yanında oturub çuqun tavadakı qutabları bir-bir o üz-bu üzə çevirə-çevirə qızardan anam deyirdi:

– Eh, Ağakərim Rusetin şəhərlərindən, kəndlərindən elə şeylər danışır ki, vallah, mən lap mat qalıram!.. Deyir ki...

Xanım xala xəmirdən təzə kündələr kəsə-kəsə anamın sözünü ağzında yarımçıq qoyurdu:

– Ayıb döyül sizə? Nöş naşükürlük eləyirsiz? Nöş şadlığınıza şıllaq atırsuz? Nöş deyinirsüz, ağəz? Bura nöş belənçinə pis olub sizinçün?

Xanım xala qalın qaşlarının altından o zəhmli gözləri ilə bir-bir Səfurə xalaya, Məşədixanım xalaya, Firuzə xalaya, Nisə xalaya, anama baxırdı və anamgil də o saat susurdu, bir

söz demirdi, bir müddət beləcə lal-dinməz işlərini görürdülər, çalışırdılar ki, Xanım xalaya baxmasınlar, axırda Məşədixanım xala özünü saxlaya bilmirdi, araya başqa bir söz atırdı:

– Vallah, Muxtar yaxşı adamdı, kim nə deyir desin! Kubra qısırdı, özü də o cür xəstə, amma Muxtar atmır onu... Vallah, Muxtarın yerinə kim olsa, gedib özünə başqa bir arvad alar, oğul-uşaq sahibi olar... Nolar qulaqları balaca olanda?

Amma Xanım xala bu dəfə də Məşədixanım xalanın üstünə çımxırdı:

– Yaxşıdı, pisdi, özü bilər, bizə nə? Sizün Muxtarın qulaqlarında nə işiniz var, ağəz?

Bundan sonra daha arvadların danışmaq həvəsi tamam qaçırdı.

(Elçin)

32. Danışıq dili üçün səciyyəvi olan dil vahidlərinin altından xətt çəkin və onları aşağıdakı cədvəl əsasında qruplaşdırın.

1. Coşqun, həşəmətli sellərin qəlbi dağların dibindən qoparıb dığırlaya-dığırlaya gətirərək çaylağa səpələdiyi iri daşların arxasında səngərləndilər (*F.Eyvazlı*). 2. Beləcə bir üçlük onlar üçün o qədər öyrəncəli olmuşdu ki, evlərinə başqa bir adam gələndə özlərini naqolay hiss edirdilər (*Elçin*). 3. Bu heyndə küçədən açıq akoşkalardan bir at kişnəməsi qalxdı (*C.Məmmədquluzadə*). 4. Rza bəy, sizin üçün eyib olsun ki, bu cür axmaq sözə inanıb mənim qapıma gəlirsiniz (*Ü.Hacıbəyli*). 5. Gecə külək şiddətlənirdi və qarı qovzuyub havada sovururdu (*Y.V.Çəmənzəminli*). 6. Yazıq qız skuçat edir, çağırır, vot, kstati, istəyirsiniz mən onu sizinlə tanış edim, çox yaxşı krosivaya barişna! Nu, bir az atvlekasiya olar (*T.Ş.Simurq*). 7. Mərdimazar olmasaydı, indi iki yuxu almışdıq (*İ.Şıxlı*). 8. Sonra yaxınlaşıb qapını usdufca vurdu (*İ.Əfəndiyev*). 9. Yazığa bax ha, hər gecə şeytana papış tikir, sənin də ona yazığın gəlir (*Ə.Məmmədxanlı*). 10. Bir dəfə nöşün olur, ağəz, elə düşüb dükanda qalmışdı ki (*G.Hüseynoğlu*). 11. Görüm sən komissarsan, upolnomoçennisən, nəsən? (*C.Cabbarlı*) 12. Pardon, yoldaşlar. Pardon... İşləmək olar, ancaq... İşin içində mıtıryal var (*M.İbrahimov*). 13. Gorbagor məni vaxtında oxutsaydı, indi sənin kimilərə möhtac qalmazdım (*S.Rəhman*). 14. "Tüllab" bizim məhəllədə söyüş idi və əlbəttə, mən bilirdim ki, bu, biədəb bir söz deyil, çünki böyüklər də hirslənəndə bizim yanımızda bu sözü ağızlarından çıxarırdılar (*Elçin*). 15. "Qıç-qıç jersə" də təzə dəb düşmüşdü (*Ə.Cəfərzadə*).

Dialektizmlər	Vulqarizmlər	Varvarizmlər
(bədii əsərdə işlənən dialekt sözlər)	(kobud söz və ifadələr)	(bədii əsərdə işlənən alınma sözlər)

İnsanların gündəlik həyatda, ailədə, istehsalatda istifadə etdikləri dil ədəbi dilin məişət üslubuna aiddir.

Məişət üslubu ancaq şifahi şəkildə mövcud olur. Bu üslubun əsas əlaməti sərbəstlik və təbiilikdir. Ancaq bu o demək deyil ki, məişət üslubunda şəxs istədiyi kimi danışa bilər, hər söz və ifadəni işlədə bilər. Digər üslublar kimi, məişət üslubu da ədəbi dilin qayda-qanunlarına tabe olmalıdır.

33. Mətni oxuyub məzmununa münasibət bildirin. Aşağıdakı tapşırıqları yerinə yetirin.

✓ *Mətndə məişət üslubuna xas olan xüsusiyyətləri müəyyənləşdirin.*

✓ *Fərqləndirilmiş cümlələrdə durğu işarələrini düzgün qoyun.*

✓ *Mətndən hansı faktları öyrənə bildiniz?*

✓ *Vasitəsiz nitqli bir neşə cümləni vasitəli nitqə çevirin.*

✓ *ərçivəyə alınmış sözləri uyğun sözlərlə əvəz edin.*

1500-cü ilin yayında on altı yaşlı İsmayıl Səfəvi yeddi minlik qoşunla Ərzincandan Şirvana sarı yeridi. Əynində zərli naxışlarla tikilmiş paltar, başında daş-qaşa tutulmuş qırmızı çalma var idi. Kol-koslu çöllükdə ucsuz-bucaqsız karvan kimi düzülmüş üstüörtülü arabalar, yüklü qatırlar, atlar, dəvələr səs-küy, bağırtı içində bütün günü yol gedirdi. Ordu Tərcana elə bir gündə çatdı ki, iyirmi yeddi il əvvəl həmin gün İsmayılın ana babası Uzun Həsən burada türk sultanı II Məhəmmədə uduzmuşdu. İyirmi yeddi il keçməsinə baxmayaraq, çöldə hələ də saysız-hesabsız insan və at sümükləri, paslanmış qılınc-qalxan qırıqları tökülüb qalmışdı. Cavan Şeyx bu qəbirsiz qəbiristanlıq qabağında susub dayanmışdı.

Babam bütün şahlara qalib gəldi taxt aldı səltənət qurdu amma yeniçərlər qabağında dura bilmədi Kim bilir bu məğlubiyyət olmasaydı Ağqoyunlu dövlətinin bayrağı haralarda dalğalanacaqdı Bəs mənim başıma nə gələcək Elimi obamı düşmən qılınclarından vahiməsindən qurtara biləcəyəmmi Yoxsa mənim də taleyim atamın babamın qardaşımın taleyi kimi olacaq

İsmayıl başı sinəsinə çökmüş Hüseyn bəyə sarı çönüb:

– Lələ, – dedi, – sən babamı görmüşdün?

– Hansı babanı, başına dönüm?

Lələ bir an susub dərhal da cavab verdi:

– Xeyr, görməmişəm. Amma haqqında çox eşitmişəm. Allah onun türbəsini həmişə nurlu eləsin.

...Qəfil hücumdan ehtiyat edən Bayram bəy iki yüz atlı ilə xeyli qabaqda gedirdi. Həm də Kürü keçmək üçün körpü axtarırdı. İki gün əvvəl ona tapşırıq verilmişdi:

– Kür boyu gəzərsən. Keçid tapsan da, tapmasan da, iki günə kimi bizə xəbər yetirərsən. Əgər tapsan, nəyin bahasına olursa-olsun, biz gəlincə qoruyarsız.

Bayramın iri, qara gözləri yerindən oynamışdı:

– Təki körpü olsun, fələk də gəlsə, məndən ala bilməz.

Hüseyn bəy də öz məsləhətini vermişdi:

– Kəndlərdə düşərsiniz. Nə qədər bacarsaz, gecələr yol gedərsiz. Səfəriniz nə qədər gizlin qalsa, o qədər yaxşıdır. Düşməni ürküdüb ayıq salmayın.

...Bayram bəy körpü tapmamış, bərə düzəltməyi qərara almışdı. İsmayılı görəndə: "nə körpü, nə də keçid tapa bildim", – deyə günahkar kimi başını aşağı salmışdı.

İsmayıl üzünü arxasında dayanan qoşuna sarı çevirib əli ilə Kürü göstərdi:

– Bir çarə tapıb keçməliyik. Yasar bərk əl-ayağa düşüb. Geciksək, uduzacayıq, lələ.

Kür dəli bir nəriltiylə axır, sanki ağzını açıb qurban istəyirdi. Nəhayət, sükutdan yorulmuş lələnin boğuq səsindən qızılbaş əmirlərinin özləri belə diksindi:

– Söz sizindir, ey Vətən oğulları!

(Əlisa Nicat)

4-cü BÖLMƏ

MİLLİ İRSİMİZ

- “Tarix və Mədəniyyət Abidələrinin Qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu
- Vatikandan gələn var
- Əsir ağacın hekayəti
- Azərbaycan mədəniyyət inciləri Fransada
- Bahar nəğmələri
- İldırımlı yollarla
- Azərbaycanın milli geyimləri

Hər saxsı parçası, hər məzar daşı,
Nəsildən nəsilə bir yadigardır!

Səməd Vurğun

Biz öz milli dəyərlərimizlə fəxr etməliyik. Bizim milli dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır. Milli dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz... Biz heç vaxt öz milli dəyərlərimizi unutmamalıyıq. Onu yaşatmaq, ondan bəhrələnmək, ruhlanmaq həyatımızın əsas istiqaməti, gələcək işlərimizin zəmanətidir.

Heydər Əliyev
Ümummilli lider

- Bölməni oxuyarkən ilk növbədə onun epiqrafına münasibət bildirin. Ümummilli liderin tövsiyələrini təhlil edib özünüz üçün nəticə çıxarın.

- Nə üçün Ümummilli lider milli dəyəri olmayan milləti həqiqi millət hesab etmir?
- Milli-mədəni irsimizi qorumaq üçün nə etməliyik?
- Sizcə, milli-mədəni irsimizin dilimizlə hansı bağlılığı vardır?
- Dilin funksiyalarını xatırlayın, suala cavab verməyə çalışın.

1 "TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN QORUNMASI HAQQINDA" AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

18 Aprel Beynəlxalq Abidələr və Tarixi Yerlər Günüdür. UNESCO-nun təsis etdiyi Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü Azərbaycanda da qeyd edilir.

Bu Qanun tarix və mədəniyyət abidələrinin qorunması, öyrənilməsi və onlardan istifadə ilə bağlı münasibətləri tənzimləyir.

I FƏSİL. Ümumi müddəalar

Maddə 1. Tarix və mədəniyyət abidələrinin qorunması

Azərbaycan Respublikası Konstitusiyasının 77-ci maddəsinə görə tarix və mədəniyyət abidələrini qorumaq hər kəsin borcudur.

Tarix və mədəniyyət abidələri xalqın milli sərvətidir.

Dövlət tarix və mədəniyyət abidələrinin qorunmasına təminat verir, onların elmi tədqiqi və təbliği üçün zəruri olan qurumların yaradılmasını, fəaliyyətini və inkişafını təmin edir, abidələrdən səmərəli istifadə üçün şərait yaradır.

Azərbaycan Respublikasının dövlət sərhədinin sərhədboyu zona və sərhədboyu zolaqlarında, silahlı münaqişələr zamanı döyüş əməliyyatları zonalarında, hərbi qurumların ərazilərində istifadəsində olan torpaq sahələrində yerləşən daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir.

Maddə 2. Tarix və mədəniyyət abidələrinin anlayışı və təsnifatı

Tarix və mədəniyyət abidələri (bundan sonra – abidələr) arxeoloji və memarlıq obyektləri, etnoqrafik, numizmatik, epiqrafik, antropoloji materiallar, tarixi hadisə və şəxsiyyətlərlə bağlı olan bina, xatirə yerləri, əşyalar xalqın dini əqidəsi ilə bağlı dəyərlərdir.

Abidələr daşınar (səyyar) və daşınmaz (stasionar) ola bilər. Daşınar abidələr muzeylərdə, arxivlərdə, fondlarda, sərgilərdə və digər münasib yerlərdə, daşınmaz abidələr əksər hallarda arxeoloji və memarlıq abidələri olmaqla olduğu və inşa edildiyi yerlərdə qorunur.

Bu Qanunda istifadə edilən anlayışlar aşağıdakı mənaları ifadə edirlər:

a) arxeoloji abidələr – insanın fəaliyyəti ilə əlaqədar yer altında olan maddi mədəniyyət nümunələri, o cümlədən ibtidai insan düşərgələri və yaşayış məskənləri, qədim qəbiristanlar, müdafiə sistemləri və istehkamlar, ziyarətgahlar, hər

cür qədim əşyalar, dini və xatirə abidələri, qaya və daşüstü təsvirlər və yazılar, qədim mədən istismar izləri, əmək alətləri, istehsalat kürələri, qədim yollar, körpü qalıqları, arxlar, ovdan və kəhrizlər, su kəmərləri, kürəbəndlər və s.;

b) **memarlıq abidələri** – öz həcm-plan həllini kifayət qədər saxlayan qurmalar, müxtəlif təyinatlı memarlıq-inşaat binaları, yardımçı obyektlər, mühəndis kommunikasiyaları; məskənsalma (şəhərsalma) abidələri; ərazisinin əksər hissəsi memarlıq, tarixi-mədəni sənətkarlıq abidələri və tikililər ilə tutulan, ənənəvi məhəllələrə bölünən, bəzən də qala divarları ilə əhatə edilən, küçə şəbəkəsini və mühəndis kommunikasiyalarını qismən saxlayan yaşayış məntəqələri, bağ-parklar, xiyabanlar, incəsənət nümunələri; yeni yaranmış memarlıq abidələri; öz həcm-plan, bədii-estetik, istismar-funksional və texniki-konstruktiv həllinə görə uzunömürlü memarlıq binaları və qurmaları; kiçik memarlıq formaları; monumentlər, obelisklər, fəvvarələr, şəlalələr, bulaqlar, hovuzlar, köşklər və ərazidə xüsusi mövqe tutan başqa yaradıcılıq obyektləri;

c) **tarix abidələri** – cəmiyyət və dövlət tarixi ilə, müharibə və milli azadlıq hərəkatı ilə, elm və texnikanın inkişafı ilə xalqın həyatındakı mühüm tarixi hadisələrlə bağlı dəyərlər, dövlət xadimlərinin və hərbi xadimlərin, Sovet İttifaqı Qəhrəmanlarının, Milli Qəhrəmanların, görkəmli elm və incəsənət xadimlərinin həyatı ilə bağlı qurmalar, mənzillər, xatirə yerləri, sənədlər və əşyalar, etnoqrafik abidələr – xalqın maddi, mənəvi, ideoloji, sənətkarlıq və təsərrüfat həyatını özündə əks etdirən qurmalar və əmək alətləri, əşyalar, epiqrafik abidələr – üzərində yazılar olan müxtəlif daş, gil, ağac və metal nümunələri;

ç) **sənədli abidələr** – rəsmi dövlət orqanlarının aktları, qədim əlyazmaları, nadir çap əsərləri, arxivlər, o cümlədən fono, foto və kino arxivlər;

d) **incəsənət abidələri** – tarixi və estetik dəyəri olan bədii, təsviri, dekorativ-tətbiqi sənət nümunələri;

e) **qoruqlar** – tarix və mədəniyyət üçün böyük əhəmiyyəti olan, dövlət tərəfindən mühafizə edilən ərazilər və ya məskənlər;

ə) **abidələrin mühafizə zonası** – abidələrin görkəminə xələl gətirməmək məqsədilə onların yerləşdiyi sahənin ətrafında abidənin xarakterindən asılı olaraq müəyyən edilən əlavə tənzimləmə zonası.

III FƏSİL. Abidələrin qorunmasının dövlət təminatı

Maddə 9. Abidələrin qorunması, öyrənilməsi, bərpası və konservasiyasının maliyyələşdirilməsi

Abidələrin qorunması, öyrənilməsi, bərpası və konservasiyası dövlət büdcəsindən və yerli büdcələrdən ayrılan vəsaitlər, fiziki və hüquqi şəxslərin maliyyə yardımları və ianələri hesabına maliyyələşdirilir.

Maddə 10. Abidələrin toxunulmazlığı

Abidələrin bədii-estetik görkəminin dəyişdirilməsi, uçurulması və onlar üçün təhlükə yarada biləcək təmir, inşaat, təsərrüfat və digər işlərin aparılması qadağandır.

Maddə 12. Qoruq sərhədi daxilində və mühafizə zonalarında dövlət əhəmiyyətli inşaat və mühəndis kommunikasiya işləri görülərkən abidələrin qorunması

Qoruq sərhədi daxilində və mühafizə zonalarında abidələr üçün təhlükə yarada biləcək hər hansı işlər müvafiq icra hakimiyyəti orqanının qərarı ilə qabaqlayıcı tədbirlər görülməklə həyata keçirilə bilər. Həyata keçirilən təhlükəsizlik tədbirləri inşaat işlərini aparan subyektin vəsaiti hesabına maliyyələşdirilir.

Abidələrə yaxın olan və ya onların mühafizə zonasından keçən yol sahələrində nəqliyyat vasitələrinin hərəkəti abidələrin qorunması üçün təhlükə yaradarsa, müvafiq icra hakimiyyəti orqanı onların hərəkətini məhdudlaşdıra və ya qadağan edə bilər.

Maddə 13. İnşaat və digər təsərrüfat işləri görülərkən aşkar edilən abidələrin qorunması

İnşaat və digər təsərrüfat işləri görülərkən abidə aşkar edilərsə, dərhal işlər dayandırılmalı, bu barədə müvafiq icra hakimiyyəti orqanlarına və Azərbaycan Milli Elmlər Akademiyasına məlumat verilməlidir. Bu halda inşaat və digər təsərrüfat işləri Azərbaycan Milli Elmlər Akademiyasının və mütəxəssislərin rəyi əsasında müvafiq icra hakimiyyəti orqanının icazəsi ilə davam etdirilə bilər.

İnşaat və digər təsərrüfat işləri tarixi və arxeoloji əhəmiyyət kəsb edən zonada aparılırsa, həmin ərazi əvvəlcədən mütəxəssislər tərəfindən nəzərdən keçirilir və abidələrin ilkin tədqiqi təmin edilir. Müvafiq icra hakimiyyəti orqanı həmin işlər aparılan yerdə öz nümayəndəsinin və mütəxəssisin iştirakını təmin edir.

Maddə 15. Dəfinələrdə aşkar edilmiş və ya tapılmış abidələrin müqəddəratı

Dəfinələrdə aşkar edilmiş və ya tapılmış abidələr dövlətə təhvil verilməlidir. Dövlətə təhvil verilmiş abidələrə görə dəfinəni aşkar etmiş və əşyanı tapmış şəxsə Azərbaycan Respublikasının mülki qanunvericiliyində nəzərdə tutulmuş qaydada mükafat verilir.

Təsadüfən aşkar edilmiş abidələrin mülkiyyətçisi və ya istifadəçisi abidə haqqında müvafiq icra hakimiyyəti orqanına məlumat verməlidir. *Təsadüfən aşkar edilmiş abidə müvafiq icra hakimiyyəti orqanı tərəfindən dövlət qeydiyyatına alınmalı və abidənin elmi sənədləşdirilməsi təmin edilməlidir.*

Maddə 16. Abidələrin xaricə aparılması və geri qaytarılması

Daşınar abidələrin elmi-təbliğat və mədəni mübadilə məqsədilə Azərbaycan Respublikasından xaricə müvəqqəti aparılması yalnız müvafiq icra hakimiyyəti orqanının icazəsi ilə həyata keçirilə bilər. Bu məqsədlərlə abidələrin müvəqqəti ölkədən çıxarılması üçün müvafiq icra hakimiyyəti orqanı gömrük orqanlarına yazılı təqdimat verməlidir.

Xaricə müvəqqəti aparılmış abidələrin geri qaytarılmaması qadağandır.

Azərbaycan Respublikasından xaricə qanunsuz aparılmış abidələrin axtarışını, tapılmasını və geri qaytarılmasını müvafiq icra hakimiyyəti orqanları həyata keçirir.

Maddə 18. Müharibə, fövqəladə vəziyyət və silahlı münaqişə zamanı abidələrin qorunması

Döyüş təhlükəsi olan ərazilərdən və döyüş zonalarından daşınar abidələrin köçürülməsini müvafiq icra hakimiyyəti orqanı həyata keçirir. Fövqəladə hallarla əlaqədar olaraq daşınar abidələr onların məhv edilməsi, oğurlanması və ya korlanması təhlükəsi qarşısında qanunvericiliklə müəyyən edilmiş qaydada müvəqqəti olaraq təhlükəsiz rayonlara köçürülə bilər.

Dövlət işğalçı tərəfindən qənimət kimi ələ keçirilmiş abidələr haqqında beynəlxalq təşkilatlar qarşısında məsələ qaldırır və onların qaytarılması və bərpası üçün tədbirlər görür.

Abidələr hərbi məqsədlər üçün istifadə edilə bilməz. Müstəsna hallarda qoruqların ərazisi və yerli əhəmiyyətli memarlıq abidələri Azərbaycan Milli Elmlər Akademiyasının rəyi nəzərə alınmaqla, müvafiq icra hakimiyyəti orqanının razılığı əsasında qanunvericiliyə uyğun olaraq hərbi hissələrin təsərrüfat və mədəni məqsədləri üçün istifadəsinə verilə bilər.

VII FƏSİL. Abidələrin qorunması haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət

Maddə 28. Abidələrin qorunması haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət

Abidələrin qorunması haqqında Azərbaycan Respublikası qanunvericiliyini pozan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq cinayət, inzibati, intizam və mülki məsuliyyət daşıyırlar.

Maddə 29. Abidələrə vurulan zərərin ödənilməsi

Abidələrə vurulan zərərin ödənilməsi Azərbaycan Respublikası mülki qanunvericiliyinə uyğun olaraq həyata keçirilir. Ödənilmiş vəsait abidənin bərpası, tədqiqi və ya qorunması tədbirlərinin maliyyələşdirilməsinə yönəldilir.

Maddə 32. Müvəqqəti işğal zonalarında qalmış abidələrin bərpası və qorunması

Müvəqqəti işğal zonalarında qalmış abidələrin yenidən tədqiqi və bərpası üçün həmin ərazilər azad edildikdən sonra təxirəsalınmaz tədbirlər görülür. Abidələrin bərpası və qorunması üçün ayrılan maliyyə vəsaiti, ilk növbədə, işğal zonasında qalmış abidələrin tədqiqi və bərpası üçün sərf edilir.

İşğalçılar tərəfindən dağıdılmış dünya, ölkə və yerli əhəmiyyətli abidələr haqqında müvafiq beynəlxalq təşkilatlara məlumat verilir.

Heydər Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 aprel 1998-ci il

1. Verilmiş mətni (səh. 138–141) aşağıdakı xüsusiyyətlər əsasında hansı üsluba aid etsəniz, düzgün olar?
   - Fikir aydındır.
   - Fikirlər yığcam və konkretdir.
   - Sənədlərin dili mükəmməldir.
   - Cümlələr qüsurlu deyil.

   A) elmi B) publisistik C) rəsmi

Rəsmi və işgüzar sənədlərin dili rəsmi-işgüzar üsluba aid edilir. Rəsmi-işgüzar üslubda fikir (informasiya) müəyyən standart formalarda və yığcam şəkildə olur, artıq sözlər, obrazlı ifadələr, fərdi nitq ünsürləri işlədilmir.

Rəsmi-işgüzar üslubun lüğət tərkibi nə qədər yığcam, sintaksisi nə qədər məhduddursa, normalığı o qədər möhkəmdir.

Rəsmi-işgüzar üslub iki yerə bölünür.



- **Rəsmi sənədlər mühüm hüquqi məzmuna malikdir və tarixi əhəmiyyət daşıyır.**
- **İşgüzar sənədlər xüsusi dövlət əhəmiyyəti daşımır, hər hansı bir məsələ ilə bağlı tərtib edilir.**

Orfoqrafik səhvlər və qüsurlu cümlələrə yol verilən sənəd nöqsanlı hesab olunur.

2. Mətndə (səh. 138–140) altından xətt çəkilmiş feillərin zamanlarını və şəkillərini müəyyənləşdirin.
3. Mətndə (səh. 138) göy rəngdə verilmiş cümlədə hansı normanın pozulduğunu deyin və cümlədə düzəliş edin.
4. Mətndəki cümlələrə əsasən rəsmi-işgüzar üslubun sintaksisi haqqında fikir yürüdün.

Rəsmi-işgüzar üslubda işlədilən cümlələrdə feillər, adətən, əmr, xəbər, vacib və şərt şəkillərində olur.

5. Mətndən (səh. 138–141) bir neçə söz seçib aşağıdakı cədvəl əsasında onları müxtəlif üslublarda işlədin. Cümlələri müqayisə edib fərqləri deyin.

Nümunə:

Rəsmi üslubda	Danışıq dilində	Bədii üslubda	Publisistik üslubda
Abidələr daşınar (səyyar) və daşınmaz (stasionar) ola bilər. Daşınar abidələr muzeylərdə, arxivlərdə, fondlarda, sərgilərdə və digər münasib yerlərdə, daşınmaz abidələr əksər hallarda arxeoloji və memarlıq abidələri olmaqla olduğu və inşa edildiyi yerlərdə qorunur.	Bu abidənin nə vaxt ucaldıldığını bilirsən?	...Bu dildədir yüz abidə, min abidə! Xilafəti parçalayan Babəkimin qəzəbi də! *(X.R.Ulutürk)*	Keçmişdən gələcəyə körpü rolunu oynayan və ulu babalarımızın bizə yadigar qoyduğu hər bir abidə xalqımızın qədim mədəniyyətinin göstəricisidir. *(Naxçıvan MR Mədəniyyət və Turizm Nazirliyinin Mətbuat xidmətindən)*

6. Erməni işğalı nəticəsində məhv edilmiş muzeylərimiz, talan edilmiş sərvətlərimiz barədə məlumat toplayıb qəzet maketinizdə yığcam məlumatlar dərc edin.

2 VATİKANDAN GƏLƏN VAR

(ixtisarla)

ORFOQRAFİYA

Hansı səhv yazılmışdır?

- tünd şriftlə verilmiş sözlərdə
- 1-ci abzasın 1-ci cümləsində
- 2-ci abzasın 4-cü cümləsində

ORFOEPİYA

Hansı tələffüz düzgündür?

- [abi:də] – [a:bidə] – [abidə]
- [tə:sadüfən] – [təsadüfən] – [təsadü:fən]
- [mənbə] – [məmbə] – [mə:mbə]

Tarix elmləri doktoru Fərid Ələkbərli son dövrlərdə Vatikan (**Məxfi/Məxvi**) Arxivində apardığı araşdırmalarla, Azərbaycanın tarixi və mədəniyyəti üçün önəmli olan sənədlərin və əlyazmaların tətqiqi sahəsindəki fəaliyyəti ilə diqqət mərkəzindədir. Biz də Fərid Ələkbərlinin köməyi ilə Vatikan Məxfi Arxivinə xəyali ekskurs edib, tariximizin gizli qalan məqamlarına işıq salmağa çalışdıq...

– Artıq neçə illərdir ki, Vatikan Məxfi Arxivində araşdırmalar aparırsınız. Öncə bu şəhərə ilk səfərinizi xatırlayaq. Vatikana nə məqsədlə getmişdiniz? Orada Azərbaycanla bağlı sənədlərin saxlandığı barədə məlumatınız vardımı? Yoxsa hər şey təsadüfən baş verdi?

1 – Tədqiqatlara 2010-cu ildən başlamışam. Bu işin təşəbbüskarı Heydər Əliyev Fondu idi. Həmin vaxt artıq fondun prezidenti Mehriban xanım Əliyeva Vatikan rəhbərliyi ilə hərtərəfli əməkdaşlıq haqqında razılığa gəlmişdi. Sadəcə, Vatikanda mühafizə olunan qədim Azərbaycan əlyazmalarını aşkar etmək və Bakıya gətirmək qalırdı. Mən də 2010–2014-cü illərdə Vatikana dəfələrlə ezam olundum. Onu da qeyd edim ki, mən Vatikan arxivlərində planlı şəkildə araşdırmalar aparmağa icazə almış ilk azərbaycanlı idim. *Vatikanda Azərbaycana aid əlyazmaların olması barədə məlumatımız vardı.* Məsələn, "Dədə Qorqud" dastanının əlyazması bu qəbildəndir. *Amma orada daha hansı əlyazmaların olması bizə məlum deyildi.* **(Aparılmış tədqiqatlar göstərdi ki, belə yazılı abidələr olduqca çoxdur. / Aparılan tədqiqatların nəticəsində məlum oldu ki, belə yazılı abidələrin sayı olduqca çoxdur.)** Tədqiqatlarımızın qiymətli tapıntılarının surətləri çıxarılaraq Bakıya gətirildi.

– Vatikan arxivləri və kitabxanaları bütün dünyada məşhurdur. Bu kitabxanalar barədə bir qədər məlumat verməyinizi xahiş edirik...

2 – Vatikanda iki məşhur kitabxana var: Apostol Kitabxanası və Məxfi Arxivlər, Roma papaları bu kitabları IV əsrdən etibarən toplamağa başlasalar da, Apostol Kitab-

xanası yalnız 1475-ci ildə Papa V Nikkolo tərəfindən təsis edilib. Hazırda kitabxananın fondunda 2 milyona yaxın saxlama vahidi var: orta əsr əlyazmaları, köhnə çap kitabları, qədim coğrafiya xəritələri, rəsmlər və s. Məxfi Arxivdə isə Papa dəftərxanasının sənədləri saxlanılır. Bu arxivin rəflərinin ümumi uzunluğu 85 kilometrdir.

Papirus nə deməkdir?

3 Vatikan kitabxanalarının arxivləri dünyanın ən zəngin arxivlərindəndir. Burada qədim Misir papiruslarından tutmuş, Avropa və Şərq dillərində müxtəlif qədim əlyazmalar və kitablaradək bir çox nadir incilər saxlanılır. Bu kitablar, əsasən, Apostol Kitabxanasında cəmləşdirilib. Məxfi Arxivdə isə papaların fərmanları, müxtəlif ölkələrin rəhbərləri ilə yazışmaları, missionerlərin bu ölkələrdən göndərdiyi sənədlər qorunur.

– Vatikanda Azərbaycanla bağlı hansı sənədləri, məktubları və kitabları aşkarlamısınız?

– Məxfi Arxivdə orta əsr Azərbaycan hökmdarlarının – Elxanilərin, Səfəvilərin, Nadir şahın, Qacarların Roma papaları ilə yazışmaları, 100-dən çox məktubları tapılıb. Orada orta əsrlər siyasətinin detalları və incəlikləri, tariximizin bir çox məqamları öz əksini tapıb. O cümlədən Elxanilərdən Abağa xanın, Güyük xanın, az qala bütün Səfəvi şahlarının məktubları və papaların bu məktublara cavabları var. Vatikandan gedən məktublar latın, italyan, köhnə fransız dillərindədir. Azərbaycandan daxil olan məktublar farsca, ərəbcə və türkcədir.

4 Vatikandan Bakıya gətirilib Əlyazmalar İnstitutuna (**təhvil/təhfil**) verilən bəzi əlyazmaların adını çəkmək istərdim. Bunlardan XV əsrin sonu – XVI əsrin əvvəllərində yaşamış və ana dilimizdə yazıb-yaratmış Azərbaycan şairi Sürurinin "Divan"ı əldə olunan mənbələrin ən qiymətlisidir. Onun bu "Divan"ı indiyə qədər tədqiq və nəşr olunmayıb.

XIX əsrə aid, müəllifi məlum olmayan türkdilli əsər isə Səfəvi, Qızılbaş və Qacarlar, onların müharibələri, Qafqaz, Bakı və Tiflisin ruslar tərəfindən zəbt edilməsi haqqında geniş məlumat verir. Kitab türkcə yazılıb və indiyə qədər tədqiqata cəlb edilməyib.

– Bu sənədlər əsasında Azərbaycanın şəhərləri, tarixi, adət-ənənəsi, coğrafiyası barədə hansı yeni faktları üzə çıxarmaq mümkün olub?

– Missionerlərin hesabatlarında orta əsr Azərbaycanın şəhərləri və əhalisi haqqında xeyli maraqlı məlumatlar var. Vatikana son ezamiyyətim müddətində Azərbaycan tarixinə aid orta əsr Avropa və Şərq xəritələrini aşkar etdik.

XV–XVIII əsrləri əhatə edən bu coğrafi xəritələrin əhəmiyyəti ondan ibarətdir ki, _____ .

Hansı cümlə mətnin davamı və sübutu ola bilər?

Həmin xəritələr qədimdə və orta əsrlərdə Azərbaycan adlı ölkənin mövcudluğunu təsdiq edir.

"Azərbaycan", "Qarabağ", "Midiya", "Şirvan" və "Arran" kimi coğrafi ərazilərin sərhədlərini müəyyən edərək, erməni alimlərinin uydurmalarına rəğmən Bakı, Şamaxı, Gəncə, Təbriz, Qəbələ, Qarabağ, İrəvan və Qars şəhərlərinə qədər uzanan əraziləri Azərbaycan torpaqları kimi göstərir.

Durğu işarələrinin işlənməsində hansı səhvə yol verilmişdir?

Bəzi xəritələrdə Xəzər dənizi "Bakı dənizi" kimi qeyd olunur. Xəritələr Amsterdam, Antverpen, İstanbul və sair şəhərlərdə Avropa (alman, holland, italyan və s.) və Osmanlı coğrafiyaşünasları tərəfindən tərtib və nəşr olunub. Orta əsr əlyazmalarının və xəritələrinin axtarışı indi də davam etdirilir.

– *Şərqdə miniatür sənətinin böyük tarixi var. Şərq ölkəsi olaraq, Azərbaycanla bağlı əlyazmalar arasında, yəqin ki, nəfis tərtibatlı kitablar da yox deyildir...*

– Bəli, orada Nizami Gəncəvinin və bir sıra başqa şairlərin əlvan miniatürlərlə bəzənmiş əsərləri var. (**Vatikanda müxtəlif miniatür məktəblərinə aid rəsmlər mövcuddur. / Vatikanda müxtəlif miniatür məktəblərinin məhsulu olan rəsm əsərləri də vardır.**) Miniatürlərdən başqa, orta əsrlərə aid bəzi əsərlərin ön səhifələri qızıl suyu və müxtəlif rənglərlə çəkilmiş bitki və geometrik ornamentlərlə bəzədilmişdir. Kitabların cildləri dəridən hazırlanıb və onların üzərində müxtəlif naxışlar var. Bu əlyazmaların bir hissəsi zədələnmiş halda idi. Heydər Əliyev Fondunun təşəbbüsü və dəstəyi ilə bu əsərlər artıq Vatikan tərəfindən bərpa olunub və onların yüksək keyfiyyətli rəqəmli surətləri hazırlanıb.

Gülnar Maisqızı, "Naşir" jurnalından, 2011-ci il

XVIII əsrə aid xəritədə Bakı, Şamaxı, İrəvan və digər şəhərlərin adları vardır (*işarələnmiş yerlərə baxın*).

Bowen – A Complete System of Geography – 1747

1. Müxbir olsa idiniz, aşağıdakı cavabları almaq üçün hansı sualı verərdiniz?

   Apostol Kitabxanasında isə Azərbaycan ədiblərinin və şairlərinin orta əsr əlyazmaları aşkar edilib. 2010–2012-ci illər ərzində N.Gəncəvi, M.Füzuli, İ.Nəsimi, Ə.Marağayi, N.Tusi, M.Şirvani kimi müəlliflərin əlyazmaları Bakıya gətirilib. Ümumiyyətlə, indiyə qədər aşkar olunmuş Azərbaycan əlyazmalarının sayı 70-ə çatıb.

   2013–2014-cü illərdə, tədqiqatların növbəti mərhələsində isə anadilli (türkdilli) əsərlərin tədqiqinə xüsusi fikir verilib. Bu vaxta qədər qeydə alınmamış və təsvir olunmamış 100-dən çox türkdilli, o cümlədən azərbaycandilli orta əsr əlyazması aşkar olunub.

2. Bu fikirlərdən biri mətndə yoxdur.
   - Vatikanla əməkdaşlıqda məqsəd Azərbaycana məxsus qədim əlyazmaların aşkarlanması və Bakıya gətirilməsi idi.
   - Azərbaycan şairi Sürurinin vaxtilə Vatikanda nəşr olunmuş “Divan”ı aşkarlanaraq Bakıya gətirilmişdir.
   - Qafqaz, Bakı və Tiflisin ruslar tərəfindən zəbt edilməsi haqqında geniş məlumat verən türkdilli əsərin müəllifi naməlumdur.
   - Vatikan kitabxanasında Nizami Gəncəvinin nəfis tərtibatlı kitabı vardır.
3. *Dialoq məişət üslubundadır* fikri ilə razısınızmı? Niyə? Mətnə aid etdiyiniz üslubun xüsusiyyətlərini sadalamaqla fikrinizi əsaslandırın.
4. Fərid Ələkbərlinin vətəndaşlıq mövqeyini və xalqı qarşısındakı xidmətlərini dəyərləndirin.
5. F.Ələkbərlinin yerində olsa idiniz, hansı sərvəti Azərbaycan xalqına qaytarardınız?
6. Sizcə, professor Fərid Ələkbərli Vatikan muzeylərində işini bitirəndən sonra əməli yazının hansı növündən istifadə edərək gördüyü iş haqqında məlumat verməlidir?

7. Aşağıdakı izahlardan hansı *missioner* sözünün leksik mənasına aiddir?
   - Xristian olmayan əhali arasında xristianlığı yaymaq üçün xristian kilsəsi tərəfindən göndərilən şəxs.
   - Vəzifə, borc.
   - Dövləti, varı həddən çox olan adam.
8. Mətndə altından xətt çəkilmiş sözlərin mənaları aşağıdakılardan hansına uyğundur?

   a) Ümumi istifadə üçün kitabların toplandığı və mühafizə edildiyi yer.
   b) Qədim sənədlərin və yazılı abidələrin saxlandığı yer.
   c) Bir şeyin əsas ehtiyatını təşkil edən pul və ya maddi vəsait.

   fond_____ arxiv_____ kitabxana_____
9. Aşağıdakı sözlərin sinonim cərgələrini tamamlayıb onların bir-birini əvəz edib-etmədiyini nümunələrlə əsaslandırın.



10. *Ədib, sənətkar, yazıçı, nasir* sözlərini fərqləndirin. Müasir dövrdə *yazıçı* sözü ilə paralel hansı söz işlənir? Həmin sözün işlənməsinə münasibət bildirin.
11. *Yazışma* və *məktub* sözləri arasında fərq varmı? Onların hansı fərqli cəhətlərini söyləyə bilərsiniz?
12. Hansı oxların istiqaməti düzgün deyildir?



13. Mətndə qırmızı rəngdə verilmiş cümlədə (səh. 145) hansı sözü dəyişsəniz, fikir daha dəqiq olar?

14. Mətndə (səh. 144) fərqləndirilmiş cümlələri bir-biri ilə elə əlaqələndirin ki, ○ + sa da → □ sxeminə uyğun olan tabeli mürəkkəb cümlə alınsın.
15. Mətndə (səh. 144, 146) mötərizəyə alınmış cümlələrdən hansının işlənməsi daha düzgündür?
16. *Vatikana son ezamiyyətim müddətində Azərbaycan tarixinə aid orta əsr Avropa və Şərq xəritələrini aşkar etdik* cümləsi haqqında fikirlərdən hansı doğrudur?
    a) Şəxssiz geniş cümlədir.
    b) Ümumi şəxsli cümlə olduğu üçün fikir hamıya aid edilir.
    c) Mübtədası buraxılmış müəyyən şəxsli cümlədir.
    d) Cümlənin mübtədası III növ təyini söz birləşməsi ilə ifadə olunub.
17. Mətndə (səh. 144–146) altından xətt çəkilmiş cümlələrdə fikrin ifadə tərzinə müqayisə aparmaqla münasibət bildirin.

Mətndə	Müəlliflərin təqdimi	Sizin təklifiniz
Biz də Fərid Ələkbərlinin köməyi ilə Vatikan Məxfi Arxivinə xəyali ekskurs edib, tariximizin gizli qalan məqamlarına işıq salmağa çalışdıq...	*Biz də Fərid Ələkbərlinin mükəmməl təsvirləri əsasında xəyalən Vatikan Məxfi Arxivini gəzərək tariximizin gizli qalan məqamlarına aydınlıq gətirməyə çalışdıq.*	
Vatikandan gedən məktublar latın, italyan, köhnə fransız dillərindədir.	*Vatikandan cavab məktubları latın, italyan, qədim fransız dillərindədir.*	
Şərq ölkəsi olaraq, Azərbaycanla bağlı əlyazmalar arasında, yəqin ki, nəfis tərtibatlı kitablar da yox deyildir...	*Şübhəsiz ki, Şərqin ən böyük ölkəsi hesab edilən Azərbaycanla bağlı əlyazmalar arasında nəfis tərtibatlı kitablar da vardır.*	

18. Göy rəngdə verilmiş cümlədə (səh. 145) *təsis edilib* feilini *inşa edilib* feili ilə əvəz etsəniz, eyni fikir ifadə edilərmi?
19. Öz seçiminiz əsasında mətnin istənilən abzasından hər hansı bir cümləni seçib onun qrammatik və düzgün nitq baxımından qüsurlu olub-olmadığını müəyyən edin. Fikrinizi əsaslandırın.
20. Mətnin son cümləsinin quruluşunu və növünü müəyyənləşdirin, həmin cümləni fərqli formalarda yazın.

Sadə geniş cümlə	→	
Sadə həmcins xəbərli cümlə	→	

21. Mətndə nömrələnmiş abzaslardakı fikri ayrı-ayrılıqda əvvəl ümumiləşdirin, sonra əsas məqamları seçib yazın.

Nümunə:

Mətndə

Məxfi Arxivdə orta əsr Azərbaycan hökmdarlarının – Elxanilərin, Səfəvilərin, Nadir şahın, Qacarların Roma papaları ilə yazışmaları, 100-dən çox məktubları tapılıb. Orada orta əsrlər siyasətinin detalları və incəlikləri, tariximizin bir çox məqamları öz əksini tapıb. O cümlədən Elxanilərdən Abağa xanın, Güyük xanın, az qala bütün Səfəvi şahlarının məktubları və papaların bu məktublara cavabları var. Vatikandan gedən məktublar latın, italyan, köhnə fransız dillərindədir. Azərbaycandan daxil olan məktublar farsca, ərəbcə və türkcədir.

Ümumiləşmə

Vatikan Məxfi Arxivində orta əsr Azərbaycan hökmdarlarının: Elxanilərin, Səfəvilərin, Nadir şahın, Qacarların Roma papaları ilə o dövrkü siyasətinin detalları və tariximizin bir çox məqamları ilə bağlı yazışmaları, 100-dən çox latın, italyan, qədim fransız dillərində olan məktubları tapılıb. Azərbaycandan daxil olan məktublar farsca, ərəbcə və türkcədir.

QEYD. *"O cümlədən Elxanilərdən Abağa xanın, Güyük xanın, az qala bütün Səfəvi şahlarının məktubları və papaların bu məktublara cavabları var"* cümləsinin ümumiləşmə hissəsindən çıxarılmasının səbəbi həmin faktın birinci cümlənin içərisində olmasıdır. Cümlələri müqayisə edin.

Məxfi Arxivlərdə orta əsr Azərbaycan hökmdarlarının – Elxanilərin, Səfəvilərin, Nadir şahın, Qacarların Roma papaları ilə yazışmaları, 100-dən çox məktubları tapılıb.

O cümlədən Elxanilərdən Abağa xanın, Güyük xanın, az qala bütün Səfəvi şahlarının məktubları və papaların bu məktublara cavabları var.

Əsas müddəa

Vatikan Məxfi Arxivində Azərbaycan tarixi, diplomatiyası və xarici əlaqələrini sübut edən dəyərli sənədlər qorunur. Bu sənədlər əsasında diplomatik münasibətlər və xarici əlaqələrdə ərəb və fars dilləri ilə yanaşı, türk dilinin də əsas yer tutduğunu söyləmək mümkündür.

Əsas müddəa söz və söz birləşmələrinin, anlayışların əvəz edilməsi yolu ilə formalaşır (*fərqləndirilmiş ifadələrə diqqət yetirin*).

Sülalələrin: Elxanilərin, Səfəvilərin Roma papası ilə *siyasət* və *tarixi məqamlarla* bağlı yazışmaları → Diplomatiya və xarici əlaqələr

Yazışmalar, məktublar → Sənəd

Digər dillərlə yanaşı, türk dilində sənədlərin olması faktı diqqətə çatdırılır.

Mətndən əsas müddəanın seçilməsi tezis adlanır. Tezis geniş mülahizənin qısa ifadəsi, məqalə və ya çıxışın əsas müddəalarını əks etdirən yığcam qeydlərdir.

Tezis faktlarla sübut edilməlidir.

22. Cədvəldən istifadə etməklə tezis və xülasəni fərqləndirən cəhətlərə diqqət yetirin.

Tezis	Xülasə
✓ yazılmamış mətn üçün hazırlıq mərhələsidir. ✓ müəllifin irəli sürdüyü əsas elmi müddəaları özündə əks etdirir. ✓ əsasında məqalə hazırlanır. ✓ faktlarla əsaslandırılır. ✓ sayı çox ola bilər.	✓ hazır, tamamlanmış mətndən çıxarılır. ✓ məqalənin məzmunu və əsas müddəalar haqqında ümumi, yığcam məlumatdır. ✓ məqalənin adı və açar sözlər mütləq öz əksini tapmalıdır. ✓ üç dildə (Azərbaycan, rus, ingilis) hazırlanır. ✓ 4-5, ən çoxu 10 cümlə ilə verilir.

23. Aşağıdakı mətnin elmi üslubda oduğunu əsaslandıran ən azı üç cəhəti göstərin. 152–153-cü səhifədəki nümunədən istifadə etməklə mətnin tezislərini yazın.

Professor Əli Cavan 1948-ci ildə Tehran Universitetini bitirib Nyu-Yorkdakı Kolumbiya Universitetində təhsilini davam etdirmişdir. O, 1954-cü ildə dissertasiya müdafiə edib fizika doktoru elmi dərəcəsi almışdır. Tale onu Murrey Hildəki Bell Telefon laboratoriyasına aparıb çıxarmışdır. *O, burada işlədiyi dövrdə qaz lazerinin yaradılmasının mümkünlüyünü həm nəzəri, həm də təcrübi baxımdan əsaslandırmağa nail olmuşdur.*

1962-ci ildə isə o, Massaçussetdəki Texnologiya İnstitutunda işə düzəlmiş, informasiyanı almaq, ölçmək və emal etmək qabiliyyətinə malik spektoskokiyasının və işıq titrəyişlərinin mütləq tezliyinin ölçülməsi metodlarının əsaslarının tədqiqi sahəsində bir sıra fundamental işlər aparmışdır.

Qaz lazeri üstündə aparılan tədqiqatlar və eksperimentlərin çətinlikləri professorun yaddaşında silinməz izlər həkk edib. *Həmin anlardan söhbət düşəndə qeyri-ixtiyari Əli Cavanın beynində o çətin anların xatirələri canlanır: "O vaxtlar mən Bell Telefon laboratoriyalarında tədqiqatçılar qrupu ilə birgə işləyirdim.* Orada lazerin eksperimenti ilə əlaqədar hər cür şərait yaratmışdılar. Mən o vaxt qaz lazerin testi üçün iki müxtəlif qaz – helium və neondan istifadə edərək eksperimentə başladım. Mənim sxemim çox sadə idi. Qazın ortasından keçən iki elektroda elektrik cərəyanı buraxılırdı və bundan sonra lazımı effekt alınırdı. Açığını deyim ki, belə bir imkan iki dəfə: yalnız heliumun atomdan cərəyanın vəziyyəti qorunub saxlananda və elektrik enerjisi daxili enerji kimi neonun atomuna ötürüləndə yarandı. Bundan sonra lazer şüalarını toplum şəklində əldə etmək mümkün oldu. Bunun üçün mənə Bell Telefon laboratoriyalarında nə az, nə çox, düz iki il və iki milyon dollar lazım gəldi. Amma bütün bu çətinliklərə baxmayaraq, 1960-cı ilin 12 dekabrında mən öz istəyimə nail oldum. Qaz lazer aparatından

lazer şüası almağı reallaşdırdım və onu şərti olaraq "Adam" adlandırdım. Uzunluğu vurtut bir metr olan, şüşə qutuda yerləşdirilən və arqon qazından istifadə edən bu cihazda ən müasir texnologiya öz əksini tapmışdır".

Alim əldə etdiyi elmi nəticələri ümumiləşdirib 1959-cu ilin iyun aylarında Amerikanın "Fizikal Revyu Letters" jurnalında elmi məqalə çap etdirir. Məqalə yeni bir elmi kəşfdən xəbər verirdi. Əli Cavan bundan sonra amerikalı həmkarı T.Maymanla birlikdə optik tezliklərə əsaslanan elektron cihazların hazırlanmasını tədqiq etməyə başladı. Bu tədqiqatda onun məqsədi elektronikanı radiodalğalar sahəsindən işıq sahəsinə keçirmək idi. Bu isə informasiyanın hazırlanmasını son dərəcə sürətləndirməyə imkan verərdi.

Qaz lazerin kəşfi xəbəri ildırım sürəti ilə bütün dünyaya yayıldı. Bu xəbər hələ ötən əsrin 30-cu illərində qaz lazerin kəşfinə cidd-cəhd göstərən, amma onu reallaşdırmağa güc tapmayan Avropa alimlərini əməlli-başlı heyrətləndirmişdi.

(M.Səməd, "Yaddaşımızın yaşıdları" kitabından)

✓ *Tünd şriftlə verilmiş cümlədə hansı söz düzgün işlədilməmişdir?*
✓ *Fərqləndirilmiş cümlələrdə **o** əvəzliyindən sonra vergül işarəsinin düzgün qoyulub-qoyulmadığını əsaslandırın.*
✓ *Altından xətt çəkilmiş cümlələrdə hansı norma pozulmuşdur? Seçiminizi əsaslandırın.*

24. "Tarixi abidələrin qorunması haqqında Qanun" və "Vatikandan gələn var" mətni əsasında rəsmi-işgüzar və publisistik üslubun oxşar və fərqli cəhətlərini müəyyənləşdirin.

	Rəsmi-işgüzar üslub	Publisistik üslub
Fərqli cəhətləri		
Oxşar cəhətləri		

25. "Vatikandan gələn var" mətni əsasında tapşırığı qrup şəklində icra edin.

I qrup → Mətnin xülasəsini yazın.

II qrup → Mətni publisistik məqalə şəklində təqdim edin.

III qrup → Mətnin məzmununu yığcam şəkildə təqdim edin.

IV qrup → Mətn əsasında yığcam hekayə və ya təxəyyülünüz əsasında professor F.Ələkbərlinin Vatikan Məxfi Arxivinin rəhbərliyi ilə yığcam dialoqunu yazın.

3 ƏSİR AĞACIN HEKAYƏTİ

(ixtisarla)

1. Şəklə diqqətlə baxın, onu sözlə təsvir etməyə çalışın. İlk anda bu şəkil sizdə hansı təəssürat yaratdı?
   Şəkli hekayənin adı ilə əlaqələndirməyə çalışın.



ORFOQRAFİYA

Hansı səhv yazılmışdır?

- 4-cü abzasda
- 5-ci abzasda
- 8-ci abzasın 3-cü və 4-cü cümlələrində
- son abzasın 2-ci və 3-cü cümləsində

Bu iki çinar ağacını Məhəmməd dayı doğma Qoruqbağı kəndinin yuxarı hissəsində 1982-ci ilin bir yaz günündə əkmişdi.

Kənd sakinləri (...) bu ağacların əkildiyi yerə "Çinarlı" adını vermişdilər.

Bəzən insanlara elə gəlir ki, sevgi hissi **ancaq** onlara məxsusdur. İnsanlar ağacların canlı olduğunu sanki hiss etmir, onların ətrafda baş verənləri, ünsiyyəti, sevgini, qayğını duyduqlarının fərqinə varmırlar. Məhəmməd

dayının əkdiyi bu iki çinar ağacı da bir-birlərinə çox bağlı idilər. Bu iki ağacın arasındakı boş yerdə boy atmaqda olan balaca çinar isə onların övladları idi...

Bu çinar ailəsinin xoşbaxtlığı 1993-cü il, aprel ayının 2-nə qədər davam etdi. Bu işğal təkcə bu rayonda yaşayanların ailələrinə yox, "Çinarlı" ailəsinə də bədbaxtlıq gətirmişdi.

Həmin dəhşətli günü Ata Çinar unuda bilmirdi. Çəkdikləri narkotikin təsirindən gözləri qızmış erməni əsgərləri Kəlbəcərli 63 yaşlı Sona xalanı Ana Çinara bağlamış və tankla üstündən keçmişdilər.

Tank geriyə hərəkət edəndə isə "Çinarlı" ailəsinin yeganə "övladı" balaca çinar ağacını da tapdalamış, üstündən keçmişdi. Daha sonra erməni əsgərləri tanka doluşub Laçına doğru hərəkət etmişdilər. **Ancaq** Ata Çinara toxunan olmamışdı.

Sonradan nələrin şahidi olmadı, hansı faciələrlə üzləşmədi ki, Ata Çinar?!

Sizcə, Ata Çinar hansı faciələrin şahidi ola bilərdi? Öz təxəyyülünüzə əsasən, 7-8 cümlədən ibarət kiçik mətn tərtib edib çərçivəyə alınmış cümlədən sonra əlavə edin.

Ötən illər ərzində Ata Çinar əməlli-başlı qocalmışdı. *Yəqin elə buna görə idi ki, ermənilər Kəlbəcərdəki əksər ağacları qırıb daşısalar da, meşələri yandırsalar da, ona toxunan olmamışdı...*

"Kəlbəcər bizim tarixi torpaqlarımız olub. *Biz artıq neçə illərdir dünya ictimaiyyətinə bunu izah etməyə çalışırıq*". Erməni Avanesyanın Kəlbəcərə səfərə gəlmiş avropalı tədqiqatçı, tarixçi alimə verdiyi bu yalan və iftira dolu məlumatlar Ata Çinarı dəşhətə gətirdi. Yəqin, dili olsaydı, hər şeyi açıb danışar, Avanesyanın dərsini verərdi. Danışa bilsə idi, kəndə gələn Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndələrinə azərbaycanlı əsrlərin yerini deyərdi. Deyərdi ki, indiyə qədər yüzlərlə azərbaycanlı əsirin qaraciyəri, böyrəyi, hətta sümükləri də çıxarılaraq satılıb...

Avanesyan tarixçi alimi aldatmaqda davam edirdi: "Qazıntılar zamanı Kəlbəcərdə erməni mədəniyyətinə aid çoxlu qədimi əşya tapılıb". Ata Çinar bu dəfə səbrini (...) basa bilmədi və ən iri budaqlarından biri qırılaraq şaqqıltı ilə Avanesyanın başına düşdü.

Avanesyan yerə yıxılıb kürəyindəki ağrının təsirindən bar-bar bağırırdı. Ən böyük budaqlarından birinin sınması Ata Çinarı incitsə də, Avanesyanın dərsini verdiyi üçün rahatlıq tapdı.

Avanesyanın başını köhnə "Moskviç"in pəncərəsindən çıxarıb erməni dilində Ata Çinara "Mən sənə göstərərəm" deməsi bu dilsiz-ağızsız əsiri yaxında daha böyük faciələrin gözləməsindən xəbər verirdi...

Kəlbəcər işğal olunandan sonra Ata Çinar kəlbəcərli əsirlər qədər əzab-əziyyət çəkmişdi. Və bu bir daha təsdiq edirdi ki, əsirlik təkcə insanlara aid olan faciə deyil. Əslində, ağaclar da əsir, vətən yolunda şəhid olur...

Avanesyan sağalsa da, əsəbdən özünə gələ bilmirdi. Onun səhər tezdən bir başa dəmirçi Karapetyanın sexinə gəlib balta sifariş verməsi də buna işarə idi. Karapetyan: "Qonşu, səhər tezdən xeyr ola, baltanı neynirsən?" sualını verəndə əsəbdən Avanesyanın gözləri qızardı: "Gərək Kəlbəcərdə azərbaycanlılardan bir dənə də əsər-əlamət qalmasın. Hətta qoca bir ağac olsa belə..."

Nicat İntiqam, "Ailəm" jurnalından, 2008-ci il

Hekayənin ardını öz təxəyyülünüzə əsasən davam etdirin.

Aşağıdakı plandan istifadə edin.

- *Məhəmməd dayının Bakıda məskunlaşması*
- *Məhəmməd dayının xəstəliyi*
- *Ən böyük arzusu*
- *Məhəmməd dayının yuxusu ilə düşüncələri, duyğuları və Kəlbəcərdə baş verənlərlə əlaqəsi*

• Hadisələri elə təsvir edin ki, mətnin sonluğunu bu cümlə ilə bitirə biləsiniz:

Sonluq

İstiqamət:

- *sadə cümlənin bütün növlərindən;*
- *söz sırası pozulmuş cümlələrdən (yeri gəldikcə);*
- *aydınlaşdırma, ardıcıllıq, səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümlələrdən;*
- *-sa[2] şəkilçisinin köməyi ilə əmələ gələn cümlələrdən;*
- *sual ədatlarından;*
- *üç nöqtə işarəsi ilə bitən sadə və mürəkkəb cümlələrdən (yeri gəldikcə) istifadə edilsin.*

2. Mətnə əsasən, Kəlbəcərin işğal tarixini müəyyənləşdirin.
3. Mətndə hansı suala cavab yoxdur?
   - Məhəmməd dayı çinar ağacını hansı fəsildə əkmişdi?
   - Ata Çinar nə üçün Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin üzvlərinə azərbaycanlı əsirlərin yerini demək istəyirdi?
   - Ata Çinar Beynəlxalq Qırmızı Xaç Cəmiyyəti üzvlərinə hansı məlumatı vermək istəyərdi?
   - Avanesyanın Ata Çinarı hədələməsinin səbəbi nə idi?
4. Əsərin məzmununu "Zəngilan çinar meşəsi" (səh. 84) mətninin məzmunu ilə müqayisə edin.
5. Şəki Xan sarayının həyətində olan iki çinar haqqında məlumat toplayıb onların hansı hadisələrə şahid olmaları ilə bağlı müzakirə aparın. Sizcə, məlumat toplamaq üçün hansı əsrin hadisələrinə müraciət etməlisiniz?
6. Beynəlxalq Qırmızı Xaç Komitəsinin yaranması və fəaliyyəti haqqında məlumat hazırlayıb qəzet maketinə yerləşdirin.

7. Uyğunluğu müəyyənləşdirin.

1	2	3	4
Talan	İşğal	Zəbt	İstila

a silah gücü ilə zorla tutulma, ələ keçirilmə	**b** bir ölkəni zorla ələ keçirmə
c əhalinin hər hansı milli və ya ictimai qrupuna qarşı quldurcasına çıxış. Mal-mülkün qarət edilməsi	**d** hər hansı bir dövlətin hərbi qüvvələri tərəfindən başqa dövlətin torpağının tutulması

1 _____ 2 _____ 3 _____ 4 _____

8. Mətndə mötərizədəki nöqtələrin yerinə hansı sözü yazsanız, məzmun dəyişikliyə uğramaz?
9. *İctimai, ictimaiyyət* sözlərinin leksik mənalarını izahlı lüğətin köməyi ilə izah edin.
10. Mətndə (səh. 155) çərçivəyə alınmış ifadəni necə yazsanız, daha düzgün olar?
11. Cümlələri tamamlayın.
    - İftira ..... , böhtan .....
      şər ..... deməkdir.

12. Mətndə kursivlə verilmiş cümlələrdə (səh. 155) durğu işarələrinin işlənməsi baxımından səhvə yol verilib-verilmədiyini müəyyənləşdirin, cümlələrin quruluşu barədə danışın.
13. Mətndə (səh. 155, 156) qırmızı rəngdə verilmiş cümlələrdə qrammatik normanın pozulması faktını göstərin və səhvi düzəldin.
14. Mətndə altından xətt çəkilmiş cümlələrdə (səh. 154, 155) tünd şriftlə verilmiş sözlərin qrammatik mənalarını fərqləndirin. Fikrinizi əsaslandırın.
15. Mətndə göy rəngdə verilmiş sözlərin (səh. 155) qrammatik mənasını müəyyənləşdirin və elə sözlə əvəz edin ki, məzmuna xələl gəlməsin.

16. İntrernetdən götürülmüş mətni oxuyun, tapşırıqları yerinə yetirin.

✓ *Mətndə hansı uyğunsuzluğa rast gəldiniz? Həmin səhvi düzəldin.*

✓ *İlk iki cümləni bir cümlə şəklində yazın.*

✓ *Mürəkkəb adların yazılışında hansı səhvlərə yol verilmişdir? Onları düzgün yazın.*

Məmmədov İbrahim İsmayıl oğlu 20 dekabr 1958-ci il Naxçıvan şəhərində anadan olmuşdur. Naxçıvan Şəhər 3 saylı orta məktəbi bitirmişdir. 1992-ci ildən könüllü batalyonlarda döyüşmüş və 1993-cü ildə Milli Orduda bölük komandiri kimi döyüşlərdə iştirak etmişdir. 1994-cü il Kəlbəcər uğrunda döyüşlərdə onun bölüyü bir neçə strateji yüksəkliyi düşməndən azad etmiş və ermənilər geri çəkilmişdir. 1994-cü il fevralın 16-da Kəlbəcərdəki döyüşlərdə düşmənin 3 tankını və xeyli sayda canlı qüvvəsini sıradan çıxarmış və snayper gülləsi ilə həlak olmuş, Naxçıvanda Şəhidlər Xiyabanında dəfn edilmişdir.

İbrahim Məmmədov ölümündən sonra "Azərbaycanın Milli qəhrəmanı" adına layiq görülmüş, Biləcəri Qəsəbəsində Milli qəhrəmanlar parkında büstü ucaldılmışdır.

17. Nöqtələrin yerinə *qəhrəmanlıq, qəhrəmancasına, həlak, şəhid, şəhidlik* sözlərindən uyğun gələnini artırmaqla cümlələri tamamlayın.

1) Stalinqraddan (*indiki Volqoqrad*) Baltik sahillərinədək döyüş yolu keçən Həzi Aslanov 24 yanvar 1945-ci ildə Latviyanın Liepay rayonunda alman faşistləri ilə döyüşdə .... həlak olmuşdur. 2) 1990-cı ilin faciəli 20 Yanvarında öz ölkəsinin, xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan mərd Vətən övladları canlarından keçərək .... zirvəsinə ucaldılar. 3) Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanması, erməni işğalçılarının 2016-cı il aprelin 2-dən 5-dək qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdikləri .... və igidliyə görə Azərbaycan hərbçilərinin xüsusi fərqlənən bir qrupu Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə yüksək fəxri ada layiq görülmüş, orden və medallarla təltif olunmuşdur. 4) Azərbaycan Silahlı Qüvvələrinin birləşmələri Talış kəndi ətrafındakı yüksəklikləri, eləcə də Seysulan məntəqəsini azad edib, Füzuli rayonu istiqamətində yerləşən "Lələ təpə" adlandırılan yüksəkliyə nəzarəti ələ keçirmiş, qanlı döyüşlər nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin əsgər və zabitləri qəhrəmancasına .... olmuşdur. 5) 1952-ci ildə Bakı şəhərində anadan olmuş Fə-

ridə Abbasova müdhiş 20 Yanvar gecəsində eyvanda paltar sərərkən atılan güllələr ona dəymiş, o, ... olaraq əbədiyyətə qovuşmuşdur. 6) 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə .... olmuş İlham Allahverdiyev rus qoşunlarının şəhərə girməsinə etiraz əlaməti olaraq küçəyə çıxmış, ağır yaralanmışdır.

✓ *Təsis edilən adlarla bağlı yazılar hansı üsluba aid edilməlidir?*

"20 Yanvar şəhidi" fəxri adının təsis edilməsi haqqında 31 mart 1998-ci il tarixində fərman imzalanmışdır. 29 dekabr 1998-ci ildə "20 Yanvar şəhidi" fəxri adi haqqında Əsasnamə təsdiq edilmişdir.

"Azərbaycanın Milli Qəhrəmanı" adı "Azərbaycanın Milli Qəhrəmanı" adının müəyyən olunması haqqında" Azərbaycan Respublikasının 25 mart 1992-ci il tarixli Qanunu ilə müəyyən olunmuşdur.

✓ *Şəhid, Milli Qəhrəman və xalq qəhrəmanı ifadələrinin məna fərqini izah edin və bu adların hər birinin kimə və nə üçün verilməsi haqqında fikir yürüdün.*

18. Rəsmi sənəd hazırlamağa çalışın.

- Əgər ağacların qorunması ilə bağlı rəsmi sənəd hazırlamalı olsa idiniz, onu necə adlandırardınız?
- Həmin sənəddə hansı məsələləri əks etdirərdiniz?

Aşağıdakı sxemdən istifadə etməklə həmin sənədi hazırlamağa çalışın.



✓ *Sənədi hazırlayarkən 138–141-ci səhifələrdə verilmiş "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında Azərbaycan Respublikasının Qanunu"ndan və onun strukturundan istifadə edə bilərsiniz.*

✓ *Sənədi hazırladıqdan sonra qəzet maketinizdə yerləşdirib müzakirəyə təqdim edin.*

4 AZƏRBAYCAN MƏDƏNİYYƏT İNCİLƏRİ FRANSADA

(*ixtisarla*)

ORFOQRAFİYA

Hansı səhv yazılmışdır?

- tünd şriftlə verilmiş sözlərdə
- ikinci abzasın birinci cümləsində
- ikinci abzasın son cümləsində
- 5-ci abzasın 3-cü cümləsində

ORFOEPİYA

Hansı tələffüz düzgündür?

- [bədi:] – [bədiyi]
- [yüxsəx́] – [yüksəx́]
- [texnoloji] – [texnaloji]
- [sənətşünaslıx] – [sənətşünasdıx]

Görkəmli fransız yazıçısı Aleksandr Dümanın 1861-ci ildə Tiflisdə çap olunmuş "Qafqaz səfəri" kitabını ***oxuyarkən/oxuyurkən*** *1858-ci ildə Azərbaycanda olduğu vaxt xalq ustalarımız və onların əl işləri barədə verdiyi məlumat diqqətimi cəlb etmişdi.* Xüsusilə A.Dümanın Azərbaycanda olarkən Şəkidən aldığı bədii tikmələr, yəhərüstü, xəncər, Xurşidbanu Natəvan tərəfindən ona verilən tikmə barədə kitabdakı qeydlər məndə böyük maraq doğurmuşdu.

Aparılan elmi araşdırmalar göstərmişdir ki, hazırda Fransada saxlanılan Azərbaycan sənətgarlığı nümunələrinin ən böyük qismini bədii toxuculuq məmulatları təşkil edir. Bu gözəl sənət nümunələrinin həmin ölkədə yayılması, sonradan isə muzeylərə düşməsinin əsas səbəbkarları əsrin əvvəllərində Fransada yaşamış erməni mənşəli tacirlər olmuşdur. İndi Fransanın bir çox muzey və şəxsi kolleksiyalarında Azərbaycanın Şamaxı, Şəki, Gəncə, Naxçıvan və Təbriz kimi şəhərlərində toxunmuş yüzlərcə

yüksək keyfiyyətli parçalarımız saxlanılır. Bunlar içərsində XVI–XVII yüzillərə aid edilən süjetli parçalarımız xüsusi yer tutur. 1

Görkəmli fransız sənətşünası Qaston Mijon Müsəlman incəsənəti kitabında bu parçaların gözəlliyinə məftun olduğunu etiraf edərək oradakı bəzəkləri belə qiymətləndirmişdir Onlar elə bil Min bir gecə nağıllarına çəkilmiş illüstrasiyalardır 2

Parisin Dekorativ Sənətlər Muzeyində nümayiş etdirilən süjetli parçalarımız içərisində biri xüsusilə diqqəti cəlb edir. XVI yüzildə Təbriz ustaları tərəfindən toxunulan bu ipək parçanın al-qırmızı yerliyi üzərində "qızılbaşlara" məxsus paltar geymiş gənc atlı təsvir olunmuşdur. O öz kəməndi ilə bir nəfəri tutub darta-darta harasa aparır. Əsir düşmüş şəxsin geyimi, başındakı araqçını, mil-mil **xalatı/xələti** və etnik tipi onun Orta Asiya xalqlarına mənsub olduğunu göstərir.

Araşdırmalar göstərmişdir ki, bu parça əvvəllər İstanbulda əntiq mallar alverçisi M.Kələkyanda (*olmuşdur, olmuşdu*). Sonralar məlum olmuşdur ki, o bu nadir parçanı bir neçə hissəyə bölərək müxtəlif şəxslərə (*satmışdır, satmışdı*). Hazırda bu parçanın bir hissəsi Kiyevdə Qərb və Şərq İncəsənəti Muzeyində, bir hissəsi isə Moskvadakı Şərq Xalqları Muzeyindədir. 3

M.Kələkyan əsrin əvvəllərində İstanbuldan Parisə köçdüyü zaman bu parçanın yeganə hissəsini özü ilə aparmış, bir müddət keçdikdən sonra isə Dekorativ Sənətlər Muzeyinə satmışdır. 4

Fransadakı toxuculuq sənəti örnəklərimizdən bəhs edərkən bu ölkənin zəngin muzey kolleksiyalarında nümayiş olunan xalçalarımızın olduğunu xüsusilə qeyd etmək lazımdır. Hazırda Azərbaycanın həm bədii, həm də texnoloji cəhətdən ən dəyərli xalçaları Parisin Dekorativ Sənətlər və Luvr muzey ..... .

Dünyanın ən zəngin muzeylərindən sayılan bu mədəniyyət ocağında toxuculuq sənətimizdən başqa, yüzlərcə saxsı, kaşı və bədii metal nümunələrimiz saxlanılır.

Burada saxlanılan hər sənət əsərimizin bu muzeyə özünəməxsus gəlibçatma tarixi vardır. Əgər orta əsrlərə aid edilən sənət nümunələrimiz muzey tərəfindən ayrı-ayrı

Luvr muzeyində nümayiş etdirilən və 1190-cı ilə aid edilən bürünc qab

şəxslərdən alınmışdırsa, qədim dövr abidələrimiz bura son 15-20 il ərzində İranda çalışan Qərbi Avropa alimləri tərəfindən gətirilmişdir. Bunların içərisində Cənubi Azərbaycanın Qaratəpə, Həsənli mahallarından və s. yerlərdən əldə olunmuş, miladdan öncə II-I minilliyə aid edilən fiqurlu saxsı qablar sənətşünaslıq baxımından çox dəyərli abidələrdən sayılır.

Luvr muzeyində bir neçə ədəd çox nadir sayılan *gümüş, mis* və *büründcdən* düzəldilmiş bədii *metal* sənəti nümunələrimiz də vardır. Bunların içərisində büründcdən düzəldilmiş, 1190-cı il tarixli orijinal fiqurlu bir qab xüsusilə diqqəti cəlb edir. **Bu sənət əsəri hazırda Luvr muzeyinin birinci mərtəbəsində, Şərq incəsənətinə aid edilən salonun tən ortasında, üstünə şüşə örtüyü keçirilmiş hündür bir kətil üzərində nümayiş etdirilir**. Uzundimdikli quşa bənzəyən bu bürünc qabın orijinallığı tək onun formasında deyil, həm də bəzəklərindədir. Qabın üzərindəki bəzəklər üç müxtəlifölçülü qurşaqdan və onların aralarındakı boşluqda yerləşdirilmiş medalyonlardan ibarətdir.

Rasim Əfəndi, sənətşünaslıq doktoru, professor,
"Azərbaycan incəsənəti" kitabından

✓ *Verilmiş parça mətndə hansı abzasdan sonra artırıla bilər?*
✓ *Qırmızı rəngdə verilmiş sözlərdən hansı daha düzgündür?*

IX–X əsr müəlliflərinin verdiyi məlumatdan aydın olur ki, Azərbaycanın xovsuz və xovlu xalçaları hələ 1400 il bundan öncə nəinki yüksək inkişaf mərhələsinə çatmışdır, hətta müstəqil bir sənət sahəsi kimi dünyada şöhrət qazanmışdır. IX–X əsrlərdə daha çox məşhurlaşan xalça sənəti, əlverişli təbii şəraitin, texniki proseslərin inkişafının, ən əsası isə, yerli xalq istedadlarının əməyinin nəticəsində meydana gəlmişdir.

Tədqiqatların nəticəsi göstərir ki, yüksək bədii keyfiyyətlərə malik xovsuz xalçaların (palaz, kilim, zili, vərni, sumax, məhfur və s.) istehsalı Azərbaycanda daha geniş yayılmışdır. Əsrlər boyu Azərbaycanın mahir ustalarının hazırladıqları zərif toxunuşlu xovsuz xalçaların, zili toxunuşlu çul, məfrəş, xurcun, çuval və s. bu kimi məmulatların müasir dövrdə dünyanın məşhur muzeylərində saxlanması, təbii ki, təsadüfi deyildir və bu sənətə olan maraqla əlaqədardır. Azərbaycan ərazisində palıd ağacı ilə qidalanan "qırmız" adlı bir böcək varmış. Xalçaçılar iplərini, cüvlahəçilər (parça toxuyanlar) isə parçalarını qırmızı rəngə boyamaq üçün həmin böcəkdən (*istifadə edərlərmiş, istifadə edərmişlər*). X əsr ərəb coğrafiyaşünaslarından İbn Hövqəl həmin böcəkdən bəhs edərkən belə yazır: "...O, əslində, öz ətrafına dolanan baramaqurduna oxşayır". Həmin əsrdə yaşamış Müqəddəsi bu haqda belə yazır: "Qırmız bir növ böcəkdir ki, torpaqda tapılır. Qadınlar onu bürünc qabların içinə yığıb təndirdə qurudurlar. Keçi tükündən istehsal edilmiş parçanı, kətanı və habelə ipək və yundan düzəlmiş parçaları həmin böcəklə boyayırlar". Həmin dövrdə Naxçıvan və Təbriz şəhərlərində istehsal edilən Səqlatun adlı parçaların böyük şöhrəti olmuşdur.

(Lətif Kərimovun "Azərbaycan xalçaları" kitabından)

✓ *Azərbaycanın xovsuz xalçaları haqqında məlumat toplayıb kiçik mətnlər tərtib edin və onları qəzet maketinizdə yerləşdirin.*

1. Sizcə, niyə Azərbaycanın əl sənəti nümunələri bu qədər maraq doğurur?
2. Erməni taciri Kələkyanın hərəkətinə münasibət bildirin. Parçanı hissələrə bölüb müxtəlif müzeylərə satmaqda onun məqsədi nə idi?
3. Cümləni tamamlayın. *Mətn aşağıda sadalanan xüsusiyyətlərinə görə ... üslubdadır.*

   1. _____ 2. _____ 3. _____

4. Mətnin giriş, əsas və nəticə hissələrini müəyyənləşdirin, onları tezis şəklində ifadə edin. Sonra xülasəsini yazın. Fərqləri göstərin.
5. *Beləliklə, XVI yüzilliyin yadigarı sayılan bu gözəl toxuculuq sənəti nümunəmizin eynilə üç hissəsi hazırda dünyanın üç müxtəlif muzeyində nümayiş etdirilir* cümləsini nömrələnmiş cümlələrin hansından sonra yerləşdirsəniz, ardıcıllığa xələl gəlməz?
6. *"Azərbaycan mədəniyyət inciləri Fransada"* mətni ilə *"Vatikandan gələn var"* mətnini məzmun, üslub və təqdimedilmə forması baxımından müqayisə edin. Hansı fərqi və oxşar cəhətləri gördünüz? Mətnlərdə hansı faktlar üst-üstə düşür?

7. "Örnək" sözünün leksik mənalarını müəyyənləşdirin və altından xətt çəkilmiş cümlədə onun yerində işlənib-işlənmədiyini deyin. *Örnək* və *nümunə* sözləri sinonim ola bilərmi?
8. Mətndəki *tikmə* sözünün mənasını deyin. Bu sözdəki vurğunun yerini dəyişməklə məna dəyişikliyini izləyin və cümlədə işlədin.
9. Uyğunluğu müəyyənləşdirin.

bir şey haqqında xəbərdarlıq, bilik

Məmulat ? ? Məlumat

fabrikdə istehsal olunmuş və ya başqa vasitələrlə istehsal olunmuş, hazırlanmış məhsullar

✓ *Məlumat sözünü xəbərdarlıq mənasında cümlədə işlədin.*

10. *Xalat* və *xələt* sözlərini məna baxımından fərqləndirin.
11. Mətndə çərçivəyə alınmış ifadəni (səh. 160, 2-ci abzas) daha düzgün işlədin.
12. Son abzasda kursivlə verilmiş sözlər termin hesab edilməlidirmi? Fikrinizi əsaslandırın.

13. *Sənətşünas* sözündə *-şünas* şəkilçisini *-çi* şəkilçisi ilə əvəz etsəniz, sözün mənası dəyişərmi?



✓ ***-şünas*** *şəkilçili bütün sözlərdə bu şəkilçini* ***-çı***[4] *ilə əvəz etmək olarmı?*



✓ *Özünüz də belə nümunələr tapıb fikrinizi əsaslandırın.*

14. Mətndə qırmızı rəngdə verilmiş cümləni tabeli mürəkkəb cümlə şəklində yazın.
15. Mətndə altından xətt çəkilmiş sözlərin qrammatik mənalarını deyin. Onları cümlədə termin kimi işlədin.
16. Mətndə (səh. 161) mötərizədə verilmiş feillərdən hansı işlənsə, düzgün olar? Fikrinizi izah edin.
17. Mətndə kursivlə verilmiş cümləni daha aydın və (səh. 160) sadə şəkildə yazın.
18. Mətndə (səh. 160) altından xətt çəkilmiş cümlədə elə dəyişiklik edin ki, *tikmə* sözü bir dəfə işlənsin.
19. Mətndə qırmızı rəngdə verilmiş sözün (səh. 161) qrammatik mənasını müəyyənləşdirin və onu daha uyğun olan sözlə əvəz edin.
20. Mətndə çərçivədə (səh. 161) verilmiş hissədə durğu işarələrini bərpa edin.
21. Mətndə göy rəngdə verilmiş cümlədə dırnaq işarəsinin düzgün qoyulub-qoyulmadığını deyin.
22. Mətndə 7-ci abzasın 2-ci cümləsində göy rəngdə verilmiş söz təkdə, yoxsa cəmdə işlənməlidir? Niyə?
23. Tünd şriftlə verilmiş cümlələrdə (səh. 161–162) hansı sözü əlavə etsəniz, fikir daha düzgün və dəqiq olar?

SORĞU

Mövzu → **Məktəb kitabxanaları və şagird**

Məkan → **Oxuduğunuz məktəb**

✓ *Sorğu ən azı 100 nəfər olmaqla 5–10-cu sinif şagirdləri arasında keçirilə bilər.*

Tutaq ki, sorğu nəticəsində məlum olmuşdur ki, 100 şagirdin 80 nəfəri məktəb kitabxanasının xidmətindən istifadə edir. 80 nəfər şagirdə aşağıdakı sualla müraciət olunmuşdur:

Hansı ədəbiyyata daha çox müraciət edirsiniz?

- bədii ədəbiyyata
- elmi ədəbiyyata
- publisistik ədəbiyyata
- qarışıq ədəbiyyata

✓ *Sorğunun nəticələrinə əsasən məktəb kitabxanasında daha çox müraciət olunan ədəbiyyatı müəyyən edəcəksiniz. Nəticələri faizlə göstərməyə çalışın.*

Nümunə:

- Bədii ədəbiyyat
- Elmi ədəbiyyat
- Publisistik ədəbiyyat
- Qarışıq ədəbiyyat



Nəticələri ümumiləşdirin və kiçik məlumat hazırlayın.

Unutmayın ki, bu diaqram bir nümunədir. Sizin nəticələriniz fərqli olacaq.

Qruplara bölünməklə hər qrup sorğu keçirəcəyi şəxslərə müxtəlif suallarla müraciət edə bilər.

Məsələn,

- *Hansı kitabxanaların xidmətindən daha çox istifadə edirsiniz?*
- *Hansı mövzuda əsərləri daha çox oxuyursunuz?*
- *Məktəb kitabxanasının fəaliyyəti sizi qane edirmi?* və s.

Sorğu keçiriləndən sonra nəticələr ümumiləşdirilməlidir. Cavablar ümumiləşdirildikdən sonra məktəb kitabxanalarının səmərəli fəaliyyəti barədə məlumat əldə edəcəksiniz.

Məktəbinizdəki kitabxana işçilərinin köməyi və iştirakı ilə "Məktəbdə kitabxanaların fəaliyyəti" adlı dəyirmi masa təşkil edin. Masaya Milli kitabxananın nümayəndələrini dəvət edin.

Əldə etdiyiniz nəticələr əsasında məruzə ilə çıxış edin.

Məruzə hazırlamaq üçün aşağıdakı plandan istifadə edə bilərsiniz.

Bölgələrdə yaşayan şagirdlər ərazidə fəaliyyət göstərən kitabxananın işçilərini dəvət edə bilərlər.

PLAN

1. Məruzənin mövzusu (*seçim sərbəstdir*)
2. Qoyulan problemlərin müəyyənləşdirilməsi
3. Mövzuya aid ədəbiyyat
   a) biblioqrafik məlumat
   b) ədəbiyyat üzərində işləmək (*qoyulan problemə digər müəlliflərin münasibəti və müqayisəsi*)
4. Məruzənin planını tutmaq
5. Məruzəni hazırlamaq
   a) giriş
   b) əsas hissə
   c) nəticə (problemlə bağlı ümumiləşdirmələr aparmaq)
6. Məruzənin edilməsi
7. Məruzənin müzakirəsi
8. Son söz (düzəliş və əlavələr, məruzəçinin müddəalar şəklində təklifləri)

Sizə filologiya üzrə fəlsəfə doktoru Nərgiz Cabbarlının məruzəsini (ixtisarla) nümunə kimi təqdim edirik. Nümunədən istifadə etməklə məruzə yazın.

Məruzənin mövzusu

Müasir Azərbaycan romanının dil və üslub xüsusiyyətləri

Məruzənin adı

"ÇAĞDAŞ DÖVRÜN ROMANI"

Mövzuya aid ədəbiyyat

- Şərif Ağayar. "Gülüstan"
- Vüsal Nuru. "Dorantağ"
- Seyran Səxavət. "Qaçaqaç"
- Əli Əmirli. "Ağdamda nəyim qaldı?"
- Sevindik Mehman. "İğtişaş"
- Aslan Quliyev. "Ağrı"
- Ramiz Abbaslı. "Ad oğrusunun adı"

Məruzənin planı

- Son dövrlərdə yaranan Azərbaycan romanının müsbət və mənfi cəhətləri
- Məzmununa görə romanların qruplaşdırılması
- Müasir romanlarda dil-üslub xüsusiyyətləri
- Tarixi fakt və bədiilik məsələləri
- Nəticə

Qeyd

Məruzə müzakirə edilmiş, müəyyən düzəlişlər və əlavələr daxil edilmişdir.

Giriş hissə

Son zamanlarda Azərbaycan ədəbiyyatında roman çoxluğu yaşanır. Bunun həm müsbət, həm də mənfi nəticələri var. Müsbət cəhət, 2015-ci il də daxil olmaqla, maraqlı və dəyərli roman nümunələrinin yaranmasıdır. Mənfi cəhət isə odur ki, nəinki povest, heç hekayəyə uyğun gəlməyən bədii mətnlər roman adı altında təqdim edilir. Roman elə bir janrdır ki, cəmiyyətdə baş verən hadisələrə əsaslı reaksiya məhz ondan gözlənilir. Son zamanlar ədəbi ictimaiyyətdə müzakirə predmeti olan məsələlərdən biri müasir romançıların daha çox tarixə müraciət etməsi, müasir cəmiyyətin problemlərinə hərtərəfli yanaşılmamasıdır. Çox az sayda yazıçıların yaradıcılığında bu gün, müasir dövr, müasir dövrün sosial məsələləri, mənəvi-psixoloji problemləri, cəmiyyətdə baş verənlər öz əksini tapır. Bu mənada istərdik ki, diqqəti roman yaradıcılığının ümumi mənzərəsinə, xüsusilə seçilən mövzulara, qaldırılan problemlərə yönəldək.

Əsas hissə

Tarixi romanları çıxarsaq, mövzu və qaldırılan problemlər üzrə dərc edilən romanları aşağıdakı şəkildə qruplaşdıra bilərik:

1. Qarabağ savaşı, cəbhə və onunla bağlı romanlar
2. Avtobioqrafik romanlar
3. Keçid dövrünün sosial problemlərinin, cəmiyyətin ictimai-siyasi ovqatının təsvirinə həsr edilmiş romanlar

Mövzu istiqamətindən başqa, roman janrının filoloji nöqteyi-nəzərdən uğradığı dəyişikliklər mütləq qeyd olunmalıdır:

1. Müasir romanlarımızda üslub qarışıqlığı diqqət çəkir. Ötən ilin ədəbi materialında da bu çox qabarıq hiss olundu. Bir roman daxilində realist, postmodernist, simvolist (məsələn, Şərif Ağayarın "Gülüstan"), yaxud magik-realist, mistik, postmodernist (məsələn, Vüsal Nurunun "Dorantağ") üslubların sintezinə cəhdlər edildi. Mətnlərin bədii dəyərinin yüksək qiymətləndirilməsinə (dil, təhkiyə orijinallığı, süjet, maraqlı obraz, xarakter və situasiyaların yaradılması və s.) baxmayaraq, sintez baş tutmadı. Üslubi xüsusiyyətlər bir-birini tamamlaya bilmədi, mətn daxilində, sadəcə, öz mövcudluqlarını qoruyub saxladılar.

2. Romanlarda, xüsusilə də avtobioqrafik romanlarda struktur baxımından pərakəndəlik, əsərin struktur modelinin əvvəlcədən müəyyən edildiyi şəkildə davam etdirilməməsi və ya tamamlanmaması kimi xüsusiyyətlər qabarıq görünür. Məsələn, sırf avtobioqrafik roman kimi yazılmağa başlayan bir əsərin sonradan portret-romana çevrilməsi (Seyran Səxavətin "Qaçaqaç"), yaxud hadisələrin təqdimində pərakəndəlik, süjet quruluşunda, hadisələr arasındakı əlaqələrin yaradılmasında boşluq (məsələn, Əli Əmirlinin, "Ağdamda nəyim qaldı?") ən çox diqqəti çəkən cəhət kimi göründü.

3. Tarixi faktla bədii materialın əlaqələnməsi prosesi bir çox əsərlərdə baş tutmadı. Belə ki bədii mətnə gətirilən tarixi fakt bədii materiala çevrilmədən elə fakt olaraq qaldı. Bu cəhət Qarabağla bağlı romanlarda daha çox hiss olundu. Hələ də illərlə açıq qalan bir problemin mövcudluğu özünü yenə də göstərdi: "Fakt bədii mətnə necə gətirilməlidir?" Bunun üçün müəlliflər bir-birinə oxşar metodlardan istifadə etdilər. Məsələn, Sevindik Mehman "İğtişaş" romanında tarixi faktlara müdaxilə etmədən onları haşiyə şəklində təqdim edir. Aslan Quliyev "Ağrı" romanında özünün topladığı materialları süjetə daxil etdiyi tarix müəllimi obrazının dili ilə sadalayır. Ramiz Abbaslının "Ad oğrusunun adı" romanında isə tarixi faktlar heç bir haşiyə olmadan müəllif adından mətnə daxil edilmişdir. Bədii mətnlə faktın uzlaşması, qarışması, faktın bədii mətnin bir ünsürünə çevrilməsi, roman materialına çevrilməsi ya baş vermədi, ya da çox zəif şəkildə alındı. Bədii mətndə isə fakt o zaman təsirli və dəyərli olur ki, mətnin ruhunda, ümumi ovqatında öz yerini tuta bilir və ədəbi materiala çevrilir.

Müasir romanlarımızda Qarabağ mövzusu yenə də ilk yerdədir. Sadəcə, təsvir və problemin qaldırılması istiqamətində müəyyən dəyişikliklər var. Belə ki Sevindik Mehmanın "İğtişaş" romanında olduğu kimi, müəyyən mətnlərdə cəbhədə baş verən hadisələrin realist təsvirinə üz tutulursa, müəyyən romanlarda diqqət artıq insan amilinə, insan faktoruna yönələrək təhlilə gətirilir.

Son illər ədəbiyyatda, xüsusilə roman yaradıcılığında avtobioqrafik səpki, memuar xüsusiyyətlərinin artımı müşahidə edilir. Memuar janrında yazılmış əsərlərə Sabir Əhmədlinin "Yazılmayan yazı", Əli Əmirlinin "Ağdamda nəyim qaldı?", Seyran Səxavətin "Qaçaqaç" avtobioqrafik romanlarını misal göstərmək olar.

"Qaçaqaç" romanı ötən ilin ən maraqlı nümunələrindən biri hesab oluna bilər. "Qaçaqaç" bir sıra cəhətləri: strukturu, yazıçının haqqında danışdığı insanlara həddindən artıq yaradıcı yanaşması, özünə də, haqqında danışdığı insanlara da təbəssümlə baxması, dilinin zənginliyi, poetikliyi ilə digər avtobioqrafik romanlardan fərqlənir.

Romanın dili, obrazlı ifadələrlə zənginliyi, yeni obraz yaratma cəhdlərinin uğurluluğu və ən əsası, bunun bütün roman boyu səpələnərək mətnin xarakterik xüsusiyyətinə çevrilməsi müsbət bir cəhət kimi qeyd edilməlidir.

Nəticə

Fikrimi onunla yekunlaşdırıram ki, Azərbaycan romanının bugünkü vəziyyəti ilk baxışdan nə qədər problemli təsir bağışlasa da, aparılan axtarışlar, reallaşdırılan eksperimentlər, ənənəvi romançılıqla üz-üzə gələn və bir çox məqamlarda toqquşan modern və postmodern baxış öz-özlüyündə artıq çox şey vəd edir.

"Azərbaycan" jurnalı, 2016-cı il, №5

5 BAHAR NƏĞMƏLƏRİ

(ixtisarla)

ORFOQRAFİYA

Hansı səhv yazılmışdır?

- qalereya – qalireya
- kolleksiya – kalleksiya
- reproduksiya – repraduksiya
- impressionizm – impressianizm

ORFOEPİYA

- [rəngkarlıq] – [.....]
- [dekorativ] – [.....]
- [kolleksiya] – [.....]
- [reproduksiya] – [.....]

Editi çoxdan tanıyıram. Paris görüşlərimizdə o mənim Luvr, Jorj Pompedu və Dekorativ Sənətlər Muzeyinə, məşhur əntiq mallar mağazalarına, eləcə də şəxsi k...lleksiyalara səfərlərim zamanı ən yaxşı bələdçim olub.

Müsyö Aynardın şəxsi arxivində saxlanılan "Mənzərə" adlı rəngkarlıq əsəri diqqətimi çox cəlb edirdi. **Çox qəribədir ki, əsərin nə arxasında, nə də ön hissəsində heç bir imza, tarix və qeyd yox idi. Əsərin kim tərəfindən çəkildiyi də bəlli deyildi.**

Açığını deyim, mən ilk dəfə 1996-cı ildə bu əsərlə üz-üzə gələndə böyük rəssamımız Səttar Bəhlulzadənin özəl rənglərini, dəstxətini, poetik əhvali-ruhiyyəsini hiss etdim. Lakin bu barədə birbaşa danışmağa ehtiyatlandım.

Məni bu əsərin haradan gəldiyi, kimdən alındığı və müəllifinin kim olduğu çox maraqlandırırdı. *Edit məni o saat başa düşdüyü üçün Aynardla söhbəti dərhal bu məcraya yönəltdi:*

– Müsyö Aynard, bu əsər fransız rəssamlarına aid deyil. Bu əsərin haradan gəldiyi, müəllifinin kim olduğu, kimdən alındığı barədə bizə məlumat verməyiniz yaxşı olardı...

– Əsərin haradan gəlməsi, müəllifinin kim olması barədə əlimizdə heç bir məlumat yoxdur. Onu bir vaxtlar Fransa Mədəniyyət Nazirliyində fotoqraf işləmiş Jorj adlı bir nəfərdən almışıq. Artıq o qocalıb, 80 yaşı var, yaxşı yeriyə bilmir... Məndə evinin telefon nömrəsi var. İstəsəniz, görüşüb söhbət də edə bilərsiniz. Çox maraqlı həmsöhbətdir.

Edit telefonu götürüb elə Aynardın şəxsi qal...reyasından Jorja zəng etdi, sabah axşam saat 6-ya görüş təyin etdi. Səhəri gün Jorjun evinə yollandıq. Edit vaxt itirməyib birbaşa mətləbə keçdi:

– Müsyö Jorj, cənab Aynardın şəxsi kolleksiyasında "Mənzərə" adlı bir tablo var. Əsəri ona siz təqdim etmisiniz. Deyə bilərsinizmi, həmin əsəri haradan əldə etmisiniz?

"Bahar nəğmələri"

– Əvvəla, deyin görüm, siz hansı ölkədən təşrif gətirmisiniz? Sizin bu əsəri təftiş edib araşdırmaqda məqsədiniz nədir? Və mən sizin üçün nə edə bilərəm?

Edit təbəssümlə dilləndi:

Jorjun suallarından istifadə etməklə Editin nə cavab verəcəyini təxmin edib mətnə əlavə edin.

_____

Jorj xeyli fikrə getdi sonra o biri otaqdan səliqə ilə şəkilli bir albom gətirdi

İndi gəlin bu albomu vərəqləyək Orada mənim Bakıya səfərim zamanı çəkilmiş şəkillər toplanıb

Edit gülə-gülə zarafata keçdi

Müsyö Jorj bu şəkillərin mətləbə nə dəxli var

O elə bil Editin nə dediyini eşitmədi. Ona görə üzünü ona tərəf tutub dedi:

– Siz çox böyük səhv edirsiniz. Şəkillərin bu problemin çözülməsində böyük rolu olacaq. Güman edirəm ki, ... (*cümləni tamamlayın*).

Sizcə, bu fotoşəkillər rəssamın müəyyənləşdirilməsinə kömək edə bilərmi?

Bir neçə səhifədən sonra Bakı mənzərələrindən müxtəlif görüntülərlə, Fransa və Azərbaycan mədəniyyət xadimlərinin görüşlərinin, eləcə də rəssam Toğrul Nəriman-

bəyovla, Səttar Bəhlulzadənin emalatxanalarının ümumi görünüşləri, əsərlərinin iri və xırda planda fotolarını gördüm. Bir anın içində hər şey aydınlaşdığı üçün mənim ovqatım tamamilə dəyişdi, özümdə yeni güc, enerji və nikbinlik hiss etdim. Jorj bunu o dəqiqə sezdi:

– Deyəsən, axtardığınızı tapdınız?

– Müsyö Jorj, çox sağ olun, çəkdiyiniz şəkillərin bizə çox böyük köməyi dəydi. İndi bizi bu rəngkarlıq nümunəsinin bura necə gəlib çıxması daha çox maraqlandırır. Bəlkə, bununla əlaqədar bir açıqlama verəsiniz.

– ...1969-cu ildə Moskvaya gəldik. Sonra bizi təyyarə ilə Moskvadan Bakıya yola saldılar. Axır ki, Bakını da gördüm. Çox maraqlı Şərq şəhəridir. Qədimliklə müasirliyin sintezində qurulub.

Sonra bizi şəhərin içində olan qədim bir şəhərə apardılar. Çox qəribə idi: ətrafı daşla hasarlanmış bu balaca şəhər əvvəllər necə vardısa, eləcə də qorunub saxlanılmışdı. Dolanbac küçələri sanki labirinti xatırladırdı. Nabələd adam bu əski şəhərdə aza bilərdi. Hə, yaxşı yadıma düşdü, əski şəhərin aşağı, dənizə yaxın hissəsində bir qala vardı. Onun tarixi, necə yaranması ilə əlaqədar bizə bələdçimiz ensiklopedik məlumat verdi. Həmin qala ilə bağlı bir-iki əfsanəni xatırlatdı.

Sizcə, Jorj şəhərin hansı məkanı haqqında danışırdı?

Müsyö Jorj elə bil birdən-birə yuxudan ayıldı:

– İki rəssamın emalatxanasında olduq. Fransanın ovaxtkı Mədəniyyət naziri Andre Moloronu T.Nərimanbəyovun yaradıcılığı əməlli-başlı ovsunlamışdı. Onun milliliklə bəşəriliyin sintezində çəkilmiş əsərləri dünya incəsənətindən çox **yaxşı başı çıxan** naziri valeh etmişdi. Fransız rəssamları Sezanın, Renuarın, Qogenin, Van Qoqun, Modilyaninin orijinal əsərlərini görmüş bu adam **dil boğaza qoymayıb** hey onu tərifləyirdi.

Andre Moloro rəssamın rəylər kitabı ilə maraqlandı və kitaba öz tarixi fikirlərini həkk etdi: "Toğrul Nərimanbəyovun əsərləri böyük dəyərə malikdir. Onlar özlərində Şərq və Qərb mədəniyyətinin nadir sintezini yaradır".

– Rəsmi nümayəndə heyətimizin emalatxanasında olduğu ikinci rəssam bax bu idi. Onun adı, soyadı yadımda qalmayıb. Çünki o heç bir əsərinə imza atmamışdı. Çəkdiyi əsərlərinin repr...duksiyalarını da dönə-dönə nəzərdən keçirmişəm. Heç birində imzası yoxdur. Amma çox yaddaqalan xarakterik sifəti vardır.



O, əsərlərini emalatxananın divarı boyu düzmüşdü. Burada xoşa gələn, ruhu yerindən oynadan əsərlər olduqca çox idi. Ona görə də onların hamısını lentə aldım.

Andre Moloro bu əsərlərin cazibəsindən sanki sehrlənmişdi. Mən həmin anı lentə alanda ancaq bu sözləri eşitdim: "Realizm ab-havasından formalaşmış bu rəssam elə bil fransız impressi...nizm məktəbini keçib gəlib".

Beləliklə, bu emalatxanada da olan görüşümüz başa çatdı. Biz yır-yığış edib getməyə hazırlaşanda bir də gördüm, rəssam əlində tablo düz qarşımda dayanıb. O, əsəri mənə uzadıb fransızca bilmədiyi üçün tərcüməçinin vasitəsilə bu sözləri söylədi: "Mən bu əsərimi sənə bağışlayıram. Ona görə ki çox işlədin, həm də xoşuma gəldin".

Düzü, rəssamın bu hərəkətindən məmnun qaldım. Mən həmin əsəri Parisə gətirə bildim.

– Sizin bu söhbətlərinizdən tam aydın oldu ki, Parisdə Aynardın şəxsi rəsm kolleksiyasında qorunub saxlanan "Mənzərə" əsəri azərbaycanlı rəssam Səttar Bəhlulzadəyə məxsusdur, – deyə mən öz fikrimi bildirdim. – Mən elə əvvəlcədən, bu şəkilləri görmədən söyləmişdim ki, dəstxət, rənglər Səttar Bəhlulzadəyə məxsusdur. Amma Səttar yaradıcılığını dərindən bələd olan Toğrul Nərimanbəyovun fikirlərinə də ehtiyac hiss edirəm.

...Toğrul Nərimanbəyovla zəngləşib görüşdük, Aynardın şəxsi rəsm qalereyasına getdik. Qalereyada "Mənzərə" əsərini görən kimi dedi:

– Heç bir şübhə yoxdur, bu, Səttarın əsəridir. Özü də ötən əsrin 50-ci illərinin sonu, 60-cı illərinin əvvəllərindəki yaradıcılığının məhsuludur. Səhv etmirəmsə, bu əsərin adı "Mənzərə" yox, "Bahar nəğməsi"dir.

Özümdən asılı olmayaraq, birdən-birə **beynimdə/beyinimdə** belə bir fikir yarandı: "Axı bu əsərlərin orijinalları Səttarın öz vətənindədir. Bəs bunlar haradan peyda olub ortaya çıxdılar?" Elə beynimdə dolaşan həmin sualla da Toğrula müraciət etdim. Cavabı birmənalı oldu:

– Rəssamlıq sənətində belə şeylər çox olur. Bir də görürsən ki, rəssam eyni tablonu, mənzərəni, portreti bir neçə variantda işləyir. Daha çox xoşuna gələni özündə saxlayıb o birilərini dost-tanışa hədiyyə edir. Ya da ki əntiq mallar mağazasına verib satdırır. Dahi dünya rəssamlarının, eləcə də mənim yaradıcılıq həyatımda belə şeylər çox olub.

Möhbəddin Səmədin "Adi və qeyri-adi Səttar" kitabından

1. Mətni oxuyun, üslubunu müəyyənləşdirin, əsas mətnlə əlaqələndirin.

– Bu gördüyümüz mənzərələri respublikanın hansı guşələrində çəkmisiniz?

O, ani fikrə gedib sonra tabloların fırçaya alındığı yerlərin adlarını sadaladı:

– Onların arasında Abşeronda, Qubada, Dəvəçidə, İsmayıllıda, Şamaxıda, Göygöl tərəflərdə, eləcə də Naxçıvanda, Şuşada, Salyanda kətana köçürülənlər var... Bilirsiniz, hər yerdə həm gözəllik var, həm də ecazkar musiqililik. Yenə təkrar edirəm, bunları görüb qavramaq üçün, sadəcə olaraq, yeni göz və qulaq gərəkdir.

Rəssamın tablolarında gördüyüm qeyri-ənənəvi və qeyri-adi rəng çalarları, xüsusən ağ, çəhrayı, sarı rənglər diqqətimi daha çox çəkdiyindən məndə o rənglər barədə bilgi əldə etmək marağı yaranmışdı. Ona görə soruşdum:

– Səttar müəllim, sizin işlətdiyiniz rənglər qeyri-ənənəvi rənglərdir. Siz bu rəngləri necə əldə edirsiniz?

Cavabı birmənalı oldu:

– Mən heç bir rəng-zad kəşf etməmişəm. Əsərlərimdə gördüyünüz bu rəngləri Azərbaycanın ayrı-ayrı yerlərinin təbiətində görmüşəm. Sonra on, on beş rəngi bir-birinə qatıb həmin çalarları almışam. Necə deyərlər, bir növ təbiəti yamsılamışam...

✓ *Rəssamın Azərbaycan təbiəti haqqında dediklərinə münasibət bildirin. Azərbaycan təbiətinin rəngləri sizdə hansı təəssüratı oyadır?*

2. Mətndən (səh. 170-173) çıxış edərək hadisələrin harada cərəyan etdiyini deyin.
3. Mətnə əsasən azərbaycanlı rəssamın tablosunun Müsyö Jorjda olmasının ən azı iki səbəbini göstərin.
4. Rəssamlıq əsərləri yazının hansı tipi hesab edilməlidir?
5. Necə bilirsiniz, rəsm əsərləri insanın daxili aləminin, xarakterinin açılmasında bir vasitə ola bilərmi?
6. *Bakı qədimliklə müasirliyin sintezində qurulub* dedikdə nə başa düşürsünüz? Bakı şəhərinin müasir görkəmi haqqında nə deyə bilərsiniz? Hazırda qədimliklə müasirliyin sintezi özünü göstərirmi?
7. Mətnin (səh. 170-173) üslubunu müəyyənləşdirin, fikirlərinizi əsaslandırın.

8. İzahlara əsasən sual işarəsinin yerinə yazılacaq sözləri müəyyənləşdirin.

Suyun axdığı yataq, yol ?

İnsan başına gələn həyəcanlı hadisə ?

Uyğun sözü müəyyənləş-dirəndən sonra sinonimini tapın.

9. Mətndə çərçivədə verilmiş sözləri (səh. 171-172) müvafiq sözlərlə əvəz edin.
10. Qırmızı rəngdə verilmiş cümlədə hansı sözlər termin kimi işlənə bilər? Həmin sözlərin mətndə daşıdığı məna ilə terminlərin mənasını müqayisə edin.
11. Fərqləndirilmiş cümlədən (səh. 170) üsluba ağırlıq gətirən sözləri çıxarın, dəqiqləşdiri-ci ədatlardan uyğun gələnini işlətməklə cümlədəki fikri düzgün ifadə edin.
12. Tünd şriftlə verilmiş ifadələri (səh. 172) eyni mənanı verən daha uyğun ifadələrlə əvəz edin.
13. *Andre Moloro rəssamın rəylər kitabı ilə maraqlandı və kitaba öz tarixi fikirlərini həkk etdi* cümləsində hansı söz leksik normanın pozulması hesab edilməlidir? Həmin sözü daha düzgün ifadə ilə əvəz edin.
14. Uyğunluğu müəyyənləşdirin.

aşırım	dağın, təpənin döşündən gedən köndələn, əyri-üyrü dolama yol
uçurum	çox dolaşıq, əyri-üyrü, düz olmayan
dolay	dağın aşıb keçmək üçün yararlı yeri, dağın beli
dolanbac	çox sərt, dik və dərin yamac

✓ *Sıradakı sözlərdən hansı artıqdır?*

✓ ***Uçurum** sözünü ziddiyyət və fəlakət mənalarında cümlədə işlədin.*

15. 176–177-ci səhifələrdəki şəkillərə diqqətlə baxın, onları sözlə təsvir etməyə çalışın. Nöq-tələrin yerinə lazım gələn sözləri (*mozaika, freska, natürmort, qrafika, marina, peyzaj*) artırıb uyğunluğu müəyyənləşdirin.

... fransızca *rəngli qurama* deməkdir. Eyni və ya müxtəlif rənglərdə şüşə, daş hissəciklərdən və plitələrdən hazırlanmış incəsənət nümunəsidir. ... daxili divarlarda, döşəmələrdə və tavanda istifadə oluna bilər. Naxçıvanda XVIII əsrdə inşa olunan Zaviyə məscidi adlandırılan binanın giriş qapısı və pəncərələri, məşhur Şəki Xan sarayı rəngli hissəciklərlə bəzədilmişdir.

... latın dilində olan *marinus* sözündən olub, dəniz mənzərələrinə həsr olunmuş əsərlərə deyilir.

Bu janr XVII əsrdə Hollandiyada yaranmışdır.

... əsərləri mövzu etibarilə müxtəlif olur. Bura təbiətin müxtəlif guşələrinin: dağ, dərə, çay, meşə, səhra, çəmən və s. təsviri; təbiət hadisələrinin: tufan, ildırım, yağış, qar; şəhər və sənaye mənzərələrinin təsviri daxildir.

... fransızca *cansız təbiət* deməkdir. Bu janra daxil olan əsərlərin mövzusunu müxtəlif predmetlər: məişətdə işlənən əşyalar, evi bəzəyən qablar, gül dəstələri, meyvə, ovlanmış quşlar və s. təşkil edir. Bu janrda əsl rəssam dövrünün ruhunu, öz hiss və duyğularını çox gözəl ifadə edə bilər.

... italyanca *nəm* deməkdir. Suvağı qurumamış divarda sulu boyalarla işlənən sənət növüdür. Qədim memarlıq abidələri belə rəsmlərlə bəzədilirdi.

... yunanca *rəsm, şəkil* deməkdir. XIX əsrdə ... əsasını yalnız cizgilər, yaxud ağ və qara xətlər təşkil edirdi. Karandaşla işlənilən rəsm, əsasən, kağızda, bəzən isə parça üzərində çəkilir. Azərbaycanda onun ilk nümunələrinə Qobustan qaya rəsmlərində, Təbriz miniatür məktəbi sənətkarlarının yaratdıqları əsərlərdə və rəssamların qrafik lövhələrində rast gəlinir.

16. Mətndə üslubi səhvləri düzəldin.

Toğrul mənə Səttar Bəhlulzadənin başqa bir əsərini də Parisdə şəxsi qalereyaların hansındasa, hə, yaxşı yadıma düşdü, Lüvinin qalereyasında olduğunu söylədi. Dedi ki, "Qoca ağac" adlanan həmin əsər də ötən əsrin 50-ci illərinin axırlarında çəkilib. Üstündə Səttarın imzası olmadığına görə qalereya sahibi onu həmişə tamaşaçılara Martiros Saryanın əsəri kimi təqdim edir. *Bir dəfə mən Səttarın yaradıcılığı ilə bağlı Moskvada çap edilmiş bir kitabı götürüb həmin qalereyaya getdim.* Həmin əsərin Səttar Bəhlulzadəyə aid olduğunu bildirib, onun adı ilə təqdim olunmasını tələb etdim. Qalereya sahibi bu faktdan bərk qorxub həyəcan keçirməyə başladı. Üzr istəyib yaxın vaxtlarda həmin əsəri həqiqi müəllifinin adı ilə təqdim etdiyini bildirir. **Amma çox qəribədir ki, sonralar həmin qalereyaya baş çəkəndə "Qoca ağac" adlı əsəri eksponatların içərisində görmədim.**

(Möhbəddin Səməd, "Adi və qeyri-adi Səttar" kitabından)



"Qoca ağac"

✓ *Qalereya sahibinin qorxmasına səbəb nə idi?*

17. Mətnin ədəbi dilin normalarına uyğun olub-olmadığını əsaslandırın.
18. Mətndə (səh. 170) tünd şriftlə verilmiş cümlələri sintaktik təhlil edin. Həmin cümlələrdə elə dəyişiklik edin ki, ——— ~~~ - - - - - ~~~ ═══ sxeminə uyğun olsun. Sizcə, tünd verilmiş birinci cümlədə hansı norma pozulmuşdur?
19. Mətndə (səh. 171) çərçivəyə alınmış hissədə durğu işarələrini bərpa edin.
20. Mətndə (səh. 171) altından xətt çəkilmiş cümləni düzgün yazın.
21. Mətndə (səh. 173) göy rəngdə verilmiş sözün hansı yazılış forması düzgündür? Fikrinizi əsaslandırın.
22. Mətnin dialoqlar olan müəyyən bir hissəsini seçin, vasitəsiz nitqli cümlələri vasitəli nitqli cümlələrə çevirin.
23. Mətnin ilk cümləsini elə dəyişin ki, □ ← ○ sxemə uyğun olsun.
24. *Bir anın içində hər şey aydınlaşdığı üçün mənim ovqatım tamamilə dəyişdi, özümdə yeni güc, enerji və nikbinlik hiss etdim* cümləsi haqqında fikirlərdən hansılar səhvdir.
    1. Tabesiz mürəkkəb cümlədir.
    2. Həmcins xəbərli sadə geniş cümlədir.
    3. Tərkib hissələrdən birinin mübtədaları həmcinsdir.
    4. Birinci tərkib hissədə söz sırası pozulmuşdur.
    5. Birinci tərkib hissədə işlənmiş feili sifət tərkibi cümlənin məqsəd zəifliyidir.
25. Mətndə (səh. 178) tünd şriftlə verilmiş cümlədə frazeoloji birləşməni cümlənin məzmununa xələl gətirməyən müvafiq sözlə əvəz edin.
26. Mətndə (səh. 178) ilk cümləni tabeli mürəkkəb cümlə şəklində, 2-ci cümləni sadə cümlə şəklində yazın.
27. Mətndə (səh. 178) kursivlə verilmiş cümləni həmcins xəbərli cümlə şəklində yazın.

28. 176–177-ci səhifələrdə verilmiş şəkillərdən birini və yaxud “Qoca ağac” tablosunu seçməklə (*şəkil başqa mənbələrdən də seçilə bilər*) elə mətn tərtib edin ki, ondan ifadə mətni kimi istifadə etmək olsun.
    - İlk növbədə plan tərtib edin.
    - Əlavə məlumat toplayın.
    - Plan əsasında mətn hazırlayın.
    - Mətndə sitatlardan istifadə edin.
    - Mətnin 100-120 sözdən ibarət olmasına çalışın.

    ✓ *Yazacağınız mətnin üslubunu özünüz müəyyənləşdirin.*

6 İLDIRIMLI YOLLARLA

(ixtisarla)

Geniş yaradıcılıq diapozonuna malik bəstəkar Qara Qarayevin yazdığı əsərlərdə Azərbaycan mövzusu xüsusi üstünlük təşkil edir. Bu əsərlərin məzmun sadəliyi və aydınlığı xalq müsiqisinin möhkəm bünövrəsinə əsaslanır. Bəstəkarın sonrakı dövr yaradıcılığında yazdığı "Vyetnam süitası", "Albaniya rapsodiyası", "Don Kixot simfonik qravürləri"ndə dünya xalqlarının həyat və talelərindən daha çox bəhs olunur. Bu əsərlərdə azərbaycanlı bəstəkarın dünya xalqlarının həyat və məişətlərinə, etnoqrafiya və musiqi folkloruna yaxından bələdliyi **açı(q, ğ)**-aydın özünü göstərir.

Dahi Nizaminin eyniadlı poeması əsasında yazılmış "Yeddi gözəl" baleti musiqi sənətinin ən böyük nailiyyətlərindən biridir. Bu baletdə bəstəkar milli musiqinin məqam-intonasiya sistemi və janr xüsusiyyətlərindən məharət və **yaradıcılı(q, ğ)la** istifadə etmişdir.

"İldırımlı yollarla" baleti həmişə müasir olan əbədi bir mövzuya ✹ Cənubi Afrika xalqlarının irqçiliyə və müstəmləkəçiliyə qarşı apardığı mübarizəyə həsr edilmişdir. Əsər maraqlı və cəlbedici süjet üzərində qurulmuşdur. **Ağ qız Sari və mulat oğlan Lenni bir-birini odlu məhəbbətlə sevir.** Lakin irqçilik siyasəti bu gəncləri qovuşmağa qoymur.

Baletin ikinci süjet xətti qaralar və mulatlar arasında onların zülmkar ağalarının süni surətdə yaratdığı düşmənçilik siyasətini əks etdirir. Lenni qara Mako ilə birlikdə mulatlar arasındakı süni düşmənçiliyi aradan qaldırmağa, irqçilik siyasəti yürüdənlərə qarşı mübarizə cəb-

ORFOQRAFİYA

➤ Göy rəngdə verilmiş sözlərdə buraxılmış hərfləri düzgün yazın.

ORFOEPİYA

➤ bünövrə – [.....]
➤ sonrakı – [.....]
➤ mövzu – [.....]
➤ rövnəq – [.....]

həsini möhkəmləndirməyə çalışır. Nəticədə Lenni ilə Sarinin faciəsi mulatları və qaraları birləşdirir, onları intiqama və azadlığa səsləyir. Bu mübarizəyə Mako rəhbərlik edir. O, daim azadlığa can atır.

Əsərdə Sari və Lenninin faciəli məhəbbət macərası Cənubi Afrika xalqlarının həyatı, məişəti, adəti və mübarizəsi fonunda verilmişdir. Qara Qarayevin ecazkar musiqisi hər bir obrazın ideya və fikrini, ehtiras və hissini, eləcə də xalq həyatını, məişətini, bu xalqın sosial ədalətsizliyə qarşı ardıcıl mübarizəni bütün reallığı ilə göz önündə canlandırır.

Bəstəkarın sənət dostu, xalq artisti mayestro Niyazi deyərdi: "Bu gözəl sənətkarın rövnəqli boyalarla dolu olan parteturalarını səsləndirmək sahəsində birlikdə apardığımız çox zaman yorucu, lakin həmişə fərəhli, arasıkəsilməyən sevinc saatları bizi birbirimizə bağlayır. "İldırımlı yollarla" müasir və **coş(q, ğ)un** ilhamlı rəssamın fırçasından çıxmış son dərəcə əzəmətli bir tablodur. Həmin musiqidə yeni söz deyən, düşünməyə, həyəcanlanmağa və sevməyə məcbur edən bəstəkar Qarayevin istedadı bu tabloda özünü parlaq şəkildə göstərmişdir. Onun bu gözəl əsəri qəlbinin qanı ilə yazan şairin ürək nəğməsidir".

Qara Qarayev dinləyicilərə ilham və ehtirasla müraciət edib deyir:

Dünyanın övladları, zəmanəmizin nəğməsini oxuyun! Bu, nifrət nəğməsi olmamalıdır. Oxuyun, məhəbbət nəğməsi oxuyun!

Balet boyu səslənən bu sözlər azadlıq və bərabərlik, insanlar arasında sülh və dostluq ifadə edən bir himn kimi əsərin məzmununu açıb göstərir...

Möhbəddin Səmədin "Yaşıdlarımızın yaddaşı" kitabından

1. Qara Qarayevin baletin finalındakı çağırışını "Sevgi ağacı" mətninin ideyası ilə əlaqələndirin. Mətnin hansı abzasında tolerantlığa çağırış motivləri vardır?
2. Qara Qarayevin "İldırımlı yollarla" baletindən bir hissəyə qulaq asın. *Qara Qarayevin "İldırımlı yollarla" baleti bəşəriliyin və milliliyin sintezi üzərində qurulub desək,* bir cümlə ilə bu əsərə qiymət verə bilərikmi? Bu fikirlə razısınızmı?
3. Cümləni tamamlamaqla tapşırığı yerinə yetirin.

   "Mətndə "İldırımlı yollarla" baleti ..... bənzədilir".

   ✓ *Həmin bənzətməyə münasibət bildirin. Bu bənzətmə ilə razısınızmı?*

   ✓ *Bu, mətnin bədii üslubda olduğunu deməyə əsas verirmi? Fikirlərinizi əsaslandırın.*
4. Mətndə hansı fikir yoxdur?
   - "Don Kixot simfonik qravürləri"ndə bəstəkarın musiqi folkloruna yaxın bələd olduğu aydın olur.
   - Maestro Niyazi "İldırımlı yollarla" baletini rəssam fırçasından çıxmış əzəmətli tabloya bənzədir.
   - Maestro Niyazi "İldırımlı yollarla" baletini "sülh və dostluq himni" adlandırır.
   - "İldırımlı yollarla" baletinin qəhrəmanları ağ qız Sari və mulat oğlan Lennini məhəbbəti irqçilik siyasətinin qurbanı olur.

5. Uyğunluğu müəyyənləşdirin.

Rapsodiya	?	*a.* Orkestr üçün yazılmış böyük musiqi əsəri
Balet	?	*b.* Çoxşaxəli musiqi əsərinin bütün partiyalarının məcmusu
Simfoniya	?	*c.* Xalq mahnı və rəqsləri mövzusunda yazılmış instrumental əsər
Partitura	?	*d.* Musiqinin müşayiəti ilə icra edilən rəqs və mimik hərəkətlərdən ibarət müəyyən teatr tamaşası

6. Məntiqi ardıcıllığı tamamlayın.

Nümunə:











7. Mətnin son abzasında Niyazinin sözlərinin dırnaq işarəsi içərisində verilməsinin səbəbini izah edin.
8. Mətndə ulduz işarəsi qoyulmuş yerə uyğun durğu işarəsi artırın və səbəbini izah edin.
9. Mətndə tünd şriftlə verilmiş cümlədə qrammatik normanın pozulduğu halı müəyyənləşdirin.
10. 3-cü abzasın son iki cümləsini elə dəyişin ki, aşağıdakı sxemə uyğun olsun:

○ + sa da, + □

11. Mətndən iki feil və iki isim seçib onların hər birinə məxsus mümkün şəkilçiləri ardıcıllıqla artırın.
12. Altından xətt çəkilmiş cümlədə xəbərə *-lar* şəkilçisi artırılmalıdırmı? Fikrinizi əsaslandırın.

✓ *Həmin cümlədə xəbərə **-lar** şəkilçisi artırmalısınız. Bu zaman cümlədə hansı dəyişikliyi etmək lazımdır ki, qrammatik norma pozulmasın.*

11. Verilmiş söz, söz birləşmələri, cümlələr və sxemlərdən istifadə etməklə publisistik üslubda yazılmış mətni bərpa etməyə çalışın. Sözləri əlaqələndirmək üçün şəkilçiləri düzgün artırın.

Sona xanım Axundova

Onun barəsində ilk dəfə ədəbiyyatşünas-alim Şamil Qurbanovun vaxtilə qələmə aldığı kiçik bir yazıda oxumuşdum. Müəllifin təqdimatı çox cəzbedici idi:

1910-cu il, küləkli, və, şaxtalı, qış, gün. Qara, çadra, bürünmək, ürkək, və, məsum, bir, qız, Bakı, tozlu, küçə, ilə, işıq, və, səadət, ummaq, qız, məktəb, sarı, getmək. Qorxu, və, həyəcan, ürək, quş, ürək, təki, döyünmək, hər, hənirti, dayanmaq, yeni, yol, davam etmək.

13 yaşı təzəcə tamam olmuş bu qızcığaz iki yolayrıcında qalmışdı: ya məktəbə gedib savadlı qızlardan biri olmaq, ya da evdə dörd divar arasında oturub ömür-gün çürütmək. Dünən məhəllə qoçuları onu yoldan qaytarıb: “Bir də məktəbə getsən, özünü ölmüş bil ha!” – demişdilər.

Cavan, qız, bu, xəbərdarlıq, əhəmiyyət verməmək: “Yox, məktəb getmək, ölmək, də, bu, yol ölmək”, – deyə ürək, öz, qərar, vermək.

Bu, qız, Azərbaycan, ilk, ali, təhsilli, xanım, biri, ötən, əsr, yaşayıb-yaratmaq Sona xanım Axundova idi...



13 yaş, olanda, valideynlər, ona, Bakı, Şəhər, Bələdiyyə, İdarə, yanı, qız, məktəb qoymaq. Bu, məktəb, bitirmək, sonra, isə, "Müqəddəs Nina" məktəb, təhsil almaq. O dövr, fortepiano, ifaçılıq, da, maraq göstərmək.

Sona Axundovanın qətiyyətli olmasında sevimli müəllimi Şəfiqə xanım Əfəndizadənin də böyük rolu olub. O, təhsil almaq, oxumaq istəyən gəncləri, xüsusilə də qızları başına yığaraq deyirdi: "Cəmiyyətimizin gələcəyi sizin təhsilinizdən çox asılıdır. İndi siz azsınız, amma çox keçməz, yüzlərlə bacınız qaranlıq daxmalardan... çıxıb sizin arxanızca gələrlər".

Sona Axundova, hələ, qızlar, məktəb, oxuyarkən, şeir, böyük, maraq göstərimək. O, ilk dəfə, öz, şeir, Şəfiqə xanım Əfəndizadə, təkid, ilə, Sultan Məcid Qənizadə, oxumaq. Azərbaycanlı, qız, şeir, yazmaq, qocaman, yazıçı, heyrətə gətirmək.

Vətən haqqında yazılmış şeir Sona Axundovanın qəlb harayı idi:

...Vətənin qədri əzizdir Sonaya canı kimi,
Sevər öz yurdunu qəlbindəki imanı kimi,
Vətəni sevəcəkdi əhd ilə peymanı kimi,
Olmaram razı əgər cəhldə qalsa vətənim,
Vətənim qalsa əgər cəhldə, yansın bu tənim.

Xatırladaq ki, Sona xanım Axundova zəmanəmizin böyük bəstəkarı Qara Qarayevin və tibb elmləri doktoru cərrah Mürsəl Qarayevin anasıdır. Bu, ziyalı və kübar bir xanımın Azərbaycan xalqına, mədəniyyətinə, elminə, səhiyyəsinə bəxş etdiyi hünər dastanıdır. Bu hünər dastanının şah əsəri isə iki məşhur övlad olub. İlk şeirini vətəninə həsr edən, onun yolunda hər çətinliyə sinə gərməyi bacaran Sona xanımın Azərbaycana, vətənə xidməti hər birimizə örnək ola biləcək bir fədakarlıqdır!

(Flora Xəlilzadə, "İşıq" jurnalından, 2015-ci il, №1)

✓ *Mətndə hansı fakt daha çox xoşunuza gəldi?*

✓ *Mətni bərpa etdikdən sonra onu qəzetinizdə verin.*

7 AZƏRBAYCANIN MİLLİ GEYİMLƏRİ

Şəkillər "Azərbaycan Respublikası Milli Atlası"ndan götürülmüşdür.

✓ *Şəkillər əsasında məlumat toplayıb kiçik mətnlər tərtib edin.*

Bakı geyimləri

Qarabağ geyimləri

✓ *Sonra onları birləşdirib vahid bir mətn tərtib edin.*

✓ *Növbəti səhifələrdə verilmiş qısa məlumatlardan və lüğətdən istifadə edin.*

✓ *Seçiminiz əsasında hər hansı bir xalqın geyimlərinin təsvirini verin, milli geyimlərimizlə müqayisə edin.*

Bakı geyimləri.
Bayram libası

Naxçıvan geyimi

Şamaxı geyimi

Azərbaycan milli geyimləri azərbaycanlıların maddi mədəniyyətini, onlara xas olan xüsusiyyətləri əks etdirir və xalqın sarsılmaz etnik nişanələrinə aiddir.

Kann festivalında Heydər Əliyev Fondunun dəstəyi ilə “Azərbaycan Milli Geyimləri gələcəyə doğru” adlı dəfilə keçirilmişdir. Həmin dəfilədə, əsasən, Qarabağ milli geyimləri nümayiş olunmuşdur.

Xalqın tarixini, onun mədəniyyətini öyrənmək üçün qiymətli mənbələrdən biri olan geyimlər xalqın milli xüsusiyyətini əks etdirməklə yanaşı, sabit etnik əlamətlər sırasına daxildir. Geyimlər xalqlar arasında mədəni-tarixi əlaqə və qarşılıqlı təsir məsələlərini müəyyənləşdirmək işində yardımçı material rolunu oynamaqla xalqın təsərrüfat sahələrinin səviyyəsindən və coğrafi şəraitdən asılıdır.

Qadın geyimləri daha rəngarəng və zəngin olmuşdur.

Arxalıq

çiyinüstü, uzun, beli ensiz gödəkcədir.

Üst köynəyi

qanovuz və ipək parçadan tikilən çiyinüstü, düz biçimi, çiyni tikişsiz və rəngbərəng qoltuqaltından ibarət geyimdir.

Ləbbadə

tirmə, məxmər və s.-dən tikilən çiyinüstü üst gödəkcəsidir. Bu geyim sırıqlı astarda olur.

Güləcə

tirmə və məxmərdən tikilən qadın çiyinüstü üst geyimidir. Bu geyim astarlı olur.

Çəpkən

tirmə, məxmər və ipək parçadan tikilən çiyinüstü, astarlı və yalançı qollara malik olan qadın üst geyimidir.

Baharı

əsasən, məxmərdən tikilən, sırıqlı astarda qadın çiyinüstü üst geyimidir.

Kürdü

tirmədən, məxmərdən tikilən qadın üst geyimidir. Bu geyim xəz dəri və sıx naxışlarla bəzədilir.

Kişi milli geyimləri isə daha ciddi görünüşə malik olub, üst köynək, arxalıq, qəba və çuxadan (çiyinüstü) ibarət idi.

Üst köynəyi

çiyinüstü, düz biçimi, çiyni tikişsiz və rəngbərəng qoltuqaltından ibarət geyimdir.

Arxalıq

ipək, atlaz, kəşmir, mahud, satin və başqa parçalardan tikilən çiyinüstü, beli uzun, ensiz gödəkcədir.

Qəba

əsasən, tirmədən tikilən kişi çiyinüstü üst geyimidir.

Çuxa

içi tüklü qoyun dərisindən tikilmiş düyməsiz, naxışlı şubadır.

Milli geyimlər, milli adət-ənənələr, mədəniyyət, milli mətbəx, ornamentlər, naxışlar, maddi-mənəvi sərvətlər hər bir xalqın etnik nişanəsidir.

Milli mənsubiyyətindən, irqindən, dilindən asılı olmayaraq, hər bir xalqın milliliyinə hörmət və qayğı ilə yanaşmaq hər kəsin borcudur.

İnsanlar arasında qarşılıqlı anlaşma, əməkdaşlıq, dostluq olmasa, inkişaf və irəliləyiş də olmaz.

Tarixi İpək yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikasında 2016-cı ili “Multikulturalizm ili” elan etmişdir.

QƏZET MAKETİNİN SXEMİ





Əziz şagirdlər!

Qəzet maketi hazırlamaq üçün sizə təqdim olunan bu sxem bir nümunədir. Siz layihə işini həyata keçirərkən təhsil aldığınız məktəbin şərait və imkanlarını nəzərə almaqla maketi istədiyiniz formada hazırlaya bilərsiniz.

Əziz şagirdlər!

Qəzet maketinizin hazır forması aşağıdakı şəkildə olmalıdır.

Qəzetin adı, tarixi, yerləşdirilən mətn və şəkillər, məlumatlar və s. şərtidir. Burada əks olunan yazılar, məlumatlar sizin təxəyyülünüzə, işinizin xarakterinə, yazılarınıza və s. uyğun olacaqdır:

GÜNƏŞ

№1 **Aylıq qəzet** **26 sentyabr 2017-ci il**

2017-ci il sentyabr ayının 20-də məktəbin rəhbərliyi 9-11-ci siniflərlə görüş keçirmiş, olimpiadanın keçirilməsi qaydaları, mərhələləri və şərtləri ilə şagirdləri tanış etmişdir...

"Sabahın alimləri" Respublika müsabiqəsinə start verilir.

Müsabiqə ..... tarixlərində İntel İSEF – Beynəlxalq Elm və Mühəndislik Sərgisi çərçivəsində keçirilir.

Müsabiqənin kateqoriyaları:

Riyaziyyat,

Fizika, Astronomiya,

Kimya,

Biologiya (zoologiya, botanika, mikrobiologiya, genetika və molekulyar biologiya, biokimya)

Tibb və sağlamlıq

Ekologiya, ətraf mühitin idarə olunması

Mühəndislik (energetika, mexanika, nəqliyyat, biomühəndislik və s.)

Kompüter elmləri.

(ardı növbəti səhifədə)

Bilik Günü öz təntənəsi ilə yadda qaldı...

Məktəbimizdə 18 Sentyabr Musiqi Günü ilə bağlı tədbir keçirildi.

Beynəlxalq Sülh Günü – bu barədə nə bilirik.

Milli geyimlər haqqında tərtib etdiyiniz məqaləni və ya mətni burada yerləşdirə bilərsiniz.



Burada "Cəmi 40 söz" mətni əsasında yazılmış ən yaxşı hekayə yerləşdirilə bilər.

Şən və Hazırcavablar Klubu ilə növbəti görüş

Məktəb kitabxanaları və şagird

Məktəbimizdə ..... tarixində 6-10-cu sinif şagirdləri arasında "Hansı ədəbiyyata daha çox müraciət edirsiniz?" mövzusunda sorğu keçirilmiş, alınan nəticələr aşağıdakı kimi olmuşdur.

Sorğunun nəticələrinə görə şagirdlər daha çox bədii ədəbiyyat oxumağa üstünlük verirlər.

Yaxın günlərdə məktəbimizdə "Xəzərimizi qoruyaq" adlı konfrans keçiriləcəkdir.

Konfransın keçirilmə tarixi və şərtləri haqqında əlavə məlumat veriləcəkdir.



Xalqımızın söz xəzinəsi

- Dost dar gündə tanınar.
- Tək əldən səs çıxmaz.
- Hər şeyin təzəsi, dostun köhnəsi.
- Yoldaşını nişan ver, özünü tanıt.

LÜĞƏT

A	*Ahəng*	səslər, rənglər və s. arasında uyğunluq: nəğmə, mahnı
	Aksent	vurğu, yad dilə və nitqə məxsus fərqli səs tələffüzü
	Alqış	birini təbrik üçün və ya bir şeyi bəyənmə ifadəsi olaraq əl çalma
	Aludə	tutulmuş, mübtəla; vurulmuş, məftun olmuş
	Antropologiya	insanın və insan irqinin mənsub fiziki təşəkkülü və təkamülü haqqında elmdir
	Antropoloji	antropologiyaya aid olan
	Arxeoloji	arxeologiyaya aid olan
	Aşqar	müəyyən məqsədlə bir şeyə əlavə edilən, qatılan başqa maddə
	Aydın	işıqlı, aylı; nurlu; açıq, təmiz
B	*Bacarıq*	bilik, təcrübə, vərdiş nəticəsində əldə edilmiş işgörmə qabiliyyəti, təcrübə
	Barelyef	yastı səth üzərində alçaq qabarıqlı təsvir
	Bədii-estetik	zövqə, incəsənət tələblərinə cavab verən
	Bəşəriyyət	insanlıq, insanlar
	Büdcə	dövlətin və onun idarə və müəssisələrinin illik gəlir və çıxar cədvəli
	Bürc	qədim şəhər hasarının üzərində müşahidə və müdafiə qülləsi
C	*Car çəkmək*	yüksək səslə camaata hər şeyi xəbər vermək, elan etmək
	Cəngi	qəhrəmanlıq və cəngavərlik ruhunda hava

	Cızma-qara	aydın oxunmayan, səliqəsiz, qarışıq yazı
Ç	*Çağ*	vaxt, zaman
	Çertyoj	bir şeyin müəyyən üsullarla səth üzərində çəkilmiş şərti qrafik təsviri; cizgi
	Çəllək	içində maye şeylər saxlamaq, daşımaq və s. məqsədlər üçün işlədilən yastıdibli, ortası enli, ətrafına çənbər çəkilmiş taxtadan qayrılmış iri qab; taxta vedrə
D	*Dərrakə*	ağıl, düşüncə, şüur, anlaq
	Dəryaça	süni dəniz, kiçik dəniz
	Diqqət	fikrin, yaxud görmə və eşitmə qüvvəsinin bir obyektə tərəf yönəlməsi və onun ətrafında cəmlənməsi
	Dilçi	dilçilik alimi, dilşünas
E	*Effekt*	təsir, nəticə
	Effektivlik	təsir bağışlama qabiliyyəti, təsirlilik
	Ekspedisiya	yük və s. şeyləri bir yerdən başqa yerlərə yollamaq üçün müəssisə və ya onun bir şöbəsi; göndərici müəssisə; müəyyən məqsəd üçün qrup halında edilən səyahət; səyahət və ya yürüş iştirakçılarının heyəti
	Ekspertiza	düzgün qərara gəlmək üçün hər hansı bir məsələnin mütəxəssislər tərəfindən öyrənilməsi, yoxlanması
	Emosional	emosiya ifadə edən, emosiya ilə dolu olan, həyəcanlı
	Epiqrafik	epiqrafikaya aid olan, epiqrafika xarakterində olan
	Estetik	gözəllik, bədiilik pərəstişkarı
Ə	*Əbədi*	daimi, həmişəlik
	Əcdad	ata-babalar, ulu babalar
	Ənənə	tarixən meydana gələrək nəsildən-nəslə keçən adətlər
	Əngəl	maneə, çətinlik

F	*Fağır*	aciz, yazıq, məzlum
	Fayda	mənfəət, xeyir
	Folklor	şifahi xalq yaradıcılığı
	Folklorşünas	folklor mütəxəssisi
	Fonoqraf	səsi yazmaq və səsləndirmək üçün cihaz; səsyazan
	Funksional	bir şeyin quruluşundan deyil, fəaliyyətindən asılı olan
G	*Geodeziya*	yerin ölçülərini, formasını, qravitasiya sahəsinin və səthindəki ölçüləri öyrənən elm sahəsi
	Geoloji	geologiyaya aid olan, geologiya ilə əlaqədar olan
	Girdə	dairəvi, dairə şəkilli
	Gübrə	bitkiləri daha yaxşı qidalandırmaq və məhsuldarlığı artırmaq üçün torpağa qatılan üzvi və qeyri-üzvi maddə
H	*Heroqlif*	ideoqrafik yazı sistemində heca və ya səs bildirən fiqurlu işarə
	Həmyaşıd	bir başqası ilə bir yaşda olan, həmyaş
	Hiddət	qəzəb, acıq, qeyz, hirs, sərtlik
	Hidrogeologiya	geologiyanın və hidrologiyanın, yeraltı suların mənşəyini, hərəkətini və fiziki-kimyəvi xassələrini öyrənən sahəsi
	Hüquqi	hüquqa əsaslanan, hüquq normalarına uyğun olan
X	*Xadim*	1. xidmət edən; 2. hər hansı ictimai fəaliyyət sahəsində özünü göstərmək, xidmətləri olan şəxs
	Xassə	bir adama və ya nəyəsə məxsus olan hal, başqalarında olmayan keyfiyyət
	Xilafət	ərəb xəlifələrinin hakimiyyət dövrü; ərəb istilaları nəticəsində yaranmış, başında xəlifənin durduğu feodal dövləti

İ	*İctimai*	insan cəmiyyətinə aid olan
	İctimaiyyətçi	ictimai işlərdə, ictimai həyatda fəal iştirak edən adam
	İdeoqrafiya	ideoqramlar vasitəsilə yazı
	İxtisar	qısaltma, azaltma
	İxtisas	elmin, texnikanın, sənətin, yaxud incəsənətin ayrıca sahəsi
	İmperator	padşahın, hökmdarın ən yüksək titulu və bu titulu daşıyan şəxs
	İmprovizasiya	hazırlaşmadan şeir, ya nitq söyləmə, mahnı oxuma və ya musiqi çalma
	İnfeksiya	yoluxucu xəstəlik törədən mikroorqanizmin orqanizmə girməsi, yoluxma; mikrob
	İnformasiya	məlumatlar məcmusu
	İntensiv	gərgin, güclü, qızğın; daha böyük səmərə verən
	İntihar	özünü öldürmə
	İrq	mənşə və bəzi irsi xüsusiyyətlərinə görə bir olan tarixən təşəkkül tapmış insanlar qrupu
	İrs	sahibinin ölümündən sonra başqasının (övladın və ya yaxın qohumların) ixtiyarına keçən mal, mülk və s. miras; əvvəlki əsrlərdən, böyük şəxsiyyətlərdən qalmış mədəniyyət əsəri
	İstila	bir ölkəni zorla alma, ələ keçirmə
	İstismar	hər hansı bir əməli məqsəd üçün sistematik istifadə etmə, faydalanma; istehsal vasitələri üzərində xüsusi mülkiyyət sayəsində insanların bir qisminin başqalarının əmək məhsulunu mənimsəməsi
	İşgüzar	bacarıqlı, işbacaran
	İşğal	hər hansı bir dövlətin hərbi qüvvələri tərəfindən başqa dövlətin torpağının tutulması
	İttiham	birinə qarşı irəli sürülən günah, təqsir, suç

J	*Jurnalist*	jurnalistika ilə məşğul olan peşəkar ədəbi işçi
	Jurnalistika	jurnallarda, qəzetlərdə ədəbi-publisistik fəaliyyət, dövri nəşrlərin məcmusu
K	*Kara gəlmək*	işə yaramaq, xeyir gətirmək
	Keyfiyyət	bir şey və ya şəxsi başqasından fərqləndirən xüsusiyyət, əlamət; bir şeyin dəyərlilik, yararlılıq, ləyaqət dərəcəsi
	Kəhriz	yeraltı su yolu, su kəməri
	Kollec	bir sıra ölkələrdə orta və ya ali məktəb
	Konfrans	müəyyən məsələləri müzakirə və həll etmək üçün partiya, ictimai və s. təşkilat nümayəndələrinin, habelə hökumət nümayəndələrinin müşavirəsi, yığıncağı
	Konqres	geniş miqyaslı beynəlxalq qurultay, müşavirə, yığıncaq
	Konservasiya	nəyinsə uzun müddət saxlanması üçün xüsusi emal; uzun müddət formasını itirmədən saxlamaq
	Körpə	südəmər, çağa
Q	*Qala*	uzun müddət içində qapanıb düşmənə müqavimət göstərmək üçün möhkəm müdafiə tikililəri və vasitələri olan istehkam
	Qalib	üstün gələn, qələbə çalan
	Qeyri-adi	adi olmayan, görünməmiş
	Qığılcım	yanar, yaxud qızarmış bir şeydən sıçrayan od zərrələri
	Qrafem	yazılı nitqin ən kiçik vahidi; hərf
	Qravüra	hər hansı bir bərk materialın (metal, ağac, şüşə və s.) hamar üzündə qazılmış və ya aşındırılmış şəkil, naxış
	Qurum	qurmaq işi, quruluş, təşkilat
	Quyu	su, neft, qaz çıxarmaq və s. məqsədlər üçün silindr şəklində qazılmış dərin və ya dayaz çuxur
	Qüllə	sütunşəkilli uca tikili, bina
	Qüsur	eyib, nöqsan, çatışmayan cəhət

L	*Labirint*	dolanbaclıq və dolaşıqlıq, qarışıqlıq; çıxılması çətin, dolanbac və dolaşıq yolları olan böyük bina
	Layiq	münasib, yaraşan
	Lətafət	lətiflik, yumşaqlıq, xoşluq; gözəllik, məlahət, qəşənglik
M	*Maliyyə*	dövlətə, yaxud ayrı-ayrı şəxslərə məxsus pul vəsaiti; pul işlərinin təşkili, pul dövriyyəsi
	Media	dövri mətbuat
	Memarlıq	binaları layihələndirmə, tikmə və bədii cəhətdən tərtib etmə sənəti
	Məhdud	əhatə olunmuş, dövrələnmiş, hüdudlanmış
	Məkan	bir adamın sakin olduğu yer, oturulan yer, yurd
	Məlumat	bir şey haqqında bilik
	Mənimsəmək	bir işi görüb-götürmək, öyrənmək, özünə aşılamaq; qanunsuz olaraq başqasının malına, puluna sahiblənmək
	Mənsubiyyət	mənsub olma, aid olma
	Mərhələ	bir şeyin inkişafında keyfiyyətcə öz xüsusiyyətləri olan dövr
	Minarə	azan vermək üçün məscidlərin yanında və ya üstündə ucalan qüllə
	Missioner	xristian olmayan əhali arasında xristianlığı yaymaq üçün xristian kilsəsi tərəfindən göndərilən şəxs
	Modern	ən yeni, müasir
	Möhtəşəm	öz əzəməti, böyüklüyü, həşəməti ilə insanı valeh edən; əzəmətli
	Müasir	indiki dövrdə olan; başqası ilə bir əsrdə, bir dövrdə yaşamış olan və yaşayan
	Mübadilə	bir şey verib əvəzində başqa bir şey almaq; dəyişmə
	Mübahisə	bir işi, məsələni və s. müzakirə etdikdə öz fikrini qoruyan, sübut etməyə çalışanlar arasında başlanan bəhs, deyişmə
	Mücərrəd	konkret varlıqla əlaqəsi olmayan, ancaq xəyalda təsəvvür edilə bilən

M	*Müdaxilə*	başqasının işinə, münasibətinə qarışma
	Müddəa	bir şeyə əsaslanaraq irəli sürülən fikir, iddia, tezis
	Müdrik	dərin dərrakəli, çox ağıllı; aqil, dünyagörmüş
	Mühasib	buxalter, hesabdar
	Mühazirə	ali məktəbdə hər hansı bir fənnin professor və ya müəllim tərəfindən şifahi şərhi
	Müxbir	yerlərdən xəbər yığıb göndərən qəzet, jurnal, radio, televiziya və başqa məlumat orqan işçisi
	Müqayisə	oxşar və fərqli cəhətlərini, yaxud birinin o birisindən üstünlüyünü müəyyənləşdirmək üçün qarşılaşdırma, tutuşdurma
	Müşahidə	diqqətlə baxan, nəzər yetirmə, seyr etmə
	Müşahidəçi	müşahidə edən, müşahidə aparan, göz qoyan adam
	Mütəfəkkir	dərin fəlsəfi fikir sahibi olan adam
	Mütəxəssis	elm və ya texnikanın müəyyən sahəsində xüsusi biliyi olan, müəyyən ixtisas almış adam
N	*Neon*	havanın tərkibinə daxil olan rəngsiz və iysiz qaz
	Nəhəng	son dərəcə böyük, iri, çox yekə, azman
	Nəqş	naxış
O	*Obelisk*	yuxarıya doğru getdikcə nazikləşən, yonulmuş daş sütundan ibarət abidə
	Obraz	obyektin insan şüurunda obyektiv inikas forması; surət
	Opponent	mübahisədə, müzakirədə disputda və s.-də birinin fikrinə, dəlilinə, mülahizəsinə etiraz, yaxud onları təkzib ilə çıxış edən şəxs
	Ovdan	suyu yığıb saxlamaq üçün üstü tikili yeraltı hovuz

P	*Panteon*	Qədim yunanlarda və romalılarda: bütün allahların şərəfinə tikilmiş məbəd
	Partitura	çoxsəsli musiqi əsərinin bütün partiyalarının məcmusu
	Pedaqogika	tərbiyə, təlim və tədrisin forma və metodlarını öyrənən elm
	Pedaqoji	pedaqoqla əlaqədar olan
	Pedaqoq	sənəti müəllimlik və tərbiyəçilikdən ibarət olan adam
	Perqament	kağız icad olunana qədər üstündə yazı yazmaq üçün istifadə olunan xüsusi surətdə işlənmiş heyvan dərisi
	Petroqlif	daş, qaya üzərindəki rəsmlər
	Pərakəndəlik	bir yerdə və müntəzəm halda olmayan; nizamsız, qarma-qarışıq, dağınıq
	Piktroqrafiya	qədim yazı növü, şəkli yazı
	Platforma	möhkəm materialla örtülü hündür, düz meydança, səki
	Prizma	iki üzü bərabər və uyğun tərəfləri paralel çoxbucaqlı; baxış bucağı
	Psixiatr	ruhi xəstəliklər həkimi
	Psixoloq	psixologiya mütəxəssisi; insan psixologiyasının incəliklərini bilən
R	*Rapsodiya*	Qədim yunan səyyar xanəndələrinin (rapsodların) simli musiqi alətinin müşayiəti ilə ifa etdikləri epik nəğmələr
	Regenerasiya	itirilmiş və ya zədələnmiş hissələrin bərpa edilməsi
	Rekonstruksiya	abidələrin bərpası
	Rəyçi	rəy yazan adam, rəy müəllif
	Ritm	bir şeyin bu və ya başqa şəkildə növbələnməsi; müntəzəmlik

S	*Sac*	üzərində lavaş, yuxa, bozlamac, qutab və s. bişirmək üçün ortası qalxıq, dairəşəkilli çuqun və ya dəmir lövhə
	Senat	Qədim Romada yüksək hakimiyyət orqanı
	Səlis	rəvan, sərbəst, axıcı, hər cəhətdən mükəmməl
	Səmərə	fayda, mənfəət, xeyir
	Sərbəst	başqasından asılı olmayan, müstəqil
	Sərvət	var, dövlət
	Səyyar	hərəkət edən, gəzən, dolsan; bir yerdə durmayan, yerini dəyişdirən, daim bir yerdə durmayıb istənilən yerə daşınan
	Sığmaq	yerləşmək, girə bilmək
	Simpozium	hər hansı bir xüsusi elmi məsələyə dair beynəlxalq müşavirələrin adı
	Sintez	birləşmə, ümumiləşmə, qovuşma
	Stasionar	daim, həmişə bir yerdə olan, yerini dəyişməyən; ambulatoriyada deyil, xəstəxanada müalicə edilən; sabit, hərəkətsiz
	Strategiya	geniş miqyasda hərbi əməliyyat, müharibə hazırlama və aparma sənəti
	Süni	təbii deyil, insan əli ilə düzəldilmiş, əslində olduğu kimi düzəldilmiş; saxta
Ş	*Şaquli*	şaqul kimi yuxarıdan aşağıya enən
	Şelf	materikin su altında 200 metrə qədər dərinlikdə olan davamı, hissəsi
	Şəbəkə	ağacdan, metaldan, daşdan, məftildən qayrılmış tor, hörgü, barmaqlıq; ornament
	Şifr	gizli yazı üçün şərti işarələr sistemi
	Şüur	dərrakə, anlaq, düşünmə, dərk etmə, anlama qabiliyyəti

T	*Talan*	əhalinin hər hansı milli və ya ictimai qrupuna qarşı quldurcasına çıxış; mal-mülkün qarət edilməsi
	Terror	öz siyasi və sinfi düşmənlərinə qarşı onları cismən məhv etməyə qədər zorakı tədbirlər siyasəti
	Tezis	doğruluğu sübut edilməli olan müddəa
	Tədqiq	bir şeyi və ya onun xüsusiyyətlərini öyrənmək, elmi cəhətdən araşdırmaq
	Tədricən	yavaş-yavaş, az-az
	Təfəkkür	insanın fikirləşmək, düşünmək, nəticə çıxarmaq bacarığı
	Təkid	bir şeyin üstündə durma; israr etmə, israrla tələb etmə; israr
	Tələffüz	bir hərfi və ya sözü, kəlməni söyləmə xüsusiyyəti, tərzi
	Tərtib	ayrı-ayrı hissələri seçib birləşdirərək tam bir şey əmələ gətirmə, yaratma
	Tərz	üsul, qayda
	Təsdiq	deyilən sözün, başqasının mülahizəsinin, yaxud bir sənədin, faktın və s. gerçək olduğunu iqrar etmə, təsdiqləmə
	Təsis	əsasını, binasını, təməlini qoyma; qurma, yaratma
	Təşəbbüs	bir işə başlama
	Təşrif gətirmək	öz gəlişi ilə bir şəxsi və ya yeri şərəfləndirmə; gəlmək, buyurmaq
	Tətbiq	həyata keçirmə, icra etmə
	Təyinat	kurs, məktəb və s. qurtarmış mütəxəssislərin müəyyən yerlərə işə təyin etmə, göndərmə
	Tövsiyə	necə hərəkət etmək, bir işi necə görmək haqqında təklif, məsləhət, tapşırıq

Ü	*Üfüq*	göyün yer və ya su səthi ilə bitişik kimi görünən xətti
	Ünsiyyət	qarşılıqlı münasibət, əlaqə, yaxınlıq, ülfət
	Üsul	hər hansı işdə tətbiq edilən sistem, yol, qayda, tərz, metod
	Vəhdət	birlik, bütövlük, bölünməzlik
	Vərdiş	təcrübə, təkrarlama və çox işləmək nəticəsində əldə edilən iş bacarığı
	Vəsiyyət	ölərkən bir şəxsin öz övladına, yaxud yaxınlarına verdiyi tapşırıq, son söz
	Vücud	olma, varlıq, mövcud olma, var olma
Y	*Yamac*	dağın, təpənin ən yüksək nöqtəsindən aşağıya mayili səthi
	Yayla	dağlıqda olan düzən yerlər
	Yaylaq	sərinliyinə görə yay istirahəti üçün əlverişli olan dağ yeri
	Yığcam	dağınıq olmayan; qısaca, müxtəsər, qısa toplu; kiçik, lakin səliqəli, hər şey öz yerində
	Yiyələnmək	zorla və qeyri-qanuni surətdə bir şeyə sahib olma
Z	*Zəbt*	silah gücü ilə zorla tutma, ələ keçirmə, hakimiyyət altına alma
	Zinət	bəzək, süs, yaraşıq
	Zona	hər hansı bir ümumi əlamətinə görə səciyyələnən müəyyən ərazi sahəsi; qurşaq, rayon

DƏRSLİKDƏ İXTİSARLA VERİLMİŞ ŞƏXS ADLARI

A.Səhhət	–	Abbas Səhhət
B.Vahabzadə	–	Bəxtiyar Vahabzadə
C.Cabbarlı	–	Cəfər Cabbarlı
C.Rumi	–	Cəlaləddin Rumi
Ə.Babayeva	–	Ələviyyə Babayeva
Ə.Cavad	–	Əhməd Cavad
Ə.Cəfərzadə	–	Əzizə Cəfərzadə
Ə.Hacızadə	–	Əlibala Hacızadə
Ə.Haqverdiyev	–	Əbdürrəhim bəy Haqverdiyev
Ə.Məmmədxanlı	–	Ənvər Məmmədxanlı
Ə.Nicat	–	Əlisa Nicat
Ə.Vəliyev	–	Əli Vəliyev
F.Eyvazlı	–	Fərman Eyvazlı
F.Manuil	–	Fil Manuil
H.Abbaszadə	–	Hüseyn Abbaszadə
X.R.Ulutürk	–	Xəlil Rza Ulutürk
İ.Əfəndiyev	–	İlyas Əfəndiyev
İ.Hüseynov	–	İsa Hüseynov
İ.Nəsimi	–	İmadəddin Nəsimi
İ.V.Höte	–	İohan Volfqanq Höte
İ.Şıxlı	–	İsmayıl Şıxlı
G.Hüseynoğlu	–	Gülhüseyn Hüseynoğlu
K.Uşinski	–	Konstantin Uşinski
Q.Kazımov	–	Qəzənfər Kazımov
L.Şefler	–	Leopold Şefler
L.Vinçi	–	Leonarda da Vinçi

M.Ə.Sabir	–	Mirzə Ələkbər Sabir
M.Hüseyn	–	Mehdi Hüseyn
M.İbrahimov	–	Mirzə İbrahimov
M.Qorki	–	Maksim Qorki
M.Şirvani	–	Mahmud Şirvani
N.Gəncəvi	–	Nizami Gəncəvi
N.Nərimanov	–	Nəriman Nərimanov
N.Tusi	–	Nəsrəddin Tusi
N.Vuyçiç	–	Nik Vuyçiç
S.Dağlı	–	Seyfəddin Dağlı
S.Ə.Şirvani	–	Seyid Əzim Şirvani
S.Qədirzadə	–	Salam Qədirzadə
S.Rəhman	–	Sabit Rəhman
S.Şirazi	–	Sədi Şirazi
S.Vurğun	–	Səməd Vurğun
Ş.Nəzirli	–	Şəmistan Nəzirli
T.Ş.Simurq	–	Tağı Şahbazi Simurq
U.Barter	–	Uilyam Barter
Ü.Hacıbəyli	–	Üzeyir Hacıbəyli
Y.V.Çəmənzəminli	–	Yusif Vəzir Çəmənzəminli

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. “Ailəm” jurnalı, Bakı, 2008–2009.
2. A.Qurbanov. Ümumi dilçilik, 2 cilddə, Bakı, “Elm”, 2011.
3. Atalar sözü. Bakı, “Yazıçı”, 2010.
4. “Ayna uşaq ensiklopediyası”, 2004.
5. “Azərbaycan” jurnalı, 2016-cı il, №5.
6. “Azərbaycan” jurnalı, 2009-cu il 31 oktyabr.
7. Azərbaycan nağılları. Bakı, “Şərq-Qərb”, 2005.
8. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə. Bakı, “Şərq-Qərb”, 2006.
9. Azərbaycan dilinin orfoqrafiya lüğəti. Bakı, “Şərq-Qərb”, 2013.
10. Azərbaycan dilinin omonimlər lüğəti. Bakı, “Şərq-Qərb”, 2007.
11. Azərbaycan dilinin sinonimlər lüğəti. Bakı, “Yazıçı”, 1990.
12. Azərbaycan dilinin antonimlər lüğəti. Bakı, “Şərq-Qərb”, 2007.
13. A.Nəbiyev. Azərbaycan folklorunun janrları. ADU, 1983.
14. Azərbaycan Respublikasının Milli Atlası. Bakı, 2014.
15. C.Cabbarlı. Əsərləri. Bakı, “Şərq-Qərb”, 2004.
16. C.Məmmədquluzadə. Əsərləri, “Şərq-Qərb”, 2004–2005.
17. Ə.Haqverdiyev. Əsərləri. Bakı, “Azərbaycan Dövlət Nəşriyyatı”, 1957.
18. “Ədəbi proses–2015”. AMEA, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəşri. Bakı, 2016.
19. Ə.Nicat. Qızılbaşlar. Bakı, “Yazıçı”, 1983.
20. “Füyuzat” jurnalı, Bakı, 2009–2010.
21. “Füyuzat” jurnalı, Bakı, 2014, №5.
22. X.R.Ulutürk. Taparam səni. Bakı, “Yazıçı”, 1980.
23. “İşıq” jurnalı, Bakı, 2013, №3.
24. Q.İlkin. Köhnə Bakını tanıyırsanmı. Bakı, “Şirvannəşr”, 2004.
25. Q.Kazımov. Müasir Azərbaycan dili. Bakı, “Elm və təhsil”, 2010.
26. M.Araz. Seçilmiş əsərləri. Bakı, 2010.

27. M.Ə.Sabir. Hophopnamə. Bakı, “Şərq-Qərb”, 2004.
28. M.İbrahimov. Böyük dayaq. Bakı, “Uşaq və Gənclər Ədəbiyyatı” nəşriyyatı, 1957.
29. M.Səməd. Adi və qeyri-adi Səttar. Bakı, “Şərq-Qərb”, 2015.
30. M.Səməd. Yaşıdlarımızın yaddaşı. Bakı, “Azərbaycan Milli Ensiklopediyası” Nəşriyyat-Poliqrafiya Birliyi, 2003.
31. Muxtar Cəfərov, Samir Ramizoğlu. Ağıla və qəlbə işıq saçan sözlər. Bakı, 2009.
32. N.Abdullayev, F.Xalıqov. Nitq mədəniyyəti. Bakı, “Müəllim” nəşriyyatı, 2006.
33. “Naşir” jurnalı. “Təhsil” nəşriyyatı, 2011.
34. N.Gəncəvi. Leyli və Məcnun. Bakı, “Yazıçı”, 1983.
35. N.Gəncəvi. Xəmsə. Bakı, “Gənclik”, 1981.
36. R.Əfəndi. Azərbaycan incəsənəti. Bakı, “Şərq-Qərb”, 2007.
37. Sadiq Zaman. Qızıl balıq. Bakı, “Nurlan”, 2005.
38. S.Dağlı. Bahar oğlu. Bakı, “Gənclik”, 1971.
39. S.Sadıxova. Orta əsr Azərbaycan geyimləri. Bakı, “Şərq-Qərb”, 2013.
40. S.Sadıxova. XIX əsr Azərbaycan geyimləri. Bakı, “Şərq-Qərb”, 2013.
41. S.Vurğun. Əsərləri. Bakı, Elm, 1986.
42. V.Əliyev. Gəmiqaya abidələri. Bakı, “Əbilov, Zeynalov və oğulları”, 2005.
43. http://www.cazibe.info/ugur-hekayeleri/balaca-agilli-bir-usaq-3565/
44. http://www.psixoloq.az/2017/04/30/nifr%c9%99ti-ur%c9%99yind%c9%99-n%c9%99-q%c9%99d%c9%99r-g%c9%99zdir%c9%99-bil%c9%99rs%c9%99n/
45. http://www.stories-for-children.ca/potatoes.php
46. Deutsch.punkt 3. Gymnasium. Sorach-, Lese- und Selbstlernbuch. 2007.

Buraxılış məlumatı

AZƏRBAYCAN DİLİ 10

Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün
Azərbaycan dili (tədris dili) fənni üzrə

DƏRSLİK

Tərtibçi heyət:

Müəlliflər: **Tofiq Hacıyev**
Samirə Bektaşi
Yeganə Hüseynova

Buraxılışa məsul **Sevil İsmayılova**
Baş redaktor **Ülkər Məmmədova**
Üz qabığının dizaynı **Nurlan Nəhmətov**
Dizayner və səhifələyici **Ələkbər Kərimov**
Redaktor **Nərgiz Cabbarlı**
Korrektor **Nübar Qarayeva**
Texniki redaktor **Fəridə Səmədova**
Texniki direktor **Xəqani Fərzalıyev**
Nəşriyyat direktoru **Eldar Əliyev**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi:
2017-082

© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2018

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi. Fiziki çap vərəqi 13. Formatı 70x100 $^{1}/_{16}$.
Səhifə sayı 208. Ofset kağızı. Jurnal qarnituru. Ofset çapı.
Tiraj 15345. Pulsuz. Bakı – 2018.

"Şərq-Qərb" ASC
AZ1123, Bakı, Aşıq Ələsgər küç., 17.

Pulsuz

Əziz məktəbli !

Bu dərslik sənə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir.

O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sənə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, sən də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsan ki, növbəti dərs ilində digər məktəbli yoldaşın ondan sənin kimi rahat istifadə edə bilsin.

Sənə təhsildə uğurlar arzulayırıq!